AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

S.HÜSEYNOĞLU

# ƏDƏBİYYATIN METODİKASI

## LABORATORİYA MƏŞĞƏLƏLƏRİ

(dərs vəsaiti)

Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Tədris-Metodik Şurasının qərarına əsasən
çap olunur

Bakı – 2020

**Elmi redaktor:** **Nazilə Abdullazadə**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** **Bilal Həsənli**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Sevinc Rəsulova**
pedaqogika üzrə fəlsəfə doktoru

**S. Hüseynoğlu.** Ədəbiyyatın metodikası: laboratoriya məşğələləri. Dərs vəsaiti. Bakı – 2020, 176 səh.

Proqram əsasında yazılmış dərs vəsaitində məqsəd tələbələrdə ədəbiyyatın tədrisi metodikasının mühüm mövzuları üzrə praktik bacarıqların formalaşdırılmasıdır. Tələbələr ilk növbədə təhsil proqramının – ədəbiyyat fənn kurikulumunun dərsin təşkili üzrə tələblərinin reallaşdırılması ilə bağlı işləri icra edəcək, bu sahədə ilkin bacarıqlara yiyələnəcəklər. Sonrakı məşğələlərdə məktəbdaxili qiymətləndirmənin tətbiqi, müxtəlif ədəbi növdə olan əsərlərin tədrisi üzrə fərqli tapşırıqların yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Vəsaitdə təklif təklif edilmiş iş növləri rəngarəng olub, bədii nümunələrin bütün əsas komponentlərini əhatə edir.
Kitabdan filologiya fakültəsinin tələbələri, magistrlər, ədəbiyyatın tədrisi ilə maraqlanan hər kəs istifadə edə bilər.

# Başlıqlar

*Redaktordan*.......................................................................................4

Ədəbiyyatın tədrisi metodikası üzrə laboratoriya məşğələlərinin məzmunu və təşkili ........................................................................8

Dərsin planlaşdırılması üzrə işin təşkili (məzmun standartlarının seçilməsi, təlim nəticələri və qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi).....13

Fəal/interaktiv dərsin təşkili üzrə iş ..................................................21

Diaqnostik və summativ qiymətləndirmənin təşkili üzrə iş .......................38

Formativ qiymətləndirmənin təşkili üzrə iş ...........................................47

Lirik şeirlərin təhlili üzrə işin təşkili ....................................................53

Epik əsərlərin məzmununun öyrənilməsi və təhlili üzrə işin təşkili ...........67

Dramatik əsərlərin məzmununun öyrənilməsi və təhlili üzrə işin təşkili . ..82

Sınaq dərsinin təşkili və müzakirəsi ...................................................114

*Əlavələr*

Lirik şeirlərin tədrisinə aid dərs nümunələri ......................................118

Epik əsərlərin oyrədilməsi üzrə dərs nümunələri ..................................131

Dramatik əsərlərin tədrisi üzrə dərs nümunələri ..................................142

Kiçik summativ qiymətləndirməyə aid nümunə ....................................153

Ədəbiyyat fənn kurikulumu (məzmun standartları).................................155

*Redaktordan*

Respublikamızda həyata keşirilən təhsil islahatı bu gün müəllim hazırlığı işinin yaxşılaşdırılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdur. Bu baxımdan pedaqoji təhsil verən universitet və ali məktəblərin işinin yeni tələblər əsasında təşkil edilməsi, xüsusilə vacibdir. Məsələnin əhəmiyyəti və həlli yolları Respublika Prezidentinin Sərəncamlarında, rəsmi dövlət sənədlərində öz geniş əksini tapmışdır. Ali təhsil sistemində islahatların elmi və hüquqi əsaslar üzrə aparılmasının zəruriliyi ("Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 31 yanvar 2008-ci il tarixli Sərəncamı), bu günün tələbləri ilə ayaqlaşa bilən, yaradıcı, təşəbbüskar, pedaqoji-psixoloji biliklərə dərindən yiyələnmiş, ixtisasını mükəmməl bilən müəllim hazırlığının şəxsiyyətə yönəlmiş təhsil əsasında formalaşa biləcəyi ("Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası", 2007), ixtisası üzrə mənimsədiyi bilik və bacarıqların müxtəlif sahələrdə tətbiqində çətinlik çəkməyən, informasiya-kommunikasiya texnologiyalarından yararlanan kadr hazırlığı ("Bakalavriat təhsilinin məzmunu və təşkili", 2010) barədə deyilənlər və müəyyənləşdirilmiş istiqamətlər faydalı işlərin həyata keçirilməsinə səbəb olmuşdur. İlk növbədə təhsilin məzmununda və metodlarında yeniləşməyə meyil güclənmiş, bu sahədə sanballı araşdırmalar aparılmış, uğurlu təcrübə qazanılmışdır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (2013) sənədi ali məktəblərdə tədris-tərbiyə işinin məzmununa tənqidi yanaşmağa, effektli dəyişikliklər aparmağı bir vəzifə kimi qarşıya qoyur. Sənəddə təhsil illərində praktik bilik və bacarıqların yaradılmasına, inkişaf etdirilməsinə xüsusi qayğı göstərilməsinin zəruriliyi vurğulanmış, buna nail olmağın yolları müəyyənləşdirilmişdir: "Son 30–40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktik bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Səriştə əldə olunmuş bilik

və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir”.

Bu deyilənlər ilk növbədə ixtisas fənləri üçün əsas götürülməlidir. Filologiya fakültəsinin ixtisas fənləri sırasında əhəmiyyətli yer tutan ədəbiyyatın tədrisi metodikası peşə hazırlığı işinə faydalı töhfələri ilə seçilir. Ədəbiyyatın tədrisi metodikası kursunun özünəməxsusluğu onun tədrisində mühazirə və seminar saatlarının bölgüsünə yenidən baxılması zərurətini yaratdı.

Bu fənn uzun illər praktikyönümlü olması ilə fərqlənmişdir. Belə ki onun tədrisi mühazirə, təcrübi məşğələ və laboratoriya məşğələlərində həyata keçirilmişdir. Lakin bir müddət əvvəl laboratoriya məşğələlərinə ayrılan saatlar heç bir əsas olmadan tədris planından çıxarılmışdır. Bunun mənfi təsiri pedaqoji təcrübə müddətində özünü qabarıq şəkildə göstərir. Tələbələr mənimsədikləri bilikləri bacarıqlara çevirməkdə çətinlik çəkir, dərs planının, tapşırıqların hazırlanmasında, təlim metodları, iş formalarının seçilməsində və tətbiqində acizlik göstərirlər. Müşahidələrdən bu da məlum olmuşdur ki, məktəbdaxili qiymətləndirmə, müxtəlif ədəbi növ və janrda olan əsərlərin tədrisi və s. bağlı nəzəri məlumatları olan tələbələr bütün bunlarla bağlı praktik iş qura bilmirlər. Laboratoriya məşğələlərinin bərpa olunması həm də tədrisin innovatv yanaşmalarla təşkil edilməsi tələbinin reallaşdırılması baxımından zəruri idi. Bu nəzərə alınaraq ADPU-nun Filologiya fakültəsinin tədris planına ədəbiyyatın tədrisi metodikası fənni üzrə mühazirə, seminar məşğələləri ilə yanaşı, laboratoriya məşğələləri də daxil edilmişdir.

Fənn üzrə laboratoriya məşğələlərinin təşkili başqa səbəblərə görə də vacibdir:

– ümumtəhsil məktəblərində yeni təhsil proqramının – fənn kurikulmunun tətbiqi şagirdlərdə tədqiqatçılıq bacarığının inkişaf etdirilməsini mühüm vəzifə kimi qarşıya qoymuşdur. Bu bacarıqların formalaşdırılması müəllimdən yüksək praktik səriştə tələb edir. Laboratoriya məşğələləri tələbələrin praktik bacarıqlara yiyələnmələrinə və mənimsədiklərini tətbiq etməyə imkan yaradan ən əlverişli məşğələ formasıdır. Deməli, tələbələrimizdə zəruri praktik səriştənin formalaşdırılması üçün imkan qazanmış olacağıq.

– nəzəri biliklərin mənimsənilməsinə daha çox önəm verilən seminar məşğələlərindən fərqli olaraq laboratoriya məşğələlərində

bədii mətnlərin, əlavə mənbələrin üzərində müstəqil işə, yeni təlim texnologiyalarının tətbiqinə və icra edilmiş işlərin nəticələrinin təhlilinə, müzakirəsinə geniş imkan yaranacaqdır;

– laboratoriya məşğələləri müxtəlif təlim metodlarının, iş formalarının qarşılıqlı əlaqədə və daha çevik tətbiqinə səbəb olacaq, bu, tələbələrdə yaradıcılığın, təşəbbüskarlığın inkişafına imkan yaradacaqdır və s.

Kafedranın dosenti S.Hüseynoğlunun qısa müddətdə laboratoriya məşğələlərinin tədrisi üçün hazırladığı dərs vəsaiti ehtiyac və tələblərin ödənillməsinə xidmət edir. Proqram əsasında yazılan vəsaitdə əsas məqsəd tələbələrdə mühüm mövzular üzrə zəruri bacarıqların formalaşdırılmasıdır. Tələbələr təhsil proqramından – ədəbiyyat fənn kurikulumundan istifadə üzrə zəruri bacarıqları mənimsəyəcəklər. Məktəbdaxili qiymətləndirmənin hər üç formasının (diaqnostik, summativ, formativ) təşkili üzrə işləyəcək, zəruri bacarıqlara yiyələnəcəklər. Müxtəlif ədəbi növdə olan əsərlərin tədrisi üzrə təklif edilmiş iş növləri maraqlı olub bədii nümunələrin bütün əsas komponentlərini əhatə edir.

Məlumdur ki, laboratoriya məşğələlərinin tədrisi müəyyən çətinliklərlə müşayiət olunur. Bu məşğələlər o vaxt səmərəli olur ki, tələbələr mühazirə və təcrübi məşğələlərdə oyrəndikləri nəzəri bilikləri tətbiq edirlər. Vaxt məhdudluğu bu məşğələlərin mühazirə və təcrübi məşğələlərlə paralel tədris edilməsinə, hətta bəzən onları qabaqlamasına səbəb olur. Müəllim laboratoriya işinin icra edilməsi üçün tələbələrə nəzəri məlumat verməyə, başqa sözlə, mühazirə və təcrübi məşğələlərdə deyilməli olanları çatdırmağa məcbur olur. Bu, vaxt itkisi ilə nəticələnir və praktik iş yarımçıq, səmərəsiz yerinə yetirilir. Vəsaitdə məntiqli yol seçilmişdir; kitabda məşğələlərdə yerinə yetirilməsi nəzərdə tutulan işlərin mahiyyətini başa düşməyə imkan yaradan "Məlumat üçün" başlıqlı nəzəri məlumat əlavə edilmişdir. Bu nəzəri məlumatlar yığcam olmalarına baxmayaraq, dolğun məzmunu, dəqiqliyi və aydınlığı ilə diqqəti dərhal cəlb edir, oxucunu mətləbə istiqamətləndirir.

Dərs vəsaiti başqa bir tərəfdən də maraq doğurur. Tələbələr əlavə ədəbiyyata ciddi ehtiyac duymayacaqlar. Vəsaitin sonunda

“Əlavələr” başlığı altında dərs nümunələri, kiçik summativ qiymətləndirməyə aid nümunə, ədəbiyyat fənn kurikulumu (məzmun standartları) verilmişdir. Məşğələlərdə həmin materiallara hansı hallarda müraciət etməyin lazım olduğu da xatırladılmışdır.

Vəsaitdə sonuncu bölmə sınaq dərsinin təşkili və müzakirəsi ilə bağlıdır. Bu, bütün məşğələlərdə mənimsənilmiş bilik və bacarıqların səviyyəsinin aşkara çıxarılması və qiymətləndirilməsi baxımından faydalıdır.

Kitabda sınaq dərsinin fəal dinlənilməsi və qeydlərin götürülməsi ilə əlaqədar tövsiyələr verilmişdir. Dərs dinlənilərkən diqqət yetirilməli olan məsələlər sadalanmışdır. Onların mənimsənilməsi tələbələrin sonrakı fəaliyyətləri üçün də gərəklidir. Unudulmamalıdır ki, bu gün ümumtəhsil məktəbləri üçün ədəbiyyat müəllimi hazırlığına müasir yanaşmalar, müasir tələblər mövcuddur. Ədəbiyyat müəllimi özündə bir neçə fənn müəlliminin keyfiyyətlərini birləşdirən bir simadır. O, vətən tarixini və coğrafiyasini gözəl bilməli, musiqi duyumu ilə seçilməli, ümumiyyətlə incəsənətin bütün növləri barədə aydın təsəvvür sahibi olmalıdır. Ədəbiyyat müəllimi ana dilinin incəliklərindən məharətlə istifadə edərək şagirdlərini xalqımıza, vətənimizə, onun maddi-mədəni sərvətlərinə məhəbbət ruhunda tərbiyə etməlidir.

Ədəbiyyat müəllimindən gözləntilərin öyrənilməsi baxımından dərs vəsaiti maraqlıdır. Çox yaxşı ki, müəllifin ədəbiyyatın tədrisi ilə bağlı kreativ fikirləri bu kitabda da əksini tapmışdır. Və onun ədəbiyyatın tədrisi metodikası kursunun tədrisində faydalı olacağına əminəm.

***Nazilə Abdullazadə***
*ADPU-nun Ədəbiyyatın tədrisi texnologiyaları kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent.*

## ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI ÜZRƏ LABORATORİYA MƏŞĞƏLƏLƏRİNİN MƏZMUNU VƏ TƏŞKİLİ

Pedaqoji universitet və institutlarda tədris olunan "Ədəbiyyatın tədrisi metodikası" fənni pedaqoji elmlərdən olub tələbələrin peşə hazırlığında mühüm rol oynayır. Təcrübə göstərir ki, müəllimlik peşəsinə yiyələnmək üçün özəl bilik və bacarıqların mənimsənilməsi vacibdir. Bu və ya digər elmi, məsələn, ədəbiyyatşünaslığın əsaslarını mənimsəmiş universitet məzununun yaxşı müəllim işləyə bilməsi ehtimalı çox azdır. Fənlə bağlı elmi-nəzəri biliklərin öyrənilməsi hələ işin yarısıdır. Müəllim kimi formalaşmağı qarşısına məqsəd qoyan hər kəs pedaqoji elmləri, tədris edəcəyi fənnin metodikasını mükəmməl öyrənməlidir. Unudulmamalıdır ki, müəllimlik peşəsinə yiyələnmək insanda bir sıra keyfiyyətlərin formaaşması ilə şərtlənir. *"Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)"* sənədində, digər rəsmi yazılarda *təhsilverənlərin* hansı keyfiyyətlərə malik olması barədə konkret tələblər müəyyənləşdirilmişdir. Adıçəkilən sənəddə bu tələblər aşağıdakı şəkildə ümumiləşdirilmişdir:

- ixtisası üzrə dövrün tələbatına uyğun elmi-nəzəri biliklər;
- uşaqlarla həssas ünsiyyətqurma və iş bacarığı;
- əxlaqi-mənəvi keyfiyyətlər, pedaqoji etika və mədəniyyət;
- əməkdaşlıq, tədqiqatçılıq, özünütəhsil və idarəçilik baçarığı;
- yaradıcılıq və sağlam rəqabət tələb edən layihələrdə, müsabiqə və innovativ proqramlarda iştirak etmək qabiliyyəti;
- nitq mədəniyyəti, öz fəaliyyətini təqdim etmək və qabaqcıl pedaqoji təcrübədən bəhrələnmək bacarığı;
- ədalətlilik, məsuliyyətlilik, cavabdehlik keyfiyyəti;
- işlədiyi məktəbdə və ictimaiyyətdə hörmət və nüfuz.

*"Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"* sənədində də bakalavr hazırlığına məxsus *bilik* və *anlama* səviyyəsi konkret olaraq göstərilmişdir: "Təhsil və fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, qaydalar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli təsəvvürə malikdir".

Pedaqoli elmlər sürətlə inkişaf edir. Bu, təbiidir, ictimai həyatda baş verən mühüm sosial-siyasi hadisələr təhsilə, onun təşkilinə əhəmiyyətli dərəcədə təsir edir. Elmi-texniki tərəqqinin daim inkişafda olduğunu da unutmaq olmaz; bu nailiyyətlər təlim prosesinə yol tapmalı, onun məzmununda, formasında zənginləşməni təmin etməlidir.

Təsadüfi deyildir ki, ölkəmizdə reallaşdırılan təhsil islahatı məktəbdə həyata keçirilən işlərin köklü şəkildə yeniləşdirilməsi tələbini irəli sürmüşdür. Bu ilk növbədə təlimin məzmun və metodlarında yeniliklərin tətbiqini zəruri edir. Yeni təlim texnologiyalarının öyrənilməsi, təlim prosesində yoxlanılması, eksperimentlərin aparılması indi diqqət mərkəzindədir. Bütün bunların uğurla reallaşdırılması pedaqoji elmlərin üzərinə mühüm vəzifələr qoyur. Məhz pedaqoji elmlər, xüsusən metodikalar yenilikləri mənimsəməli, araşdırmalı, məktəbə, müəllimə praktik kömək göstərməlidir. Yeniliklər isə günbəgün artır. Yeni təlim texnologiyalarının mükəmməl öyrənilməsi, indiyə qədər əldə etdiklərimizlə uzlaşdırılması, sınaqdan keçirilməsi və nəhayət, metodik tövsiyə, göstəriş, vəsait şəklində istifadəyə verilməsi metodika elminin mühüm vəzifələrindəndir.

Ədəbiyyatın tədrisi metodikası fənni tələbələri – gələcəyin müəllimlərini yeni təlimi yanaşma ilə, yeni pedaqoji texnologiyalarla bağlı biliklərlə silahlandırmalı, onlarda zəruri praktik bacarıqlar formalaşdırmalıdır. Etiraf edilməlidir ki, bu fənnin tədrisində nəzəri biliklərin mənimsənilməsi uzun illər üstün mövqedə olmuşdur. Təəssüf ki, təlimin bu şəkildə təşkili yalnız mühazirələrdə deyil, təcrübi məşğələlərdə də özünü göstərmişdir. Bəzi səriştəsiz “mütəxəssislər” yenilikləri sınaqdan çıxarmamış, eksperimentlə yoxlamamış, kor-koranə, görüntü xatirinə “tətbiq etməklə”, tərcümə materiallarını mühasibat sənədi səviyyəsində dəyərləndirib, yaradıcılıq göstərmədən, çox hallarda təhrif olunmuş şəkildə tələbələrə çatdırmaqla təlimin keyfiyyətinə əhəmiyyətli dərəcədə zərər vurmuşlar. Təsadüfi deyildir ki, belə “mütəxəssislərin” yetirmələri olan tələbələr pedaqoji təcrübədə praktik işlə üz-üzə qalarkən aciz vəziyyətə düşür, qrup rəhbərləri onlara auditoriyada öyrənməli olduqlarını mənimsətməyə xeyli vaxt və zəhmət sərf etməyə məcbur olurlar.

Təcrübədə müşahidə edilən belə çatışmazlıqlar aşkara çıxarıldığından “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət

Strategiyası" (2013) sənədində diqqət praktik bilik və bacarıqların mənimsədilməsinin, eləcə də zəruri səriştənin formalaşdırılmasının vacibliyinə cəlb edilmişdir: "Son 30–40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Səriştə əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir."

Müəllimin peşə hazırlığı işinin yeni əsaslar üzrə təşkili, bunun əhəmiyyəti, zəruriliyi və yolları rəsmi dövlət sənədlərində geniş əksini tapmışdır. Bu, bütövlükdə ali məktəblərdə aparılan islahatın tərkib hissəsi kimi qəbul edilir.

Ədəbiyyatın tədrisi metodikası kursu üzrə laboratoriya məşğələlərinin təşkili bu zərurətdən irəli gəlmiş və vaxtında verilmiş qərar kimi dəyərləndirilməlidir. Tələbələrin mühazirələrdə, təcrübi məşğələlərdə mənimsədikləri nəzəri bilikləri daha geniş şəkildə tətbiq etmək imkanını məhz laboratoriya məşğələlərində qazanırlar. Bu məşğələlər tələbələrin tədqiqata cəlb edilməsi, əməkdaşlıq şəraitində çalışmaları baxımından da faydalıdır. Laboratoriya məşğələlərində rəngarəng tapşırıqların tətbiqinə, müxtəlif iş növlərindən və formalarından istifadəyə geniş imkan yaranır. Bu məşğələlərdə tələbələr müxtəlif ədəbi növdən olan əsərlərin üzərində işləməli olurlar. Bu, müxtəlif fənlərdən (ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və s.) qazanılmış biliklərin, həyati təcrübədən mənimsənilənlərin tətbiqinə geniş imkan yaradır. Beləliklə, laboratoriya məşğələləri bütövlükdə tələbələrin peşə hazırlığı sistemində əhəmiyyətli rol oynayır.

Laboratoriya məşğələlərində fəal/interktiv təlimin metod və iş formalarından geniş istifadəyə imkan yaranr. Müəllim tələbələrdə müstəqil düşüncənin və fikri fəallığın inkişafına daha çox imkan verən metod və iş növlərindən istifadəyə diqqət yetirməlidir. Diskussiya, debat, beyin həmləsi, problemin həlli, müsahibə və s. labotatoriya məşğələlərində müraciət olunan mühüm metodlardandır.

Unutmaq olmaz ki, ən yaxşı dərs müxtəlif texnologiyaların əlaqəli tətbiq olunduğu dərsdir. Heç bir texnologiyanı fetişləşdirmək olmaz. Pedaqoji elmlər bu cür mövqeyi yüz illər boyu qətiyyətlə

pisləyib. Ənənəvi təlimi yanaşmaya məxsus metodlardan, fəal/interaktiv təlimin metodlarından, TTİMY-yə (Tənqdi Təfəkkürün İnkişafında Mütaliə və Yazı) məxsus iş növlərindən, İKT, keys-metod və s. texnologiyalardan istifadə, dərs prosesində onların əlaqələndirilməsi vacibdir.

Laboratoriya məşğələlərində tapşırıqlar *fərdi iş, cütlük şəklində iş, bütün siniflə (auditoriya ilə) birgə iş* formalarının tətbiqi ilə keçilir. Bəzi tələbələrin hazırladıqları cavablar onların müəyyən məsələlər barədə bilik və bacarıqlarının birtərəfli olduğunu aşkara çıxarmağa imkan verir. Deməli, belə tələbələrə *fərdi* tapşırıqların verilməsi məqsədəuyğundur. Yaxud kiçik qrupun icra etdiyi laboratoriya işinin nəticələri bütün tələbələrin, yaxud əksəriyyətinin bilik və bacarığında səciyyəvi qüsurların olduğunu aşkara çıxara bilər. Belə məqamlarda müəllim mühazirə və təcrübi məşğələlərdə qazanılmış bilikləri yada salmaq üçün *müsahibə* aparmalı olur. O, yeni izahlar verir, əlavə tapşırıqlar icra etdirir, mövcud nəzəri ədəbiyyata tələbələrin müraciət etmələrinə şərait yaradır və s.

Laboratoriya işinin yerinə yetirilməsi zamanı müəllimin fəaliyyəti xüsusi forma alır. Məsələn, fərdi işləyən tələbələrin təlimi fəaliyyətini məşğələ boyu müşahidə edən müəllim cavabların səviyyəsi barədə təsəvvür qazanmış olur. Özü üçün qeydlər götürən müəllim işin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra təqdimatları dinləyərkən səciyyəvi qüsurların baş verməsinin səbəblərini izah edir, ayrı-ayrı tələbələrin səhvlərini göstərir, zəruri tövsiyələr verir.

Tələbələri kiçik qrularda işlədən müəllim məlumat mübadiləsinin, müzakirənin və digər mərhələlərin səmərəli keçməsi üçün əvvəlcədən hazırladığı istiqamətləndirici suallardan istifadə edir və s.

Laboratoriya işlərinin nəticələri müzakirə edilərkən hər bir tələbəyə fikrini sərbəst ifadə etmək imkanı yaradılır, prosesin diskussiya səciyyəli olmasına səy göstərilir.

Tədris planına əsasən ədəbiyyatın tədrisi metodikasından laboratoriya məşğələlərinə 15 saat ayrılmışdır. Deməli, bu saat 8 məşğələni əhatə edir və bu məşğələlərin hər birində tələbələrin müstəqil işləmələri üçün tapşırıqların verilməsi (laboratoriya işinin icra edilməsi) lazım gəlir.

Laboratoriya məşğələləri aşağıdakı mövzuları əhatə edir:

1. Dərsin planlaşdırılması üzrə işin təşkili (məzmun standartlarının seçilməsi, təlim nəticələri və qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi).
2. Fəal/interaktiv dərsin təşkili üzrə iş.
3. Diaqnostik və summativ qiymətləndirmənin təşkili üzrə iş
4. Formativ qiymətləndirmənin təşkili üzrə iş.
5. Lirik şeirlərin məzmununun öyrənilməsi və təhlili üzrə işin təşkili.
6. Epik əsərlərin məzmununun öyrənilməsi və təhlili üzrə işin təşkili.
7. Dramatik əsərlərin məzmununun öyrənilməsi və təhlili üzrə işin təşkili.
8. Sınaq dərsinin təşkili və müzakirəsi.

Göründüyü kimi, mövzular məzmunca fərqlidir. Deməli, onların tədrisi də fərqli təlim metodları, iş növləri və formalarının tətbiqi ilə həyata keçiriləcəkdir.

Laboratoriya məşğələlərini aparan müəllim vəsaitdəki "Məlumat üçün" başlıqlı mətnin mükəmməl qavranılmasına nail olmalıdır. Bu, tapşırıqların səmərəli yerinə yetirilməsinə əhəmiyyətli təsir edəcəkdir. Bəzi məşğələlər üçün yazılmış bu mətnin həcmi nisbətən böyükdür. Zərurət yaranarsa, onların oxunması məşğələyədək həyata keçirilməlidir.

Vəsaitin sonunda "Əlavələr" başlığı altında verilmiş proqramı – ədəbiyyat fənn kurikulumunu, xüsusən məzmun standartlarını tələbələrin ətraflı öyrənmələri vacibdir. Tələbələr əsərin məzmununun öyrənilməsində, təhlilində, şifahi və yazılı nitqin inkişafında və s. tətbiq edilən standartlar barədə aydın təsəvvürə malik olmalıdırlar.

*Təhsil proqramı (kurikulum) daim yeniləşəcək. Məzmun xətləri, standartlar zaman-zaman təkmilləşəcək və fərqli variantlar yaranacaq. Proqramın mahiyyəti ilə bağlı olan əsas prinsiplər isə dəyişilməz qalacaq. Deməli, indiki proqramın dərindən öyrənilməsi sonrakı dəyişikliklərin başa düşülməsinə və uğurla tətbiqinə əhəmiyyətli təsir edəcək.*

"Əlavələr"də verilmiş dərs nümunələrini diqqətlə öyrənmək, hər bir məşğələdə onlardan yararlanmaq məqsədəuyğundur.

## BİRİNCİ MƏŞĞƏLƏ

## DƏRSİN PLANLAŞDIRILMASI ÜZRƏ İŞİN TƏŞKİLİ
*(məzmun standartlarının seçilməsi, təlim nəticələri və qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi)*

*Məşğələnin məqsədi fəal/interaktiv dərsin planlaşdırılması üzrə bacarıqların inkişaf etdirilməsidir. Dərsdə aşağıdakı mənbələrdən istifadə edilməsi məqsədəuyğundur:*
*– S.Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009, səh. 42-43.*
*– Z. Veysova. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007, səh. 42-45.*

### Məşğələnin gedişi
Məşğələ tələbələrin fəal/interaktiv dərsin planlaşdırılması ilə bağlı məlumatlarının aşkara çıxarılması ilə başlayır. Bu məqsədlə yığcam müsahibə aparan müəllim sonda qeyd edir ki, tələbələr bu məşğələdə məzmun standartlarının seçilməsi, təlim nəticələri və qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi ilə bağlı tapşırıq üzərində işləyəcəklər. Tələbələrə izah olunur ki, bu tapşırıq bütövlükdə dərsin planlaşdırılmasının tərkib hissəsidir və formativ qiymətləndirmə üçün nəzərdə tutulmuşdur. Onlar konkret mövzu (X.R.Ulutürk. "Oğul həsrəti" şeirinin məzmunu) üzrə müvafiq məzmun standartları seçəcək, bunu əsaslandıracaq, həmin standartlara əsasən təlim nəticələri, daha sonra isə qiymətləndirmə meyarlarını müəyyənləşdirəcəklər.

Tələbələrin mühazirə və təcrübi məşğələlərdə (seminarlarda) tapşırığın tələbləri üzrə öyrəndikləri yetərli olmasa (məşğələnin əvvəlndə aparılan müsahibə bu barədə təsəvvür yaradır), "Məlumat üçün" başlıqlı mətnin oxusuna (oxunun hansı formada aparılması müəllimin məqsədindən asılıdır; səssiz, səsli və s. oxu formalarından birini tətbiq etmək mümkündür) vaxt ayırmaq məqsədəuyğundur. Mətndə əksini tapmış fikirlərin başa düşülməsi üçün müəllimin istiqamətləndirici suallardan, izahlardan istifadə etməsi vacibdir.

***Məlumat üçün***

*Dərsin səmərəli keçməsi onun planlaşdırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Əslində, planlaşdırma müəllimin dərsə ciddi hazırlaşması üçün zəmin rolunu oynayır. Planlaşdırmada nəzərə alınmalı məsələlər isə çoxdur. Onları ümumi şəkildə ifadə etmək olar:*

*– Təlimin məzmunu (nə öyrədiləcək, bunların əsasında hansı bacarıqlar, keyfiyyətlər formalaşdırılacaq).*

*– Təlimin metodları (necə öyrədiləcək, hansı texnologiyalardan istifadə olunacaq).*

*–Öyrədici mühit (təlim-tərbiyə prosesi hansı şəraitdə təşkil ediləcək).*

*– Qiymətləndirmə (nailiyyətlər necə qiymətləndiriləcək).*

*Dərsin planlaşdırılmasında bu dörd komponentin qarşılıqlı əlaqəsinin diqqət mərkəzində saxlanması vacibdir. Bu dörd komponent təlimin üç əsas məqsədinin – öyrədici, inkişafetdirici, tərbiyəedici həyata keçirilməsinə xidmət etməlidir. Deməli, müəllim məqsədlər müəyyənləşdirərkən təlimin məzmunu, təlim metodları, öyrədici mühit, qiymətləndirmənin meyar, üsul və vasitələrinin şagirdlərin idraki, eləcə də, şəxsi keyfiyyətlərinin inkişafına necə təsir edəcəyini öncədən nəzərə almalıdır.*

*Bütün bunlar fəal/interaktiv dərsdə yerinə yetirilməli olanları konkretləşdirməyə, başqa sözlə, planlaşdırmanı hazırlamağa imkan verir. Fəal/interaktiv dərsin planlaşdırılması ilə bağlı müxtəlif araşdırmalarda, rəsmi sənədlərdə fikir söylənilmiş, nümunələr verilmişdir. Onların arasında müəyyən fərqlər olsa da, üst-üstə düşən məqamlar daha çoxdur. Planlaşdırmanın mühüm cəhətlərini əks etdirən nümunə aşağıda verilir, unutmaq olmaz ki, onun*

*tələblərinin nəzərə alınması dərsin səmərəliliyində əhəmiyyətli rol oynayır.*

1. *Dərsdə reallaşdırılacaq standartları, təlim nəticələrini (dərsin məqsədlərini), qiymətləndirmə meyarlarını müəyyənləşdirmək.*
2. *Dərsin növünü müəyyən etmək.*
3. *İnteqrasiya imkanlarını müəyyənləşdirmək.*
4. *Təchizatı (resursları) müəyyənləşdirmək.*
5. *Motivasiyanın yaradılması yollarını müəyyənləşdirmək.*
6. *Tədqiqat sualını (variantlarını) işləyib hazırlamaq.*
7. *Tədqiqatın aparılması mərhələsi ilə əlaqədar aşağıdakı işləri icra etmək:*
   - *tədqiqatın aparılması üçün plan hazırlamaq;*
   - *iş vərəqlərini (onlarda əksini tapan çalışmaları, tapşırıqları) hazırlamaq və bunların icrası üçün iş üsullarını, tətbiq olunacaq təlim metodlarını müəyyənləşdirmək;*
   - *iş formalarını müəyyən etmək;*
   - *məlumat mənbələrini müəyyənləşdirmək.*
8. *Dərsin müxtəlif mərhələlərində həyata keçirilən bələdçilik fəaliyyəti üçün suallar hazırlamaq.*
9. *İnformasiyanın təşkili (əldə olunmuş məlumatların müəyyən şəklə salınması) üçün tətbiq edilməsi mümkün olan üsulları müəyyənləşdirmək.*
10. *Tədqiqatın sonunda formalaşması gözlənilən ideyaları və nəticələri yığcam ifadə etmək.*
11. *Qiymətləndirmənin üsul və vasitələrini müəyyənləşdirmək.*
12. *Dərsdə lazım olacaq ləvazimatı və təchizatı müəyyən etmək.*
13. *Dərsin hər mərhələsinə sərf olunacaq vaxtı müəyyənləşdirmək.*

*Bu planda göstərilənlər bir-birləri ilə qarşılıqlı əlaqədə olub hər biri dərsin səmərəli təşkilinə öz töhfəsini verir.*

*Bu və ya digər dərsdə reallaşdırılması nəzərdə tutulmuş standartlar əsasında təlim nəticələri (dərsin məqsədləri) müəyyənləşdirilir.*

*Buna necə nail olunur?*

*Standartdakı ümumi tələblər təlim nəticəsində konkretləşdirilir. Məsələn, X sinif üçün müəyyənləşdirilmiş standartlardan biri belədir:* ***1.1.5.*** *Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. Bu standart əsasında təlim nəticəsi müəyyənləşdirilərkən əsərin janrı ön plana çəkilir və bununla konkretləşməyə nail olunur. Yəni bu standart poema janrında olan əsərlə bağlı seçilibsə, təlim nəticəsi belə ifadə olunacaq: Poemada məcazları müəyyənləşdirir. Yaxud həmin standart povest janrında olan əsərlə bağlı seçilibsə, təlim nəticəsi aşağıdakı şəkildə olacaq: Povestdə məcazları müəyyənləşdirir. Bunu aşağıdakı cədvəldə müşahidə etmək olar:*

| ***Standartlar*** | ***Təlim nəticələri*** |
|---|---|
| *1.2.2. Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir.* | *Obrazı fərqli vəziyyətlərdəki nitqinə – danışığına əsaslanmaqla səciyyələndirir.* |
| *1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metafora, bədii təzad, kinayə) rolunu aydınlaşdırır.* | *Dastanın təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır.* |
| *1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir.* | *Dastanın ideya-məzmununu, süjetindəki başlıca xüsusiyyətləri şərh edir, əsaslandırılmış münasibət bildirir.* |
| *2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir.* | *Dastanla bağlı fikirlərini müqayisə əsasında şərh edir.* |

| | |
|---|---|
| *3.1.3. 2–2,5 səhifə həcmində mühakimə, təsvir, informasiya xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.* | *İnformasiya xarakterli məruzə yazır.* |

*Bəs qiymətləndirmə meyarları necə müəyyənləşdirilir?*

*Qiymətləndurmə meyarları təlim nəticələrinə əsasən müəyyənləşdirilir. Təlim nəticələrindəki fəaliyyəti əks etdirən sözlər qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsində həlledici rol oynayır. İfadə forması isə aşağıdakı şəkildə qəbul edilmişdir: səcyyələndirmə (cədvəldəki birinci təlim nəticəsi üzrə); aydınlaşdırma (cədvəldəki ikinci təlim nəticəsi üzrə); şərhetmə, münasibətbildirmə (cədvəldəki üçüncü təlim nəticəsi üzrə); müqayisəli şərhetmə (cədvəldəki dördüncü təlim nəticəsi üzrə); məruzəyazma (cədvəldəki beşinci təlim nəticəsi üzrə).*

*Meyarlar şagirdlərin tədqiqat prosesində nümayiş etdirdikləri nailiyyət səviyyəsini müəyyənləşdirməyə imkan verir. Bunu aşağıdakı cədvəldə müşahidə etmək olar:*

*Qiymətləndirmə meyarları:*

*Səciyyələndirmə*

*Aydınlaşdırma*

*Şərhetmə, münasibətbildirmə*

*Müqayisəli şərhetmə*

*Məruzəyazma*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| *Fərqli vəziyyətlərdə nitqindən çıxış etməklə obrazı səciyyələndirməkdə çətinlik çəkir.* | *Fərqli vəziyyətlərdə qismən nitqindən çıxış etməklə obrazı səciyyələndirir.* | *Fərqli vəziyyətlərdə əsasən nitqindən çıxış etməklə obrazı səciyyələndirir.* | *Fərqli vəziyyətlərdə nitqindən çıxış etməklə obrazı dolğun səciyyələndirir.* |
| *Dastanda bədii təsvir və ifadə vasitələrinin* | *Dastanda bədii təsvir və ifadə vasitələrinin rolunu* | *Dastanda bədii təsvir və ifadə vasitələrinin* | *Dastanda bədii təsvir və ifadə vasitələrinin rolunu* |

| | | | |
|---|---|---|---|
| *rolunu aydınlaşdırmaqda çətinlik çəkir.* | *qismən aydınlaşdırır.* | *rolunu əsasən aydınlaşdırır.* | *dolğun aydınlaşdırır.* |
| *Dastanın ideya-məzmununu, süjetindəki başlıca xüsusiyyətləri şərh etməkdə, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir.* | *Dastanın ideya-məzmununu, süjetindəki başlıca xüsusiyyətləri şərh edir, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir.* | *Dastanın ideya-məzmununu, süjetindəki başlıca xüsusiyyətləri şərh edir, əsaslandırılmış münasibət bildirməkdə bəzən çətinlik çəkir.* | *Dastanın ideya-məzmununu, süjetindəki başlıca xüsusiyyətləri şərh edir, əsaslandırılmış münasibət bildirir.* |
| *Dastanla bağlı fikirlərini müqayisə əsasında şərh etməkdə çətinlik çəkir.* | *Dastanla bağlı fikirlərini müqayisə əsasında qismən şərh edir.* | *Dastanla bağlı fikirlərini müqayisə əsasında bəzən çətinliklə şərh edir.* | *Dastanla bağlı fikirlərini müqayisə əsasında dolğun şərh edir.* |
| *İnformasiya xarakterli məruzə yazmaqda çətinlik çəkir.* | *İnformasiya xarakterli məruzəni mövzunu qismən əhatə etməklə yazır.* | *İnformasiya xarakterli məruzəni mövzunu əsasən əhatə etməklə yazır.* | *İnformasiya xarakterli məruzəni mövzunu dolğun əhatə etməklə yazır.* |

Müəllim qeyd edir ki, planlaşdırmanın digər tələblərinin yerinə yetirilməsi ilə bağlı növbəti məşğələlərdə iş aparılacaqdır.

Müəllimin təklifi ilə tələbələr X.R.Ulutürkün "Oğul həsrəti" şeirinin məzmunu ilə tanış olurlar. Şeirin oxusunu fərqli formalarda (səssiz oxu, səsli oxunun dinlənilməsi və s.) təşkil etmək olar. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra tapşırığın (əsərin məzmununun öyrənilməsi üçün müvafiq standartların seçilməsi, onlardan çıxış edilməklə təlim nəticələrinin, sonra qiymətləndirmə meyarları və səviyyələrin müəyyənləşdirilməsi) icrasına başlanılır.

Tələbələrə xatırladılır ki, seçdikləri məzmun standartlarını əsaslandırmağa çalışmalıdırlar. Başqa sözlə, nə üçün məhz bu standartların üzərində dayandıqlarının faydalı və məqsədəuyğun olduğunu sübut etməlidirlər.

Tapşırığın icrasında istənilən iş forması (fərdi və ya cütlük, kiçik qrup halında, yaxud bütün siniflə birgə) tətbiq edilə bilər. (Müxtəlif iş formalarının qarşılıqlı əlaqədə tətbiqi səmərəli və maraqlı olur). Kiçik qrupda iş formasına üstünlük verən müəllim qrupdaxilində iş bölgüsünün aparılmasına nail olmalı, məlumat mübadiləsinin, müzakirənin səmərəliliyinə imkan yaradan istiqamətləndirici suallardan istifadə etməlidir.

*Məşğələdə işin gedişi aşağıdakı ardıcıllıqla gerçəkləşdirilir:*

- Tələbələrin fəal/interaktiv dərsin planlaşdırılması ilə bağlı məlumatları müsahibə ilə aşkara çıxarılır.
- Mövzu elan olunur, yaxud tələbələrin fəal iştirakı ilə müəyyənləşdirilir.
- "Məlumat üçün" başlıqlı mətnin oxusu, məzmununun mənimsənilməsi həyata keçirilir.
- X. R.Ulutürkün "Oğul həsrəti" şeirinin məzmunu ilə tanışlıq həyata keçirilir.
- X.R.Ulutürkün "Oğul həsrəti" şeirinin məzmununun öyrənilməsi timsalında məzmun standartlarının seçilməsi, təlim nəticələri, qiymətləndirmə meyarları və səviyyələrin müəyyənləşdirilməsi üzrə işin icrası həyata keçirilir.
- Yerinə yetirilmiş işin nəticəsi təqdimatların əsasında geniş müzakirə edilir.
- Müəllim əvvəlcədən müəyyələşdirdiyi meyarlar əsasında qiymətləndirmə aparır.

*Məşğələni fərqli variantda da təşkil etmək mümkündür. Təcrübi məşğələlərdə zəruri məlumat mənimsənilibsə, araşdırmanın tədqiqat sualı əsasında aparılması mümkündür. Bu halda seçilmiş məzmun standartlarının (təlim nəticələrinin) reallaşdırılması üçün tapşırıqların hazırlanması vacibdir. Belə məşğələdə məlumat mübadiləsinin, müzakirənin təşkili, ümumiləşdirmənin aparılması, nəticənun çıxarılması əldə olunanların fərziyyələrlə müqayisə edilməsi və s. diqqət mərkəzində saxlanılmalıdır.*

**X. R. Ulutürk**
## OĞUL HƏSRƏTİ

Məqbərənə gül düzərəm,
Gülüm, Təbrizim, Təbrizim!
Doğrudanmı səni tapdı
Ölüm, Təbrizim, Təbrizim!

Gözlərində nur, təbəssüm,
Üzünə söykənsin üzüm,
Həsrətinə nə cür dözüm,
Balam, Təbrizim, Təbrizim!

Köksünə baş qoyub bahar,
Məzar demə... Məzar – gülzar,
Bu sərgidir, ya laləzar,
Laləm, Təbrizim, Təbrizim!

Getmə, öpüm izlərindən,
Bükülməyən dizlərindən,
Qoy saçılsın gözlərimdən,
Selim, Təbrizim, Təbrizim!

Məzar qonşuların yüz-yüz –
Namiq, Elşad, Aydın, Gündüz.
Yerdə qalmaz bu qan, sözsüz,
Zülüm, Təbrizim, Təbrizim!

Kremlin caynaqları iri,
Daşnaklar – vuran əlləri,
Göstər mənə cinayəti,
Bilim, Təbrizim, Təbrizim!

Qanlı köksü dəlik-dəlik,
Xocalıda bir qəsr tik,
Bu cahanda həmişəlik
Qalan Təbrizim, Təbrizim!

Sən tapınan, o – tapınaq,
Cüt Təbrizi qovuşduraq,
Ey bəxtəvər, ey üzüağ,
Balam, Təbrizim, Təbrizim!

**Evdə iş**

1. X.R.Ulutürkün “Oğul həsrəti” şeirinin təhlili üzrə müvafiq məzmun standartları seçin və bu standartları seçməyinizin səbəbini izah edin.
2. Seçdiyiniz standartlar üzrə təlim nəticələri, qiymətləndirmə meyarları və səviyyələrin arasındakı fərqi müəyyənləşdirin.
3. Şifahi təqdimata hazırlaşın.

## İKİNCİ MƏŞĞƏLƏ

## FƏAL/İNTERAKTİV DƏRSİN TƏŞKİLİ ÜZRƏ İŞ (A. Ələsgər. "Dağlar")

*Məşğələnin məqsədi dərsin təşkili üzrə bacarıqların inkişaf etdirilməsidir. Məşğələdə aşağıdakı mənbələrdən istifadə edilməsi məqsədəuyğundur:*
*– S. Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009, səh. 16-30.*
*– B.Həsənli. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2016, səh. 131-135.*
*– Z. Veysova. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007, səh. 50-65.*

### Məşğələnin gedişi

İlk növbədə ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi müəyyənləşdirilir. Bunun üşün fərqli yollardan istifadə etmək mümkündür. Variantlardan biri aşağıdakı məzmunda ola bilər.

Ev tapşırığındakı tələblərlə (X.R.Ulutürkün "Oğul həsrəti" şeirinin təhlili üzrə müvafiq məzmun standartlarının seçiilməsi, bu standartları seçilməsininin səbəbinin izah edilməsi, seçilmiş standartlar üzrə təlim nəticələri, qiymətləndirmə meyarları və səviyyələrin müəyyənləşdirilməsi) bağlı hazırlanmış təqdimatlardan bir neçəsinin dinlənilməsi və müzakirəsi həyata keçirilir. Seçilmiş standartların müvafiqliyinə, əsaslandırılmasına, təlim nəticələrinin, qiymətləndirmə meyarlarının dəqiqliyinə, səviyyələrin arasındakı fərqin müəyyələşdirilməsinə müzkirədə xüsusi diqqət yetirilir.

Müəllim cavabları əvvəlcədən hazırladığı meyarlar əsasında qiymətləndirə blər.

Məşğələnin mövzusunu, məqsədini elan edən müəllim tələbələrin fəal/interaktiv dərsin mahiyyəti, mərhələləri barədəki məlumatlarını müsahibə ilə aşkara çxarır. Zəruri nəzəri məlumatı mənimsəmiş olan qrupda birbaşa tapşırığın icrasına başlamaq olar. Ehtiyac yaranarsa, "Məlumat üçün" başlıqlı mətnlə tanışlıq üçün vaxt ayrılır. Mətnin oxusu fərqli formaların (səssiz oxu, səsli oxunun dinlənilməsi, İNSERT və s.) tətbiqi ilə həyata keçirilə bilər. Mənimsəmə səviyyəsini də fərqli şəkildə (müsahibə, təqdimatların dinlənilməsi və s.) müəyyənləşdirmək mümkündür.

***Məlumat üçün***

*Ümumtəhsil məktəblərində istifadə olunan dərsliklər fəal/interaktiv təlimin tətbiqi imkanları nəzərə alınmaqla hazırlanmışdır. Yeni təlimi yanaşma – fəal/interaktiv təlim şagirdlərdə əqli fəallığın, müstəqil düşüncənin, tədqiqatçılıq və əməkdaşlıq bacarığının inkişafını ön plana çəkir. Doğrudan da, ənənəvi təlimi yanaşma ilə müqayisədə onun üstünlükləri çoxdur. Təhsilalanlar (bu məqamda: şagirdlər) fəal/interaktiv təlim prosesində bilikləri hazır şəkildə "almırlar", axtarışlara qoşulur, əqli əmək sərf edərək mənimsəyir, bacarıqlarını inkişaf etdirir və əldə etdikləri nəticələrdən zövq alırlar. Onlar bu təlim prosesində obyekt (bilikləri hazır şəkildə mənimsəmək anlamında) yox, subyekt ( biliklərin öyrənilməsində fəal iştirakçı anlamında) mövqeyində olurlar.*

*Fəal/interaktiv təlimin tələblərinin uğurla həyata keçirilməsi dərsin səmərəli təşkilindən asılıdır. Dərsin səmərəli təşkili isə mükəmməl planlaşdırmanın həyata keçirilməsi nəticəsində mümkündür. Planlaşdırmada daha çox diqqət yetirilən məsələ motivasiyanın yaradılması yollarının müəyyənləşdirilməsidir, daha dəqiq deyilsə, motivasiyanın qurulmasıdır. Doğru deyirlər ki, motivasiyanın ("motiv" latın mənşəli "movere" sözündən olub "hərəkətə gətirmək", "sövq etmək" anlamındadır) yaradılması işin əlli faizidir. Motivasiyanın yaranması üçün şagirdlərin ziddiyyətli, müxtəlif ehtimallar doğuran suallarla (faktlarla, hadisələrlə və s.) üzləşməsi vacibdir."Ziddiyyətlər burulğanına"düşən şagirdin qarşısında problem dayanır. Müxtəlif ehtimallar (fərziyyələr) doğuran problem maraqlıdır, cəlbedicidir, lakin şagirdin mövcud bilik və bacarığı onu həll etmək üçün yetərli deyildir. Deməli, o, mütaliə etməli, axtarışlar aparmalı, həqiqəti üzə çıxarmalıdır.*

*Bəs təlimi motivasiya necə yardılmalıdır?*

*Pedaqoji ədəbiyyatda motivasiyanın yaradılması yolları ümumiləşdirilmiş və üç qrupa bölünmüşdür.*
***I. Rəmzi (simvolik) materiallardan istifadə.*** *Seçilmiş rəmzi materiallarla tədris edilən mövzu arasında mahiyyət yaxınlığı, daxili bağlılıq olmalıdır. Bu rəmzi materiallar elə seçilməlidir ki, onlardan çıxış edilməklə təlim materialının məğzinə, mahiyyətinə nüfuz etmək mümkün olsun. Rəmzi materiallara nələr daxildir? Bunlara* ***rəssamlıq əsərləri, fotoşəkil, musiqi əsərləri (onlardan parçalar), bədii əsərdən epizod, rəvayət, hikmətli söz, məsəl, tapmaca, əşya, qrafik, sxem*** *və s. daxil edilir.*
*Əsas məsələ isə rəmzi materiallardan istifadə etməklə sövqetmənin (motivasiyanın) düzgün yaradılmasına nail olmaqdır. Nümunəyə nəzər salaq. C.Məmmədquluzadənin «Anamın kitabı» əsərinin təhlilinə həsr edilən dərsin başlanğıcında (motivasiya, problemin qoyuluşu mərhələsində) aşağıdakı epizodun yazıldığı vərəqlər şagirdlərə paylanır: «****Senzor — Xub, sizdən gərək pünhan olmaya ki, sizin bir para bədxahlarınız hökumət nəzərində belə qələmə veriblər ki, siz üç qardaş söz bir və həmfikir olmusunuz ki, əvvəla Rusiya islamlarını Türkiyə dövlətinə tərəf çəkib ittihadimüslimin cəmiyyətinə iştirak edəsiniz. Saniyən, axır zamanlarda Azərbaycanda əmələ gələn Hübbi-vətən və Ədəmi-mərkəziyyət firqəsinin amalı yolunda çalışmaqdasınız ki, bir tərəfdən Qafqaz Azərbaycanını, digər tərəfdən Iran Azərbaycanınıki, ibarət olsun Təbriz, Tehran, Gilan, Osmanlı və Iran Kürdüstanı, Urmi və qeyriləri — bu vilayətləri bir-birinə ilhaq edib müstəqil Azərbaycan hökuməti əmələ gətirəsiniz və salisən bu fikirdən də uzaq deyilsiniz ki, müsavat və hürriyyət əsaslarını kəndli və əhli-kəsəbə içində müntəşir edirsiniz ki, min il yuxuda olan camaat hökumətin əsarət zəncirini qırıb, özləri üçün bir nicat yolu tapsınlar və həmin***

***niyyətlərimizi əmələ gətirmək yolunda lazımi mətbuat cəm eləyib, qələm ilə çalışmaqdasınız.***
***Məhz bu səbəbdən siz üç qardaşın cəmi kitablarını bu saat gərək təftiş edək. Cənab Rüstəm bəy, əvvəl siz öz kitablarınızı nişan veriniz».***
*(Senzor Mirzə Cəfər qardaşların kitablarına baxdıqdan sonra)*
***«Senzor (üzünü polis məmuruna və fərraşlara tutub). Xub, biz getməli olduq. (Üç qardaşa). Həzərat, bir saat bundan əqdəm sizin üçünüzün də barəsində bir özgə xəyalda idim. Amma kitablarınızı görəndən sonra, dəxi indi fikrimi bilmərrə dəyişdim. Indi nə fikirdəyəm, o da qalsın mənim öz yanımda; lakin özümə fərz bilirəm hökumətə ərzi-hal edib sizi üməmayi-dövlət yanında ən səlamət və zərərsiz bəndələr cümləsində hesab edəm. Məni əfv buyurasınız və səlamət qalasınız».***
*Müəllim yardımçı suallarla şagirdləri mətləbə yönəldir: Senzor Mirzə Cəfəri «danışdırmaqda» yazıçının niyyəti nədir? Əsərdəki ideyanın (ideyaların) açılmasında senzorun sözlərinin əhəmiyyətli rolu varmı?*
*Suala verilən cavablar müxtəlif fərziyyələrin yaranmasına səbəb olur. Bu fərziyyələrdən hansının (hansılarının) doğru olduğunu müəyyənləşdirmək vəzifəsi ortaya çıxır. Bu isə tədqiqat üçün sualın formalaşdırılmasını zəruri edir.*
*Bu, bədii əsərdəki epizoddan istifadə ilə sövqetmənin (motivasiyanın) yaradılmasına aid nümunə idi.*
***II. Suallardan istifadə****. Bu, motivasiyanın yaradılmasının çevik, nisbətən asan və müəllimlərin daha çox meyil etdikləri yoldur. Onun vasitəsilə motivasiyanı daha tez, vaxt itkisinə yol vermədən yaratmaq mümkündür.*
*Şagirdlərin idrak fəaliyyətini aktivləşdirən suallar üç qismə bölünür. Bunları nəzərdən keçirək.*

***1) Mövzu (təlim materialı) ilə əlaqədar öyrənilməsi vacib (əhəmiyyətli) olan məsələlərin müəyyənləşdirilməsi məqsədini güdən suallar.*** *Mövzunun (təlim materialının) öyrənilməsinin müəyyən mərhələsində (məsələn, bədii əsərin təhlili ərəfəsində, yaxud təhlil prosesində) sinfə sualla müraciət edən müəllim şagirdlərin diqqətini mətləbə çəkir: «... haqqında nəyi bilirik, nəyi bilmirik?», «... haqqında daha nələri bilmək istərdik?»* ***Tədqiqat üçün sual*** *məhz cavabların əsasında müəyyənləşdirilir. Məsələn,* ***L.Tolstoyun «Hacı Murad»*** *əsərinin təhlilinə ayrılan dərsdə müəllim sinfə müraciət edir: Əsərin məzmununu mənimsədiniz, öyrəndiklərinizə əsasən suallara cavab verə bilərsiniz: Hacı Muradın xarakterindəki başlıca cəhətlər hansılardır? O, döyüş yoldaşlarına necə münasibət bəsləyir? Onun ailəsinə münasibəti necədir? (Şagirdlərin cavabları dinlənilir).*

*Müəllim yenidən sinfə müraciət edir: Bəs Hacı Murad haqqında nəyi bilmirik? Onun barəsində daha nələri bilmək istərdiniz?*

*Bu suallardan məlum olur ki, şagirdləri ən çox maraqlandıran xalqının apardığı milli-azadlıq mübarizəsindən Hacı Muradın uzaqlaşmasıdır. Beləliklə,* ***tədqiqat sualı*** *müəyyənləşmiş olur:* ***Hacı Muradı xalqının milli-azadlıq hərəkatına*** **xəyanətdə** ***günahlandırmaq olarmı?***

***2) Çoxvariantlı cavab doğuran suallar.*** *Bunlara* ***«açıq suallar»*** *deyilir. Açıq suallarda idrak fəallığını oyadan «Nə üçün?», «Nəyə görə?», «Hansı yolla?», «Necə?» ifadələrindən istifadə edilməsi faydalıdır. Açıq sualların vasitəsilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllimin «bələdçilik bacarığından» çox şey asılıdır. Bu suallar şagirdlərə birdənbirə verilmir; şagirdlərin diqqəti giriş xarakterli cümlələrlə, yardımçı — əlavə suallarla tədricən mətləbin üzərinə yönəldilir. Məsələn, müəllim* ***«Alı kişi»***

*qolunun məzmununu öyrənmiş beşinci sinfin şagirdlərinə təhlil dərsinin başlanğıcında müraciət edir: Həsən xana illərlə sədaqətlə xidmət edən Alı kişi, haqsız olaraq, ağır cəzalandırılır. Bu, Rövşənə necə təsir edir? Dərhal intiqam almaq istəyən Rövşənə atası hansı məsləhəti verir? Rövşənin xasiyyətindəki başlıca cəhətlər hansılardır? (şagirdlərin cavabları dinlənilir). Müəllim ustalıqla əsas istəyinə keçir: Atasının intiqamını layiqincə alan Rövşən hansı səbəbə görə bununla kifayətlənmir?*

*Bu açıq suala şagirdlər tərəfindən cavab verilərkən müxtəlif fərziyyələr ortaya çıxır. Beləliklə,* ***tədqiqat sualının*** *müəyyənləşdirilməsinə zəmin yaranır.*

***3) «Açar sözləri» özündə əks etdirən suallar.*** *Ilk növbədə «açar sözlər»in nə demək olduğunu aydınlaşdıraq. «Açar sözlər» mövzunun (təlim materialının) məğzini, mahiyyətini özündə ehtiva edir (etməlidir). Başqa sözlə, mövzudan (təlim materialından) çıxış edilməklə müəyyənləşdirilən bu sözlər təkcə sualların formalaşdırılması üçün yox, həm də öyrənilənin başlıca cəhətlərinin qabardılması və diqqətin məhz onlara çəkilməsi baxımından da faydalıdır.*

*Pedaqoji ədəbiyyatda qeyd edildiyi kimi, «açar sözlərə» nümunə olaraq* ***xassələr, xüsusiyyətlər, növlər, tiplər, rol, əhəmiyyət, səbəb, nəticə, əlaqə, qarşılıqlı əlaqə, nöqsanlar və uğurlar, varislik, yenilik, qayda, quruluş*** *və s. göstərmək olar.*

*Məsələn,* ***M.F. Axundzadənin «Aldanmış kəvakib»*** *əsərinin təhlilinə həsr edilən dərsin əvvəlində müəllim şagirdləri «açar sözlərin» köməyi ilə suallar verməyə istiqamətləndirir və son nəticədə tədqiqat sualının müəyyənləşdirilməsinə nail olur. Həmin mərhələnin mühüm məqamları aşağıdakı kimi olur. Müəllim sinfə müraciət edir: Siz əsərin məzmununu öyrənərkən hansı obrazlarla tanış oldunuz? Bu obrazlardan*

*hansılar, sizcə, baş qəhrəman hesab edilməlidir? (Şagirdlərin cavabı dinlənilir).*
*Müəllim şagirdlərin diqqətini «açar söz»ə – «səbəb» kəlməsinə çəkdikdən sonra sözünə davam edir: Şah Abbasın tələbi ilə saraydakı toplantıya qatılan yüksək vəzifə sahibləri çıxış edir. Hiss etdiniz ki, M.F.Axundzadə onların hər birinin nitqinin-danışığının üzərində diqqətlə işləmiş, bu işə xüsusi önəm vermişdir. Sizcə buna səbəb nədir?*
*Beləliklə, bu sual şagirdlər tərəfindən müxtəlif fərziyyələrin irəli sürülməsinə və onların əsasında* ***tədqiqat sualının*** *formalaşdırılmasına imkan yaradır.*
***III. Problemin müxtəlif yollarla həll edilməsi.*** *Motivasiyanı yaratmağın bu üçüncü yolu zahirən çətin görünsə də, əslində, həm asan, həm də maraqlıdır. Onun tətbiq imkanları da genişdir. Bu imkanların bəzilərini nəzərdən keçirək.*
***1) Təlim materialının verdiyi imkandan çıxış etməklə fərqli təsnifatın (qruplaşdırmanın) aparılması.*** *Məsələn, «M.F. Axundzadənin qadın obrazlarından hansılar iştirak etdikləri əsərin əsas ideyasının açılmasında daha əhəmiyyətli mövqeyə malikdir» tələbi əsasında fərqli təsnifatın yaradılması və doğru olanın müəyyənləşdirilməsi üzrə tədqiqatın aparılması bu qəbildəndir.*
***2) Mövzunun (təlim materialının) öyrənilməsinə müxtəlif yollardan istifadə ilə nail olunması.*** *C.Cabbarlının «Oqtay Eloğlu» əsərinin təhlilinə konflikti araşdırmaqla, yoxsa baş qəhrəmanı səciyyələndirməklə başlamağaın lazım olması üzərində düşünülməsi və hər ikisinin yoxlanılması buna misal ola bilər. Fəal/interaktiv dərsin səmərəli təşkili onun mərhələlərinin mahiyyətinin, tətbiqi qaydaların mənimsənilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Buna nail olunması bütövlükdə dərsin planlaşdırılması ilə bağlı təsəvvürün zənginləşməsinə də əhəmiyyətli təsir*

*edir. Fəal/interaktiv dərsin mərhələləri barədə mübahisəli məqamlar olsa da, aşağıdakı variant geniş yayılmışdır.*

***1. Sinfin təşkili.*** *Bu, ənənəvi dərsin müvafiq mərhələsindən əsaslı şəkildə fərqlənmir. Başlıca fərq şagirdlərin psixoloji durumunun, sinifdəki psixoloji və öyrədici mühitin həssasliqla müşahidə edilməsi, öyrənilməsi və müvafiq naticənin çıxarılmasıdır.*

***2. Ev tapşırığının yoxlanılması.*** *Bu mərhələ məzmunca ənənəvi dərsin müvafiq mərhələsindən əsaslı şəkildə fərqlənir; ev tapşırığının yoxlanılması, keçmiş dərsin soruşulması bəzən hazırlanmış təqdimatların, fərqli formalarda olan yazılı cavabların dinlənilməsi ilə həyata keçirilir. Bir sıra hallarda isə şagirdlərin hazırladıqları cədvəllərin, sxemlərin və s. nəzərdən keçirilməsi ilə kifayətlənilir. Bütün bunlar, həmçinin fərdi sorğunun, müsahibənin aparılmasını inkar etmir. Ümumiyyətlə, bu yeni təlimi yanaşmada keçmiş dərsin soruşulması üçün müxtəlif, rəngarəng iş üsullarından istifadə edilir.*

***3. Motivasiya, problemin qoyuluşu.*** *Bu, dərsin sonrakı mərhələlərində aparılacaq işlər üçün zəmin rolunu oynayır. Başqa sözlə, motivasiyanın uğurlu olması dərsin bütün mərhələlərinin səmərəli keçməsinə əhəmiyyətli təsir edir. Artıq bu barədə danışıldığından burada bir misalla kifayətlənilir.* ***C. Cabbarlının «Oqtay Eloğlu»*** *əsərinin təhlilinə həsr edilən dərsdə motivasiyaya yaratmağı qarşısına məqsəd qoyan müəllim Oqtay obrazı haqqında qazanılmış məlumatın xatırladılması üçün suallar verir: Oqtayın xarakterində hansı cəhətləri aydınlaşdırdınız? O, necə insandır? Həyat idealı nədir? sualları səsləndirilir və cavabları aydınlaşdırılır.*

*Müəllimin növbəti sualı eşidilir: Oqtayla bağlı sizə aydın olmayan nə isə varmı?*

*Şagirdlər fərqli fikirlər söyləyirlər. Müəllim şagirdləri özünün nəzərdə tutduğu məcraya – mətləbə yönəldir: Əsər faciədir. Oqtay da faciə qəhrəmanıdır. Bunu niyə belə hesab edirik? Oqtayın faciəsi nədir?*
*Şagirdlər fərqli cavablar verirlər. Müxtəlif fərziyyələr yaranır. Müəllim bütün bunların sərbəst söylənməsinə imkan yaradır. Fikir mübadiləsi və birgə fəaliyyət – əməkdaşlıq şəraitində tədqiqat üçün sual müəyyənləşdirilir:* ***Oqtayın əsl faciəsi nədir?***
*Şagirdlərin apardıqları tədqiqat (bu, dərsin növbəti mərhələsində həyata keçirilir) fərziyyələrdən hansının doğru olduğunu müəyyənləşdirir.*
***4. Tədqiqatın aparılması.*** *İlk növbədə «tədqiqat sualı» («tədqiqat üçün sual») anlayışının mahiyyətini, yığcam da olsa, aydınlaşdıraq. Dərsin birinci mərhələsində motivasiya qismində meydana gələn* ***problemin*** *həlli üçün* ***fərziyyələr*** *yaranır. Və bu fərziyyələri yoxlamaq, daha dəqiq desək, hansının (hansılarının) doğru olduğunu müəyyənləşdirmək vəzifəsi qarşıda durur. Məhz bu vəzifə tədqiqat sualının formalaşdırılmasını tələb edir. Tədqiqat üçün sual müəyyənləşdirildikdən sonra onu müxtəlif baxımdan araşdırmağa istiqamətləndirən* ***tapşırıqlar (çalışmalar)*** *hazırlanır. Bu tapşırıqların (çalışmaların) icrası şagirdlərə təklif edilir.*
*Buradan aydın olur ki, tədqiqat sualının müəyyənləşdirilməsi məsuliyyətli işdir. Bu sual təlim materialının məğzini, mahiyyətini araşdırmağı, aydınlaşdırmağı bir tələb kimi qarşıya qoymalıdır. Suallar yaranır: Bir tədqiqat sualı bütöv mövzunun (təlim materialının) məğzini, mahiyyətini həmişə əhatə edə bilərmi? Bir mövzu (təlim materialı) ilə əlaqələr, zərurət yaranarsa, iki tədqiqat sualının icra etdirilməsi mümkündürmü?*

*Birinci suala eksperiment prosesində cavab axtarılmış və məlum olmuşdur ki, bir tədqiqat sualının bütöv mövzunu* ***həmişə*** *əhatə etməsi mümkün deyil.*
*İkinci sualla bağlı qeyd edək ki, zərurət yarananda iki tədqiqat sualının müəyyənləşdirilməsi və icra etdirilməsi mümkündür. Lakin bu, müəllimdən xüsusi bacarıq, ustalıq tələb edir, o, qrupların icra edəcəkləri tapşırıqları (çalışmaları) yüngülləşdirməlidir. Bu, elə səriştə ilə edilməlidir ki, tapşırıqlar bəsit məzmun almasın. Həm də müəllim dərsdə vaxtdan maksimum səmərəli istifadə olunmasına çalışmalı, hər bir mərhələnin qarşısında duran vəzifənin həyata keçməsinə nail olmalıdır.*
*Şagirdlərə (qruplara) təqdim olunan tapşırıqlar (çalışmalar)* ***iş vərəqlərində*** *(hər qrup üçün bir iş vərəqi hazırlanır) əksini tapır. Ayrı-ayrı qrupların iş vərəqində əksini tapan tapşırıqlar bir-biri ilə əlaqədar olub (əslində bir-birini tamamlayıb) problemin aydınlaşdırılması məqsədinə xidmət edir. Dərsin məqsədlərindən asılı olaraq tapşırıqda* ***yaddaşın, məntiqi təfəkkürün, tənqidi təfəkkürün,*** *yaxud* ***yaradıcı təfəkkürün*** *inkişafı ön plana çəkilə bilər. Belə bir cəhət unudulmamalıdır ki, bu göstərilənlərin (yaddaşın, məntiqi təfəkkürün, tənqidi təfəkkürün, yaradıcı təfəkkürün) arasına sədd çəkmək olmaz; yəni onların hər birinin elementi digərində ozünü göstərə bilər (və bilir). Bir az da dəqiq desək, məsələn, məntiqi təfəkkürün inkişafı məqsədini güdən tapşırıqda tənqidi təfəkkürün formalaşdırılması üçün məqbul sayılan tələblərin (məzmunun) olması təbiidir və əksinə. Belə bir cəhət də unudulmamalıdır ki, bir iş vərəqində müxtəlif bacarıqların inkişaf etdirilməsi üzrə tapşırıqların (çalışmaların) əks etdirilməsi mümkün və faydalıdır.*
*Tapşırıqların (çalışmaların) hazırlanması məsuliyyətli işdir. B.Blum taksonomiyasının səviyyələrinin izlənilməsi diqqət mərkəzində saxlanılmalıdır. Eləcə də*

*təlim məqsədindən asılı olaraq tapşırıqların (çalışmaların) məzmunu, quruluşu, müraciət olunacaq bilik mənbələri, tətbiq olunacaq metod və priyomlar xüsusi dəqiqliklə müəyyənləşdirilməlidir.*
*Beləliklə, dərsin bu mərhələsində tədqiqat aparılır və tamamlanır.*
***5. Məlumat mübadiləsi.*** *Dərsin bu mərhələsində isə hər qrup əldə etdiyi yeni faktlarlarla, hadisələrlə, bir sözlə, qazandığı ilkin biliklə digər qrupları tanış edir. Deməli, bütün şagirdlər araşdırılan problemlə bağlı müxtəlif yöndən apardıqları tədqiqatlarla tanış olurlar. Hər qrupun lideri gəldikləri nəticəni şərh edir. Həmin prosesdə digər qrupun şagirdləri sual vermək imkanına malik olur, eləcə də müəyyən məsələnin yenidən, daha aydın şəkildə izah edilməsini və s. xahiş edə bilər. Maraqlıdır ki, hətta eyni qrupun daxilində məsələyə fərqli yanaşanlar olur. Qrupdaxili fikir ayrılığından narahat olmağa dəyməz. Bu, təbiidir, həm də dərsin daha maraqlı keçməsinə, diskussiyanın genişlənməsinə səbəb olur. Sadəcə olaraq, bundan səmərəli istifadə edilməli, mübahisəli məsələyə daha çox şagirdin münasibət bildirməsinə nail olunmalıdır.*
*Əldə edilmiş əsas faktların, ideyaların yazı taxtasında qeyd edilməsi müzakirənin faydalı olmasına əhəmiyyətli təsir edir. Dərsin sonrakı mərhələsində müzakirənin səmərəli keçməsi üçün hər qrupun təqdimatının əks olunduğu iş vərəqlərinin göz qabağında olması (lövhədən asılması) da vacibdir.*
*Deyilənlərdən aydın olur ki, dərsin bu mərhələsində təqdimatlar və qarşılıqlı dınləmələr aparıcı yer tutur. Tədqiqat prosesində əldə edilmiş biliklərin, məlumatların mübadiləsi qazanılmışların ümumı mənzərəsi barədə təsəvvür yaratmaqla bərabər, həm də ciddi kəm-kəsirlərin olduğunu da aşkara çıxarır. Yəni hər qrupun işində çiy məqamlar, dayaz mülahizələr, yanlış*

*mövqe, faktların pərakəndəliyi və s. bu və ya digər dərəcədə müşahidə olunur. Və bu, təbiidir. Elə buna görə də dərsin bu mərhələsində «yeni bir tələbat – həmin fikirləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır» (Z.Veysova). Bu, dərsin növbəti mərhələsində həyata keçirilıir.*

***6. Məlumatın müzakirəsi və təşkili.*** *Bu mərhələdə görülən işlər məzmununa görə həm mürəkkəb, həm də çətindir. Müəllim işi elə qurmalıdır ki, çatışmazlıqlar tədricən aradan qalxsın, məsələlər durulaşsın. O, müzakirə üçün müəyyənləşdirdiyi sualların vasitəsilə pərakəndə fikirlərin sistemə salınmasını, qrup işlərinin uzlaşmasını, fakt və hadisələrin arasında əlaqələrin yaranmasını, bir sözlə, tədqiqat prosesində qazanılmış biliklərin bir tam halına düşməsini təşkil edərək tədqiqat sualına dolğun cavabın ərsəyə gəlməsini təmin etməlidir. Müəllim bu məqamda şagirdlərin diskussiya aparmalarını, öz mülahizələrini tam sərbəst söyləmələrini, özlərini müzakirənin bərabərhüquqlu iştirakçısı kimi hiss etmələrini təmin etməli, onların əvəzinə danışmamalıdır.*

*Son nəticədə qazanılmış biliklərin müəyyən şəkil (forma) alması özünü göstərmiş olur. Lakin bu, hələ sonuncu addım deyildir.*

***7. Nəticə, ümumiləşdirmə.*** *Dərsdə elə bir məqam yaranır, (elə bir vəziyyət yetişir ki,) deyilmiş bütün fikirləri «ümumı ideya halında birləşdirmək və ümumiləşdirmək» (Z.Veysova) lazım gəlir. Bu, dərsin növbəti mərhələsində («Nəticə, ümumiləşdirmə») həyata keçirilir. Deməli, şagirdlərin qarşısında qazandıqları bilikləri ümumiləşdirmək və konkret nəticə çıxarmaq vəzifəsi durur. Hər bir qrupun əldə etdiyi məlumatları (bilikləri) birləşdirən fikirlər, ideyalar aydınlaşdırılır və onların yoxlanılan fərziyyəyə nə dərəcədə uyğun olduğu müəyyənləşdirilir. Məhz bu*

*ümumiləşdirmədən sonra **formalaşdırılmış ideya** tədqiqat sualı və ilkin fərziyyələrlə müqayisə edilir. Formalaşdırılmış ideya (çıxarılmış nəticə) tədqiqat sualına cavab verirsə, dərsi uğurlu saymaq olar.*

***8. Yaradıcı tətbiqetmə.** Biliyin şüurlu və möhkəm olması, bacarıqlara çevrilməsi onun tətbiqindən, (xüsusən yeni şəraitdə) çox asılıdır. Qazanılmış biliklərın tətbiqini tələb edən tapşırıqların həmişə sinifdə icra etdirilməsı vacib deyil.Əksər hallarda buna vaxt da çatmır. Fəal/interaktiv təlim ev tapşırıqlarının tədqiqat və yaradıcı xarakterdə olmasını mühüm tələb kimi irəli sürür.*

***9. Qiymətləndirmə və refleksiya**. «Qiymətləndirmə» və «refleksiya» fərqli anlayışlardır. Etiraf edilməlidir ki, qiymətləndirmə ənənəvi təlimin ən zəif (həm də ədalətsizliklə müşayiət olunan) məqamıdır. Elə buna görə də, daim axtarış və mübahisə obyekti olmuşdur. Maraqlıdır ki, fəal/interaktiv təlimdə də qiymərləndirmə ilə bağlı problemlərin olduğu etiraf edilir. Lakin bu yeni yanaşmada irəliyə doğru atılmış ciddi addımlar, tətbiq edilməyə layiq cəhətlər çoxdur. Ənənəvı təlimdə müəllimləri çıxılmaz vəziyyətə salan belə bir məqam hökm sürürdü: gündəlik (cari) qiymətləndirmədə aşağı qiymət alan şagirddə dərs ilinin sonrakı dövrlərində (rüblərdə) irəliləmə müşahidə olunsa da, onun illik (yekun) qiymətini yüksəltmək mümkün olmurdu. Qiymətləndirmədə belə bir vəziyyətin hökm sürməsi təkcə müəllimlər üçün yox, şagirdlər üçün də acinacaqlı olurdu. Ən başlıcası şagirdlər zəif mənimsədikləri və aşağı qiymət aldıqları mövzuların üzərinə yenidən qayıtmağa nə ehtiyac duyurdular, nə də bununla ciddi maraqlanan olurdu. Rübsonu təkrarlar xeyli dərəcədə formal xarakter daşıyırdı, tək-tək müəllimlər hazırlığında irəliləyiş olan şagirdlərin qiymətini, cari qiymətləndirmə imkan verməsə*

*də, yüksəldir və buna görə də rəhbərliyin ciddi məzəmmətini eşidirdilər.*
*Fəal/interaktiv təlimdə isə qiymətləndirmə elə formada həyata keçirilir ki, şagirdlərdə öz uğurlarını daha da artırmaq həvəsi və imkanı təmin olunur.*
*Dərsdə ya qiymətləndirmə, ya da* ***refeksiya*** *ilə məhdudlaşmaq olar. Refleksiyanın mahiyyəti bundan ibarətdir ki, dərsdə baş vermiş nə varsa, şagirdin xəyalında yenidən canlandırılır. Başqa sözlə, biliklərin mənimsənilməsinin bütün mərhələlələri yada salınmaqla onların təhlili və dərindən başa düşülməsi prosesı yaşanır. Bu, göründüyü kimi, sadəcə xatırlama deyildir. Şagirdlər yeni biliyi və bacarığı* ***necə*** *mənimsədiklərini şərh etməklə keçilmiş yolu dərk edilmiş şəkildə aydınlaşdırırlar. Bu mərhələnin uğurlu keçməsi üçün ilk vaxtlar müəllimin yönəldici suallarına ehtiyac olsa da, şagirdlər tədricən müstəqil şərhə yiyələnirlər.*

Müəllim qeyd edir ki, fəal/interaktiv dərsin təşkili üzrə iş A.Ələsgərin "Dağlar" qoşmasının məzmununun öyrənilməsi timsalında aydınlaşdırılacaqdır. Bu mərhələdə motivasiyanın yaradılması, tədqiqat sualının (onun bir variantı belə ola bilər: Fəal/interaktiv dərsin təşkili üçün daha əhəmiyyətli olan şərtlər hansılardır?) müəyyənləşdirilməsi həyata keçirilə bilər.

İlk növbədə şeirin oxusu üzrə iş təşkil edilir. Oxunu fərqli formalardan birinin tətbiqi ilə reallaşdırmaq olar. Vaxta qənaət baxımından səssiz oxudan istifadə daha əlverişlidir. Şeirin məzmununun mükəmməl mənimsənilməsinə əmin olduqdan sonra dərsin planlaşdırılmasının başlıca tələbləri əsas tutulmaqla A. Ələsgərin "Dağlar" qoşmasının məzmununun öyrədilməsi timsalında tapşırıqların hazırlanmasına və yerinə yetirilməsinə başlanılır. Bu işin icrasında müxtəlif iş formalarından istifadə etmək mümkündür, kiçik qruplarda iş forması tətbiq edilərsə, tapşırıqların aşağıdakı şəkildə qruplaşdırlması məqsədəuyğundur**.**

**Birinci qrup**

– Məzmun standartlarını, təlim nəticələrini, qiymətləndirmə meyarlarını müəyyənləşdirin.

– Dərsin növünü müəyyən edin.

**İkinci qrup**

– Motivasiya, problemin qoyuluşu mərhələsini işləyib hazırlayın.

– Tədqiqat sualını müəyyənləşdirin.

– İnteqrasiya imkanlarını müəyyənləşdirin.

**Üçüncü qrup**

– Tapşırıqlar hazırlayaraq iş vərəqlərində (dörd qrup üçün) əks etdirin.

**Dördüncü qrup**

– Dərsin müxtəlif mərhələlərində müəllimin istifadə etməsi üçün suallar hazırlayın. İş formalarını və məlumat mənbələrini müəyyənləşdirin.

**Beşinci qrup**

– Tədqiqatın sonunda formalaşması gözlənilən ideyaları və nəticələri müəyyənləşdirin.

– Dərsin hər mərhələsinə sərf olunacaq vaxtı müəyyən edin.

**Altıncı qrup**

– Qiymətləndirmənin üsul və vasitələrini müəyyənləşdirin.

– Dərsdə lazım olacaq ləvazimatı və təchizatı müəyyən edin.

Tapşırıqlar, təbiidir ki, qarşılıqlı əlaqəlidir, biri digərini tamamlayır, məhz buna görə də qruplar araşdırma zamanı bir-birinin işinin məzmunu ilə tanış olmalı, əldə olunan nəticələri nəzərə almalıdırlar. Məsələn, iş vərəqlərini (onlarda tapşırıqlar əks olunur) hazırlayan üçüncü qrupun ikinci qrupun işi ilə (tədqiqat sualı müəyyənləşdirilir) tanış olması vacibdir. Bu, tapşırıqların hazırlanması üçün zəruridir. Yaxud dördüncü qrup üçüncü qrupun hazırladığı cavablarla mütləq tanış olmalıdır. Bu, dərsin müxtəlif mərhələləri üçün sualların hazırlanması işini asanlaşdırır.

Qrupların işinin bu istiqamətdə təşkili qarşılıqlı öyrənməni, zənginləşməni, geniş əməkdaşlığ təmin edir, bütövlükdə icra olunan işin vahid proses olduğunu anlamağa imkan yaradır.

Üçüncü qrup üçün müəyyənləşdirilmiş tapşırıq (dörd qrup üçün tapşırığın müəyyənləşdirilməsi və iş vərəqlərində əks etdirilməsi)

zahirən çətin görünsə də, əslində, icrası asandır. Tələbələr məzmun üzrə işdə hansı məsələlərin əhatə olunduğunu mühazirə, təcrübi məşğələlərdə mənimsəmiş olurlar. Eləcə də vəsaitin sonundakı dərs nümunələrindən, ədəbiyyat dərsliklərindən yararlanmaq yetərlidir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra məlumat mübadiləsinin, müzakirənin təşkili, nəticənin çıxarılması və s. həyata keçirilir. Qrupların qiymətləndirilməsi üçün meyar cədvəlindən istifadə etmək olar.

*Məşğələdə işin gedişi aşağıdakı ardıcıllıqla gerçəkləşdirilir:*

- Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilir və müvafiq meyarlar əsasında qiymətləndirilir.
- Tələbələrin fəal/interaktiv dərsin mahiyyəti, mərhələləri barədəki məlumatları aşkara çxarılır.
- "Məlumat üçün" başlıqlı mətnin oxusu və məzmununun mənimsənilməsi həyata keçirilir.
- Motivasiyanın yaradılması, tədqiqat sualının müəyyənləşdirilməsi və s. (Onun bir variantı belə ola bilər: Fəal/interaktiv dərsin təşkili üçün daha əhəmiyyətli olan şərtlər hansılardır?) reallaşdırılır.
- A.Ələsgərin "Dağlar" qoşmasının oxusu təşkil edilir.
- Fəal/interaktiv dərsin planlaşdırılması əsasında hazırlanmış tapşırıqlar (kiçik qruplar üçün tapşırıqlar yuxarıda verilib) icra edilir.
- Tapşırığın icrası üçün ayrılmış vaxt başa çatdıqdan sonra məlumat mübadiləsi, müzakirənin təşkili, nəticənin çıxarılması və s. həyata keçirilir.
- Qruplar əvvəlcədən müəyyənləşdirilmiş meyar cədvəli əsasında qiymətləndirilir.

*Müəllim məqsədindən, qrupun səviyyəsindən çıxış etməklə məşğələni fərqli məzmunda və formada təşkil edə bilər. Məsələn, dərsin planlaşdırılmasını əhatə edən tapşırıqlar cütlük şəklində yerinə yetirilir. İcra üçün ayrılmış vaxt başa çatdıqdan sonra eyni tələblər üzrə işləyən cütlüklər kiçik qruplarda birləşir, fikir mübadiləsi aparır və vahid təqdimat hazırlayırlar. Məşğələnin bu formada təşkili xeyli vaxt və çevik iş tələb etdiyindən onu hazırlıqlı qruplarda tətbiq etmək məqsədəuyğundur.*

**Aşıq Ələsgər**
**DAĞLAR**

Bahar fəsli, yaz ayları gələndə,
Süsənli, sünbüllü, lalalı dağlar,
Yoxsulu, ərbabı, şahı, gədanı,
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Min cür çiçək açır, laləzar olur,
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar.

Yazın bir ayıdı çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın,
Axtarma motalın, yağın, qaymağın...
Zənbur çiçəyindən bal alı, dağlar.

Yayın əvvəlində dönürsən xana,
Son ayda bənzərsən yetkin bostana,
Payızın zəhməri qoyur virana,
Dağıdır üstündən cəlalı, dağlar.

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib gedəni peşiman eylər,
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar.

Ağ xələt bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib keyfinə dəyməz,
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı,
Ələsgər Məcnuntək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar.

**Evdə iş**
“A. Ələsgərin “Dağlar” şeirinin təhlili” mövzusunda dərsin planını hazırlayın.

## ÜÇÜNCÜ MƏŞĞƏLƏ

## DİAQNOSTİK (X SİNİFDƏ "ŞİFAHİ XALQ ƏDƏBİYYATI" BÖLMƏSİNİN TƏDRİSİ ƏRƏFƏSİNDƏ) VƏ SUMMATİV QİYMƏTLƏNDİRMƏNİN (VII SİNİFDƏ "VƏTƏN SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏLƏRİ" BÖLMƏSİ ÜZRƏ) TƏŞKİLİ

*Məşğələnin məqsədi diaqnostik və summativ qiymətləndirmənin tətbiqi üzrə bacarıqların inkişaf etdirilməsidir. Məşğələdə aşağıdakı mənbələrdən istifadə edilməsi məqsədəuyğundur:*

– *Ədəbiyyat (dərslik). 5-ci sinif üçün. "Bakı" nəşriyyatı, Bakı, 2016.*
– *Ədəbiyyat (dərslik). 7-ci sinif üçün. "Bakı" nəşriyyatı, Bakı, 2018.*
– *Ədəbiyyat (7-ci sinif). Müəllim üçün metodik vəsait. "Bakı" nəşriyyatı, Bakı, 2014.*
– *Ədəbiyyat (dərslik). 8-ci sinif üçün. "Bakı" nəşriyyatı, Bakı, 2019.*
– *Ədəbiyyat (dərslik). 10-cu sinif üçün. "Bakı" nəşriyyatı, Bakı, 2017.*

### Məşğələnin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi məşğələnin əvvəlində müəyyənləşdirilir. Bu, təqdimatların dinlənilməsi və müzakirə edilməsi (müəllim başqa variantlara da müraciət edə bilər) əsasında həyata keçirilir. Ev tapşırığı (A. Ələsgərin "Dağlar" şeirinin təhlili" mövzusunda dərs planının hazırlanması) ilə bağlı cavablardan fərqli hissələrin dinlənilməsi və müzakirəsi aparılır. Bu proses digər tələbələrin öz işlərinə tənqidi yanaşmalarına imkan yaradır.

Tələbələrin müzakirədə verdikləri cavablar əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında qiymətləndirilə bilər.

Sonrakı mərhələdə müəllim məşğələnin mövzusu, məqsədləri barədə yığcam məlumat verir. O, summativ qiymətləndirmə üzrə işin **auditoriyada – bu dərs saatında** icra ediləcəyini elan edir.

Müəllim tələbələrin mühazirə və təcrübi məşğələlərdə məktəbdaxili qiymətləndirmə ilə bağlı mənmsədikləri bilik və bacarıqları yığcam müsahibə ilə aşkara çıxarır. Tələbələrin məktəbdaxili qiymətləndirmənin mahiyyəti, tətbiqi qaydaları barədə aydın təsəvvürləri varsa, birbaşa tapşırığın icrasına başlamaq olar. Təsəvvür zəif, birtərəfli olarsa, "Məlumat üçün" mətninin öyrənilməsinə vaxt ayrılır.

***Məlumat üçün***

*Bu gün ümumtəhsil mktəblərində qiymətləndirmənin üç növü (diaqnostik, summativ, formativ) tətbiq edilir. **Diaqnostik** qiymətləndirmə fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin (mövcud) bilik və bacarıq səviyyəsini müəyyənləşdirmək və qiymətləndirmək məqsədilə aparılır. Bu qiymətləndirmə dərs ilinin əvvəlində, müəyyən bölmənin, mövzunun tədrisi ərəfəsində və s. hallarda aparılır. Diaqnostik qiymətləndirmə şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparmağa, şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat almağa imkan yaradır. Diaqnostik qiymətləndirmə rəsmi xarakter daşımır, rəqəmdən istifadə olunmur, nəticələr müəllimin şəxsi qeyd dəftərində əks olunur.*

*Diaqnostik qiymətləndirmədə istifadə olunan üsul, vasitə və fəaliyyətlər:*

| ***Üsullar*** | ***Vasitələr*** | ***Fəaliyyətlər*** |
|---|---|---|
| *Müşahidə (müəllim şagirdin təlim fəaliyyətini müşahidə əsasında qiymətləndirir)* | *Müşahidə vərəqi (şagirdin təlim fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarlar cədvəli)* | *Dərsdə şagirdin müşahidə edilməsi və meyarlar cədvəlinə qeyd olunması* |
| *Müsahibə (şifahi yoxlama)* | *Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin diaqnoz qoymaq istədiyi məsələnin yazıldığı vərəq)* | *Mövzu üzrə müsahibə götürmək* |
| *Tapşırıqvermə* | *Çalışmalar* | *Praktik çalışmaların, tapşırıqların yerinə yetirilməsi* |

| | | |
|---|---|---|
| *Valideynlərlə və digər fənn müəllimləri ilə söhbət* | *Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq)* | *Valideyn iclasında sorğu vərəqlərinin doldurulması* |

*Diaqnostik qiymətləndirmənin nəticələrindən aşağıdakı məqsədlərlə istifadə olunur:*

- *təlim prosesində fərdi yanaşmanı təmin etmək üçün;*
- *təlim prosesində qrup və cütlük şəklində işin təşkilində;*
- *tədris olunacaq fənn və ya mövzu ilə bağlı maraq və ehtiyacların müəyyənləşdirilməsində.*

***Formativ** qiymətləndirmə təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Bu qiymətləndirmə tədris prosesinin düzgün istiqamətləndirilməsini, səmərəliliyini, şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir, şagirdlərin təlim ehtiyaclarının öyrənilməsinə imkan yaradır. Formativ qiymətləndirmə dərsdə reallaşdırılması nəzərdə tutulmuş alt standartlardan çıxarılmış təlim nəticələrinə görə müəyyən edilmiş meyarlara əsasən aparılır. Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil, nəticələr müəllimin şəxsi qeyd dəftərində və məktəbli kitabçasında şagirdin idraki və hərəki fəaliyyətinin səviyyələrinə uyğun sözlərlə ifadə olunur. Heç bir rəqəm və simvollardan, "mənimsəyir", "mənimsəmir", "bilir", "bilmir", "yaxşı", "orta", "zəif" və digər bu kimi ifadələrdən istifadə olunmur.*

*Formativ qiymətləndirmənin üsul və vasitələri, şagird fəaliyyətinin növləri:*

| **Üsullar** | **Vasitələr** | **Fəaliyyətlər** |
|---|---|---|
| *Müşahidə* | *Müşahidə vərəqləri* | *Qrupda və ya cütdə iş* |

| | | |
|---|---|---|
| *Şifahi sual-cavab* | *Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi* | *Təqdimatlar* |
| *Tapşırıqvermə* | *Çalışmalar* | *Praktik çalışmaların, tapşırıqların yerinə yetirilməsi* |
| *Layihə* | *Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli* | *Müstəqil (yaradıcı) iş* |
| *Rubrik* | *Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası* | *Yoxlanılan bacarıq üzrə hər hansı fəaliyyət növü* |
| *Şifahi və yazılı təqdimat* | *Meyar cədvəli* | *Qrup işi və ya fərdi tədqiqatın təqdimatı* |
| *Test* | *Test tapşırıqları* | *Test tapşırıqlarının həlli* |
| *Özünüqiymətləndirmə* | *Özünüqiymətləndirmə vərəqləri* | *Özünüqiymətləndirmə vərəqlərinin doldurulması* |

*Formativ qiymətləndirmənin nəticələrindən aşağıdakı məqsədlərdə istifadə olunur:*

- *cari və perspektiv (illik) planlaşdırmanın təkmilləşdirilməsində;*
- *təlim tapşırıqlarının seçilməsində;*
- *ev tapşırıqlarının verilməsində;*
- *sinifdəki təlimin istiqamətləndirilməsində;*
- *təlim prosesində qrup və cütlərin təşkilində;*
- *şagirdlərin irəliləyiş və geriləmələrinin müəyyənləşdirilməsində.*

***Summativ** qiymətləndirmə təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirməsidir. Summativ qiymətləndirmə məzmun standartlarının mənimsəmə səviyyəsinin etibarlı* göstəricisidir. *Bu qiymətləndirmə kiçik (KSQ) və böyük (BSQ)*

*summativ qiymətləndirmə olaraq iki növdən ibarətdir. KSQ tədris vahidlərinin (bölmələrin) sonunda, BSQ isə ildə iki dəfə – yarımillərin sonunda aparılır. Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təqdim etdiyi qiymətləndirmə vasitələrindən istifadə edilməklə fənni tədris edən müəllim tərəfindən aparılır.*

*Summativ qiymətləndirmənin üsul və vasitələri, şagird fəaliyyətinin növləri:*

| ***Üsullar*** | ***Vasitələr*** | ***Fəaliyyətlər*** |
|---|---|---|
| *Yoxlama yazı işləri* | *Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi* | *Tapşırığın vaxtında, düzgün, sərbəst yerinə yetirilməsi* |
| *Layihə* | *Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli* | *Layihənin meyarlar əsasında qiymətləndirilməsi* |
| *Şifahi sorğu* | *Şifahi sorğu üzrə qeydiyyat vərəqi* | *Mövzunun şərhi* |
| *Test* | *Test tapşırıqları* | *Test suallarının cavablandırılması* |
| *Tapşırıqvermə* | *Tapşırıq, çalışma* | *Praktik tapşırıqların vaxtında, düzgün, sərbəst yerinə yetirilməsi* |
| *Yaradıcılıq və əl işləri* | *Mövzulara müvafiq olaraq rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri* | *Təsvir etmə, yapma, şerin qoşulması, essenin yazılması, məsələ qurmaq, əl işləri hazırlamaq* |

*Summativ qiymətləndirmənin nəticələrindən aşağıdakı məqsədlərlə istifadə olunur:*

- *şagirdlərin təlim problemlərini müəyyənləşdirmək;*
- *şagirdlə əks əlaqə qurmaq və onu stimullaşdırmaq;*
- *planlaşdırma aparmaq və təkliflər vermək;*

*Kiçik və böyük summativ qiymətləndirmə rəsmidir və 1, 2, 3, 4, 5 rəqəmlərindən istifadə olunaraq jurnalda qeyd olunur.*

Mətnin necə mənimsənildiyini müsahibə ilə aşkara çıxarmaq olar. Unudulmamalıdır ki, mətnin mükəmməl öyrənilməsi, dərindən dərk edilməsi tapşırıqların uğurla yerinə yetirilməsinə əhəmiyyətli təsir edir.

Müəllim diqqəti **summativ** qiymətləndirməyə yönəldir, suallar əsasında motivasiya yaradır, *tədqiqat sualının* müəyyənləşdirilməsinə nail olur. Onun bir variantı belə ola bilər: *Sizcə, summativ qiymətləndirmənin daha səmərəli keçməsi hansı şərtlərdən asılıdır?*

Müəllimin təklifi ilə tələbələr fərdi olaraq VII sinfin ədəbiyyat dərsliyindəki *"Vətən sevgisi, qəhrəmanlıq səhifələri"* bölməsi ilə tanış olurlar. Bunun üçün ayrılmış vaxt başa çatdıqdan sonra həmin bölmənin tədrisi ilə bağlı **metodik vəsaitdəki** materiallar nəzərdən keçirilir. Başlıca diqqət bu bölmədəki əsərlərin (S. Vurğun. Azərbaycan, M. Hüseyn. Odlu qılınc, M. İbrahimov. Azad, B. Vahabzadə. Vətəndaş, Z. Xəlil. Sonuncu güllə) tədrisində reallaşdırılmış məzmun standartlarına yönləndirilir. Bunun ardınca qiymətləndirmə materialı (A.Şaiq. "Murad") elan olunur. Tapşırığın icrasına başlamazdan əvvəl tələbələrə izah olunmalıdır ki, "Vətən sevgisi, qəhrəmanlıq səhifələri" bölməsindəki əsərlərin tədrisində reallaşdırılmış məzmun standartlarının hamısının summativ qiymətləndirmə üçün müəyyənləşdiriləcək sual və tapşırıqlarda əhatə edilməsi vacib deyildir. Standart qrupundakı təmsilçilərin olması isə zəruridir.

İş prosesində tələbələrin müəllim üçün metodik vəsaitdən, eləcə də bu vəsaitin sonunda "Əlavələr" başlığı altında verilmiş summativ qiymətləndirməyə aid nümunədən yararlanmaları faydalıdır. Müəllim tələbələrin tətbiq etdikləri üsulların rəngarəng olmasına xüsusi diqqət yetirir.

Tapşırıq müxtəlif iş formalarının tətbiqi ilə yerinə yetirilə bilər. Fərdi, yaxud cütlük şəklində iş forması tətbiq edilərsə, sonda **sərbəst fikir mübadiləsinə** imkan yaradılır. Yalnız bundan sonra müzakirə təşkil edilir. Müzakirədə bütün tələbələrin sərbəst fikir bildirmələrinə, diskussiyaya geniş imkan yaradılır.

Kiçik qruplarda iş forması seçilərsə, icra olunmiş işlərin məzmunu ilə bağlı məlumat mübadiləsinin, müzakirənin aparılması, nəticələrin çıxarılması, fərziyyələrlə müqayisə edilməsi vacibdir.

Tələbələrin nailiyyətlərinin qiymətləndirilməsi üçün əvvəlcədən meyarların müəyyənləşdirilməsi faydalıdır.

*Məşğələdə işin gedişi aşağıdakı ardıcıllıqla gerçəkləşdirilir.*

– Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilir və müvafiq meyarlar əsasında qiymətləndirilir.
– Tələbələrin məktəbdaxili qiymətləndirmə ilə bağlı bilik və bacarıqlarının səviyyəsi aşkara çıxarılır.
– "Məlumat üçün" mətninin oxusu və məzmununun mənimsənlməsi həyata keçirilir.
– Motivasiya yaradılır, tədqiqat sualı müəyyəlşdirilir.
– Tələbələr summativ qiymətləndirmə üçün seçilmiş bölmə ilə ("Vətən sevgisi, qəhrəmanlıq səhifələri", VII sinif) tanış olurlar.
– Tələbələr bölmənin tədrisi ilə bağlı metodik vəsaitdəki materiallarla tanış olurlar. (Ədəbiyyat, 7-ci sinif. Müəllim üçün metodik vəsait. "Bakı" nəşriyyatı, Bakı, 2014).
– Vəsaitin "Əlavələr" başlığı altında verilmş "Kiçik summativ qiymətləndirməyə aid nümunə" nəzərdən keçirilir.
– Qiymətləndirmə materialı ilə (A. Şaiq. "Murad") tanışlıq və summativ qiymtləndirmə üçün sual-tapşırıqların hazırlanması həyata keçirilir.
– Məşğələdə aparılmış işin nəticələri geniş müzakirə edilir.

Məşğələnin sonunda **diaqnostik** qiymətləndirmə üzrə yığcam müsahibə aparılır, onunla bağlı ev tapşırığının yerinə yetirilməsi barədə tövsiyələr verilir. Tələbələrə izah olunur ki, diaqnostik qiymətləndirmə ilə bağlı icra edəcəkləri iş X sinifdə "Şifahi xalq ədəbiyyatı" bölməsinin tədrisi ərəfəsində – birinci dərs saatının başlanğıcında reallaşdırılmaq üçün müəyyələşdirilmişdir. Şifahi xalq ədəbiyyatı ilə bağlı X sinfə qədər mənimsənilmiş bilik və bacarıqların səviyyəsi barədə tələbələrdə təsəvvürün olması vacibdir. Bunun üçün tələbələrin məzmun standartları və ədəbiyyat dərslikləri ilə tanış olmaları faydalıdır. Artıq diaqnostik qiymətləndirmənin üsul və vasitələri ilə tanış olan tələbələrə bir daha xatırladılır ki, bu qiymətləndirmə test tapşırıqlarının, şifahi təqdimatların hazırlanması, esse, inşa yazılması və s. tətbiqi ilə keçirilə bilər. Tələbələr bütün hallarda hansı məzmun standartlarının reallaşdırılacağını əvvəlcədən müəyyənləşdirməli, nəticələri təhlil etməlidirlər.

## Abdulla Şaiq
## MURAD
*(hekayə)*

Tiflis şəhərinin yaxınlığında Kolbasan adlı bir kənd var idi. Bu kəndin dörd bir yanı bağlıq, meşəlik yerlər idi. Elə ki bahar olurdu, ağaclar çiçəkləyir, təpələr, yamaclar yumşaq ot və çiçəklərlə döşənirdi; rəngbərəng güllərin ətri kəndi bürüyürdü. Səhər-axşam quşların gözəl nəğməsinin arası kəsilmirdi. Bahar çağı bu kənd o qədər gözəl olurdu ki, insan baxmaqdan doymurdu.

Belə tərifini etdiyimiz kənddə Bilqeys və Murad adında bacı-qardaş yaşayırdı. Bilqeys olduqca mehriban və tərbiyəli bir qız idi. Hər gün bağçalarındakı tut ağacının altında palaz salardı; oyuncaq şeylərini də yığıb öz-özünə oynardı. Arabir qonşuları Səltənət də gələrdi. Hər ikisi birlikdə deyər, gülər, oynayardılar; otaq bəzəyərdilər, bir-birinə qonaq gedib-gələrdilər. Ayaqsayma, gəlin-gəlin oynardılar. Arabir də atası aldığı "Uşaq gözlüyü" kitabının şəkillərinə tamaşa edər və oxuyardılar. Günləri xoş və asudə keçərdi.

Amma Murad heç qapı-bacada tapılmazdı. Səhərdən çıxar, bir də axşam evə qayıdardı. O gün olmazdı ki, Muradın üst-başı cırılmış evə qayıtmayaydı. Hər kəslə döyüşər, söyüşərdi. Ona görə də onu heç kəs sevməzdi. Hətta öz ata və anası da Muradı sevməzdi. Onun əlindən bacısı Bilqeysin heç rahatlığı yox idi. Onun oyuncaqlarını dağıdar və sındırar, bəzən də özünü döyüb qaçardı. Ona görə Bilqeys qardaşı Muradla heç oynamaz və ondan qorxardı.

Bilqeys mehriban bir qız olduğu üçün, qapılarındakı heyvanları və quşları da çox sevərdi. Heyvanlar və quşlar da əvəzində Bilqeysi sevərdi və ondan qaçmazdılar. Çox vaxt olurdu ki, bağçada oynadığı zaman Mərmər pişik, Dəmir it, Məstan xoruz, toyuq-cücələr Bilqeysin başına cəm olar və onun əlindəki çörək parçasını alıb yemək istərdilər. Bilqeys isə çörəyi parça-parça edib, bir az Məstan xoruza, bir az toyuq-cücələrə, bir az da it və pişiyə atardı. Hamısı soxulub yeməyə məşğul olardı. Bilqeys qara, iri gözlərini onlara dikib, baxardı. Bir də görərdi ki, it öz çörəyini yeyib qurtardı, yavaş-yavaş ağzını pişiyin qismətinə uzadır; pişik də mırıldaya-mırıldaya çalışır ki, ağzındakı çörəyi yeyib qurtarsın; həm də pəncələri ilə yerdə qalan çörəyi bərk-bərk tutub, acıqlı-acıqlı itə baxır, amma it baxmayıb soxulur ki, pişiyin, ya xoruz-toyuğun çörəyini qapıb yesin; bu vaxt xoruz qaqqıldaya-qaqqıldaya itin üstünə atılırdı; ya da pişik belini qaldırıb,dişlərini itin üstünə qıcayıb mırıldayır və birdən-birə sıçrayıb itin üzünü cırmaqlayardı.

Bilqeys bu tamaşadan doymazdı, gülə-gülə onların davasına baxardı.

Murad isə yoldaşlarını və bacısını incitdiyi kimi, heyvanları da incidərdi. Hələ qapılarındakı Dəmir köpəyə onun əlindən gün və dirilik yox idi. Qapı ağzında uzanıb yatarkən, Murad əlindəki daş ilə itin harası gəldi vurardı. Yazıq it quyruğunu böyrünə qısıb, vəngildəyə-vəngildəyə qaçar, yainki iri, qara ağzını açıb Murada hürərdi. Odur ki, Muradı heç sevməzdi. Onu harada görsə, qaçıb

gizlənərdi. Mərmər pişik də Muradı sevməzdi. Onun kölgəsini uzaqdan görüncə, quyruğunu qısıb, tələsik özünü bir yerə soxub gizlənərdi; çünki həmişə Murad onun quyruğundan tutub dartardı. Murad pişiyin arxasınca düşdüyü zaman pişik əvvəlcə qaçar, Muradın ona yaxınlaşdığını görüncə birdən-birə dayanardı, belini dikləyib, dişlərini qıcayıb, "puf" – eləyib Muradın üstünə atılardı. Hətta bir neçə dəfə əllərini, üzünü cırmaqlayıb Muradı ağlaya-ağlaya evlərinə göndərmişdi.

Elə ki axşam olurdu, təpələrdən yamaclardan naxır mələşəmələşə kəndə gəlirdi. Murad əlinə çomağını alıb naxırın içinə girərdi, əlindəki çomaqla o inəyin, bu öküzün harası gəldisə vurardı. Murad bir dəfə bir qara inəyin arxasınca düşdü. İnək axırda təngə gəlib döndü və Muradı buynuzlarına götürüb yerə elə çırpdı ki, qurbağa kimi yerə sərildi. Murad tamam bir saat özünə gəlmədi. Ondan sonra Murad nə Dəmir köpəyə, nə Mərmər pişiyə, nə də inəklərə yaxın gedə bilmirdi.

Bağçalarındakı yasəmən ağacı altında bir səbət içində toyuqlar yumurtlayırdı. Bir gün Murad bağçada gəzirdi. Çil toyuq yumurtlayıb çıxanda, Murad gördü. Yavaş-yavaş gəlib yumurtaları cibinə doldurdu ki, aparsın. Məstan xoruz bunu uzaqdan görüb, uça-uça Muradın üstünü aldı. Murad çox qorxmuşdu, bilmirdi ki, nə etsin. Axırda arxasında gizlətdiyi yumurtanı atıb qaçdı, xoruz əl çəkməyib, onun arxasınca düşdü. Muradın ayağı bir ağaca ilişib yıxıldı; cibindəki yumurtalar sındı, cibi və paltarı yumurtaya bulandı.

Murad qorxusundan evə gedə bilmirdi. Çünki paltarları başdan-ayağa yumurta sarısı idi. Murad bağçada bir alma ağacının altında oturub nə edəcəyini düşünürdü. Gördü ki, Bilqeys bağçaya çıxdı, "Məstan, Məstan!" deyə bağırdı. Bağçanın o biri başından xoruz uça-uça gəldi. Bilqeys xoruzun başına bir papaq tikmişdi. Mehriban qız o balaca əlləri ilə xoruzun papağını başına qoydu, lent ilə bağladı, sonra şirin dil ilə dedi ki:

– Məstan xoruzum, ceyran xoruzum, gör sənə nə gözəl papaq tikmişəm!

Deyəsən ki, xoruz da Bilqeysin mehriban dilini anlayırdı; gözlərini Bilqeysin üzünə dikib, dinməz-söyləməz dururdu. Bilqeysin qəlbinə dəymək istəmirdi; çünki Bilqeys onları çox sevirdi. Hətta sarı toyuq da, cücələri ilə Bilqeysin Məstan xoruza bağışladığı papağa diqqətlə baxırdı. Bilqeys çox şad idi.

Murad gördü ki, xoruzun başı Bilqeysə məşğuldur, cəld qaçıb yenə də yasəmən ağacının altına getdi, qorxa-qorxa ətrafa baxdı ki, görsün bir kimsə varmı. Heç kəsi görmədi, yavaşca gəldi, yumurta səbətini arxasına aldı ki, qalxıb getsin.

Yaxında qazlar otlayırmış, Murad isə onları görməmişdi. Yumurtalarını səbətlə oğurlayıb, aparmaq istədiyini görən qazlar birdən-birə hər tərəfdən Muradın yolunu kəsdilər. Murad heç bilmədi ki, qorxusundan nə etsin; çünki qazların hər biri Muradı bir tərəfə çəkirdi; xüsusən anaş qazdan çox qorxmuşdu; çünki o çox acıqlı idi. Qorxurdu ki, sıçrayıb gözlərini çıxarsın. Axırda arxasından səbəti ağzı üstə yerə atdı, yumurtaların hamısı sındı. Murad

bu dəfə əvvəlkindən də çox qorxmuşdu. Yenə alma ağacının altında oturdu. Çox qəmgin idi. Fikir edirdi ki, evə getsə, anası onu döyər; çünki həm paltarı yumurtaya batmışdı, həm də səbətdəki yumurtaları sındırmışdı.

Murad alma ağacının altında qəmgin-qəmgin oturub öz-özünə fikir eləyirdi: "Nə üçün Bilqeysi hamı sevir? Hamı ona məhəbbət yetirir? Amma məni heç kəs sevmir? Nə üçün?..

**Evdə iş**

Şifahi xalq ədəbiyyatı üzrə mənimsənilmiş bilik və bacarıqların diaqnostik qiymətləndirmə vasitələrinin tətbiqi ilə müəyyənləşdirilməsi.

## DÖRDÜNCÜ MƏŞĞƏLƏ

## FORMATİV QİYMƏTLƏNDİRMƏNİN TƏŞKİLİ ÜZRƏ İŞ (S. Rəhimov. Qara torpaq və sarı qızıl)

*Məşğələnin məqsədi formativ qiymətləndirmənin tətbiqi üzrə bacarıqların inkişaf etdirilməsidir. Məşğələdə aşağıdakı mənbələrdən istifadə edilməsi məqsədəuyğundur:*

- *Ədəbiyyat (dərslik). 5-ci sinif üçün. "Bakı" nəşriyyatı, 2016.*
- *Ədəbiyyat (5-ci sinif). Müəllim üçün metodik vəsait. "Bakı" nəşriyyatı, 2016.*

**Məşğələnin gedişi**

Məşğələ ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi ilə başlanır.

Bu, müsahibənin tətbiqi, təqdimatların dinlənilməsi və müzakirəsinin aparılması və s. formalarda həyata keçirilə bilər. Başlıca diqqət standartlarının seçilməsindəki səriştəlilik və onların reallaşdırılması məqsədilə hazırlanmış sual və tapşırıqların məzmunu üzərində cəmləşdirilir.

Cavablar müəllimin məqsədəuyğun saydığı və əvvəlcədən müəyyənləşdirdiyi meyarlar üzrə qiymətləndirilir.

Yeni dərs – məşğələ fərqli variantlarda təşkil edilə bilər. Burada onlardan birinin təsviri verilmişdir.

Məşğələnin mövzusu (S. Rəhimov. "Qara torpaq və sarı qızıl" hekayəsinin məzmunu üzrə dərsdə formativ qiymətləndirmənin apa-

rılması), məqsədi elan edilir, müəllim **formativ** qiymətləndirmənin mahiyyəti, əhəmiyyəti və tətbiqi qaydaları ilə bağlı suallardan istifadə etməklə motivasiya yaradır. Sonda tədqiqaqt sualı formalaşdırılır.

**Tədqiqat sualı**: *Formativ qiymətləndirmənin obyektiv və çevik keçirilməsinin başlıca şərtləri, sizcə, hansılardır?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Tələbələr S. Rəhimovun "Qara torpaq və sarı qızıl" hekayəsi ilə tanış olurlar. Oxunu fərqli formalarda (fərdi səssiz oxu, səsli oxu, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu və s.) təşkil etmək olar. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra məzmunun necə mənimsənildiyi yığcam müsahibə ilə müəyyənləşdirilə bilər. Sonra tələbələrə aşağıdakı tapşırıq üzərində cütlük şəklində işləmək təklif olunur:

1. "Qara torpaq və sarı qızıl" hekayəsinin məzmununun öyrənilməsinə həsr olunmuş dərs üçün motivasiya yaradın və tədqiqat sualı müəyyənləşdirin.
2. Bu dərs üçün məqsədəuyğun saydığınız məzmun standartlarını və təlim nəticələrinini müəyyənləşdirin.
3. Seçdiyiniz məzmun standartlarının reallaşdırılmasına imkan yaradan sual və tapşırıqlar, onlara cavablar hazırlayın.
4. Seçdiyiniz məzmun standarlarına (təlim nəticələrinə) müvafiq qiymətləndirmə meyarları müəyyənıəşdirin.
5. Şifahi təqdimata hazırlaşın.

Sual və tapşırıqların hazırlanmasının əhəmiyyəti tələbələrə izah olunmalıdır. Aydınlaşdırılmalıdır ki, bu istiqamətdə işin icra olunması dərslikdəki sual və tapşırıqların mahiyyətinin başa düşülməsinə, onlara tənqidi və yaradıcı münasibətin formalaşmasına, nəzəri biliklərin tətbiqinə, praktik bacarıqların inkişafina imkan yaradır. Tapşırıqla bağlı hələ zəruri praktik bacarıqlar mənimsəməyən tələbələrə işin gedişində müəllimin yardım etməsi vacibdir. Tələbələrin dərsliklərdən, vəsaitin sonundakı dərs nümunələrindən yararlanması məqsədəuyğundur.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra məlumat mübadiləsinin, müzakirənin aparılmasına vaxt ayrılır. Aydınlaşır ki, tələbələrin icra etdikləri işlər səviyyəcə fərqlidir. Məlumat mübadiləsini və müzakirəni diqqətlə izləyən tələbələr bir-birinin işinin səviyyəsini əsaslandırdıqları meyarlar üzrə müəyyənləşdirdirməkdə çətinlik çəkmirlər.

Nəticə, ümumiləşdirmə mərhələsində tələbələrdə belə bir qənaət möhkəmlənir ki, formativ qiymətləndirmənin səmərəli keçməsi dərsin mükəmməl planlaşdırımasından, məzmun standartlarının və təlim nəticələrinin düzgün müəyyənləşdirilməsindən, sual və tapşırıqların məqsədyönlü hazırlanmasından və s. əhəmiyyətli dərəcədə asılıdır.

Sonda meyarların əsasında aparılan formativ qiymətləndirmə dörd səviyyə üzrə cədvəldə əks etdirilir.

*Məşğələdə işin gedişi aşağıdakı ardıcıllıqla gerçəkləşdirilir.*

– Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilir və müvafiq meyarlar əsasında qiymətləndirmə aparılır.
– S. Rəhimovun “Qara torpaq və sarı qızıl” hekayəsinin oxusu təşkil edilir.
– Formativ qiymətləndirmənin mahiyyəti, əhəmiyyəti və tətbiqi qaydaları üzrə suallar əsasında motivasiya yaradılır, tədqiqat sualı müəyyənlşdirilir.
– Tələbələr təklif edilmiş tapşırıq üzərində cütlük şəklində işləyirlər.
– İşin icrasına ayrılan vaxt başa çatdlqdan sonra məlumat mübadiləsi, müzakirə və s. təşkil edilir.
– Müəyyələşdirilmiş meyarlar əsasında formativ qiymətləndirmə aparılır, nəticələr cədvəldə dörd səviyyə üzrə əks etdirilir.

**S. Rəhimov**

## QARA TORPAQ VƏ SARI QIZIL

Evi kəndin qırağında olan Qurban kişinin güzəranı ağır keçirdi. Buna görə də o, özünü oda-közə vurur, nəinki təkcə gündüz, hətta gecə də əlləşirdi. Qurban çox az yatırdı. Öz qeyrətinə sığışdıra bilmirdi ki, onun eyvanı odunsuz, bucağı unsuz, ocağının üstü sacsız, qazansız qalsın. O nə ala öküzün, nə də kəhər yabının yedəyindən əl çəkirdi. Bunlar gecəli-gündüzlü qan-tərə bata-bata işlədiyi halda, onun üç oğlundan heç birisi işləmir, əlini ağdan-qaraya vurmur, “ver yeyim, ört yatım, gözlə canım çıxmasın!” – deyib veyillənirdi.

Söz-sözə gələndə böyük kiçiyə, kiçik də ortancıla buyururdu. Onların üçü də gün yağlanandan sonra yuxudan oyanır, olan-olmazından yeyir, kənd arasına çıxır, dolanıb gəzirdilər. Dünyadan gedən arvadından sonra çöl işi bir yana, ev işi də Qurbanın boynuna düşmüşdü. Qurban dəyirman

çarxı kimi bu ağır işlərin altında fırlanır, evin əzab-əziyyətini təkcə çəkirdi.

Qışın oğlan çağında yabısını yedəyinə alıb meşəyə yollanır, tir kəsib odun doğrayır, yabısına yükləyir, aran kəndlərinə aparır, darıya, düyüyə verib evinə gətirirdi. Ortasına örkən gəlməz palıd ağaclarından kəsir, taxta çıxarır, baha qiymətə satır, dizləri şalvarlarından çıxan oğlunun üçünə də yaraşıqlı geyim alır, dost-düşmən içində başını aşağı salmaq istəmirdi. Yaz gələndə Qurban ala öküzü qoyub ortaq olur, çala yerini əkirdi. Bu zaman üç oğlundan heç birisi nə hodağa gedir, nə xışın dəstəyindən yapışır, nə toxum daşıyır, nə də bir saxsı su gətirib işə-gücə yarayırdı...

Qurbanı belə bir fikir narahat eləyirdi ki, bəs ondan sonra uşaqlar necə olacaqlar? Bəs nə təhər olsun ki, uşaqlar onun-bunun ocağının qırağını kəsməsinlər, əl açıb dilənməsinlər? Bu dərd onu əldən salıb üzürdü. Qurban dərd əlindən zara gəlsə də, işindən qalmır, yazda dəryaz çalıb yabısına, öküzünə ələf toplayır, yayda çin götürüb aranlara enir, payızda taxıl təmizləyib dəyirmanlıq edir, qışda da odun aparıb satırdı.

Vaxtından əvvəl saqqalı ağaran, beli bükülən atanın çuxura düşmüş gözləri gah böyük oğlu Şahməmmədə, gah ortancıl oğlu Xanməmmədə, gah da Bəyməmmədə zillənirdi. Bu vaxt Qurban kəndi cəzana gətirən əzazil pristavı öldürəndən sonra Sibirə sürgün edilən, orada tələf olan igid qardaşlarının adına yaraşdırıb, arzu-ümidlə oğullarına qoyan arvadı Hürzadı xatırlayır, ürəyi odlanır, tüstüsü təpəsindən çıxırdı.

Ancaq Qurban qeyrətinə boğulub, dost-düşmən qabağında min məşəqqətlə daşdan çörək çıxarıb gətirsə də, bir gün damın ortasında uzanıb qaldı, od-ocaq söndü, tüstü kəsildi. Qardaşların üçü də qış gecəsinin yarısına qədər qonşudakı dərviş nağılına qulaq asıb evə döndü. Qurban sabaha sağ çıxmayacağını yəqin edib onları yanına çağırdı:

– Vəsiyyətim var!

– Nə vəsiyyətin var, ata? – deyə oğlunun üçü də birdən soruşdu.

– Vəsiyyətim budur ki, ömrünüzdə dilənçi olmayın, özgəyə əl açmayın!

– Qoyduğun bu var-dövlətnənmi? – deyə Şahməmməd mızıldandı, – bir ala öküz, bir də yabı?..

Qulağı böyük oğlunun sözünü alan Qurban:

– Mən sizə başqa var qoymuşam, – deyə gözlərini dörddirəkli damın hisli bacasına doğru çevirdi: – Qurtarmayan... tükənməyən... var qoymuşam...

– Bəs hanı o var, ata?

– Haradadır o qurtarmayan var, ata?

– Mən körpənə nə qoymusan, ata?

– Sən körpəmə, – deyə Qurban əlini qaldırıb kiçik oğlunun aşağı əyilmiş başında gəzdirdi, – çoxlu var qoymuşam...

– Dinməyin, qoy kişi vəsiyyətini eləsin, – deyə Şahməmməd sərtləşdi.

Qurban ömründə oğlanlarının bircə dəfə də yeyin danışdığını görməmişdi. Onun dodaqları qaçdı, istehzalı gülüşü göründü. Uşaqlar bir-birini didişdirə-didişdirə təkidlə soruşdular:

– Ata, haradadır o var?

– Ata, o var kimindir? – deyə bir-birinə macal vermədən acgözlüklə xəbər aldılar.

– Ata, vəsiyyətini elə!

Oğlunun üçü də quzu kimi mələdi. Qurban birtəhər əlini qaldırdı.

– Çala yerdə... – elə bil, o danışmır, ömrünün tükənməz məşəqqətlərindən, min bir əzab-əziyyətindən şikayətlənirdi, – çala... yerdə...

– Çala yerdə nə, ata? – deyə oğlunun üçü də can çəkişdirən kişini sıxcaladılar.

– Çala yerdə... Bir... küp... qızıl...

Qardaşların hərəsi bir cür mızıldandı:

– O boyda çala yerin harasında?

– Çala yerin ortasında, qırağında?

– Bəlkə, ağ qayanın dibində?

Qurbandan səs-səmir gəlmədi. Susdu, özü də əbədi susdu...

Kəsmək bilməyən qar meşəli dağları basdı, çovğun gücləndi, hər yandan silinib-süpürülən qar Qurbanın çala yerinə doldu. On gündən sonra çala yerdə qardan ağ bir dağ ucaldı. Üstündən bir qədər keçdi, bir gün isti yel əsdi, qarı əritdi, şaxta düşüb suyu dondurdu. İndi də çala yerdən göy bir dağ əmələ gəldi. Qardaşlar çala yerə yaxın düşə bilmədilər, aclıq onları əldən saldı.

– Əlac sənə qalıb, Şahməmməd, – deyə ortancıl qardaşla kiçik qardaş böyük qardaşa üz tutdu, – atamız yerindəsən!

Böyük qardaş gərdənini dartıb dodaqlarını büzdü. Qardaşlar çəpləşdilər, dava-şava gücləndi. Atadan qalanları bölüşdürməyə başladılar.

– Öküz mənim, – deyə Şahməmməd soyuq səslə dilləndi, – yabı da ikinizin!

Qurbanın evində görünməyən bir narazılıq əmələ gəldi. Nə ortancıl, nə də kiçik qardaş yabıya yiyə durmadı. Axırda yabını da, öküzü də bir-bir satıb yedilər.

Qardaşın üçü də ata mülkünün üstündə əlbəyaxa oldu, səs-küyə kəndin ağsaqqalı gəldi, qardaşları barışdıra bilmədi, qonşular toplaşdı, qardaşların ağzını bir yerə yığa bilmədilər.

Aclıq oğlanların üstünə qılınc çəkdi. Qardaşlar indi dil tapdılar. Əvvəlcə damın eyvanının ağac-uğacını satıb yedilər, sonra pəyənin pərdilərini una verib uddular.

"Göy dağ" ərimәyə başlayan kimi qardaşın biri o birisinə macal vermədən, alaqaranlıqda özünü çala yerə yetirdi. Onlar obanın cütü qoşulana qədər çala yeri qazmağa başladılar, hey o üz-bu üzə çevirdilər.

Beləliklə, çala yerin torpağı on dəfə o tərəf-bu tərəfə ələndi, nə küp tapıldı, nə də tək bircə dənə qızıl! Ancaq üç qardaşın üçünün də əli üç dəfə suluqladı, sonra dəmir kimi bərkidi. Onların fikri yüz yeri gəzib dolandı. "Bəlkə, küpü çıxarıb, qızılı aparıblar? Bəlkə, kişi qızdırma içində sayıqlayırmış?"

– Necə olsun, Şahməmməd? – deyə ortancıl qardaşla kiçik qardaş yenə də böyük qardaşı yaxaladılar.

Şahməmməd başını aşağı salıb fikrə getdi.

– Əlac atamızın mülkündən qalan mərəyi dəyər-dəyməzinə satmaqdır, – deyib barmağı ilə çovustanı göstərdi, – daha havalar da qızır!

– Hava qızsa da, – deyə kiçik qardaş əl-ayağa düşdü, – bəs başımızı harada saxlayaq? Bizə bir daldanacaq lazımdır, ya yox?

– Başlı başını saxlasın, – deyə Şahməmməd qeyzlə cavab verdi.

– Daha mən sizin üçün ömrümü çürüdə bilmərəm. Hərə öz gününə ağlasın. Yoxsa dədəniz bilmirdi ki, qoyduğu var-dövlətnən siz necə olacaqsınız? Çala yerin qızıl küpü! – Şahməmməd əlini-əlinə vurub acı-acı güldü.

Uzun deyişmədən, bir-birinə ağır sözlər deyəndən sonra onlar mərəyi də satıb beş manat aldılar:

– Deməк, bölüşürük.

Ortancıl dillənincə kiçik qardaş yerindən sıçradı:

– Toxuma verək, qardaşlar, toxuma. Səpək çala yerə! Yoxsa Qurbanın uşağını dilənçi eləmək istəyirsiniz? Yazıq atam ömründə nə qədər əzab çəksə də, bir adama baş əymədi!..

Kiçik qardaşın sözlərindən sonra böyük də, ortancıl da başını aşağı dikdi. Kiçik qardaş aradakı beş manatı çalıb götürdü, beş pud buğda aldı. Onlar toxumu aparıb çala yerə səpdilər. Bütün kənd heyran qaldı, kəndin çiyni çuxalı ağsaqqalı öz demisini sümürüb "hımm" elədi: "Yönlü oğul neylər ata malını, yönsüz oğul neylər ata malını?!"

Hamının əkdiyi toxumdan qabaq üç qardaşın toxumu cücərib torpaqdan çıxdı. Hamının yerindən qabaq üç qardaşın çala yeri göy gölə döndü. Çala yerdə buğda buğum-buğum olub sünbül açdı, dəniz kimi dalğalandı. Vaxt gəldi, vədə yetişdi, günəşin altında çala yer boya-boy, enə-en parpar parıldadı, qardaşların gözündə sarı sünbüllü torpaq bitməz-tükənməz qızıla döndü.

**Evdə iş.** 1. Bədii əsərin təhlili üzrə formativ qiymətləndirmənin tətbiqi (S. Rəhimov. Qara torpaq və sarı qızıl). 2. M.P.Vaqifin "Hayıf ki, yoxdur..." əsərinin məzmunu ilə tanışlıq.

## BEŞİNCİ MƏŞĞƏLƏ

## LİRİK ŞEİRLƏRİN TƏHLİLİ ÜZRƏ İŞİN TƏŞKİLİ. (M. P.Vaqif. "Hayıf ki, yoxdur...").

*Məşğələnin məqsədi lirik şeirlərin tədrisi üzrə bacarıqların inkişaf etdirilməsidir. Məşğələdə aşağıdakı mənbələrdən istifadə edilməsi məqsədəuyğundur.*

*– Ədəbiyyat (dərslik) 8-ci sinif üçün. "Bakı" nəşriyyatı, Bakı, 2019.*

*– Ədəbiyyat (8-ci sinif). Müəllim üçün metodik vəsait. "Bakı" nəşriyyatı, Bakı, 2015.*

**Məşğələnin gedişi**

Məşğələ ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi ilə başlanır. Bu məqsədlə təqdimatların dinlənilməsi və müzakirə edilməsi (başqa variant istisna deyildir) məqsədəuyğundur. Bədii əsərin təhlili üzrə formativ qiymətləndirmə üçün müəyyənləşdirilmiş məzmun standartlarının nə dərəcədə müvafiq olduğuna, təlim nəticələrinin onlara uyğunluğuna, qiymətləndirmə meyarlarının dəqiqliyinə xüsusi diqqət yetirilir. Müəyyənləşdirilmiş məzmun standartlarının (təlim nəticələrinin) reallaşdırılması məqsədilə hazırlanmış tapşırıqların geniş müzakirəsi aparılır. Meyarlara əsasən qiymətləndirilmə aparılır.

Yeni dərsin mövzusu ( M. P. Vaqifin "Hayıf ki, yoxdur..." qoşmasının timsalında lirik şeirin təhlili üzrə işin təşkili) və məqsədi elan edilir. Şeirin məzmunu üzrə müsahibə aparılır. Lirik şeirlərin tədrisi ilə bağlı mühazirə və təcrübi məşğələlərdə mənimsənilmiş bilik və ilkin bacarıqlar müsahibə ilə yada salınır. "Məlumat üçün" mətninin oxusu və məzmununun ətraflı mənimsənilməsinə vaxt ayrılır.

***Məlumat üçün***

*Təhsil proqramında (kurikulumda) əksini tapmış məzmun standartlarının çoxu bilavasitə, qalan qismi isə bilvasitə bədii əsərlərlə bağlıdır. Buna uyğun olaraq, ədəbiyyat dərsliklərində bədii əsərlərə və deməli, həm də lirik şeirlərə geniş yer verilmişdir. Bu, bədii əsərlərin tədrisi ilə bağlı zəruri metodik bilik və praktik bacarıqlara elə universisitet illərindəcə yiyələnməyi mühüm vəzifə kimi qarşıya qoyur.*

*Metodik ədəbiyyatda belə bir fikir var ki, lirikanı şagirdlər digər ədəbi növlərlə müqayisədə çətin mənimsəyirlər. Bunun səbəbini janrın təbiəti ilə izah edən alimlər çoxdur. Onların fikrincə, emosional təsir baxımından lirik şeirlərin əhəmiyyətli dərəcədə fərqlənməsi məhz elə bununla əlaqədardır, yəni janrın özünün mahiyyətindən irəli gəlir. Belə əsərlərdə gerçəklik hissin, həyəcanın ifadəsi formasında təqdim olunur. Müəllifin hiss və düşüncəsinin açıq və parlaq ifadəsi oxucuda müvafiq reaksiyaya səbəb olmalıdır. Lakin insanın ruhi aləminin "fəaliyyəti", emosional durumu lirik şeirdə xeyli dərəcədə "sıxılmış"şəkildə əks olunur. Bu isə şeirdə fikrin – nitqin xüsusi biçimdə (bunun əsasında misra dayanır) ifadəsinə səbəb olur. Misra və digər ahəng yaradan vasitələr özəl poetik intonasuya yaradır. Ahəngdarlıq, poetik intonasiya, ifadəlilik yalnız forma elementləri kimi yox, həm də əsərin məzmununun yaradılması vasitəsi kimi qiymətləndirilir. Deməli, şeirdə əks olunan hiss, həyəcan onun obrazlı strukturu ilə qarşılıqlı əlaqədədir və oxucuya beləcə də təsir edir. Belə qənaət*

*hasil olur ki, şeirin mənasını o vaxt bütünlüklə başa düşmək olar ki, hər iki komponent – hiss, həyəcan və poetik struktur (geniş anlamda) qavranılmış olsun.*

*Bu fikrin tərəfdarlarına görə, lirik şeirin qavranılmasının və təhlilinin çətinliyi buradan qaynaqlanır. Məktəbli-oxucunun "emosional təcrübəsi" yetərincə olmadığından lirik şeirlər onlar üçün heç də həmişə əlçatan olmur.*

*Bu yanaşma müxtəlif tədqiqatlarda təkrarlanıb və müəyyən dəlillərlə əsaslandırılıb. Lakin problemlə bağlı bəzi məqamların dəqiqəşdirilməsinə və zənginləşdirilməsinə ehtiyac duyulur. Bu, əlbəttə, xüsusi tədqiqatın vəzifəsidir, burada lirik şeirlərin mənimsənilməsinə çətinlik yaradan məsələlərin ümumi cizgiləri üzərində dayanılır. Təcrübə göstərir ki, lirik şeirlərin heç də hamısı məktəbli-oxucu üçün çətin qavranılan deyil. Bu və ya digər şeirdə lap az, deyək ki, cəmi bir-iki təsvir elementinin olması, hətta VI və VII sinif şagirdlərinə belə onda əks olunmuş hiss və düşüncə barədə fikir deməyə imkan yaradır. O lirik şeirləri mənimsəmək şagirdlər üçün çətin olur ki, onlarda obrazlılıq daha güclüdür. Və üstəlik belə əsərlərdə zəngin hisslərin, əvəzlənən ruhi halların mürəkkəbliyi qavramaya çətinlik yaradır. Obrazlılıq, təbiidir ki, emosionallıq yaratmalıdır, emosionallıq mövcuddursa, estetik təsir də olmalıdır. Bu qəbildən lirik şeir şagirddə – hissi, duyumu, "emosional yaddaşı" və təcrübəsi zəngin olmayan oxucuda adekvat təəssürat doğura bilmir. Əsərdən "yan keçən" məktəbli-oxucu şeirdəki zəngin hisslər aləminə daxil ola bilmir və nəticədə laqeyd oxucu kimi formalaşır. Belə olan halda estetik tərbiyədən və inkişafdan danışmaq mümkün deyildir.*

*Aydınlaşır ki, lirik şeirlərin tədrisi müəllimdən böyük zəhmət, pedaqoji məharət və səriştə tələb edir. O, səbirlə və məqsədyönlü şəkildə apardığı işlə poeziyanın gözəlliyini yetirmələrinə sevdirə bilər.*

*Bu gün lirik şeirlərin məktəbdə öyrədilməsinə təhsil proqramı və dərsliklərin verdiyi istiqamət necədir?*

*Lirik şeirlərin tədrisi aşağıdakı mərhələlər əsasında həyata keçirilir:*

*I. Əsərin (şeirin) oxusu.*

*II. Məzmun üzrə iş.*

*III. Təhlil üzrə iş.*

*Bunların səciyyəvi cəhətlərini ayrı-ayrılaqda nəzərdən keçirək.*

*Lirik şeirlərin həcmi onların bütövlükdə oxusunu sinifdə həyata keçirməyə imkan verir. Lakin şeirlərin sinifdə oxusuna birdən-birə başlanılmır. Oxuya qədər bir sıra hazırlıq işləri aparılır. V–IX siniflərin dərsliklərində (VI sinif çıxılmaqla) növ və janrından asılı olmayaraq bütün əsərlərin əvvəlində üç qrup sual-tapşırıq verilmişdir:*

1. *Yada salın.*
2. *Düşünün.*
3. *Oxuda aydınlaşdırın.*

*Bunların hər birinin tələblərinə diqqətlə yanaşılması dərsin səmərəli keçməsinə, şagirdlərin fəallığının ilk dəqiqələrdən təmin edilməsinə əhəmiyyətli təsir edir.*

***"Yada salın"*** *(iki sualı əhatə edir) başlıqlı suallardan birincisi tədris edilən əsərlə, daha dəqiq deyilsə, mövzu ilə bağlı şagirdlərin mövcud biliklərinin yada salınması məqsədini güdür. İkinci sual isə mövzu üzrə müstəqil fikir yürüdülməsi niyyətilə müəyyənləşdirilmişdir. Məsələn, VII sinfin dərsliyində (S. Vurğunun "Azərbaycan" şeiri ilə əlaqəli) suallar belədir:*

– *Vətənimizə həsr olunmuş hansı əsərləri xatırlayırsınız?*
– *Vətən mövzusunda yazılmış əsərlərdə, başlıca olaraq hansı məsələlər əksini tapır?*

*Bu suallar məktəb təcrübəsində çox vaxt* ***motivasiyanın*** *yaradılması üçün tətbiq olunur.*

***"Düşünün"** başlıqlı sual əsərin tədrisinə həsr edilən bütün dərslərdə diqqət mərkəzində saxlanılır və şagirdlər ona əsaslandırılmış cavab axtarışında olurlar. Həmin sualdan məktəb təcrübəsində yeni mövzunun müəyyənləşdirilməsi, çox vaxt isə motivasiyanın yaradılması məqsədilə də istifadə olunur. S.Vurğunun "Azərbaycan" şeiri ilə bağlı **"Düşünün"** başlıqlı sual dərslikdə belədir:*

*– Vətən mövzusunda yazılmış əsər hansı cəhətlərinə görə hamı tərəfindən sevilə bilər?*

***"Oxuda aydınlaşdırın"** başlıqlı tapşırıqlar birbaşa məzmun standartlarının (1.1.1.; 1.1.5.) reallaşdırılmasına xidmət edir və oxu prosesində həyata keçirilir. Deməli, şeirin oxusundan əvvəl şagirdlərin diqqəti dərslikdəki bu üç qrup sual və tapşırıqların üzərində cəmləşdirilməli, müvafiq iş aparılmalıdır.*

*Müəllim hələ dərsə hazırlıq mərhələsində reallaşdırılacaq standartları, təlim nəticələrini, qiymətləndirmə meyarlarını müəyyənləşdirir. Motivasiyanın yaradılması yollarını, tədqiqat sualının müvafiq variantını və onun standartların reallaşmasındakı mövqeyini, dərsin digər mərhələləri ilə bağlı məsələləri (necə təşkil ediləcək, hansı suallardan istifadə olunacaq, nə qədər vaxt ayrılacaq və s.) aydınlaşdıraraq qeydlər edir.*

*Oxu prosesi tədqiqaqtın aparılması qismində qəbul edilir. Oxunun təşkilində hansı oxu növünün, təlim metodu və iş formasının, tapşırığın seçilməsi isə mühüm məsələdir. Bu, oxunun uğurlu keçməsini təmin edən əhəmiyyətli şərtlər kimi dəyərləndirilir. **Müəllimin səriştəsi, şeirin janrı, şagirdlərin hazırlıq səviyyəsi, məktəbdə təlim mühitinin (zəruri ədəbiyyatın, texniki təminatın, internet resursalrının mövcudluğu və s.) hansı səviyyədə olması həmin şərtlərin reallaşmasında həlledici rol oynayır.***

*Şeir heca vəznində yazılbsa, qavranılması şagirdlər üçün çətin deyilsə, sinifdə **səssiz** oxunun təşkili məqsədəuyğundur. Oxu prosesində "Oxuda aydınlaşdırın"*

*tapşırığını şagirdlər müstəqil yerinə yetirirlər. Ehtiyac yaranan hallarda müəllim onlara istiqamətləndirici suallarla yardım edir.*

*Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərə cütlük şəklində* ***fikir mübadiləsi*** *(bu, məlumat mübadiləsi anlamında deyil) aparmaq imkanı yaradılır. Sonra cütlərə kiçik qruplar yaratmaq təklif olunur. Şagirdlər şeirdən aldıqları təəssüratları kiçik qruplarda bölüşməklə yanaşı, mənasını aydınlaşdırdıqları sözlər, müəyyənləşdirdikləri bədii təsvir və ifadə vasitələri barədə məlumat mübadiləsi aparır, onlara təqdim edilmiş iş vərəqlərindəki tapşırıqları (bu tapşırıqlar məzmun üzrə işlə bağlı olur) yerinə yetirirlər. (Bu qəbildən tapşırıqlarla tanış olmaq üçün vəsaitin sonunda verilmiş dərs nümunələrinə, eləcə də ədəbiyyat dərsliklərinə baxmaq lazımdır).*

*Kiçik qruplarda əldə edilmiş nəticələrlə bağlı məlumat mübadiləsinin, müzakirənin aparılması, nəticənin çıxarılması, fərziyyələrlə müqayisə müəllimin istiqmətləndirici sualları ilə müşayiət olunur.*

*Yaradıcı tətbiqetmə əksər hallarda ev tapşırığı qismində verilir.*

*Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar üzrə aparılır.*

*Səkkizinci sinifdən başlayaraq dərsliklərə* ***aruz*** *vəznində yazılmış şeirlər daxil edilmişdir. Belə əsərlərin tədrisində müəyyən fərqlər vardır. Bu, həmin əsərlərin qavranılmasındakı çətinlikdən irəli gəlir. Metodik ədəbiyyatda, haqlı olaraq, bu qəbildən əsərlərin tədrisinə müəllimi izahlı oxusu ilə başlamağın faydalı olduğu göstərilir. İzahlı oxuya şagirdlərin fəal cəlb olunması vacibdir (bu cəhətlər ədəbiyyat dərsliklərində nəzərə alınmışdır).*

*Lirik şeirlərin* ***təhlili*** *ilə bağlı metodik ədəbiyyatımızda maraqlı fikirlər, faydalı tövsiyələr vardır. Bütün bunlar istər təhsil proqramı, istərsə də dərsliklər hazırlanarkən nəzərə alınmışdır.*

*Dərsliklərdə X–XI siniflərdə təhlilin təşkili üzrə verilən tapşırıq və tövsiyələr V–IX siniflərdən mürəkkəblik, tələblərinin əhatəliliyi baxımından fərqlənir. Ümumi xətt isə hər iki mərhələdə eynidir.*

*Dərsliklər üçün təhlil üzrə sual və tapşırıqlar hazırlanarkən ((bu tapşırıqlarla tanış olmaq üçün vəsaitin sonunda verilmiş dərs nümunələrinə, eləcə də ədəbiyyat dərsliklərinə baxmaq lazımdır) məzmun standartlarının reallaşdırılması və fəal/interaktiv təlimin tətbiqi imkanları nəzərə alınmışdır. Sual və tapşırıqlarda əhatə olunmuş təhlil obyektləri, əsasən, aşağıdakılardır:*

*–əsərin mövzusu;*
*–əsərin problematikası;*
*–əsərin ideyası;*
*–lirik obraz;*
*–lirik qəhrəman;*
*–əsərin janrı;*
*–əsərin quruluşu;*
*–əsərin dili (obrazlılıq yaradan vasitələr: məcazlar və s.);*
*–lirika ilə bağlı nəzəri anlayışlar və s.*

*Təhlildə əhatə olunan bu məsələlər tədricən mənimsənilir, qazanılmış bilik və bacarıqlar sinifdən-sinfə keçdikcə dərinləşdirilir və zənginləşdirilir. Müxtəlif siniflərin dərsliklərində təhlil üzrə tapşırıqları izləməklə bunu müşahidə etmək olar. Təhlilə hazırlıq məqsədilə V–IX siniflərin dərsliklərinə yığcam tövsiyələrin daxil edilməsi məktəb təcrübəsində uğur qazanmışdır. Bu tövsiyələr V, VII siniflərin dərsliklərində "Əsərlə bağlı açıqlamalar", VIII–IX siniflərin dərsliklərində isə "Əsərin təhlilinə hazırlaşın" başlığı altında verilmişdir. Müəllim əsərin təhlilindən əvvəl bu mətnlərin oxusunu və mənimsənilməsini təşkil edir. Bu, təhlil prosesində şagirdlərin səmərəli fəaliyyətinə səbəb olur. V sinfin dərsliyindən bir nümunəyə (X.R.Ulutürk. Oğul həsrəti) baxaq.*

***"Əsərlə bağlı açıqlamalar.*** *Şeirdə şair atanın Vətən uğrunda döyüşlərdə şəhid olmuş oğlu Təbriz Xəlilbəyli*

*haqqında düşüncələri, kədər, iftixar qarışıq kövrək hissləri əks olunub. Əsərlərində həmişə vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm etmiş sənətkar bu şeirində də oğlu Təbrizin timsalında ana yurdumuzu qoruyan, bu yolda canını qurban verən igidlərimiz haqqında ürək sözlərini ifadə edir, torpaqlarımızın işğaldan azad olunacağına, düşməndən intiqam alınacağına inamını əks etdirir.*
*Əsərin üzərində müşahidələrinizi davam etdirin, şairin Vətənimizin müdafiəçiləri, torpaqlarımıza göz dikmiş xain qonşularımız haqqındakı fikirlərinə əsaslandırılmış münasibət bildirməyə çalışın.*
***Araşdırın. Fikirləşin. Cavab verin.***
1. *Şeir sizdə hansı hisslər oyatdı? Fikrinizi misallarla əsaslandırın.*
2. *Şairin kədərini daha qabarıq ifadə edən sözlər, misralar hansılardır? Niyə belə düşünürsünüz?*
3. *Ata şəhid oğlunu nə üçün “bəxtəvər”, “üzüağ” adlandırır?*
4. *Kremlin və daşnakların adını çəkməkdə şairin məqsədi nədir?*
5. *Əsər Təbrizin Vətənə və düşmənə münasibəti barədə sizdə hansı təsəvvür yaratdı? Nə üçün?*
6. *Şeirdə iki Təbrizdən söz açılmasının səbəbi, sizcə, nədir?*
7. *Şeirdə işlənmiş bədii təsvir vasitələrinin fikrin təsir gücünün artmasında rolunu aydınlaşdırın.*
8. *Əsərdəki başlıca fikir, sizcə, nədir?”*

*Göründüyü kimi, şeirdə ifadə olunmuş hissin, həyəcanın duyulmasına, qiymətləndirilməsinə tapşırıqda xüsusi önəm verilmişdir. Bu, övladını itirmiş atanın sonsuz kədərinin, faciəsinin məktəbli-oxucunun anlamasına nail omaq məqsədini güdür.*
*Qeyd edildiyi kimi, VIII–IX siniflərin dərsliklərində fərqli başlıq altında, həm də daha mürəkkəbləşdi-*

*rilmiş mətn-tövsiyə və tapşırıq verilmişdir. VIII sinfin dərsliyindən bir nümunəyə (Q.Zakir. Durnalar) nəzər salaq.*

*“* ***Əsərin təhlilinə hazırlaşın.***

1. *Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.*

*Şair qoşma janrında olan “Durnalar”ı ömrünün ən ağır günlərində – sürgündə olarkən yazmışdır.Onun sürgün edilməsinin səbəbi isə vəzifə, ixtiyar sahiblərinin ədalətsizliyini, rüşvətxorluğunu açıq tənqid etməsi idi. Elə buna görə də şairə böhtan atılmış və o, Bakıya sürgün edilmişdir.*

*Şeirin belə adlanması təsadüfi deyildir; ədəbiyyatımızda durna obrazı daha çox qəriblik, vətən həsrəti anlamındadır. Lakin şeirdə təkcə vətən həsrəti yox, ciddi ictimai mətləblər də, şairin gizli niyyəti də əksini tapıb. Bunu aydınlaşdırmağınız əsərin ideyasını başa düşməyinizi xeyli asanlaşdıracaqdır.*

*Şeirdəki ahəngdarlığı, ürəyəyatımlılığı dərhal hiss etdiniz. Bu, əsərin bədii gözəlliyindən irəli gəlir. Şeirin bədii gözəlliyini təmin edən vasitələri aydınlaşdırmağa çalışın. Sözlərin necə seçildiyinə, qafiyələrin uğurlu olub-olmadığına, məcazların roluna xüsusi diqqət yetirin.*

***Araşdırın. Fikirləşin. Cavab verin.***

1. *Şeir hansı mövzuda yazılıb?*
2. *Şair kədər, həsrət hisslərini inandırıcı, təsirli ifadə edə bilmişdirmi? Fikrinizi əsərdən gətirdiyiniz nümunələrlə əsaslandırın.*
3. *“Şeirdə yalnız vətən həsrəti deyil, ciddi ictimai məsələlər də əksini tapıb” fikrini doğru sayırsınızsa, mövqeyinizi nümunələrlə əsaslandırın.*
4. *Şeirin bədii təsir gücünü artıran vasitələr hansılardır? Onların rolunu nümunələrlə əsaslandırın.*
5. *Şeirdəki başlıca fikir – ideya, sizcə, nədir?”*

*X–XI siniflərin dərsliklərində isə vəziyyət xeyli fərqlidir. Bu dərsliklərdə lirik şeirlərin, eləcə də digər ədəbi növlərdə olan əsərlərin təhlili ilə bağlı ayrıca materiallar (artıq qeyd edildiyi kimi, onlarda əsərlərin geniş təhlili əks etdirilməmişdir) verilmiş, kənarlarında suallar (bunlar "mətnkənarı suallar" adlanır) yazılmışdır. Həmin materiallarda bu suallara çox qısa – istiqamətləndirici cavablar əks etdirilmişdir. Məqsəd şagirdləri tədqiqata, müxtəlif mənbələrə (mənbələr dərslikdə göstərilib) müraciət etməyə istiqamətləndirmək, cavabları müstəqil hazırlamalarına nail olmaqdır. Materialla (mətnlə) bağlı tapşırıq məhz bunu tələb edir: "Mətni oxuyun. Araşdırma apararkən ordakı fikirləri zənginləşdirin və tamamlayın". Məsələn, M. Füzulinin "Məni candan usandırdı..." qəzəlinin təhlilinə həsr olunmuş mətnin kənarında əks olunmuş suallar belədir:*

*–Qəzəl hansı mövzuda yazılıb? Əsərdə təsvir edilən məhəbbəti necə izah etmək doğru olar?*

*–Lirik qəhrəman – aşiq hansı cəhətləri lə diqqətu cəlb edir? Onun öz eşqində sadiq, dönməz olmasının əsl səbəbi nədir?*

*–Qəzəlin bədii keyfiyyətini artıran vasitələr hansılardır?*

*Şagirdlər bu sualların cavabları əks olunmuş yığcam – istiqamətləndirici mətni sinifdə oxuyur (dərsdə əlavə mənbələrdən istifadə edilməsi çox faydalıdır) aşağıdakı tapşırıqları yerinə yetirirlər:*

*–Kiçik qruplarda birləşərək öyrəndiklərinizlə bağlı fikir mübadiləsi aparın.*

*–Qəzəlin məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin.*

*– Gəldiyiniz nəticələri təqdimatlar əsasında müzakirə edin.*

*– Şeirin ilk üç beytinin ifadəli oxusuna hazırlaşın. İfaçılıq vəzifəsini müzakirə əsasında müəyyənləşdirin.*

*(Araşdırmanın davam etdirilməsi ev tapşırığı kimi verilir).*

**Evdə iş**

**Araşdırmanı davam etdirin:**

1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.
2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.
3. Qəzəlin ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin. (Araşdırma aparmaq üçün dərsliklərdə konkret mənbələr göstərilib).

***Mənbələr***


1. *Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.*
2. *M. Füzuli. Əsərləri. 6 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, s. 5, 14-15, 20-21.*


Göründüyü kimi, X–XI siniflər üçün hazırlanmış dərsliklər məzmununa, metodik tələblərinə görə orijinal olub, şagirdlərdə müstəqil təhlil bacarıqlarının formalaşmasına geniş imkan yaradır.

"Məlumat üçün" mətninin necə mənimsənilməsi müxtəlif vasitələrin (müsahibə, təqdimatların dinlənilməsi və müzakirəsi, dialoq əsasında diskussiya və s.) tətbiqi ilə aşkara çıxarılır. Müəllim mətnin mükəmməl mənimsənildiyinə əmin olduqdan sonra növbəti işə (M. P. Vaqifin "Hayıf ki, yoxdur..." şeirinin təhlili üzrə işin təşkilinə) keçə bilər.

İşin təşkili üçün müxtəlif variantların tətbiqi mümkündür.

**Birinci variant.** Tələbələr fərdi olaraq təhlil dərsinin planını hazırlayırlar.

**İkinci variant.** Tələbələr cütlük şəklində təhlil dərsinin planını hazırlayırlar.

**Üçüncü variant.** Tələbələr kiçik qrup şəklində təhlil dərsinin planını hazırlayırlar.

**Dördüncü variant.** Təhlil dərsinin planının hazırlanması üzrə işlər kiçik qrupların arasında bölüşdürülərək icra edilir. Bu variant tətbiq edilərsə, kiçik qrupların bir-biri ilə qarşılıqlı əlaqədə, əməkdaşlıq şəraitində işləmələri vacibdir. İcra olunacaq iş kiçik qrupların arasında aşağıdakı şəkildə bölüşdürülə bilər.

**I qrup:** Dərsdə reallaşdırılacaq məzmun standartlarının, təlim nəticələrinin, qiymətləndirmə meyarlarının, lazım olacaq ləvazimatın, təchizatın müəyynləşdirilməsi.

**II qrup:** Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi üzrə işin təşkili, qiymətləndirmənin üsul və vasitələrinin hazırlanması. İnteqrasiya imkanlarının və dərsin növünün, hər mərhələsində sərf olunacaq vaxtın müəyyənləşdirilməsi.

**III qrup:** Motivasiya, problemin qoyuluşu mərhələsinin, tədqiqat sualının müəyyənləşdirilməsi üzrə işin icra edilməsi.

**IV qrup:** Tapşırıqların hazırlanması, dörd, yaxud beş iş vərəqində əks etdirilməsi.

**V qrup:** Məlumat mübadiləsi və müzakirənin təşkili mərhələlərinin işlənib hazırlanması, istifadə olunacaq sualların tərtibi, formativ qiymətləndirmə üsullarının müəyyənləşdirilməsi.

**VI qrup:** Nəticə, ümumiləşdirmə mərhələsinin işlənib hazırlanması, ev tapşırığının müəyyənləşdirilməsi.

Dördüncü variant tətbiq edilərsə, qrupların hazırladıqları işlər sonda müzakirə edilir, birləşdirilərək vahid dərs planı şəklinə salınır.

Hansı variantın tətbiqindən asılı olmayaraq, əldə olunmuş nəticələr üzrə məlumat mübadiləsi və müzakirənin aparılmasına məşğələnin sonunda vaxt ayrılır.

Tapşırıqlar hazırlanarkən VIII sinif üçün müəyyənləşdirilmiş məzmun standartlarının bir daha nəzərdən keçirilməsi, vəsaitin sonundakı dərs nümunələri ilə tanışlıq faydalıdır.

Müəllim ev tapşırığının yerinə yetirilməsi ilə bağlı tövsiyə verir. Qeyd edir ki, altınçı məşğələdə epik əsərlərin tədrisi üzrə işin təşkili nəzərdə tutulmuşdur. Tapşırıqların səmərəli yerinə yetirilməsi müəyyən nəzəri məlumata yiyələnməyi zəruri edir. Bu məqsədlə həmin məşğələdə verilmiş "Məlumat üçün" mətninin evdə ətraflı öyrənilməsi vacibdir.

*Məşğələdə işin gedişi aşağıdakı ardıcıllıqla gerçəkləşdirilir.*

– Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilir və qiymətləndirilir.
– Lirik şeirlərin tədrisi ilə bağlı tələbələrin blik və bacarıqlarının səviyyəsi aşkara çıxarılır.

– “Məlumat üçün” mətninin oxusu və məzmununun mənmsənilməsi həyata keçirilir.
– Lirik şeirlərin təhlili üzrə işin fərqli variantlarda təşkili imkanları barədə təsəvvür yaradılır.
– Tapşırıqların hazırlanmasında nəzərə alınmalı olan məsələlər nəzərdən keçirilir.
– Hazırlanmış işlər müzakirə edilir, birləşdirilərək vahid dərs planı şəklinə salınır.
– Ev tapşırığı ilə bağlı tövsiyələr verilir.

**M.P.Vaqif.**
**HAYIF Kİ, YOXDUR...**

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur!
Ucu tər cığalı siyah tellərin
Hərdən tamaşası, hayıf ki, yoxdur!

Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası, hayıf ki, yoxdur!

Elə gözəl var bunların içində,
Ələ düşməz hərgiz Çinü-Maçində.
Söyləgən, oynağan, dürüst biçimdə
Bəzəyi, libası, hayıf ki, yoxdur.

Ucu əşrəfili, bulut kimi saç,
Dal gərdəndə hər hörüyü bir qulac,
Kəlağayı əlvan, qəsabə qıyğac,
Altından cunası, hayıf ki, yoxdur!

Zər haşiyə al nimtənə üstündə,
Xallar üz yanında, çənə üstündə,
Buxağın altında, sinə üstündə,
Zülfün burulması, hayıf ki, yoxdur!

Ayna tutub hərdəm camal görməsi,
Zülfə, zənəxdana sığal verməsi,
Səhər ala gözün siyah sürməsi,
Əlinin hənası, hayıf ki, yoxdur!

Vaqif haqdan dilər lütfü kərəmlər,
Belə yerdə qalan, vallah, vərəmlər.
Yenə yada düşdü bizim sənəmlər.
Getməyin binası, hayıf ki, yoxdur!

**Evdə iş.** Altıncı məşğələdə verilmiş "Məlumat üçün" materialının öyrənilməsi.

## ALTINCI MƏŞĞƏLƏ

## EPİK ƏSƏRLƏRİN MƏZMUNUNUN ÖYRƏNİLMƏSİ VƏ TƏHLİLİ ÜZRƏ İŞİN TƏŞKİLİ
## (E. Hüseynbəyli. "Firuzə qaşlı xəncər")

*Məşğələnin məqsədi epik əsərlərin tədrisi üzrə bacarıqların inkişaf etdirilməsidir. Məşğələdə aşağıdakı mənbələrdən istifadə edilməsi məqsədəuyğunur:*
*– Ədəbiyyat (dərslik). 5-ci sinif üçün. "Bakı" nəşriyyatı, Bakı, 2016.*
*– Ədəbiyyat (5-ci sinif). Müəllim üçün metodik vəsait. "Bakı" nəşriyyatı, Bakı, 2016.*

**Məşğələnin gedişi**

Məşğələ ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi ilə başlanır. Təhlil dərsi üçün seçilmiş məzmun standartlarının müvafiqliyinə, təlim nəticələrinin, qiymətləndirmə meyarlarının dəqiqliyinə xüsusi diqqət yetirilir. Dərsin hər mərhələsində yerinə yetirilməli olan işlərin məzmunu, həcmi müzakirə əsasında aşkara çıxarılır. Eləcə də tələbələrin təhlil üzrə hazırladıqları tapşırıqların standartlara uyğunluğu, əsərin ideya-məzmununun aydınlaşdırılmasında rolu kimi məsələlərin üzərində dayanılır.

Müəllim əvvəlcədən hazırladığı meyarlar əsasında qiymətləndirmə aparır.

Yeni dərsin – məşğələnin mövzusu, məqsədi elan olunur. Tələbələrin epik əsərlərin tədrisi üzrə bilik və bacarıqları yığcam müsahibə aparılmaqla müəyyən edilir. "Məlumat üçün" mətninin oxusu üçün vaxt ayrılır.

> ***Məlumat üçün***
> *Təhsil proqramının tələblərinə uyğun olaraq, ədəbiyyat dərsliklərinə epik növə aid xeyli əsər daxil edilmişdir. Sinifdən sinfə keçdikcə bu nümunələrin sayı artırılır və məzmunca şagirdlərin yaş səviyyələrinə uyğun olmalarına xüsusi diqqət yetirilir. Bunu aşağıdakı məlumatda müşahidə etmək mümkündür:*
> – ***V sinif:*** *əfsanə, nağıl, təmsil, hekayə;*
> – ***VI sinif:*** *əfsanə, nağıl, təmsil, hekayə,* ***dastan****;*
> – ***VII sinif:*** *əfsanə, nağıl, təmsil, hekayə,* ***mənzum hekayə****;*

– ***VIII sinif:*** *əfsanə, nağıl, təmsil, hekayə,* ***novella, dram, poema****;*
– ***IX sinif:*** *əfsanə, nağıl, təmsil, hekayə,* ***povest, roman*** *və s.*

*Təhsil proqramında və dərsliklərdə epik əsərlərin öyrədilməsinə nə cür istiqamət verilmişdir?*

*Lirik şeirlər kimi, epik əsərlərin də tədrisi aşağıdakı mərhələlər üzrə həyata keçirilir:*

*I. Əsərin ( əfsanə, hekayə və s.) oxusu.*
*II. Məzmun üzrə iş.*
*III. Təhlil üzrə iş.*

*Digər ədəbi növlərin tədrisində olduğu kimi, epik əsərlərinin öyrənilməsində də birdən-birə oxuya başlanılmır. Oxudan öncə şagirdlərin diqqəti mövzunun əvvəlində verilmiş üç qrup suala (yada salın, düşünün, oxuda aydınlaşdırın) cəlb edilir və müvafiq iş aparılır. Epik əsərlərin oxusunun təşkili bir sıra cəhətlərinə görə lirik şeirlərin oxusu üzrə aparılan işlərdən fərqlənir. Bu, ilk növbədə tətbiq olunan təlim metodlarının, iş üsullarının və oxu formalarının rəngarəngliyində özünü göstərir. Məsələn, epik əsərlərin tədrisində səssiz oxu, səsli oxu, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu və s. formaların tətbiqinə daha geniş imkan yaranır. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi oxu zamanı həyata keçirilir. Oxuda mətnkənarı suallara diqqət edilməsi, xüsusilə vacibdir. Bu, şagirdləri daha diqqətli olmağa, mətn üzərində düşünməyə, onu* ***anlayaraq*** *oxumağa sövq edir. Təsadüfi deyildir ki, oxu başa çatdıqdan sonra mətnkənarı sualların necə başa düşülməsi, onlara hazırlanmış cavablar üzrə iş aparılır. Eləcə də öyrənilən əsərin bəzi parçaları ilə bağlı mətnkənarı suallar və onlara cavab hazırlamaq dərsliklərdə tapşırıq kimi təklif edilir.*

*Əsərin məzmununun öyrənilməsində oxu əhəmiyyətli addım olsa da, kifayət deyildir. Məzmunun əhatəli mənimsənilməsi üçün müəyyən işlərin tətbiqi vacibdir və ədəbiyyat dərsliklərində bununla bağlı müxtəlifnöv tapşırıqlar*

*(əhatəli tanışlıq üçün "Əlavələr"dəki dərs nümunələrinə, ədəbiyyat dərsliklərinə baxmaq məqsədəuyğundur) təklif edilmişdir. V–VII siniflər üçün səciyyəvi olan tapşırıqlardan bəzilərinə nəzər salaq:*

- *Əsəri bitkin hissələrə ayırmaq, plan tərtib etmək, məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl etmək.*
- *Əsərin məzmunu ilə bağlı şifahi təqdimata hazırlaşmaq.*
- *Məzmun üzrə suallara və test tapşırıqlarına cavab hazırlamaq.*
- *Əsərin janr xüsusiyyətlərini müəyyənləşdirmək və s.*

*V–IX siniflərdə daha çox tətbiq olunan oxu formaları* ***fasilələrlə oxu*** *və* ***proqnozlaşdırılmış oxudur****.Onların hər ikisi oxuda şagirdlərin maksimum səviyyədə diqqətli olmalarını təmin edir. Aralarında oxşarlıqlar olsa da, fərqli cəhətlər də var. Fasilələrlə oxuda mətn bitkin parçalara bölünür, hər parçanın oxusundan sonra qısa fasilə edilir və oxunmuş parçanın məzmunu ilə bağlı şagirdlərə suallar verilir.*

*Proqnozlaşdırılmış oxuda da bitkin parçalara bölünmüş mətn fasilələrlə oxunur, lakin fasilələrdə sonrakı parçada hadisələrin necə davam edəcəyi barədə suallar verilir. Şagirdlərə ehtimallarının səbəbini aydınlaşdırmaq təklif edilir. Aşağıdakı cədvəl bu oxunun təşkili qaydası barədə aydın təsəvvür yaradır:*

| *Əsərin parçaları* | *Sizcə, nə baş verəcək? Hadisələr necə davam edəcək?* | *Nə üçün belə düşünürsünüz? Nəyə əsaslanırsınız?* | *Nə baş verdi? Hadisələr necə davam etdi?* |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | | |

*Şagirdlər cavablarını yığcam şəkildə bu cədvəldə əks etdirirlər.*

*Lirik şeirlərdən fərqli olaraq epik əsərlərin əksəriyyətinin həcmi böyük olduğundan məzmun üzrə işə iki*

dərs saatı (bəzən daha çox) ayırmaq lazım gəlir. Belə olan halda həmin dərslər necə təşkil edilməlidir?

Unutmaq olmaz ki, əsərin məzmununun öyrənilməsi vahid prosesdir. O istər iki, istərsə üç, yaxud dörd dərsdə öyrənilsin, fərqi yoxdur, başlıca məqsəd əsərin məzmunu barədə bitkin, bütöv təsəvvürün yaradılmasıdır. Deməli, məzmunun öyrənilməsi bir neçə dərs davam etsə də, ona vahid prosesin tərkib hissəsi kimi baxılmalıdır. Əsər barədə həqiqi, doğru-dürüst nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması, fərziyyələrin əldə olunanlarla müqayisə edilməsi məzmun üzrə işə həsr olunmuş dərslərin sonuncusunda həyata keçirilməlidir. Əvvəlki dərslər isə əsərdən oxunmuş hissələr üzrə qənaətlərlərin yekunlaşdırılması ilə tamamlanmalıdır. Əgər belə olmazsa, yəni hər dərs üçün ayrıca tədqiqat sualı müəyyənləşdirib iş aparmağa cəhd edilərsə, həm əsərin məzmunu barədə ümumi təsəvvürün qazanılması, həm də ideyasının əhatəli aydınlaşdırılması və başa düşülməsi mümkün olmaz.

İmkan yaranarsa (təhlilə iki- üç saat ayırmaq mümkün olarsa), bunu təhlil üzrə dərslərdə də tətbiq etmək lazımdır. Yəni, məsələn, dərsin "tədqiqatın aparılması", yaxud digər mərhələsini (mərhələlərini) növbəti dərsə saxlamaq daha faydalıdır. Belə olarsa, daim çətinlik yaradan vaxt çatışmazlığı aradan qalxar, eləcə də araşdırmaının daha geniş miqyasda aparılmasına şərait yaranar.

Bunu da unutmaq olmaz ki, müasir dərsi səciyyələndirən ən mühüm əlamətlərdən biri onun davamlılığı, sürəkliliyidir. Məsələn, diskussiya, layihə üzrə iş, bu və ya digər müstəqil araşdırmanın yekununa həsr olunmuş təqdimatların dinlənilməsi və müzakirəsi bir neçə dərs saatında reallaşdırılır və sonuncuda yekunlaşdırılır.

Epik əsərlərin **təhlili** lirik şeirlərin təhlil xətti ilə, əsasən, uyğun gəlir. Fərq daha çox ədəbi növün, janrın özəlliyi ilə bağlı olur. V–VII siniflərin dərsliklərində verilmiş "Əsərlə

*bağlı açıqlamalar" başlıqlı mətnin hələ təhlilə başlamazdan əvvəl oxusu təşkil edilir. Bu mətn təhlil üçün istiqamətverici mənbə kimi faydalıdır. Həmin siniflərdə təhlilin hansı formada aparılmasından asılı olmayaraq "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırıq üzrə işin təşkili vacibdir. Həmin tapşırığa müəllim əlavələr, yaxud onda ixtisarlar edə blər. Dərsliyə, həmçinin mənimsənilənlərin ümumiləşdirilməsi, tətbiq edilməsi, dəyərləndirilməsi üçün "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlığı altında sual və tapşırıqlar daxil edilmişdir. Onların sırasında həyati bacarıqların yaradılmasına xidmət edən tapşırıqlar da yer tutmuşdur.*

*M. İbrahimovun "Azad"hekayəsinin VII sinifdə təhlili timsalında bir nümunəyə nəzər salaq.*

***"Təhlil üzrə iş.***

***Əsərlə bağlı açıqlamalar***

*1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.*

*Hekayə ikiyə bölünmüş Vətənimizin cənubunda – Cənubi Azərbaycanda bir müddət əvvəl baş vermiş hadisələr əsasında yazılmışdır. Müstəmləkə şəraitində yaşayan soydaşlarımız dəfələrlə milli-azadlıq mübarizəsinə qalxmış, ölüm-dirim savaşına girmişlər. Ana dilində oxuyub-yazmağın, bəzən danışmağın da qadağan olunduğu bir ölkədə yaşamağın mümkünsüzlüyü bu gün də tez-tez etirazlara, kütləvi çıxışlara səbəb olur.*

*Azad, Fərda kimi minlərlə gənc azadlıq uğrunda canlarından belə keçməyə hazır olduqlarını sübut etmişlər. Bu obrazların həyat, Vətən haqqındakı düşüncəlrini əsərdəki təsvirlərə diqqət yetirməklə aydınlaşdırmağa çalışın. Çıxardığınız nəticələr sonrakı fəaliyyətinizdə yardımçınız olacaqdır.*

***Araşdırın. Fikirləşin. Cavab verin.***

1. *Hekayənin mövzusunu və onda qaldırılmış başlıca problemi müəyyənləşdirin. Çıxardığınız nəticəyə əsasən cədvəldə qeydlər edin.*

| *Əsərin mövzusu* | *Əsərdə qaldırılan başlıca problem* | *Problemin həllini yazıçı nədə görür?* | *Siz necə fikirləşirsiniz?* |
|---|---|---|---|
| | | | |

1. *Yazıçının münasibətini aydınlaşdırmaqla Azad obrazını səciyyələndirin. Sxemdən istifadə edin.*

| *Obrazın adı: Azad* | |
|---|---|
| *Yazıçının ona münasibəti* | |
| *Sizin ona münasibətiniz* | |

2. *Azad və Fərda obrazlarının oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirin. Venn diaqramından, yaxud müqayisə cədvələindən istifadə edin.*
3. *Əsərdəki başlıca fikri – ideyanı müəyyənləşdirin. Yazıçının mövqeyini ifadə edən obrazın sözlərini nümunə göstərin.*

| ***Fikirlərdən hansı əsərin ideyasını dolğun əks etdirir*** | ***Nə üçün belə düşünürsünüz?*** | ***Yazıçının mövqeyini ifadə edən sözlər*** |
|---|---|---|
| *Milli azadlığa nail olunması* | | |
| *Ana dilində oxuyub-yazmaq hüququnun əldə edilməsi* | | |
| *Yaxşı, firavan həyatın, dolanışığın təmin olunması* | | |
| *Azərbaycanın birləşməsi arzusunun gerçəkləşməsi* | | |

***Tətbiq. Müzakirə. Yaradıcı iş***

*4. Əsəri öyrəndiyiniz digər bir janra (əfsanə, nağıl və s.) məxsus nümunə ilə müqayisə etməklə hekayə janrında olduğunu əsaslandırın. Venn diaqramından, yaxud müqayisə cədvəlindən istifadə edin.*

*5. Cənub mövzusunda yazılmış bir əsəri nəzərdən keçirin. "Azad" hekayəsi ilə səsləşən fikirləri müəy-yənləşdirib müzakirə edin.(Dərslikdəki "O sahildə, bu sahildə", yaxud 5-ci sinifdə öyrəndiyiniz "Yaşayanlar görəcəkdir"şeirini seçə bilərsinz)."*

*VIII-IX siniflərin dərsliklərində isə təhlil üzrə iş daha dərinləşdirilmiş əsasda təşkil edilir. İlk növbədə "Əsərin təhlilinə hazırlaşın"mətnin oxusu həyata keçirilir. Bu, təhlilin müstəqil və səmərəli aparılmasına istiqamət verir. Daha sonra "Araşdırın. Fikirləşin. Cavab verin" başlığı altında verilmiş tapşırıqlar, əsasən, kiçik qruplarda yerinə yetirilir. İ. Şıxlının "Namərd gülləsi"hekayəsinin IX sinifdə təhlili timsalında bir nümunəyə nəzər salaq.*

***Təhlil üzrə iş.***

***Əsərin təhlilinə hazırlaşın.***

*1. Mətni oxuyun. Tapşırığı yerinə yetirərkən ordakı fikirlərdən faydalanın.*

*Bir insan və yazıçı kimi İsmayıl Şıxlını ömrü boyu yüksək ideallar – xeyirxahlıq, düzlük və doğruçuluq, milli-mənvi dəyərlərimizin qorunub saxlanması kimi məsələlər düşün-dürmüş, çoxcəhətli fəaliyyətinin əsasını təşkil etmişdir. Onun mərdlik və namərdlik, xeyirxahlıq və bədxahlıq anlayışlarına münasibəti "Namərd gülləsi" hekayəsində ayrı-ayrı insan talelərinin təsvirində öz dolğun ifadəsini tapmışdır. Əsərdəki obrazların xarakterini, həyata baxışını mükəmməl öyrənməklə yazıçını düşündürən problemi, əsərin ideyasını anlamaq və dəyrləndirmək mümkündür. Bu, obrazların ustalıqla, orijinal bədii vasitələrlə yaradıl-masından irəli gəlir. Əsərin üzərində müşahidələrinizi davam etdirin, obrazların hər birinin nitqinə, davranış və*

*əməllərinə, düşüncə aləminə bir daha dərindən nəzər salın. Müəllifin obrazlara, eləcə də obrazların bir-birinə münasibətini aydınlaşdırmağa çalışın.*

*Dilimizin incəliklərindən yazıçının necə bəhrələndiyinə, üslubundakı özünəməxsusluğa, bədii təsvir və ifadə vasitələrinin orijinallığına diqqət yetirin, bütün bunları nümunələr əsasında aydınlaşdırmağa səy edin.*

***Araşdırın. Fikirləşin. Cavab verin.***

*2. Sizcə, yazıçının diqqətə çatdırmaq istədiyi başlıca problem nədir?Bu problemin həllini o, nədə görür?*

| *Əsərdə qaldırılan başlıca problem* | *Yazıçı problemin həllini nədə görür?* | *Siz necə düşünürsünüz?* |
|---|---|---|
| | | |

*3. Niftalı koxa obrazını səciyyələndirin. Müvafiq cədvəldən istifadə edin.*

*4. Qaçaq Kərəm obrazını səciyyələndirin. Cədvəldən istifadə edin.*

| *Qaçaq Kərəm obrazı* | | | |
|---|---|---|---|
| *Xarakterindəki başlıca cəhətlər* | *Düşüncələri* | *Yazıçının ona münasibəti* | *Digər obrazların ona münasibəti* |
| | | | |

*5. Əsərdəki başlıca konflikti müəyyənləşdirin. Onu həyati, təbii hesab etmək olarmı? Fikrinizi əsaslandırın.*

*6. Hekayənin süjet və kompozisiya xüsusiyyətlərini aydınlaşdırın. Fikrinizi nümunələrlə əsaslandırın.*

*7. Bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə yazıçı nəyə nail olmuşdur? Cədvəldən istifadə edin.*

| *Bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr* | *Fikrin təsir gücünün artmasında təsvir və ifadə vasitələrinin rolu* |
|---|---|
| | |

*8. Əsərdəki başlıca fikir – ideya nədir? Bu ideya əsərdə hansı məqamlarda daha qabarıq ifadə olunub? Cədvəldən istifadə edin.*

| *Əsərin əsas ideyası nədir?* | *İdeyanın aydınlaşdırılmasında əhəmiyyətli olan cümlə, təsvir və epizodlar* |
|---|---|
| | |

*X-XI siniflərdə epik əsrlərin təhlili üzrə işin təşkili fərqlidir. Dərsliyə məzmun standartları əsasında hazırlanmış sual-tapşırıqlar və onlara tamamlanmasına, zənginləşdirilməsinə ehtiyac duyulan yığcam cavablar daxil edilmişdir. Şagirdlər dərslikdə təklif edilmiş mənbələri araşdırmaqla həmin cavabları tamamlamalı, zənginləşdirməli, ümumiləşdirmə aparmalı, təhlil obyektinə – əsərin müxtəlif komponentlərinə müstəql münasibət bildirməlidirlər. Unudulmamalıdır ki, bədii əsərin məzmunu o dərəcədə zəngin olur ki, heç bir təhlil – ən mükmməl ədəbiyyatşünaslıq təhlili də onu əhatə edə bilməz. Məhz buna görə də məktəb təhlilində yeni fikir, yeni münasibət üçün həmişə umkan vardır. (Deyilənlər barədə təsəvvürün tamamlanması üçün X-XI siniflərin dərsliklərinə baxılması məqsədəuyğundur).*

Müəllim “Məlumat üçün” mətninin mükəmməl mənimsənilməsi qayğısına qalmalıdır. Mətnlə tanışlıqdan – oxudan sonra aparılan müsahibənin diskussiya səciyyəli olmasına səy göstərilməlidir. Hər bir tələbəyə fikrini sərbəst ifadə etməsi imkanı yaradılmalıdır. Mətnin əhatəli mənimsənildiyinə əmin olduqdan sonra növbəti mərhələyə – E.Hüseynbəylinin “Firuzə qaşlı xəncər” hekayəsinin məzmunu üzrə işin təşkilinə keçmək olar.

Müəllimin məqsədindən, tələbələrin hazırlıq səviyysindən asılı olaraq aşağıdakı variantlardan (başqa variantlar istisna edilmir) biri tətbiq edilə bilər.

**Birinci variant.** Tələbələr səssiz oxumaqla hekayənin məzmunu ilə tanış olur, sonra dərsin geniş planını fərdi olaraq hazırlayırlar.

**İkinci variant.** Tələbələr səssiz oxumaqla hekayənin məzmunu ilə tanış olur, sonra cütlük şəklində dərsin geniş planını hazırlayırlar.

**Üçüncü variant.** Hekayənin səssiz və ya səsli oxusu təşkil edilir, ehtiyac olarsa, məzmunla bağlı yığcam müsahibə aparılır, sonra kiçik qruplar ayrı-ayrılıqda dərsin geniş planını hazırlayır.

**Dördüncü variant.** Hekayənin səssiz və ya səsli oxusu təşkil edilir, ehtiyac olarsa, məzmunla bağlı yığcam müsahibə aparılır, sonra dərsin geniş planının hazırlanması üzrə işlər kiçik qrupların arasında bölüşdürülərək icra edilir. Vaxta qənaət baxımından əlverişli olan bu variant tətbiq edilərsə, qrupların bir-biri ilə sıx əlaqədə, əməkdaşlıq şəraitində işləmələri vacibdir. İcra olunacaq iş kiçik qrupların arasında aşağıdakı şəkildə bölüşdürülə bilər.

**I qrup:** Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi üzrə işin təşkili, qiymətləndirmənin üsul və vasitələrinin hazırlanması. İnteqrasiya imkanlarının və dərsin hər mərhələsində sərf olunacaq vaxtın müəyyənləşdirilməsi.

**II qrup:** Dərsdə reallaşdırılacaq məzmun standartlarının, təlim nəticələrinin, qiymətləndirmə meyarlarının müəyynləşdirilməsi, dərsin növünün və lazım olacaq ləvazimatın, təchizatın müəyyən edilməsi.

**III qrup:** Motivasiya, problemin qoyuluşu mərhələsinin, tədqiqat sualının müəyyənləşdirilməsi üzrə işin icra edilməsi.

**IV qrup:** Tapşırıqların hazırlanması, dörd, yaxud beş iş vərəqində əks etdirilməsi.

**V qrup:** Məlumat mübadiləsi və müzakirənin təşkili mərhələlərinin işlənib hazırlanması, istifadə olunacaq sualların tərtibi, formativ qiymətləndirmə üsullarının müəyyənləşdirilməsi.

**VI qrup:** Nəticə, ümumiləşdirmə mərhələsinin işlənib hazırlanması, ev tapşırığının müəyyənləşdirilməsi.

Kiçik qrupların hazırladıqları işlər məlumat mübadiləsi və müzakirə əsasında birləşdirilərək vahid dərs planı şəklinə salınır.

İşin hansı variantda təşkilindən asılı olmayaraq bütün tələbələrin nəticələrlə tanış olmalarına, müzakirənin əhatəli keçməsinə imkan yaradılmalı, əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında qiymətləndirmə aparılmalıdır.

Müəllim ev tapşırığını (E. Hüseynbəylinin "Firuzə qaşlı xəncər"hekayəsinin təhlili üzrə iş) xatırladır. Təhlil üzrə məzmun standartlarının, onlara müvafiq təlim nəticələrinin, qiymətləndirmə

meyarlarının, tapşırıqların müəyyənləşdirilməsi, dərsin hər bir mərhələsində icra olunacaq işin dəqiqləşdirilməsi və bütün bunların planlaşdırma formasında yazılması barədə tövsiyələr verilir.

*Məşğələdə işin gedişi aşağıdakı ardıcıllıqla gerçəkləşdirilir:*

- Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilir və qiymətləndirilir.
- Epik əsərlərin tədrisi ilə bağlı tələbələrin bilik və bacarıqlarının səviyyəsi aşkara çıxarılır.
- "Məlumat üçün" mətninin oxusu və məzmununun mənmsənilməsi həyata keçirilir.
- Epik əsərlərin məzmununun mənimsənilməsi üzrə işin fərqli variantlarda təşkili imkanları barədə təsəvvür yaradılır.
- Tapşırıqların hazırlanmasında nəzərə alınmalı olan məsələlər nəzərdən keçirilir.
- Hazırlanmış işlər barədə məlumat mübadiləsi və müzakirə təşkil edilir, nəticələr birləşdirilərək vahid dərs planı şəklinə salınır.
- Ev tapşırığı ilə bağlı tövsiyələr verilir.

**E. Hüseynbəyli**

## FİRUZƏ QAŞLI XƏNCƏR

*(hekayə)*

Gecəyarısına az qalmış fişəng atıldı. Elə bil bu fişəngə bənd imişlər. Xocalının göylərində od-alov saçdı. Güllələr qəsəbənin üstünə yağış kimi yağmağa başladı.

Tofiq keşikçi postundan təzəcə qayıtmışdı. Çörəyini yeyib qurtarmışdı, yatmağa hazırlaşırdı. Bu səsdən diksindi, hövlnak eyvana çıxdı.

– Xəyanətkarlar! – Tofiqin ilk sözü bu oldu.

İki gün əvvəl ermənilərlə razılığa gəlmişdilər. Danışıq belə olmuşdu: umukusüyə, dava-dalaşa son qoyulsun.

Amma sən saydığını say, gör fələk nə sayır.

Həmin danışıqdan sonra keşiş Arsen həmyerlilərinə belə demişdi: "Türkdən dost olmaz, türk bizim əbədi düşmənimizdir. Söz də bizimdir, əməl də. Çox da ki söz vermişik, əməlimizi həyata keçirməliyik".

Uzaqgörən Tofiq isə həmyerlilərinə bunları anlatmışdı: “İtlə dost ol, çomağı yerə qoyma. Ermənіyə bel bağlamaq olmaz. Ehtiyatlı və diqqətli olun”.

Xocalılıların çəkindiyi yer aeroport tərəfiydi. Ona görə də güclü keşikçi postlar orada qurulmuşdu. Ermənilər oradan hücum edə bilərdilər. Elə də oldu.

Tofiq qorxusundan ağappaq ağarmış arvadı Zeynəbə baxdı:

– Qorxma, öhdələrindən gələrik. Mən uşaqların yanına gedirəm, sən burada qal, vəziyyət pisləşsə, məni gözləmə, Ağdama tərəf get, ora yol açıqdır.

Bu sözlərdən sonra Tofiq üç yaşı təzəcə tamam olmuş Gülərin yatağının başına gəldi, bir anlığa qızına baxdı. Uşaq məsumcasına yatmış, oyuncaq dovşanını bağrına basmışdı. Atası əyilib onun üzündən öpdü və avtomatını götürüb çıxdı. Çıxarkən Zeynəbə tərəf döndü:

– Özün nə edəcəyini yaxşı bilirsən, Gülər amanatı, – dedi və qapını arxasınca örtdü.

Zeynəb hələ də yerində quruyub qalmışdı, nə edəcəyini bilmirdi. Özünə gələndə qapıya tərəf qaçdı:

– Tofiq! – deyə çığırdı, amma ərindən cavab gəlmədi, o, qəsəbənin qaranlığında itmişdi.

Xocalıda hamı bir-birinə qarışmışdı, ağız deyəni qulaq eşitmirdi, top-tüfəng səsi aləmi bürümüşdü, havadan barıt və qan iyi gəlirdi. Müdafiəni yarıb qəsəbəyə girən ermənilər heç kimə aman vermirdilər. Dünən özünü dost, mehriban qonşu kimi göstərənlər düşmənə, amansız qatilə çevrilmişdilər.

Zeynəb müəlliməydi. Bu axşam uşaqların inşa dəftərini yoxlayacaqdı. Amma nəsib olmadı. İnşanın adı beləydi: “Gələcəkdə mən kim olacağam”. Dəftərlər stolun üstündə onu gözləyirdi. Hər dəftərdən günahsız bir uşaq baxırdı. “Görən, onların taleyi necə olacaq?” – deyə düşündü, ürəyindən qara qanlar axdı, gözləri yaşardı. Gecikmək olmazdı. Nəsə bir iş görmək lazımıydı.

Əvvəlcə istədi ki, aeroport tərəfə, ərinin yanına getsin. Sonra fikrini dəyişdi, ağlına gəldi ki, ora dəhşətli döyüş meydanına çevrilib; indi o, ərinin yadigarını qorumalıydı. Tofiq gedəndə Güləri ona tapşırmışdı...

Zeynəbi qarlı çöllər, azğınlaşmış düşmən, amansız şaxta gözləyirdi. O, yola azuqə hazırladı. Çörək, pendir və axşam yeməyindən qalma ət parçalarını ağzıbağlı qaba qoydu. Çayı termosa tökdü. Bacardıqca qalın geyindi, sonra qızının isti paltarlarını hazırladı. Sandığa tərəf getdi. Sandıq onun cehizliyiydi, ən müqəddəs və qiymətli şeyləri orada saxlayırdı. Öncə gəlinlik paltarını götürdü, düşmən əlinə düşməsin deyə, sonra firuzə qaşlı dəstəyi olan xəncəri. Xəncəri ona nənəsi vermişdi, “yaman gündə yarağın olar” demişdi. Bu bir adət idi. Gəlin köçənə xəncər bağışlayırdılar: “Dara düşəndə özünü qoru”. Xəncəri şalının altından belinə bağladı. Nişan üzüyünü qoyduğu mücrünü də götürdü. Onu düşmənə saxlamaq olmazdı.

Bir anlıq gözlədi. Bəlkə, yuxarıdan kömək göndərdilər. Amma gecikirdilər. Düşmən isə yaxınlaşırdı. Yuxarı başdakı evlər od tutub yanırdı. Qaçmaq lazımıydı.

Zeynəb Güləri yuxudan ehtiyatla oyadırdı. Uşağı qorxuzmaq istəmirdi. Gülər şirin-şirin yatırdı, dovşanını bərk-bərk qucaqlamışdı.

– Qalx, qızım, gözəl balam, nənəgilə gedirik.

Zeynəb Ağdamdan gəlin köçmüşdü. Ata evi oradaydı. Dəfələrlə onu aparmaq istəmişdilər. Demişdilər ki, ara sakitləşəndən sonra qayıdar. Amma o, ərini qoyub getməmişdi. Tofiqin tək qalmağını rəva görməmişdi.

Gülər yuxulu-yuxulu gözlərini açdı, anasına baxdı. Onun geyinikli olduğunu görəndə dediklərinə inandı. O çox istədiyi nənəsigilə gedəcəkdi.

Qalxıb yerinin içində oturdu. Zeynəb balasını tələm-tələsik, şirin sözlər deyə-deyə geyindirirdi: “Qaşları qara balam, gözləri ala balam, belə hara gedirsən, saçını dara, balam...”

Ana balasını geyindirirdi, amma fikri ərinin yanındaydı. Bilirdi ki, əri düşmənə asanlıqla can verən deyil. Bəlkə, bir az da gözləsin. Geciksəydi, düşmən əlinə düşərdi. Xəncərini yoxladı, yerindəydi. Uzaqbaşı özünü öldürərdi. Bəs Gülər? O, necə olsun? Getmək lazım idi.

Qızını qucağına alıb çölə çıxdı. Qaranlıq küçələrlə Ağdam yoluna tərəf qaçdı. Bu yola üz tutanlar çox idi. Bəziləri ocağından ayrılmaq istəmirdi. Bircə günün içində qocalmış Çimnaz onu görcək:

– Müəllimə, indi hara gedək, yuvası viran olanlar ocağımızı kor qoyacaqlar, – deyə vaysındı.

– Ağdam yoluna qaç, Çimnaz bacı, ora açıqdır, – dedi.

– Bəs atam gəlməyəcək? – deyə Gülər anasından soruşdu.

– Gələcək, qızım, gələcək.

Qəsəbənin çıxacağına çatdı. Qəribədir ki, Ağdam yolunu tutanların çoxu geri qayıdır, qəsəbəyə doğru qaçırdılar. Gecənin qaranlığında ağappaq qarlı çöldə qaçışan və yıxılan adamları görmək mümkünüydü. Bəziləri özünü meşəyə vurdu. Könüllü döyüşçülərdən biri Zeynəbə çatdı, al-qan içindəydi.

– Hamıya deyin ki, Ağdam yolu bağlıdır, ermənilər oranı tutublar, bizi aldatdılar, hamını qırırlar, – döyüşçü zarıya-zarıya dediyi bu sözlərdən sonra yerə yıxıldı.

Zeynəb onun başının üstünə əyildi. Döyüşçünün ağzından son buxar çıxdı. Ona heç nə ilə kömək eləmək olmazdı.

Ağdama dolayı yolla getmək olardı, meşənin içiylə. Qırılan qırılmış, sağ qalanlar isə öz canının hayındaydı. Ermənilər çatdıqları adamları yerindəcə güllələyirdilər.

Zeynəb özünü meşəyə saldı. Qar meşədə dizə çıxırdı. O, yıxıla-yıxıla xeyli getdi. Sonra dayandı, şalını açıb qızını belinə şəllədi. Belə getmək daha asanıydı. Qaranlıq meşədə ağaclar ona vahiməli görünürdü. Sanki hər ağacın dibində bir düşmən dayanmışdı. Ürəyində Allaha yalvarırdı ki, yolu azmasın. O, uşaq vaxtı buralara çox gəlmişdi. Amma günəşli günlərdə, yerkökü, göbələk, cənnət alması yığmaq üçün...

Ağdamla Xocalının arasında uzanan meşə hamının idi. Ayrı-seçkilik yoxuydu. Qarlı günlər kişilərin payına düşürdü: ov ovlamaq, quş quşlamaq üçün... Tofiq də onların içində. “Görən necədir, yaralanmayıb ki...” – ürəyində fikirləşdi. Bu fikirdən betərini özünə yaxın buraxmadı. Onlar hökmən yenə də görüşəcəklər.

Zeynəb buzlaşmış, bərkimiş qarın içi ilə irəliləyir, gücdən, taqətdən düşsə də, dayanmırdı. Birdən uzaqdan maşın səsi gəldi. Əvvəlcə sevindi, istədi maşına tərəf qaçsın, sonra fikrindən daşındı və qoca palıd ağacının dibinə sığındı.

Gələnlər maşından düşdülər və ermənicə öz aralarında nəsə danışdılar. Sonra maşının yük yerindəki adamlara aşağı düşməyi əmr etdilər. Onların çoxu arvad-uşağıydı. Zeynəb qızını belindən açıb sinəsinə sıxdı. Yaxşı ki, Gülər yatmışdı. Bu səhnəni görmürdü.

– Çalalar hazırdır? – saqqallı soruşdu.

– Hazırdır, komandir, – cavan yaraqlı ona cavab verdi, – ötən həftədən qazmışıq.

– Soyundurun bu türk...

Zeynəb son sözü eşitmək istəmədi, qulaqlarını yumdu.

O, Xankəndində institutu bitirmişdi, ermənicə az-çox bilirdi. Tofiqlə də orada tanış olmuşdu.

Əsirləri soyundurdular.

– Komandir, güllələyək?

– Yox, gülləni onlara sərf etməyin, lazımımız olacaq.

– Bəlkə, yandıraq?

– Axmaq! – deyə saqqallı onun üstünə çımxırdı – benzin heyif deyil?! Atın çalaya, üstlərinə də su tökün... qoy donsunlar. Çalaları da torpaqla örtün. Müsəlmanlar elə bilsinlər ki, biz öldürməmişik, özləri donub...

Uşaqlardan biri saqqallıya yalvardı:

– Əmi, qurban olum...

Saqqallı onu soyuq nəzərlərlə süzdü, sonra qolundan tutub çalaya itələdi.

Uşağın “əmi” dediyi adam – Aşot adlı çəkməçi onlarda çox çörək kəsmişdi.

Zeynəb həyəcanını boğa bilmədi, onu şiddətli titrətmə tutdu, gözlərindən ixtiyarsız axan yaş görməsinə mane oldu.

Ermənilər əsirləri çalaya atdılar, üstlərinə su tökdülər. Arvad-uşağın ah-naləsi, yalvarışları göyə qalxdı. Amma onları eşidən olmadı. Bir azdan səsləri eşidilməz oldu. Düşmənlər onları diri-diri basdırmışdılar, üstlərinə də suyu ona görə tökmüşdülər ki, tez donub ölsünlər.

Ermənilər bir az gözləyəndən sonra maşına minib getdilər.

Zeynəb hamının getdiyinə əmin olandan sonra Güləri ehmalca yerə qoydu, üstünü şalla örtdü, çalanın yanına gəldi, oranı qazmağa başladı, amma bacarmadı, əlləri donmuşdu, dırnaqları buz bağlamış torpağa dəyib ovulurdu...

Ermənilərin maşını bir neçə yüz metr gedəndən sonra dayandı. Saqqallı erməni komandiri:

– Dayan, – deyə sürücüyə əmr elədi, – biz onların qızıl dişlərini çıxarmamışıq, müsəlmanlar qızıl dişləri sevirlər. Siz gedin, bir azdan sizə çataram.

O, qəniməti heç kimlə bölüşmək istəmirdi.

Zeynəb hənirti hiss elədi. Cəld arxaya döndü. Saqqallı erməni başının üstündə dayanmışdı.

– Ax səni, türk ləçəri, – yaraqlı bağırdı və Zeynəbi təpiklə vurdu. Zərbə o qədər güclü idi ki, gənc qadın təzəcə torpaqlanmış çalanın üstünə yıxıldı. Saqqallı Zeynəbin sırğalarını qoparmağa çalışır, fürsət düşdükcə onu yumruqlayırdı. Gülər ayılmasın deyə Zeynəb səsini çıxarmırdı, dişini-dişinə sıxıb müdafiə olunur, saqqallının üz-gözünü cırmaqlayırdı. Birdən Zeynəb nənəsinin xəncərini xatırladı. Hər şey bir anda baş verdi. Qəflətən çıxartdığı xəncəri saqqallının boğazına sancdı. Düşmən ağrıdan bağırdı. Qan Zeynəbin üstünə fişqırdı. Saqqallı xəncəri boğazından çıxardı, qan fəvvarə vurdu. O, Zeynəbin üstünə gəldi, yarı yolda səndirləyib arxası üstə yerə yıxıldı. Xırıldaya-xırıldaya nəsə dedi.

– Boğul öz qanında, qaniçən! – deyə Zeynəb qəzəblə pıçıldadı.

Saqqallı bir az xırıldayandan, qan qusandan sonra susdu. Zeynəb xəncəri götürdü, çalanın yanına gəldi, qulağını ora dirədi, çalada bir həyat əlaməti yoxuydu. Ayağa qalxdı...

Haradasa qurd uladı. Zeynəbin canından üşütmə keçdi.

– Ana, – Gülərin səsi gəldi. O, səsə oyanmışdı, qorxudan əsim-əsim əsirdi.

Zeynəb özünü uşağın üstünə atdı:

– Qorxma, qızım, bu saat gedirik.

Meşə qurtarmaq bilmirdi. Zeynəb azmamaq üçün asfalt yolu səmt tutub gedirdi. Onun əlləri və ayaqları donmuşdu. Ayaqlarını hiss eləmirdi, az qala, sürünürdü. Tez-tez Gülərin əl-ayağını ovxalayırdı ki, uşağı don vurmasın. Şirin sözlərlə onu ovundurmağa çalışırdı.

Susuzlamışdı. Termosu açıb çayı qapağına süzdü və qızına uzatdı. Qız başını buladı, yəni istəmirəm. Özü içdi. Canı isindi. Gözləri yol çəkdi. Güllü-çiçəkli uşaqlığını, vağzalı altında gəlin köçməsini, bəy paltarı geymiş Tofiqi, onu ər evinə yola salan gözüyaşlı anasını xatırladı...

O sanki yuxu görürdü. Doğrudanmı, bu o idi və indi qarlı meşədə yol gedirdi, düşmənlərdən qaçırdı? Gözlərini ovuşdurdu, əlini qara vurdu. Əlləri üşüdü. Gerçəklik onun bədənindən soyuq ox kimi keçdi. Uzanıb elə buradaca qalmaq istədi. Tofiqsiz, yurdsuz-yuvasız onun nə həyatı.

– Ana, – qızının səsi gəldi, – ana, dovşanımı istəyirəm.

– Dovşanın evdə qaldı, qızım, qayıdanda verərəm. Sənə çoxlu oyuncaq alaram.

Dan yeri sökülürdü. Zeynəb yola çıxdı. Uzaqdan qüllə görünürdü. Ağdama az qalırdı...

O, mənzil başına çatmışdı, amma gözü yenə də geridə – əri Tofiqin yanındaydı.

Onu atası Bəhram qarşıladı. Əvvəlcə nəvəsini, sonra da qızını bağrına basıb ağladı. Heyrətlə Zeynəbin üzündəki, paltarındakı qan ləkələrinə baxdı. Gülərə nəzər saldı. Uşağın lalə yanağı solmuş, rəngi pambıq kimi ağarmışdı.

– Gecədən burada dayanmışıq. Yuxarıdan bir vertolyot göndərmişdilər, onu da ermənilər vurdular. Dığa köpək uşaqları söz vermişdilər ki, hücum eləməyəcəklər, sonra da ratsiya ilə xəbər verdilər ki, Xocalı-Ağdam yolu açıqdır. Əclaflar, sən demə, yalan deyirlərmiş. Pusqu qurublarmış. Hamını qırıblar. İndi danışmışıq ki, heç olmasa, meyitləri götürməyə imkan versinlər.

– Ata! – Zeynəb hıçqırdı.

– Bilirəm, qızım, bilirəm! Allaha təvəkkül, bəlkə, Tofiq də sağ-salamat gəlib çıxdı. Nə bilmək olar?!

– Ata, bilirsən ermənilər orada neylədilər?

– Bilirəm, qızım, bilirəm, Allah bəlalarını versin! Qisas qiyamətə qalmaz!

Zeynəb ağlamağını kəsdi, geri – doğma yurduna, ərinin qaldığı səmtə baxdı, sonra atasına tərəf döndü, paltarındakı qan ləkələrini göstərdi, astadan dedi:

– Məni evə apar, ata...

Bir az ara verdi, sonsuz nifrət duyulan səslə sözünə davam etdi:

– Bu murdar qanı yumaq, ondan xilas olmaq lazımdır...

**Evdə iş.** E. Hüseynbəyli. "Firuzə qaşlı xəncər". Təhlil üzrə dərs planının hazırlanması.

## YEDDİNCİ MƏŞĞƏLƏ

## DRAMATİK ƏSƏRLƏRİN MƏZMUNUNUN ÖYRƏNİLMƏSİ VƏ TƏHLİLİ ÜZRƏ İŞİN TƏŞKİLİ.
### (N. Vəzirov. "Müsibəti-Fərəddin")

*Məşğələnin məqsədi dramatik əsərlərin tədrisi ilə bağlı bacarıqların inkişaf etdirilməsidir. Dərsdə aşağıdakı mənbələrdən istifadə edilməsi məqsədəuyğundur:*

*– S. Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal /interaktiv təlim. Bakı, 2009, səh. 150-178.*

*– S. Hüseynoğlu.Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 2019, səh. 100-107.*

*– B. Həsənli. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2016, səh.259-268.*

**Məşğələnin gedişi**
Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi fərqli yollarla müəyyənləşdirilə bilər. Bunun üçün müsahibənin tətbiqi, tələbələrin təqdimatlarının dinlənilməsi və müzakirəsinin aparılması və s. mümkündür. Həmin prosesdə diqqət daha çox aşağıdakı məsələlərin üzərində cəmləşdirilir:

– Təhlil dərsi üçün (E. Hüseynbəyli. "Firuzə qaşlı xəncər" hekayəsi) seçilmiş məzmun standartlarının, onların əsasında müəyyənləşdirilmiş təlim nəticələrinin və qiymətləndirmə meyarlarının müvafiqliyi.
– Dərsin mərhələlərinin işlənməsi səviyyəsi:

a) ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi;
b) motivasiyanın səmərəli yaradılması, tədqiqat sualının məntiqli olması, tapşırıqların məzmun standarlarının reallaşmasına xidmət etməsi, iş vərəqlərində məqsədyönlü əks etdirilməsi;
c) tədqiqatın aparılması mərhələsinin səmərəli təşkili, müəllimin bələdçilik fəaliyyətinin özəlliyi;
d) məlumat mübadiləsi, müzakirənin aparılması mərhələlərinin səmərəli təşkili, müəllim üçün istiqamətləndirici sualların hazırlanması;
e) nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması mərhələlərinin məqsədyönlü təşkili, müəllim üçün istiqamətləndirici sualların hazırlanması.

Müəllim əvvəlcədən hazırladığı meyarlar əsasında qiymətləndirmə aparır.

Yeni dərsin mövzusu (N. Vəzirov. "Müsibəti-Fəxrəddin". Məzmun üzrə iş) elan olunur. Tələbələrin dramatik əsərlərin tədrisi üzrə bilik və bacarıqları yığcam müsahibə aparılmaqla müəyyən edilir. "Məlumat üçün" mətninin oxusu üçün vaxt ayrılır.

***Məlumat üçün***
*Təhsil proqramının tələblərinə uyğun olaraq, ədəbiyyat dərsliklərinə dramatik növə aid əsərlər də daxil edilmişdir. İlk nümunə isə VIII sinifdə tədris*

*edilir. Bu ədəbi növün özəlliyi onun tədrisi metodikasında da fərqli cəhətlərin olmasını şərtləndirir. Başqa sözlə, dramatik əsərlərin tədrisi metodikası özünəməxsusluğu ilə seçilir. Əlbəttə, bədii əsərlərin tədrisinin elə ümumi cəhətləri var ki, onlar bu ədəbi növün öyrədiməsində də özünü göstərir.*

*Dramatik əsərlərin tədrisi üçün səciyyəvi olanlar nədir?*

*Bu ədəbi növə məxsus əsərlərin öyrədilməsi də üç mərhələnin (oxu, məzmun üzrə iş, təhlil) reallaşdırılması əsasında həyata keçirilir və hər bir mərhələdə fərqli məqamlar nəzərə çarpır. Bu əsərlərin mənimsənilməsində* **oxu** *ilk, həm də asan olmayan mərhələdir. Məlumdur ki, dramatik növə məxsus əsərlər səhnədə oynanılmaq üçün yazılır, onların həqiqi gözəlliyi, estetik təsiri daha çox səhnədə, tamaşa prosesində özünü büruzə verir və duyulur. Belə əsərlərdə yazıçı niyyəti, mətnaltı mənalar aktyor oyunu vasitəsilə açıqlanır və qavranılır. Qəhrəmanların xarakteri səhnədə görünən və göstərilməyən hadisələr, eləcə də danışıq-nitq vasitəsilə başa düşülür. Müəllifin mövqeyi bu əsərlərdə görünmür, "pərdə arxasındadır". Deməli, belə əsərləri mütaliə yolu lə qavramaq üçün təxəyyülün güclü işi vacibdir. Məhz zəngin təsəvvür sahibi olan oxucu dramatik əsərlərdə "təsvir olunanları" mənimsəməkdə ciddi çətinlik çəkmir. Məktəbli üçünsə bu, həqiqətən çətindir. Bəs bunu necə asanlaşdırmaq olar? Necə etmək lazımdır ki, şagirdlər daramatik əsərlərdəki mətləblərin böyük bir qismini oxuda anlaya bilsinlər, ondan zövq alsınlar, sonrakı mərhələlərə xeyli dərəcədə hazırlıqlı gəlsinlər?*

*Metodikada belə bir fikir var ki, "oxudan əvvəl şagirdlərə bir-iki sual" (Sizin xoşunuza daha çox gələn nə oldu? Kimi əsərin baş qəhrəmanı hesab edirsiniz? və s.) vermək olar. Bu "bir-iki sual" əsərin bütövlükdə oxusunda nə dərəcədə əhəmiyyətli*

*olacaqdır? Əsərdəki zəngin məzmununun qavranılmasına onların verdiyi töhfə qənaətbəxş ola bilərmi?*
*Bu tövsiyə – “bir-iki sualın”verilməsi irihəcmli əsərlərin oxusunun səmərəliliyi üçün bir o qədər də əhəmiyyətli sayıla bilməz.*
*Dramatik əsərlərin oxusunun effektli olması ilk növbədə oxucu təsəvvürünün və təxəyyülünün fəal işə qoşulması sayəsində mümkündür. Bu, əsərdəki bütün detalları əhatə etməlidir. Obrazların nitqi, zahiri görünüşü, səhnədəki şərait, danışıq vasitəsilə çatdırılan məlumat, xəbər, səhnədə göstərilməyən hadisə və s. təsəvvürdə canlandırılmalıdır.*
*Eləcə də personajların nitqi-danışığı diqqətlə izlənilməli, deyilənlərin üzərində düşünülməlidir. Axı danışılanların hamısı həqiqət olmur, bu və ya digər obraz ürəyindəkiləri deməyə də bilər, bunu oxucunun anlaması isə vacibdir.*
*Buradan aydınlaşır ki, dramatik əsərlərin sinifdə səsli oxunması çox əhəmiyyətlidir. Bu prosesdə hər sözün, hər cümlənin təkcə mənasına yox, həm də necə səslənməsinə diqqət yetirilməlidir.*
*Belə bir fikir var ki, fəal/interaktiv təlimdə müəllimin oxusuna yer verilmir. Bu, əsassız, başlıcası isə qeyri-elmi yanaşmadır. Müəllimin canlı, obrazlı, emosional danışığına həmişə yer verilmlədir. Lakin ölçü gözlənilməklə, sui-istifadəyə yol verilməməklə... Müəllim dramatik əsərin oxusuna həsr olunmuş dərsin lap əvvəlindəcə nümunəvi oxusu ilə (bu, iki dəqiqə, bir az da çox çəkə bilər)şagirdlərdə əsərin məzmununa müvafiq ovqat yarada bilər.*
*Dramatik əsərlərin oxusu ilə bağlı məktəb təcrübəsində müşahidə edilən ən ciddi qüsur şagirdlərin mətni anlamadan (anlamağa cəhd etmədən) oxumalarıdır. Onların bütün diqqəti sözləri, cümlələri səhvsiz oxumağa yönəlir, mənanın dərk edilməsi isə unudulur. Belə şagirdlərdən oxuduqları kiçik parçada*

*nədən danışıldığını soruşduqda mətnə yenidən baxmadan cavab verə bilmirlər. Bu, yanlış, ən əsası isə zərərli yoldur. Mətnin ilk oxusu məntiqi oxudur və məqsəd məzmunu mənimsəməkdir. Bu prosesdə texniki qüsurların olması mümkündür. Onların düzəldilməsi ilk oxuda məqsədə çevrilməməlidir. Məqsəd mətni* ***anlayaraq*** *oxumaq olmalıdır. Məhz bu, mətnaltı mənaların, personajların niyyətinin başa düşülməsinə imkan yaradar.*

*Metodik ədəbiyyatda göstərilir ki, şagirdlərin oxusu zaman onların təxəyyülünü işə salan, təsəvvürlərini oyadan vasitələrdən istifadə edilməsi faydalıdır. Məsələn, texniki imkan varsa, oxunu tədris olunan əsərin tamaşasından 1,1.5 dəqiqəlik fraqmentlərin (dialoqların, mühüm səhnədən parçanın və s.) ardıcıl nümayiş etdirilməsi əsasında təşkil etmək məqsədəuyğundur.*

*Dramatik əsərlərin tədrisində daha çox rollar üzrə oxu tətbiq edilir. Şagirdlər hansı obrazın sözlərini oxuyurlarsa, onun haqqında əsərdəki məlumatları (zahiri görünüşü, geyimi, onun barəsində başqalarını dediklərini, replikalarda söylənilənləri və s.) əvvəlcədən ətraflı öyrənməli, hətta danışıq tərzini belə aydın təsəvvür etməlidirlər. Əlbəttə, söhbət "rola girməkdən" yox, şagirdin "tanıdığı", "danışıq və davranışının şahidi olduğu" birisinin sözlərini çatdırmasından gedir.*

*Dramatik əsərlərin* ***məzmununun*** *öyrədilməsi üzrə işin təşkili də böyük zəhmət, metodik hazırlıq tələb edir. Əsər barədə oxu prosesində qazanılmış təəssürat, bilik və məlumat bu mərhələdə dərinləşdirilir və zənginləşdirilir. (Xarici ölkələrin məktəb təcrübəsində əsərlə tanışlıq, məzmunun öyrənilməsi oxu mərhələsində həyata keçirilir, "məzmunun öyrənilməsi" mərhələsinə ehtiyac qalmır). Məzmun üzrə iş məqsəddən asılı olaraq fərqli variantlarda təşkil olunur. Lakin məzmun standartlarının tələləri və ədəbi növün özəlliyi ümumi xəttin mövcudluğnu da təsdiq*

*edir. Məsələn, oxu zamanı müəyyənləşdirilmiş bədii təsvir və ifadə vasitələrinin dəqiqləşdirilməsi həyata keçirilir. Obrazların nitqi-danışığı üçün səciyyəvi olan nümunələrin seçilməsi, personajların xarici görünüşünün (portretinin) sözlə çəkilməsi (təsvir edilməsi), ayrı-ayrı pərdə və səhnələrdəki mühüm fikirlərin müəyyənləşdirilməsi, bu və ya digər səhnədəki vəziyyətin (dekorasiyanın, obrazların yerinin və s.) təsvir edilməsi, hadisələrin inkişaf xəttinin müəyyənləşdirilməsi məzmunun mənimsənilməsi məqsədilə yerinə yetirilən işlərin bir qismidir. Dramatik əsərdən səciyyəvi parçaların məzmununun fərqli formalarda (yığcam, geniş, yaradıcı) danışılması (nağıl edilməsi) mənimsəmənin keyfiyyətinə, şagirdlərdə məntiqi, yaradıçı təfəkürün, şifahi nitqun inkişafına əhəmiyyətli təsir edir.*

*Dramatik əsərin məzmununun əhatəli mənimsənilməsində sualların da (qapalı və açıq sualların nisbəti gözlənilməklə) mühüm rolu vardır.*

*Oxu və məzmun üzrə işlə bağlı bu deyilənlərin böyük bir qismi dərsliklərdəki sual və tapşırıqlarda əksini tapıb. Lakin elə məsələlər də var ki, onlar birbaşa sinifdə, müəllimin tövsiyəsi, tapşırığı əsasında reallaşdırıla bilər. Məsələn, oxu prosesində mətnaltı mənaların ifadə edilməsi, təxəyyülün, təsəvvürün fəal işə qoşulması məqsədilə istiqamətləndirici sualların, tövsiyələrin verilməsi və s. bu qəbildəndir.*

*Məzmun üzrə işlə bağlı tapşırıq nümunəsinə (C.Məmmədquluzadənin "Anamın kitabı"əsərinin XI sinfdə tədrisi timsalında) nəzər salaq.*

***Məzmun üzrə iş***

***1. Tapşırığı fərdi olaraq yerinə yetirin:** İkinci və üçüncü məclislərdə ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirib cədvəldə qeyd edin.*

| | |
|---|---|
| İkinci məclisdəki başlıca fikirlər | |
| Üçüncü məclisdəki başlıca fikirlər | |

1. ***Parta yoldaşınızla birlikdə suallara cavab hazırlayın.***

a) *Cəmiyyəti-xeyriyyənin iclasında ilk mübahisəyə səbəb nə olur? Bu mübahisədə hansı tərəfin mövqeyini müdafiə edərdiniz?*

b) *İclasın gündəliyinə daxil edilmiş məsələlər hansılardır, onları əhəmiyyətli saymaq olarmı?*

c) *Cəmyyətin illik hesabatı barədə nə danışılır, icra olunmuş işlər, sizcə, faydalıdırmı?*

d) *Məktəb proqramı ilə bağlı diqqətinizi çəkən nə oldu, onun necə həll olunmasını istərdiniz?*

e) *Ehtiyacı olan, aclıq çəkən insanların ərizəsi ilə bağlı məsələnin müzakirəsi nə ilə nəticələndi, siz problemin necə həll olunmasını ədalətli sayardınız?*

f) *Senzorun qardaşlarla bağlı ittihamları və gəldiyi nəticə sizdə hansı qənaətin yaranmasına səbəb oldu?*

g) *Oxuduğunuz məclislər hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?*

2. ***Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün, fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.***
3. ***Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.***
4. ***Məclislərin birindən seçdiyiniz hissənin məzmununu iki formada – yığcam və yaradıcı danışmağı öyrənin, nümunələri dinləyib onlara münasibət bildirin”.***

*(Məzmun üzrə işin təşkili ilə bağlı geniş məlumatla tanış olmaq üçün dərsliklərə və müəllim üçün metodik vəsaitlərə baxmaq məqsədəuyğundur).*

*Dramatik əsərlərin* ***təhlili*** *özəlliyi ilə seçilir. Dramatik əsərlərin təhlilinə nədən başlamaq lazımdır? sualına cavab verməklə həmin özəllikləri aydınlaşdırmaq mümkündür. Metodikada bu suala fərqli cavablar verilmişdir. Metodist alimlərdən bəzilərinin fikrincə, faciə janrında olan əsərlərin təhlilinə* ***konfliktin*** *aydınlaşdırılması*

*ilə başlamaq faydalıdır. Həmin alimlərə görə, **komediyanın** təhlilində baş qəhrəmanların təhlili ön plana çəkilməlidir. Bu alimlər **dram** janrının təhlilində isə diqqətin ilk növbədə başlıca **problemə** və **konfliktə** cəlb olunmasını məqsədəuyğun sayırlar.*

*Ədəbiyyat dərsliklərində dramatik əsərlərin təhlili, əsasən, aşağıdakı komponentləri əhatə edir:*

*– Əsərin mövzusunun müəyyənlşdirilməsi.*

*– Əsərdəki obrazların təhlili.*

*– Konfliktin və problemin müəyyən edilməsi.*

*– Əsərin bədii xüsusiyyətlərinin araşdırılması.*

*– Əsərin ideyasının aydınlaşdırılması.*

*Dərsliklərdəki təhlil materiallarında, bu ardıcıllıq, əsasən, gözlənilsə də, tapşırıqların hazırlanmasında, təhlilin aparılması strukturunda sərbəstlik vardır. Deməli, metodik ədəbiyyatdakı tövsiyələri nəzərə almaq, yəni, məsələn, təhlilə **konfliktin** aydınlaşdırılması ilə başlamaq mümkündür.*

*Dramatik əsərlərin təhlilndə konfliktin açıqlanması obrazların xarakter, davranış və əməllərinin aydınlaşdırılması ilə paralel həyata keçirilməlidir. Unudulmamalıdır ki, konfliktin əks qütblərində dayanan obrazlar qrupu barədə aydın təsəvvürün qazanılması nəinki konfliktin, eyni zamanda əsərin ideyasının dərk edilməsində əhəmiyyətli rol oynayır.*

*Konfliktin yaranmasının səbəbi "göz qabağında" olmaya da bilr. Amma onun güclənməsi, davam etməsi və inkişafı məhz obrazlar qrupunun mübarizəsi zəmininda baş verir. Bu mübarizəni şəkildən-şəklə, məclisdən-məclisə, pərdədən-pərdəyə izləməklə konfliktin əsl mahiyyətini, əsərdə qaldırılmış problemi, son nəticədə ideyanı aydınlaşdırmaq imkanı qazanılır.*

*Dramatik əsərdəki bütün şəkillərin, pərdələrin üzərində eyni dərinliklə iş aparmaq mümkün olmadığı kimi vacib də deyildir. Hansı şəklin, səhnənin və s. üzərində dayanmağın vacib olduğunu müəyyən etmək*

*isə çox vacibdir. Seçilənlər əsərin mahiyyətinin, mənasının qavranılması üçün əhəmiyyətli olmalıdır. Ayrı-ayrı şəklin, səhnənin üzərində aparılan dərinləşdirilmiş iş nə qədər faydalı olsa da, bunun qüsurlu tərəfləri də var. Bu, əsər barədə tam təsəvvürün qazanılmasına mane ola bilər. Ona görə də üzərində iş aparılan şəkil və səhnələrin əlaqələndirilməsi vacibdir.*
*Dramatik əsərlərin təhlili üçün özəl olan iki cəhətin xatırladılması faydalıdır. Birincisi, artıq deyildiyi kimi, dramatik əsərlərin təhlilində səhnədə baş verənlərin və səhnədənknar cərəyan edənlərin aydın təsəvvür edilməsinə nail olunmasıdır. İkincisi, mətnaltı mənaların (xüsusən obrazların nitqində) dəqiqlik və ardıcıllıqla aşkara çıxarılmasıdır. Bu baxımdan müəllimin böyük səriştə ilə, yüz ölçüb-bir biçməklə hazırladığı suallar həlledici rol oynayır.*

Unudulmamalıdır ki, "Məlumat üçün" mətninin diqqətlə oxunması, məzmununun başa düşülməsi və mənimsənilməsi həm nəzəri, həm də praktik baxımdan əhəmiyyətlidir. Buna nail olunduqdan sonra növbəti mərhələyə – N. Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərinin məzmunu üzrə işin təşkilinə keçmək olar.

Aşağıdakı variantlardan birinin (əlbəttə, müəllim fərqli variantdan da istifadə edə bilər) tətbiq edilməsi mümkündür.

**Birinci variant.** Tələbələr səssiz oxumaqla əsərinn məzmunu ilə tanış olur, sonra dərsin geniş planını fərdi olaraq hazırlayırlar.

**İkinci variant.** Tələbələr səssiz oxumaqla hekayənin məzmunu ilə tanış olur, sonra cütlük şəklində dərsin geniş planını hazırlayırlar.

**Üçüncü variant.** Əsərin rollar üzrə oxusu təşkil edilir, oxuya ayrılan vaxt başa çatdıqdan sonra məzmunla bağlı yığcam müsahibə aparılır, sonra kiçik qruplar ayrı-ayrılıqda dərsin geniş planını hazırlayır.

**Dördüncü variant.** Hekayənin oxusu fərqli formalardan (səssiz, səsli, rollar üzrə) birinin tətbiqi ilə təşkil edilir, ehtiyac olarsa, məzmunla bağlı yığcam müsahibə aparılır, sonra dərsin geniş planının hazırlanması üzrə işlər kiçik qrupların arasında bölüşdürülür və icra edilməsi üçün vaxt müəyyənləşdirilir. Vaxta qənaət baxımından əlverişli olan bu

variant tətbiq edilərsə, qrupların bir-biri ilə sıx əlaqədə, əməkdaşlıq şəraitində işləmələri vacibdir. İcra olunacaq iş kiçik qrupların arasında aşağıdakı şəkildə bölüşdürülə bilər.

**I qrup:** Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi üzrə işin təşkili, qiymətləndirmənin üsul və vasitələrinin hazırlanması. İnteqrasiya imkanlarının və dərsin hər mərhələsində sərf olunacaq vaxtın müəyyənləşdirilməsi.

**II qrup:** Dərsdə reallaşdırılacaq məzmun standartlarının, təlim nəticələrinin, qiymətləndirmə meyarlarının müəyynləşdirilməsi, dərsin növünün və lazım olacaq ləvazimatın, təchizatın müəyyən edilməsi.

**III qrup:** Motivasiya, problemin qoyuluşu mərhələsinin, tədqiqat sualının müəyyənləşdirilməsi üzrə işin icra edilməsi.

**IV qrup:** Tapşırıqların hazırlanması, dörd, yaxud beş iş vərəqində əks etdirilməsi.

**V qrup:** Məlumat mübadiləsi və müzakirənin təşkili mərhələlərinin işlənib hazırlanması, istifadə olunacaq sualların tərtibi, formativ qiymətləndirmə üsullarının müəyyənləşdirilməsi.

**VI qrup:** Nəticə, ümumiləşdirmə mərhələsinin işlənib hazırlanması, ev tapşırığının müəyyənləşdirilməsi.

Kiçik qrupların əldə etdikləri nəticələr məlumat mübadiləsi və müzakirə əsasında birləşdirilərək vahid dərs planı şəklinə salınır.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra məlumat mübadiləsinin və müzakirənin aparılması vacibdir. Müzakirənin diskussiya şəraitində keçməsinə, nəticələrin çıxarılmasında bütün tələbələrin fəal iştirakının təmin olunmasına imkan yaradılır. Əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında qiymətləndirmə aparılır.

Müəllim ev tapşırığını (N.Vəzirov. “Müsibəti-Fəxrəddin”. Təhlil üzrə iş) xatırladır. Təhlil üzrə məzmun standartlarının, onlara müvafiq təlim nəticələrinin, qiymətləndirmə meyarlarının, tapşırıqların müəyyənləşdirilməsi, dərsin hər bir mərhələsində icra olunacaq işin dəqiqləşdirilməsi və bütün bunların planlaşdırma formasında yazılması barədə tövsiyələr verilir.

Tələbələrə xatırladılır ki, hazırladıqları plan əsasında növbəti məşğələdə sınaq dərsi deyəcəklər.

*Məşğələdə işin gedişi aşağıdakı ardıcıllıqla gerçəkləşdirilir.*

– Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilir və qiymətləndirilir.
– Dramatik əsərlərin tədrisi ilə bağlı tələbələrin blik və bacarıqlarının səviyyəsi aşkara çıxarılır.
– "Məlumat üçün" mətninin oxusu və məzmununun mənmsənilməsi həyata keçirilir.
– Dramatik əsərlərin məzmununun mənimsənilməsi üzrə işin fərqli variantlarda təşkili imkanları barədə təsəvvür yaradılır.
– Tapşırıqların hazırlanmasında nəzərə alınmalı olan məsələlər nəzərdən keçirilir.
– Hazırlanmış işlər barədə məlumat mübadiləsi və müzakirə təşkil edilir, nəticələr birləşdirilərək vahid dərs planı şəklinə salınır.
– Ev tapşırığı ilə bağlı tövsiyələr verilir.

**N. Vəzirov**
**MÜSİBƏTİ-FƏXRƏDDİN**
*(ixtisarla)*

*Əfradi-əhli-məcalis*

F ə x r ə d d i n  b ə y – cavan oğlan, darülfünun tamam etmiş
M ə l ə k  x a n ı m – onun anası
Ş a h m a r b ə y – cavan oğlan, onun qardaşı
H a c ı, X ə l i l, Murad – cavan nökərlər
R ü s t ə m  b ə y – böyük mülkədar
M a h m u d  b ə y – onun cavan oğlu
S ə a d ə t  x a n ı m – onun qızı.
G ü l b a h a r  x a n ı m – Mahmud bəyin övrəti, Fəxrəddinin bacısı
Ə h m ə d, V ə l i – Rüstəm bəyin cavan nökərləri
H ü r ü – qoca övrət, qulluqçu
C a h a n g i r  b ə y – cavan oğlan, mülkədar
F ə r h a d, M ə h ə r r ə m – Cahangir bəyin dostları

## Əvvəlinci məclis

*Vaqe olur Rüstəm bəyin otağında, Avropa qaydasında bəzənmiş, Rüstəm bəy əyləşib səndəli üstə, tək.*

R ü s t ə m  b ə y *(tək).* İndiyə kimi tamam ömrümdə düşmən qabağından qaçmamışam, həmişə və hər yerdə düşmənə faiq gəlmişəm, bir Allahdan savayı, heç kimdən qorxmamışam... *(Səktə)* Mən haman Rüstəməm ki, topdağıtmaz Cümşüd bəyin evini xaraba qoydum... Mənə bir təşəxxüs satmaqdan ötrü Kərim xanın yurdun xaraba qoydum, tar-mar elədim, evinə od vurdum, külün havaya sovurdum... İndi mən bir ağzından süd iyi gələn cavandan qorxacağam?! *(Durur ayağa)* Bir at görməmiş, tüfəng əlinə almamış, övrət sifətdə uşaqdan çəkinəcəyəm? Mən, mən Rüstəmi-zəmanə? Heç vaxt. *(Təbəssümlə)* Hmm...

Görək Fəxrəddin atası Heydər bəydən qoçaqmı olacaq ki, əli qılınclı, qabağımda dovşan tazı qabağında qaçan kimi vazıyırdı. *(Səktə.)* Özün öldürtdüm, qızın güclən oğluma gətirtdim, qardaşların bu vilayətdən itirtdim...

İndi məgər mən ölmüşəm ki, Fəxrəddin gəlib burada ad alıb, san çıxartsın və mənim oğlum Rəşid bəy, Rəşid kimi oğulun qanı yerdə qalsın? O mən deyiləm. *(Uzun səktə, çağırır)* Əhməd, Vəli!.. Hərgah onu atası yolu göndərməsəm, bu papaq mənə övrət ləçəyi olsun. *(Əlin vurur başına)* Bir tək Fəxrəddin oğlum Rəşidin qanına layiq ola bilər... Mən gərək o evi xaraba qoyam!.. (*Əhməd, Vəli bellərində xəncər-tapança daxil olub baş əyirlər)*

R ü s t ə m  b ə y. Fəxrəddin bəy Heydər bəy oğlu, deyirlər gəlibdir, onu görəniniz varmı? Ölənəcən mənlən əlləşən atası Heydər bəyə bənzəyirmi?

Ə h m ə d. Xeyr, ağa, görməmişik. Ancaq belə söyləyirlər ki, çox qəribə oğlandır; alçaq, mülayim. Əlavə deyirlər ki, öz rəiyyəti üçün mülkündə azarxana və məktəbxana açıbdır, həkim gətirib, mama gətirib.

R ü s t ə m  b ə y. Eşitmişəm... Fəxrəddin tamam dünyanın gözü olsa, genə mənim oğlum Rəşidin əvəzi deyil ki, onu Heydər bəy para-para eləmişdi... Nə qədər Fəxrəddin gözəl olsa, nə qədər kamallı, ağıllı olsa, mənə bir elə artıq xoşdur, çünki onu qəza oğlumun qanına layiq əvəz göndərib və mənim üçün məqami-intiqam. (*Səktə)* Əhməd! Vəli!.. *(Səktə)* Rəşidimin yadigarları! O bədbəxt gecə, Rəşid can verən zamanı biz əhd-peyman elədik, öz aramızda əl tutuşduq, o əhd-peyman yadınızdan çıxmayıbdır ki?..

Ə h m ə d. Xeyr, ağa, elə halət, elə məqam yaddan çıxa bilməz, mümkün deyil... Və adın kişi qoyanın sözü bir gərək. Başımızdakı papaqdır, ağa, övrət ləçəyi deyil!

V ə l i . Əvvəl-axır ölümdür. Ağa, qoy can puç olsun, qeyrət yolunda, namus yolunda... Rəşid ağamın müsibətini unutmaq olmaz.

R ü s t ə m  b ə y. Mərhəba, mərhəba!.. Cavabınız mərd igidin cavabıdır; çörəyim sizə halal olsun... Əgər sizlən bir yerdə oğlum, biçarə Rəşidim sağ olsaydı, o da mənə belə cavab verərdi... Haradasan, oğul, belimi sındıran oğul? Yaraların yadıma düşəndə dünyavü-aləm başıma aylanır, bədənim od tutub

yanır, başımdan tüstü çıxır... Oğul, oğul! Sənin qanını yerdə qoymaram, oğul! Qəbirdə rahat yat... Hərgah meydanda tək də qalsam, genə düşməndən əl çəkməyəcəyəm. *(Əhməd və Vəli baş vurub gedirlər)*

R ü s t ə m  b ə y *(tək*). Hərgah mənim oğlum Mahmudda namus, qeyrət olsaydı, mənim nişanələrimin yüzdən biri onda tapılsaydı, o indiyə kimi qardaşının intiqamını almışdı və məni bu dərddən xilas eləmişdi... Heyif sənə, oğul, heyif sənə, Rəşid!.. Of... *(Uzun səktə)* And olsun Rəşid bəyin qəbrinə, hərgah Mahmud övrətin sözünə baxıb, biqeyrətliyi qəbul eləsə, mən onu bir də oğul deyib çağırmayacağam, ölüb, ya itmiş hesab eləyəcəyəm... Mənim oğlum gərək mənim özümə oxşasın, biqeyrət oğul mənə lazım deyil. Rəşid əlimdən getdi, ölmədim, Mahmud gedəndə nə olacaq?.. (*Səktə)* Dünyada ömr eləmə, elədin qeyrəti, namusu əldən vermə, vəssalam.

M a h m u d  b ə y *(daxil olub)* Nə buyurursunuz?

R ü s t ə m  b ə y. Mahmud, sənin məhəbbətin məni vadar elədi, mən də gedib düşmən qızın gətirdim cəbrən və evimdə gəlin elədim və mən öləndən sonra dövlətimə şərik... Demirəm pisdir, göyçək deyil, ağılsız-kamalsızdır... Amma düşmən qızıdır və bu düşmənçilik ki, bu saat bizim aramızda var və həmişə olacaq, Gülbahar mənim evimdə qala bilməz, əlavə müsibətlən gələn qızı düşmən qapısına geri qaytarmaq özü bir böyük müsibətdir... Gülbahar gərək getsin. *(Səktə)* Qandın ki, tələbim nədir? *(Səktə)* Səndən cavab gözləyirəm, de görüm sözün nədir?!

M a h m u d  b ə y. Məni bağışlayın, ata, hərgah məhəbbət necə ki, buyurursunuz, sizi vadar elədi gəlin barəsində cəbrən iş görməyə, ola bilərmi ki, haman məhəbbət mane ola ikinci cəbrə və zülmə?

R ü s t ə m  b ə y. Ola bilməz... İkinci təklif: hazırsanmı Heydər bəyin evin tarmar etməyə, yurdunda bayquş ulatmağa, Rəşid bəyin qanını almağa?

Ma h m u d  b ə y. Sahib-ixtiyarısınız... Amma Fəxrəddin bəyin haqqında doğrusu insaf yol vermir; çünki o biçarə bitəqsirdir və özü o vaxt burada olmayıb.

R ü s t ə m  b ə y. Hay, hay, hay, hay, Mahmud! Mən elə qabaqcadan bilirdim sənin cavabını... Heyif sənə, Rəşid! Yaraların sübut edirdilər ki, düşmənə asanlıqla can verməmisən. Biçarə oğul, belimi sındıran oğul!..

Ma h mu d  b ə y. İnanın, ata, Rəşid bəyin müsibəti necə ki sizə rahatlıq vermir, elə də mənim özümə. Ancaq, ata, Allah xatirinə, məni vadar eləməyin nahaq qan tökməyə və zülm etməyə...

R ü s t ə m  b ə y *(acıqlı).* Kifayətdir, gedə bilərsən...

M a h m u d  b ə y *(gedə-gedə kənara).* Belə ki sən başlamısan, öz evində bayquş ulayacaq.

R ü s t ə m b ə y *(tək).* Rəşid! Qanını yerdə qoymaram. Yoxsa oturduğum yerdə sinəm partlayıb bağrım çatlar!.. Bir qaranlıq gecədə gədələri götürüb gedərəm, od vuraram evlərinə, tayalarına və çölə çıxanı gülləbaran edərəm. Rəşid! Bilsəm ki, evim tar-mar olacaq, yurdum itəcək, genə sənin qanuvu yerdə qoymayacağam,

oğul!.. Evlərini Qars qalası da eləsələr, yüz nəfər adam da orada olsa, genə gərək mən intiqamımı yerdə qoymayam... Mənə iki etibarlı nökərim, Cahangir bəy, yoldaşları kifayətdir... Vay Mahmud, vay Mahmud!.. *(Gedir)*

G ü l b a h a r x a n ı m *(daxil olub).* Uy, ay qardaşlarım, uy, yazıq atamın evi!.. Qulaqlarım kar oleydi, bu günə əhvalatı eşitməyəydim... İndi mən neyləyim, Allah? Dərdimi kimə deyim, Allah?.. Kağız yazıb kimlən göndərim? Nə tövr onları xəbərdar eləyim?.. Ağlım çaşır, Allah!.. Mən Fəxrəddinin ölümünə tab eləyə bilmərəm, Allah! *(Ağlayır)* Uy, yazıq qardaşlarım, yetim canım, yazıq canım, qərib canım sizə qurban, ölüm mənimdir, Allah! *(Yıxılır səndəli üstə gözlərin örtüb ağlayır)*

S ə a d ə t x a n ı m *(daxil olub)* Gülbahar, nə olubdur? Gülbahar! De görüm nə olub?! Səsini çıxart, Allah xatirinə, məni qorxutma?!

G ü l b a h a r x a n ı m. Müsibət yerdən göyəcən... Səadət, Səadət, canım sənə qurban, bağrım çatlayır, aman günüdür!

S ə a d ə t x a n ı m . Gülbahar, sən məni həqiqət qorxudursan. Allah xatirinə, tez ol, sözünü de!

G ü l b a h a r x a n ı m. Səadət, insaf məqamında sənin atan mənim atam ilə düşməndilər, sənin atan mənim əmilərimi nahaqdan diyarbədiyar saldı... Mənim atam sənin qardaşını öldürdü, sənin atan mənim atamı, belədir? Üç qan bunlar elədilər, bir qan mənim atam. Görək bundan sonra Fəxrəddinin taxsırı nədir?! Sən istəyirdinmi ki Fəxrəddini... Oy, dilim-ağzım qurusun, Allah!

S ə a d ə t x a n ı m. Fəxrəddinin başından bir tük əskik oluncan, mənim iki gözlərim kor olsun! Gülbahar, Allah xatirinə, gödək danış görüm, təzədən qəza başımıza nə gətirmək istəyir?

G ü l b a h a r x a n ı m. Bu saat mən eşitdim, Allah heç bacılara göstərməsin... Rüstəm bəy nökərlərilə məsləhət gördülər ki, bir qaranlıq gecədə gedib mənim atamın evini yandırsınlar və çölə çıxanı gülləbaran eləsinlər... Fikirləri Fəxrəddini öldürməkdir... Fəxrəddin üç ay deyil Almaniyadan gəlibdir, mən onu görməmişəm... Belə zülm olarmı ki, bunlar başlamaq istəyirlər?!

S ə a d ə t x a n ı m. Uşaq olma, səbr elə, bu saat. *(Səktə)* Hürü nənə, ay Hürü nənə. *(Çağırır)* Ancaq təvəqqe edirəm rəftarında təğyir olmasın və özünü arxayın saxlayasan. Eşidirsənmi?

H ü r ü *(daxil olub).* Belə nə var, Hürü nənə sizə qurban?

S ə a d ə t x a n ı m. Hürü nənə, bu saat evdən xəlvət çıxarsan düz Fəxrəddin bəyin yanına. Təkcə özünə deyərsən ki, bizim qırılmışlar sözü bir yerə qoyublar ki, gedib onların evlərini bir qaranlıq gecədə yandırsınlar və çölə çıxanı gülləbaran eləsinlər. Və bu işdən ötrü Cahangir bəyi də köməyə çağırmaq istəyirlər. Fəxrəddindən təvəqqe eləyirəm bu xaraba vilayətdən baş götürüb getsin, qalmasın bu dağılmışda... O ki qaldı mənə, mənim fikrimi çəkməsin, onun hər yerdə olsa,

salamatlığı məndən ötrü kifayətdir, mən ölənəcən bivəfalıq eləməyəcəyəm, nə qədər canım sağdır, bu canımı onun yolunda qoymuşam...

H ü r ü. Bircə bu kişiyə deyən gərək, ay biiman! Bu Fəxrəddin haman Fəxrəddindir ki, qızın Səadəti altı-yeddi il oxudub, tamam vilayətin gözü eləyib, indi bu da onun əvəzidir, ay biiman, a başı batmış?! Hərgah Səadət bu qədər oxumaseydi, o da olardı bizim tayımızın biri. İndi, bax gör ki, Səadət dildən-ağızdan düşmür. Səadəti bu məqama yetirən Fəxrəddin deyil? Tfu! Yox olasan sən, murdar olasan sən! Yandım-töküldüm!..

M a h m u d b ə y *(daxil olub).* Nədir yenə, a Hürü qarı, dərvişlik eləyirsən?!

H ü r ü. Nə olacaq, dəli qudurmuş atan təzədən genə çarxı xoruz kimi girib meydana, qoymaz görək dərdimiz nədir?

Ma h mu d b ə y. Əhvalatdan xəbərdaram... Ancaq qorxmaq lazım deyil, mən ölməmişəm ki, qoca təzə müsibət gətirə bilsin bizim başımıza... Elə fikirləri mən pozaram, qoymaram əmələ gələ; arxayın olun.

S ə a d ə t x a n ı m. Qardaş, biz heyvan deyilik, bizə insan deyirlər. İnsan olan kəsdə məhəbbət gərək, insaf gərək, mürüvvət gərək... Atamızın bir ayağı qəbirdədir, lazımdır ki, biz mane olaq onun vəhşi işlərinə. Nə olubdur axır, bəs deyil?!.

M a h mu d b ə y. Mən ölməmişəm ki, siz təşvişə düşürsünüz! Qoca kişidir, danışar, danışar, yorulub oturar yerində. Bəri gəlin, gedək bağçaya. *(Səadəti, Gülbaharı qucaqlayıb aparır, gedirlər)*

*Pərdə*

## İkinci məclis

*Vaqe olur Fəxrəddin bəyin mənzilində. Gecə Fəxrəddin bəy əyləşib səndəli üstə, qabağında miz, miz üstə bir cüt yanan şam, dəftərlərə baxır.*

F ə x r ə d d i n b ə y (*tək*) Mənim ağlım heç kəsmirdi ki, kari-xeyirlər, bizim molla demişkən, bu tezliklə tamam oleydilər. Allah qoysa, bir üç-dörd ilin içində bağ da hazır olar və onun mədaxili məktəbxanaya və azarxanaya kifayət elər; məndən artıq xərc istəməz... Sonra... Səadət xanım qolları çirməkli, dəstə haçar belində, gecə-gündüz əlləşməkdə, cənab Fəxrəddin bəy də özü həmi bağban, həmi dirrikçi, həmi məktəbdə müəllim... Pis ömr deyil, hərgah qəza bivəfalıq etməsə. Görək, Allaha pənah! *(Səktə)* Hacı Murad! *(Çağırır. Hacı Murad daxil olur)*

H a c ı M u r a d. Nə buyurursunuz, ağa?

F ə x r ə d d i n b ə y. Nə var, nə yox, Hacı Murad? Həkim mənzilindən razıdırmı? Mollanın kefi necədir?

H a c ı  M u r a d. Molla uşaqlarla dərsdən sonra uşaq kimi oynayır. Həkim mənzilindən çox razıdır, ələlxüsus övrəti. İnək də ki gəlibdir; şadlıqlarından bilmirlər nə eləsinlər... Molla çox yaxşı oğlandır.

F ə x r ə d d i n  b ə y. Çox yaxşı, təhəng çubuqları da ki vüsul oldu.

H a c ı  M u r a d. Bəli, ağa, iki ərəbə, çox təmiz çubuqlar.

F ə x r ə d d i n  b ə y. Çox pakizə. Sübh tezdən hamısını basdırarsan. Nə qədər fəhlə lazım olsa, bağbana deyərsən, gətirsin, əlavə şagirdlərin hamısını çıxardarsan köməyə. Çubuqları artıq saxlamaq yaxşı deyil...

H a c ı  M u r a d. Baş üstə, ağa, molla özü hazırlaşıb əlləşməyə. *(Hacı Murad baş vurub gedir)*

F ə x r ə d d i n  b ə y *(tək)* Hər iş öz yolundadır, şükür Allaha... İndi bir qalıb Rüstəm bəylə barışmaq. Bilmirəm, onu nə tövr eləyəcəyəm. Dünyanın hər bir işi cəngi-məğlubədir; amma vəhşi nadanlıqla cəng etmək mümkün deyil. Neyləmək? Çünki oldun dəyirmançı, çağır gəlsin dən, Koroğlu...

*Mələk  xanım və Şahmar bəy daxil olurlar.*

M ə l ə k  x a n ı m. Oğul, atanın canı ağzından çıxanacan "Fəxrəddin, Fəxrəddin" deyib çağırdı. Güllə dəyəndən sonra onun dırnaqları ilə kotan kimi eşdiyi yeri görsəydin, ağzından bir qarış çıxan kömür kimi qaralmış dilin görsəydin!.. Uy Heydər, uy Heydər!.. Məni köməksiz qoyub gedən Heydər! Gözlərim kor oleydi, səni o halda görməyəydi.

F ə x r ə d d i n  b ə y. Xudaya! Gör biz müsəlman necə bədbəxt, vəhşi, nadan tayfayıq ki, bir nahaq, bimənə işdən ötrü bu mərtəbədə müsibətlər, düşmənçilik bəhəm eləmişik. *(Səktə)* Vallahı, deyirəm, belə hərəkətlərə dürüst fikir verəndə, belə görünür ki, guya biz müsəlman tayfaların üstə göydən lənətnamə yenib ki, işığa çıxa bilməyəcəksiniz, həmişə zülmətdə qalıb, vəhşi nadanlıq gücü ilə bir-birinizi tələf edəcəksiniz... Aşkar görürəm, sübut uzaqda deyil... Mən buraya gələn üç ay deyil, bu üç ayın ərzində iki yüz adam, dəxi də artıq, elə bizim ətrafda bir-birini tələf ediblər. Məgər bu vəhşi nadanlıqdan deyil? İnsaf yox, mürüvvət, qanacaq, tərbiyət yox, məgər şəriət bizə göstərən yol budur? İnsaf məqamında durun. Anacan, qardaşım, axır mənim atam Rüstəm bəyin cavan oğlunu tikə-tikə eləmişdi! Necə ki atamın müsibəti bizi yandırır, elə də Rəşid bəyin ölümü atasını, qardaşını yandırır... Siz nə insaflan işə bir göz ilə baxırsınız?!

M ə l ə k  x a n ı m. Oğul, oğul! Beş il üzü qibləyə namaz qılıb, Allahı çağırıb, yolunu gözləmişəm; indi sən də belə?

F ə x r ə d d i n  b ə y. Çox uzun danışdıq, kifayətdir... Mənim axır sözüm budur ki, mən cəllad deyiləm, adam öldürəm, ya öldürtdürəm... Hərgah mənim özümü öldürmək istəyirlər, neyləmək, qoy öldürsünlər, mən bir can borcluyam. O ki qaldı Səadətə, onu məndən bir əcəl ayıra bilər... Sizdən çox

təvəqqe eləyirəm ki, Səadət barəsində dəxi artıq bu evdə söhbət olmasın, kifayətdir.

M ə l ə k x a n ı m. Kifayətdir, kifayət olsun, eybi yoxdur. Dur gedək, oğul. *(Şahmar bəyə).* Allah barı səni mənə çox görməsin, dur gedək...

Ş a h m a r b ə y. Bəli, fəziləti-axund məlum şüd!.. Buyur, gedək, ana. *(Gedirlər)*

F ə x r ə d d i n b ə y *(tək)* Qəribə işə düşmüşəm, and olsun Allaha, bu kəsafətimədə ilən mənə ağıl öyrətmək istəyirlər... Canım, beş gün deyil bu vəhşi tayfanın içinə gəlmişəm, az qalıbdır ki, məni cəllad eləsinlər. Xudaya, gör mən nə dərdi çəkirəm, bunların fikri nədir! Bədbəxt müsəlman, şəriətdən bixəbər, avam müsəlman. Fəqir-füqəralar yaddan çıxıb, yetimlərə rəhm kəsilib, elm yox, sənət yox. Girmişik meydana, əldə qılınc, hərif axtarırıq. Bismillah, buyurun, görək kim artıq bihəyadır, kim cəbr etməkdə, baş kəsməkdə qoçaqdır. Tfu, xaraba qalasan, ölkə! Heyif sənə, gözəl şəriət! Heyif sənə, gözəl islam! Hər bir şeydən mənə təəccüb o gəlir ki, anam, qardaşım bilə-bilə ki mən Səadətsiz dünyada bir gün də ömür eləmək istəməzdim, onunla belə o təmənnaya düşüblər ki, Səadətin adını çəkməyim... Afərin məhəbbətinizə! *(Hürü kişi libasında daxil olur)*

F ə x r ə d d i n b ə y *(xoflu)* Kimsən, nəçisən? Burada nə işin var?

H ü r ü. Qorxma, Hürü nənə sənə qurban! Mənəm, mən. Belə sənin qoca Hürü nənən!

F ə x r ə d d i n b ə y. Gecənin bu vaxtında, bu libasda? Nə olub, Hürü nənə? Allah xatirinə, tez məni hali elə.

H ü r ü. Qorxma, canım sənə qurban, hələ qoy bir nəfəsimi alım... Səndən savay yaxında adam yoxdur ki?

F ə x r ə d d i n b ə y. Heç kim yoxdur. Bircə de görüm Səadət salamatdırmı, nə iş ittifaq düşüb?

H ü r ü. Salamatıq, a başına dönüm... Bizim o mürdəşir üzün yumuş Rüstəm bəy, məlun oğlu məlun, hazırlaşıb sizin evə od vursun gecə vaxtı və çölə çıxanı yanğın işığına güllələbaran eləsin. Bir dəli qudurmuş Cahangir bəy də var, bilmirəm, onu tanıyırsan, ya yox, o da Səadətdən ötrü dəli-divanədir, kişi istəyir, onu da gətirib köməyə, bu evin adamlarını çəmən qırsın... Rüstəm bəyin tədbirini Səadət xanım və Gülbahar xanım bilib təşvişə düşüblər, məni də göndəriblər xəbərə.

F ə x r ə d d i n b ə y. Nahaq təşvişə düşüblər... Rüstəm bəy mənə heç zad eləyə bilməz; ancaq təəccüb burasıdır ki, mən hazırlaşmışdım, gedim Rüstəm bəyin qulluği-şərifinə, bu düşmənçiliyi aralıqdan götürməkdən ötrü... İndi ki belə oldu, neyləmək. Lazımdır sərhesab olmaq... Məni xəbərdar eləməkdə yaxşı iş görmüsüz... Biçarə Səadət, yəqin, əziyyət çəkir.

H ü r ü. Səadət xanım biçarə özünü öldürür, deyir: Fəxrəddin bu vilayətdən baş götürüb getsin, aman günüdür, qoy, deyir: dünyayi-aləmin hər nə müsibəti var, mən çəkim, Fəxrəddinin basindan bir tük əskik olmasın.

F ə x r ə d d i n  b ə y. Mən bir işdə çox böyük səhv eləmişəm, Hürü nənə. Gərək Səadəti düz aparaydım Almaniyaya. Qalardıq orada və bir belə zəhmət çəkməzdik, bu vəhşi tayfanın nahaq, biinsaf, bimürüvvət işlərin görməzdik. İndi görək Allah nə istəyib!

H ü r ü. Fəxrəddin, canım sənə qurban, mənim buraya gəlməyimi gərək heç kim bilməsin, çünki məlun oğlu məlun bizi diri-diri boğar, dar ağacına çəkər. İndi mən gedim, qurban sənə, Səadət xanım təvəqqe eləyirdi ki, burada qalmasın və gedən vaxt məni görməmiş getməsin. *Hürü gedir.*

F ə x r ə d d i n  b ə y *(tək)* Rüstəm bəy intiqam almaq istəyir... Neyləmək! Belə vay, ellik ilə gələn vaydır. Rüstəm bəydə günah yoxdur. Elmdə, sənətdə geri qalan millət bizim günümüzə düşər... Bitərbiyət, qanmaz, bihəya, yalançı, oğru, başkəsən, nainsaf, bimürüvvət... Neyləmək gərək?! İşimiz belə düşüb... Ağsaqqal, büzürgüvarımız Rüstəm bəy! Mənim taxsırım nədir ki, məni öldürtmək istəyirsiniz, bitaxsır? Görək bu şəriətimizdə var, Quranımızda var, ya belə işə insaf yol verə bilər?.. *(Uzun səktə)* Xudaya, mən ölümdən qorxmuram, qüdrət sənin əlindədir, amma rəva deyil ki, mən bir belə zəhmətdən sonra öz mətləbimə çatmamış, arzularıma yetməmiş cavan, bir gədasifət adamın əlində bitaxsır bada gedəm. Həvəs ilə başladığım işin aqibətin görməyib tələf olam! Mənim canıma qəsd eləyən şəxs, məgər Allahdan qorxmaz, xəyal eləməz?.. Məgər cavanlıq, nakamlıq zalımın qabağın kəsməz?! Məgər Səadətin naləsindən qorxmaz?.. *(Fikrə gedir).*

*Pərdə*

## Üçüncü məclis

*Vaqe olur Cahangir bəyin bağçasında.*
*Cahangir bəy tüfəngə söykənib, bikef durub ayaq üstə.*

C a h a n g i r  b ə y. Uf, belə ömür keçirməkdənsə, ölüb qurtarmaq yaxşıdır... Allahın bir bəlasıdır ki, düşmüşəm: yemək yox, içmək yox, bir dəqiqə bir yerdə farağat oturmaq yox... Mal-dövlət tarac oldu getdi, özüm də düşmüşəm bu günə. Xudaya, mən nə günah eləmişdim ki, sən məni bu hala saldın? (Səktə.) Nə qədər özümə söz verirəm, Qurana, kitaba and içirəm ki, bundan sonra Səadət adı çəkməyəcəyəm, olmur... Dəli-divanə kimi gecə yarısından keçmiş, atlanıb gedirəm o ətraflarda gəzirəm, gəzirəm, yorulub axır nəfəs geri qayıdıram... Əgər bir neçə müddət də ömrüm belə keçsə, arzuma çatmasam, yəqin ki, buxovlanacağam. Neyləyim, Rüstəm bəy evini eləyib bir Qars qalası, yaxın getmək olmur ki, qızı güclən aparasan, ya ki, özün vurub öldürəsən?! *(Uzun səktə)* Nə olardı, xudaya, mənim bu divanə məhəbbətimin yüzdən biri Səadətdə olaydı. Hay-hay, hay-hay! Nə qədər Fəxrəddin bəy gəlməmişdi, mənim genə az-çox ümidim vardı, indi o ümidlərim də kəsilib, qalmışam naçar, biəlac... Tamam el-oba mənim adımı Məcnun qoyublar.

Əlbəttə, mən divanəyəm. Hərgah divanə olmasaydım, Səadətə təəşşüq yetirməzdim... Mən hara, o hara?.. Səadətin məkanı asimanda gərək oleydi... Hurilər içrə Allah onu yaradıb mənim kimi divanə üçün xətavü bəla... Neyləyim, bilsəm ki, baş götürüb getsəm, bu bəladan xilas ola billəm, vallah, elə bu saat itərəm; amma bilirəm ki, məqdurimiz bu gün gedib sabah geri qayıdacağam, genə o qapıda sürünməyə. Nə qədər fikir eləyirəm, dərdimin əlacı bircə şeydir: gərək Fəxrəddin aralıqdan götürülə, yoxsa ayaqyalın, başıaçıq, dərələrdə, təpələrdə Məcnunam ki, Məcnunam.

*Fərhad və Məhərrəm daxil olurlar, təəccüblə Cahangir bəyə baxırlar.*

F ə r h a d. Cahangir, nədir? Genə sir-sifətindən qan yağır, suya basılmış toyuğa oxşayırsan?! Yəqin, genə o əhvalatdır səni bu günə salan!

M ə h ə r r ə m. Mən ölüm, Fərhad, bəri gəl, qayıdaq. Cahangiri bu halında görməkdənsə, görməmək yaxşıdır. Sağ olmuş, elə bil ki xanzadələrin borcun bundan almaq istəyirlər.

C a h a n g i r b ə y. Əlbəttə, elə deyəcəksiz... Kotan nə bilir, qayış nə çəkir?

F ə r h a d. Genə başlayıb rəhmətlik oğlu, buyur görək təzədən nə var?

C a h a n g i r b ə y. Məgər siz mənim dərdimi bilmirsiz, dəxi nə lazım soruşmaq.

M ə h ə r r ə m. Bu köhnə söhbətdir, Cahangir, təzədən nə var, onu buyur görək.

C a h a n g i r b ə y. Nə olacaq, Fəxrəddin bəy gəlibdir, ümid yerim kəsilib, vəssalam! Bundan artıq nə istəyirsən?

M ə h ə r r ə m. Ümid yerin kəsilib, sonra nə olsun? Evdə oturub dul arvad kimi zıqqıldamaqdan ələ nə gələr? İnsan gərək dərdinə dərman axtarsın, dərman tapa bilmədi, səbr eləsin, dözsün, dözə bilməz, boğazına bir çatı salsın. Zıqqıldamaqdan iş aşmaz.

C a h a n g i r b ə y. Necə ki mən fikir eləmirəm, dərdimə dərman axtara bilmirəm? Gecə-gündüz belə çevirirəm, elə çevirərəm və nə qədər fikir eləyirəm, bir əlac tapmıram məgər indi mənim dərdimin əlacı Fəxrəddinin fot olmağı, yəni dərdimin əlacı insan qanıdır. İndi də deyirsiniz, deyin...

M ə h ə r r ə m. Mən bilsəm ki, sənin dərdinə insan qanı dərman ola bilər, vallahı, mən elə bu saat əzrailliyi qəbul elərəm. Dərd odur ki, mən elə dərmana inanmıram.

F ə r h a d. Cahangir, mən ölüm, doğrusunu de, qızın sənə heç bir az meyli var, ya yox? Onunla bu barədə danışmısanmı? Yoxsa elə uzaqdan-uzağa Məcnun olmusan?

C a h a n g i r b ə y. Nə qədər məgər sifariş eləmişəm... Cavabı həmişə birdir: "Mümkün deyil, məndən inciməsin". Bir dəfə yolda görmüşəm, cavab verdi ki, zülmə razı olma. Hərgah o fikrə düşsəniz ki, güclə iş əmələ gələ, o da nahaqdır, çünki mümkün olan şey deyil. Nitqim kəsildi, artıq söz deyə

bilmədim, yola düşüb getdilər. Yerimdən bir saat tərpənə bilmədim, dallarınca heyran-heyran baxdım, gözlərimdən yaş biixtiyar nisan kimi töküldü. Uf!..

M ə h ə r r ə m. Mən sənin yerinə olsam, Cahangir, əhvalatı düz Rüstəm bəyin özünə deyərəm və qandıraram ki, qızın Rəşid bəyi doğrayan Heydər bəyin oğluna qoşulub qaçmaq istəyir, onda, bəlkə...

C a h a n g i r b ə y. Paaa, heç bir fənn qalıbdır ki, işlətməmiş olam... Nə molla, nə Dərviş, nə seyid, nə cadu, nə pitik!.. Canımı, malımı tar-mar eləmişəm. Rüstəm bəyin özünə qandırdım, o zalım oğlu gör mənə nə cavab verdi: “Mənim qızım bir artıq oxumuş qızdır, sənə yaramaz. Sən bir çölçü babasan. Sənə bir kasıbfəndi qız gərək, hər kimin qızın istəyirsən, gedim bu saat alım”.

F ə r h a d. İndi biz nə edək? Qız razı deyil, atası razı deyil. Evləri Qars qalası. Bəs nə tövr olsun?

C a h a n g i r b ə y. Aman günüdür, qardaşlar, əgər bacarsanız, müzayiqə eləməyin... Məhərrəm, Məhərrəm. Heç fikrə getmə, sizdən savayı kömək yerim yoxdur.

M ə h ə r r ə m. Sən, Cahangir, qəribə adamsan, vallahı! Mən necə fikrə getməyim ki, Rüstəm bəy evini eləyib bir əlçatmaz qala, Fəxrəddin bəy həmçinin... Əlavə, tutaq ki, elə biz qadir olduq Fəxrəddin bəyi öldürməyə, sonra nə olsun? Cahangir, qardaşım, acığın tutmasın, axır sən elə yerdən tutmusan ki, mümkün olan şey deyil. Səadət xanım deyəndə, bir padşaha layiq qızdır, sənin, mənim tayımız deyil. Axır nə lazım olub bir bitməyən işin dalına düşək?!

C a h a n g i r b ə y. Bayaq dedim: kotan nə bilir qayış nə çəkir?.. Allah səni mənim günümə saleydi, onda bilərdin mən nə haldayam və nə çəkirəm... Neyləyim?

F ə r h a d. Rəhmətliyin oğlu, Məhərrəm də elə söz danışır ki, guya Fəxrəddin bəyi öldürmək çox çətin işdir. Vallahı, onu elə bu gecə öldürüm! O ki qaldı qıza, sən öləsən, çətini bir ələ keçməsidir, nə qayıracaq? Atılar, düşər, axırı yumşalar.

M ə h ə r r ə m. Fərhad, Fərhad, böyük-böyük danışma! Vallah bu saat Fəxrəddin bəyin qapısında iki gədə var ki, bizi diri-diri yeyərlər... Nə söyləyirsən? Qız da o sən deyən qızlardan deyil, sən onu tanımırsan, ona yaxın getmək olu?!

C a h a n g i r b ə y. Ay uşaqlar, siz ki məni yaxşı tanıyırsınız. Mənim əlimdən nə gələr, nə gəlməz, heç kim bilməsə də, siz ki görmüşsünüz, siz ki bilirsiniz... Məgər mən özüm Fəxrəddini öldürməkdə aciz qalmışam? Əlim gəlmir, Səadətin əziyyətindən qorxuram, yoxsa mənə nə olub?

F ə r h a d. Cahangir, bu olmadı! Qardaşım, gahi sən deyirsən, Fəxrəddini öldürmək gərək, gahi deyirsən, mən onu necə öldürüm... Bu sözlər bir-birini tutmur.

C a h a n g i r  b ə y. Doğrusu ki, mən başımı itirmişəm, özüm də bilmirəm, nə danışıram. Yaxşısı budur ki, məni vurun öldürün, bir yol canım qurtarsın. Vallahı, doğru sözümdür, qanım sizə halaldır, öldürün!

M ə h ə r r ə m. Bilirsiniz nə var? Belə danışıqdan iş aşmaz, Fəxrəddin bəyi öldürməkdən mətləb hasil ola bilməz. Hamısından yaxşı odur ki, qızın özünü bir tərəfə aparaq, hər nə ola-ola.

F ə r h a d. Nahaq danışma, Məhərrəm. Nə qədər Fəxrəddin bəy sağdır, qızı aparsan da iş düzəlməyəcək, onda biz gərək baş götürüb elə bir tək Rüstəm bəyin əlindən bu vilayətdən qaçaq. Mən belə qanıram ki, hərgah Fəxrəddin bəy ortalıqdan götürülsə, bəlkə, onda iş rast yoluna düşə.

M ə h ə r r ə m. Bir iş də var, onu mülahizə eləmək. Rüstəm bəyin evində oğlu Mahmud bəyin arvadı, Fəxrəddin bəyin bacısıdır... Gülbahar xanım. Gərək Mahmud bəyin qaynını öldürsək, aya Cahangir bəyin işi düzəlir? Ona Mahmud bəy, – Rüstəm bəy dursun bir kənarda – görək razı olur? Canım, mən nə qədər fikir eləyirəm, bu işin axırını bir yana çıxarda bilmirəm doğrusu.

C a h a n g i r  b ə y. Məhərrəm, sənin axırın niyə belə bietibar oldu, a gədə? Mən haman Cahangir deyiləmmi ki, yoldaşlar cəmən qaçdılar, mən geri qayıdıb, səni yaralı dalıma alıb güllə dolu kimi yağan vaxt at kimi qaçdım, qoymadım öldürələr? Bu dursun kənarda... Mən haman Cahangir deyilləmmi, bir top bez atdım barıdan, səni dustaqxanadan çəkdim divar üstə, sonra dalımda, qaça bilmirdin, nə qədər mənzil apardım?.. Məhərrəm, Məhərrəm, qaranlıq meşədə cərrahlıq edib üç ay gündə iki dəfə yaranı açıb-bağlayan, ana-bacı kimi sənə pərəstar olan kim olub? Qoçaq yoldaşlarımız dağıldılar, bircə tək mən axırda qaldım sənin yanında. Məhərrəm, məgər bu əhvalatlar yadından çıxıblar?

M ə h ə r r ə m. Qurtardın ki? El-oba sədası doğru olarmış! Cahangir, həqiqət, mən görürəm sən dəli olubsan... Məgər sənin işindən mən baş qaçırdıram?! Eyibdir sənə, Cahangir, belə sözlər danışmaq. Mən canımdan, malımdan əl çəkərəm sənin yolunda, ancaq biləm ki, iş əmələ gələ bilər. Nahaqdan atılıb-düşməkdən iş aşmaz. Mən deyirəm iş görək, iş olsun... Axır, qardaşım, vallah, billah, tallah, Fəxrəddin bəyi öldürməkdən heç zad ələ gəlməz.

F ə r h a d. Uzun danışmaq lazım deyil. Durun ayağa gedək rizliyək, bir-iki gündən sonra özümüzü vuraq  əjdahalar içinə, ya onlara verən Allah, ya bizə; hər nə ola-ola... Ya Fəxrəddini öldürməyə, ya qızı qaçırmağa, vəssalam!.. Mənim məsləhətim belədir, indi özünüz bilin.

M ə h ə r r ə m. Baş üstə, buyurun gedək...

C a h a n g i r  b ə y. Buyurun gedək. *(Gedirlər)*

*Pərdə*

## Dördüncü məclis

*Vaqe olur qaranlıq gecədə, Fəxrəddin bəyin mənzilinin qabağındakı bağçada. Pərdə qalxandan sonra Şahmar bəy gəlir, əlində tüfəng.*

Ş a h m a r  b ə y. Yamanca qaranlıqdır, göz-gözü görmür. (Ətrafa baxır.) Hacı Murad, Xəlil... *(çağırır.)* Birisini diri tuta bilsəydik, nə yaxşı olardı?.. Onda Rüstəm bəydən bir dəfə xilas olardıq. Tutan kimi düz aparıb şəhərdə divan əlinə verərdim. Rüstəm bəyi qarışdırardım işə, necə ki o mənim əmilərimi işə saldı, qulaqları cırıldaya-cırıldaya gedərdi, biryolluq canımız qurtarardı... Hacı Murad! *(Çağırır) Hacı Murad, Xəlil gəlirlər.*

Ş a h m a r  b ə y. Uşaqlar, nə var, nə yox?

X ə l i l. Ağa, hələ ki bir şey yoxdur, amma yamanca qaranlıqdır, iki qədəmdə adamı seçmək olmur.

H a c ı M u r a d. Bircə elə hənirtidən bilmək olar ki, yaxında adam var. Allah eləsin ki, bu gecə gəlsinlər.

Ş a h m a r  bəy. Əgər birisini diri tuta bilsəydik, çox yaxşı olardı. Ancaq, Allah xatirinə, özünüzü gözləyin, yoxsa birinizi vursalar, gərək biz papaq qoyub çölə çıxmayaq.

H a c ı M u r a d. Qurbanı öyrətmişəm ki, onlar yaxın gələndə naqafil ayı kimi bağırsın “kimsən?” Onda həriflər bir balaca özlərini itirəcəklər, o dəqiqə birinin allam üstünü, qoymaram gözün aça, boynunun ardına bir-iki döşərəm, tərpənə bilməz, o saat səriyərəm qollarını. Qurtardı, getdi.

Ş a h m a r  b ə y. Əgər bacarsan, çox yaxşı olar... Yatmayın, bəlkə, gec gəldilər, özünüzü gözləyin. Necə ki düzmüşəm, elə qaydada dursunlar. Hərgah ot tayasını yandırmaq istəsələr, mane olmayın, qoyun yandırsınlar.

X ə l i l. Ağa, Hacı Rəsulun çəpəri tərəf adamımız yoxdur. Səməd kişinin evi tərəf də qorxuludur.

Ş a h m a r  b ə y. O tərəfdən cürət edib gələ bilməzlər, ancaq Hacı Rəsulun çəpərində adam qoymaq gərək.

X ə lil. Gərək mən özüm orada duram. Hərgah o tərəfdən gələn olsa, çünki dalı çox bərkdir, tuta bilməyəcəyəm, elə ataram qalar yerində.

Ş a h m a r  b ə y. Çox yaxşı, dəxi durmaq yeri deyil. Gedin, görək Allah nə istəyib. Sərhesab olun, özünüzü gözləyin. *(Gədələr gedirlər*) Mən Fəxrəddinə deyəndə ki, qardaş, sən bu xarabanın işini bilməzsən, burada müsəlmanlar haqq-nahaq bir-birinin qanın içirlər, mənə inanmırdı, indi özü düşüb əl-ayağa! Bəs necə, oğlan, elə bilirsən ki, biz burada asanlıqla çörək yeyirik? Bizim yer Almaniyadır? Bundan sonra bilərsən ki, bu vilayətdə baş çıxarmaq böyük hünər istər.

F ə x r ə d d i n  b ə y (*daxil olur, əlində tüfəng)* Xaraba qalasan, vilayət! Mən, Fəxrəddin, tüfəng? Nə eləyəsən? Qudurmuş itlərdən lazımdır ki, özünü mühafizə eləyəsən... Bir adam ki heyvandan seçilməyə, ondan, əlbəttə, qorxmaq gərək.

Ş a h m a r  b ə y *(təbəssümlə)* Hm! Fəxrəddin bəy, bizim vilayət ilə Almaniya necədir, bir-birinə bənzəyirmi?

F ə x r ə d d i n  b ə y. Yalansa, xaraba qalsın sizin vilayət! Hələ bir şey yoxdur ki, ay Ş a h m a r?

Ş a h m a r  b ə y. Hələ ki xeyr. Hərgah gələn olsa, kənarda bir gədə qoymuşam, it kimi hürəcək, bizi xəbərdar eləyəcək.

F ə x r ə d d i n  b ə y. Qoşunkeşlikdə belə dolanmazlar ki, biz bu neçə gündür dolanırıq. Belə də vəhşi, nadan tayfa olar? Gecə-gündüz yuxusuz, hər bir saatda gözlüyürük, ha budur, evimizi odlayacaqlar, güllərbaran edəcəklər.

Ş a h m a r b ə y. Bəs biz nə edək ki, tamam ömrümüz belə keçir?.. Darıxma, Fəxrəddin, Allah kərimdir. Ancaq, qardaş, belə işlər sənin işin deyil, sən get arxayın yat.

F ə x r ə d d i n b ə y. Əlbəttə, gedib yatacam, ancaq buraya gəlməkdə qəsdim səni görüb tapşırmaqdır ki, olmaya-olmaya bir adam yaralana... Hərgah bir adama güllə dəysə, Şahmar, elə bil ki o güllə mənim gözümə dəyib. Bax, Allah xatirinə, qan tökməyin, səy eləyin qaçsınlar, getsinlər.

Ş a h m a r b ə y. Sən get arxayın yat, qoymaram xəta ola... Elə gördülər ki, biz sərhesabıq, özləri qaçarlar, qorxma, qoymaram adam vurula.

F ə x r ə d d i n  b ə y. Allah amanında... Mən gedirəm, ancaq mən ölüm, Şahmar, tapşır ki, vurmasınlar. Eşidirsənmi, mən ölüm deyirəm ha!..

Ş a h m a r b ə y. Qorxma, qoymaram, arxayın ol. Gecə yarıdan keçib, get yat.

F ə x r ə d d i n b ə y. Hərgah yatmaq mümkün olsa. Yaxşı, xudahafiz. *(Gedir)*

Ş a h m a r  b ə y. Xoş gəldin... Birdən elə dəli qudurmuş Rüstəm bəy özü gələ və ələ düşə, nə qəribə iş olar?.. Hər nə desən, çıxar o kişidən, beş vaxt namazdan savay**...** *(Səktə)* İş bilməmək belə olar a... Yalvarır ki, qoyma adama zəfər yetişə. Bəli, biz onları vurmayaq, onlar bizi qırsınlar... Yaxşı məsləhətdir, vallah... Görək, Allaha pənah. *(Gedir)*

*Şahmar bəy gedəndən bir az sonra Fərhad və Məhərrəm daxil olurlar, xoflu, yavaşdan danışırlar bağçada, əllərində tüfəng.*

F ə r h a d. Keçəl! Şeytanın ağlına gəlməyən iş sənin ağlına gəldi... Nərdivanı harada qoydun?

M ə h ə r r ə m. Çəpərə söykəmişəm... Təpil, təpil! Bax, bax! Fəxrəddin bəy bu özüdür, şamı yandırıb kitab oxuyur, bədbəxt, əcəl girləyir... Mən ölüm, hələ tələsmə, qoy görək nə qayıracaq... Kitab oxuyur, şəklə baxır, yəqin, Səadət xanımın şəklidir.

F ə r h a d. Tamaşa yeri deyil, qardaş! Tutarlar, sən öləsən dərimizi boğazımızdan çıxardarlar, qurtar gedək!..

M ə h ə r r ə m. Bağ içində bizi kim görə bilər? Mən ölüm, bir az səbr elə. Afərin oğlan, pəh, pəh, pəh!..

F ə r h a d. Belə dur görüm aa. Qoy yatırdım gedək, sonra tərif elərsən!

M ə h ə r r ə m. Mən ölüm səbr elə... A gədə, sən nə qorxaqsan?! Bel bağ içində, belə qaranlıqda adam görmək olar, adam tutmaq olar?!

F ə r h a d. Bu canım ölsün ki, ya sən dəli olubsan, ya bizi əcəl girləyib... Bircə fikir elə gör haradasan, məqam nə məqamdır!

M ə h ə r r ə m. Sən nə ağciyər adamsan, Fərhad, qoy bir tamaşa edək, görək Səadət xanımın ruhi-rəvanı necə oğlandır. Maşallah, afərin, həqiqətən, gözəl oğlandır!..

F ə r h a d. Pa-a-a, olmadı ki!.. Bəsdir, rəng-rəng danışma, sən Allah, qoy tamam eləyim, gedək.

M ə h ə r r ə m. Mənim əlim qurusun əgər belə cavana mənim əlim qalxsa. Heyif deyil? Adam gərək onda Allahsız olsun.

F ə r h a d. Məhərrəm, Allaha bax, bu yer naz-qəmzə yeri deyil.

M ə h ə r r ə m. Mən ata bilmərəm, əlim qurur.

F ə r h a d. Əstəğfürullah! Sən belə dur, gör mən onu necə yatırdıram!

M ə h ə r r ə m. Olmaz, qoymaram heç vaxt! Əllərimi kəssən, dişlərimlə tutub qoymayacağam, vəssalam!

F ə r h a d. Bəs nə üçün məni buraya gətirmisən?! Yəqin ki, mənlən düşmənçiliyin var?

M ə h ə r r ə m. Uzun danışma, Fərhad, ağıllı danış! Sənə deyirəm, qoymaram, qoymaram, vəssalam!

F ə r h a d. Bircə de görüm Cahangirə nə cavab verəcəksən?

M ə h ə r r ə m. O sənin borcun deyil.

F ə r h a d. Belə məlum olur ki, sən bizə yoldaş deyilsən, bəlkə, hələ...

M ə h ə r r ə m. Baş aparma, Fərhad, adam kimi danış...

*Kənarda tüfəng atəşinin səsi gəlir, Fəxrəddin şamı söndürür, Məhərrəm və Fərhad qaçırlar.*

X ə l i l . Tərpənmə, tərpənmə boynunu sovurram!

Ş a h m a r b ə y. A gədə, qoymayın. Qabaqla! Hara qaçırsan? Qoymayın, ay gədə!

H a c ı M u r a d. Tutun, ay gədə, qoymayın, getdi. *(Tüfəng səsi)*

X ə l i l. Tüfəngi elə atmazlar, al gəldi. (*Tüfəng səsi)*

H a c ı M u r a d. Tutmuşam, gəl ay gədə! Tərpənmə! Tərpənmə, öldürdüm! Hara tərpənirsən? Öldürrəm bu saat!

X ə l i l. O birisi necə oldu, ay gədə? At qalsın yerində, qoyma qaçdı!

Ş a h m a r b ə y. Qorxma, gəldim... Buraxmayın! Bağla qollarını!.. O birisi necə oldu, ay uşaqlar?..

X ə l i l. O birisini apardılar. (*Tez-tez tüfəng atılır və səs uzaqlaşır.)* Qoymayın, apardılar!

*Pərdə*

**Beşinci məclis**

S ə a d ə t x a n ı m. Mənim ağlım kəsmir ki, bu gün Mahmud şəhərə getmiş ola, heç elə gün olmayıb ki, bizim evimiz bu mərtəbə yiyəsiz qala. Gədələrin biri də evdə yoxdur. Qanmıram, bu nə işdir? Deyirəm, yoxsa bu evi yıxılmışlar o tərəfə gediblər?

G ü l b a h a r x a n ı m. Mən özüm də qanmıram... Mahmud gedəndə mənə dedi ki, şəhərdə işim var, bir-iki gündən sonra qayıdacağam.

H ü r ü. Mən onu bilirəm ki, Rüstəm bəy qaranlıq qovuşandan biriki saat sonra tüfəngi götürüb getdi. Deyəsən, elə o bədbəxt uşaqları o tərəfə getdilər.

G ü l b a h a r x a n ı m. Yavaş bir, ay qız! Bu nə səsdir, ay başına dönüm?

S ə a d ə t x a n ı m. Bir az sakit ol görüm. *(Səktə)* Siz burada durun, mən görüm bu nə səsdir, bu saat qayıdaram. *(Gedir)*

H ü r ü. Heç belə iş görünməyib ki, sənin evində bir Allah bəndəsi gəlin ola, sən gedəsən onun atası evinə od vurub, qardaşların öldürəsən. Belə yox olasan sən, ay Rüstəm bəy, yox!

G ü l b a h a r x a n ı m. Allahın qəzəbinə gəlsin görüm onu, evi başına uçsun, tar-mar olsun, S ə a d ə tin canından uzaq yerdə.

H ü r ü. Vallah, əgər Səadət olmaya, bu evdə mən bir gün də qalmaram. Deyirəm, nə bilim, bəlkə, Allah rəhm eləyə, bir növ bunlar barışalar. Səadətin işin qurtaraq, çıxaq gedək evimizə.

G ü l b a h a r x a n ı m. Yox, bu evi yıxılmış Rüstəm bəy farağat otur-mayacaq, ölənəcən barışıq da ola bilməz. O elə məlun deyil!

S ə a d ə t x a n ı m *(tələsik gəlib).* Hürü nənə! Mahmuudun çuxasını, Əhmədin yapıncısını, papaqlarını tez buraya gətir, tez ol, tez! Sual lazım deyil, durma. *(Hürü gedir)* Xudaya, bilmirəm biz nə günah eləmişik ki, bu qədər müsibətlər bizim başımıza gəlir?.. Gülbahar, titrəmək vaxtı deyil... Bu dəqiqə sən gərək gedəsən, burada artıq qala bilməzsən! Evin yıxılsın ata, evin yıxılsın! Gediblər... Qırğın olub, çoban söyləyir...

G ü l b a h a r x a n ı m. Canım sənə qurban, Səadət, yoxsa atamın evi yıxılıbdır? Uy Allah, uy Allah, ölüm mənimdir!

S ə a d ə t x a n ı m. Ağlamaq yeri deyil. *(Hürü gəlir)* Gey çuxanı, papağı qoy başına. Hürü nənə, sən də. Tez olun, bax, ha belə... İndi Allah amanında, durmayın, Gülbahar, məni yadından çıxartma, gedin, Allah sizə yar olsun! Gedin, yoldan kənar, özünüz də bağçanın dalından çıxın. *(Ağlaşıb öpüşürlər)*

G ü l b a h a r x a n ı m *(gedə-gedə)* Yazıq canım vay, yurdsuz-yuvasız canım vay! Səadət, Səadət, ölüm yaxşıdır ayrılıqdan.

S ə a d ə t x a n ı m. Allah kərimdir, gedin, gedin! Görüm mənim başımda nə müsibətlər var!

H ü r ü. Gedək! Rüstəm bəyi görüm iki gözlərindən olsun, hirsi başında çatlasın. *(Ağlaya-ağlaya gedirlər)*

S ə a d ə t x a n ı m *(tək)* Tez gedin, yoxsa rast gələ bilərsiniz. Çoban gətirən xəbərdən belə görünür ki, böyük dava olub, hər iki tərəfdən ölən olub... Xudaya, səni and verirəm öz böyüklüyünə, hərgah bir xəta olubsa, o xata qardaşımdan, atamdan uzaq olsun, ölüm mənimdir, Allah!.. Allah, sən özün Fəxrəddinə qıyma, yazıqdır, nakamdır, mən də yazığam... Xudaya, rəhmini kəsmə, bir belə müsibət kifayətdir, dəxi tab eləyə bilmirəm. *Səs gəlir. Səadət xanım irəli durub.* Kimsən? Yaxın gəlmə, adını de, yoxsa...

R ü s t ə m b ə y *(bağçadan)* Mənəm, Səadət, qorxma!

S ə a d ə t x a n ı m. Salamatsınızmı, ata? Dəxi məndə can qalmayıb... Belə iş olmaz ki, siz mənim başıma gətirirsiniz.

R ü s t ə m b ə y. Qorxma, qızım, bir elə artıq iş olmayıb, sən get içəri, yad adam var.

S ə a d ə t x a n ı m. Bir elə iş olmayıb nə deyən sözdür, ata? Bəs Mahmud hanı? Allah məni öldürsün qurtarsın sənin əlindən!

R ü s t ə m b ə y. Sənə deyirəm bir elə iş olmayıb, get, qalmağal eləmə! Camaatı buraya tökmə! *(Mahmud bəyi Əhməd qoluna girib yavaş-yavaş gətirir)*

S ə a d ə t x a n ı m. Uy, uy, qardaş! Bacın ölsün, ay qardaş!.. Sənə nə olub, ay qardaş?!

R ü s t ə m b ə y. Səadət! Çığırıb-bağırıb aləmi buraya tökmə, Allah xatirinə!..

M a h m u d b ə y *(zəif səslə).* Qorxma, Səadət, qorxma, sənə mən söz verdim, mən deyən olmadı, Allah işidir.

R ü s t ə m b ə y. Bir yastıq! Tez, tez ha! *(Səadət xanım qaçır yastıq gətirməyə)* Qorxma, yassar, mərdanə ol, oturt Əhməd, gir qoltuğuna... Ha belə!

Ma h m u d b ə y. Tələsməyin, qoyun bir az dincəlim. *(Səadət yastıq gətirir)* Uf, yavaş, yavaş!

R ü s t ə m b ə y. Gərək soyunduraq, soyunmasa, olmaz. Əhməd, başın qalxız, ha belə, indi rahatsanmı, oğul? Güllə haradan dəyib, ay gədə?

S ə a d ə t x a n ı m. O güllə bacının gözlərinə dəyəydi, ay qardaş, yazıq qardaş! Dincəldinmi, ay ata, dincəldinmi?

R ü s t ə m b ə y. Bir qayçı, tez a! Yara gərək bağlana, bağlanmasa olmaz. Bəlkə xətərli yaradır... qolunu, belə başına dönüm, çıxart, Əhməd!

M a h m u d b ə y. Yavaş-yavaş, tərpətmə! Qoy bir az dincəlim. *(Əhməd yaraya baxır)*

R ü s t ə m b ə y. Qan çoxmu gedib, ay gədə?

Ə h m ə d. Bilmək olmur, ay ağa. İndiyə kimi axdı getdi, qan nə qayırır?

S ə a d ə t x a n ı m *(gəlir, əlində qayçı)* Sən belə dur, Əhməd! Bacın gözlərinə qurban, qardaş!.. Əhməd belə tut, ha belə. Yavaş, tut buradan, çıxart, yavaş-yavaş. Bu saat, canım sənə qurban, çıxart, ha belə.

R ü s t ə m b ə y *(Səadətə)* İndi sən belə dur, özün də buradan get... Əhməd, üsullu böyrü üstə çevir... Yaxşıdır, çox incitmə... Bu yaranı bağlasan, yaxşı deyil.

S ə a d ə t x a n ı m. Elə demə, deyilən ki, evin yıxılıb, vəssalam... O güllə bacının sağ gözünə dəyəydi, ay qardaş!.. Axır sənin nə işin vardı elə yerlərdə, yazıq qardaş, mehriban qardaş? Dincəl ata, evi yıxılmış ata, dincəl!..

R ü s t ə m b ə y. Mahmud, Mahmud... Niyə danışmırsan, ay başına dönüm? Mahmud, Mahmud! Başın bir az dikəlt, ay gədə. Bu Vəli hansı cəhənnəmdə qaldı, bilmirəm!

Ə h m ə d. Ağa, Cahangir bəyi, Vəlini tutdular, yazıqlar şir kimi əlləşirdilər, olmadı!.. Zalım uşaqları guya ki bizim yolumuzu gözləyirlərmiş!..

S ə a d ə t x a n ı m *(Mahmuda baxıb).* Uy, ay qardaş!.. Ata, evin başına uçsun!.. Ata, barı üzünü qibləyə çevir.

R ü s t ə m b ə y. Mahmud, Mahmud... Axır sən Rəşid bəyin qardaşısan, niyə belə yassar olursan? Mahmud, niyə dinmirsən, qoca atan sənə qurban?

S ə a d ə t x a n ı m. Bacın gözlərinə qurban, qardaş! Allahı çağır, salavat çevir, kəlməni de, ürəyinin sözünü de, nakam gedən qardaş!

M a h m u d b ə y *(zəif səslə)* Gülbahar...

S ə a d ə t x a n ı m. Gülbaharı çağırımmı gəlsin?

R ü s t ə m b ə y. Canıma od salma, ciyərimi dağlama, nakam gedən oğul! Taxsır məndədir, ay oğul, mən ölməli idim, mən, mən, mən, mən... mən... mən!..

Ma hmu d b ə y. Gülbaharın xatirinə dəyməyin, incitməyin.

S ə a d ə t x a n ı m. Qorxma, ay qardaş... Mən ölənəcən qoymaram Gülbahara güldən ağır söz deyilə. Gülbaharın sənə qurban, bədbəxt qardaş!

R ü s t ə m b ə y. Ay oğul, aman günüdür, mənim evimi yıxma!.. Məni imansız eləmə!..

Ə h m ə d. O güllə dəyəydi mənim sağ gözümə, ay ağa, ay yazıq, fəqir ağa... Elə adam vurmayın deyib yalvarırdın, ay ağa!.. Məzlum ağa!..

R ü s t ə m b ə y. Bircə səsini çıxart, ay oğul! Malım-dövlətim sənə qurban, ay oğul! Evimə od düşəydi, Mahmud, dilim quruyaydı, Mahmud!

S ə a d ə t x a n ı m. Sən qardaşımı tufana verdin, ata! Sən yıxdın evimizi! Yurdun dağılsın, ata!.. *(Mahmuda baxıb)* Uy, başınıza dönüm, qardaşım keçinir, üzün qibləyə çevirin. Evi yıxılmış ata, yurdu tar-mar olmuş ata, barı qoyma, qardaşım Quransız keçinə... Uy, Allah, yazıq qardaşım! *(Mahmudu qucaqlayır)*

R ü s t ə m b ə y *(Mahmuda baxıb)* Əhməd, xalçadan tut, belə çevir. Dilim quruyaydı, oğul! *(Üzünü qibləyə çevirirlər)* Bir az da belə... Səni namus yolunda bada verdim, oğul!.. Əhməd, yüyür molla dalınca!..

Ə h m ə d. Evimiz yıxıldı, ay başına dönüm. Bu şəhidə nə Quran?.. Gecənin bu vaxtında molla nə qayırır, yetirməz... Keçibdir...

S ə a d ə t x a n ı m *(tez Quranı götürüb)* Ay qardaş, ay qardaş!.. Qulaq as, gör bacın üstündə necə Quran oxuyacaq. *(Quranı açır)* Bismillah rəhmanürrəhim... *(Qəşş eləyib yıxılır)*

R ü s t ə m b ə y *(ayaq üstə, başıaçıq)* Ay gədə, o xəncəri sox mənim ürəyimin başına, atam sənə qurban!.. Məni öldürün, ay camaat, mən biimanı dünyada sağ qoymayın!.. Başınıza dönüm... Mahmud!.. Ev-eşiyimə bu saat od vuracağam, Mahmud! Səndən sonra mənə heç zad lazım deyil, Mahmud!.. Əhməd! Əhməd! Od gətir, küləş gətir, yurdumu gərək xaraba qoyam! *(Gedə-gedə)* Uy, Mahmud, uy Mahmud, belimi sınıran oğul!

Ə h m ə d. Qurtardın, ağa, dünyanın qiylü-qalından. Heyf sənə! Səndən sonra mən bu evə üz döndərmərəm, qanına əvəz eləyib baş götürüb gedərəm, and olsun sənin bu canına!.. Külfətdən əl çəkib, vətəni atıb, yurd-yuvanı dağıdıb, baş götürüb gedəcəyəm... Ta bu ömr olmadı!.. *(Üzündən öpüb)* Özümü sənə qurban dedim, indi get qəbirdə rahat yat, qanına qan elərəm, qorxma! *(Gedə-gedə)* Ağa, mehriban ağa, rəhmli ağa, nakam ağa!..

*Pərdə*

## Altinci məclis

*Vaqe olur Fəxrəddin bəyin mənzilinin qabağında olan bağçada.*

Ə h m ə d *(ətrafa baxa-baxa gəlir).* Ay bivəfa, puç dünya! Bu az müddətdə gör necə gözəl oğlanlar bada gedib. Rəşid bəy getdi, Mahmud bəy getdi, Vəli kimi əjdaha qalada axırıncı yaradan tələf oldu getdi... Cahangir bəyin yurd-yuvasını dağıtdılar, canı dustaqxanada çürüyür. Rüstəm bəy kimi pəhləvanın beli bükülüb, özü dönüb bir yumağa... Bu nə gündür, mən özüm çəkirəm, bu nə candır, mən özüm saxlayıram?! Yurdum itib, yuvam dağılıb, olmuşam qaçaq, gecə-gündüz bir saat bir yerdə otura bilmirəm... Dərd bilənlər getdi, dost-aşna getdi, mən tək qalıb nə olacağam?! Əhdimə vəfa elərəm, ondan sonra

Göz dolu yaş, üzüm tutmuş vətənə,
Cigər dağlı ah-nalə edərəm;
Külfəti tapşırıb həqq dadinə,
Baş götürüb biyabanə gedərəm.

*(Tüfəngini sazlayıb gizlənir)*

F ə x r ə d d i n b ə y *(gəlir bağçaya)* Hacı Murad, bu gün gələn qəzetləri gətir buraya!.. Heç belə yorulmamışdım ki, bu gün yorulmuşam; bizim bu camaat ilə məgər iş görmək olar. Günbəgün, saatbasaat nə qədər yaxın bələd oluram bunların xasiyyətlərinə, bir o qədər aşkar görürəm ki, bir gül ilə bahar olmaz. Dəxi məni təngə gətiriblər, ovqatım olub təlx, ələlxüsus biçarə

Mahmudun müsibəti məni hər şeydən artıq yandırır... Ay kişi, belə də murdar vilayət olar? Bu mərtəbədə vəhşilik, nadanlıq olar?.. Tfu! Mənim bu heyvan qardaşıma nə qədər yalvardım, təvəqqe elədim ki, xəta olmasın, nahaq qan tökülməsin, genə olmadı... Kimdir müqəssir?.. Müsəlman qardaşın vəhşi nadanlığı... Biçarə, yazıq Mahmud, heç nahaq yerə tələf oldu getdi. Allah Rüstəm bəyə lənət eləsin, üzün hər iki dünyada qara eləsin... *(Hacı Murad bir səndəli gətirir, bir cüt şam və bir miz)* Hacı Murad, Xəlil necədir, yarası sagalıbdırmı?

H a c ı M u r a d. Yaxşıdır indi, ağa... Gədə az qalmışdı ölsün, qoçaq həkim əcəb kömək elədi. Bir-iki gün olur ki, azarxanadan çıxıbdır.

F ə x r ə d d i n b ə y. Çox şadam... H acı Murad, səhər tezdən gedərsən Əhməd bəyin yanına və bir araba da aparарsan, təhəng çubuğu verəcək gətirərsən. Əlavə bağbanlara deyərsən ki, aşağı bağı tamam kəlləsər eləsinlər. Özüm də gələcəyəm.

H a c ı M u r a d. Bəli, ağa, baş üstə.

F ə x r ə d d i n b ə y *(qəzetə baxıb)* Gedə bilərsən. *(Hacı Murad baş vurub gedir)* Vallahi-billahi, doğru yazıblar, haqları var... Bizim kimi vəhşi tayfanın dünya üzündə gərək yeri olmasın... Mollalar bizim axırımızı yetirdilər...Hara baxırsan, heç bir könül şad edən şey görmürsən... Bundan artıq bədbəxtlik ola bilərmi ki, sən öz evində bir saat qorxusuz rahat otura bilməyəsən; küçələrdə, yollarda qorxusuz gəzə bilməyəsən. Heyif sənə, gözəl şəriət! Heyif sənə, gözəl islam ki, biz vəhşi olub qədr-qiymətini qanmırıq!

*Tüfəng atılır, Fəxrəddin bəy yıxılıb tez qalxır,*
*Hacı Murad tələsik gəlib onu qucaqlayır.*

H a c ı M u r a d. Ay başınıza dönüm, aman günüdür gəlin... Nə oldu, ay ağa? Nə oldu, başına dönüm?

F ə x r ə d d i n b ə y. Bimürüvvət oğlu, biinsaf oğlu!..

H a c ı M u r a d. Ay dad, ay fəryad! Amandır, gəlin, ay başınıza dönüm! Gəlsənizmi, Şahmar bəy, Xəlil!..

F ə x r ə d d i n b ə y. Məni oturt, həkimi çağır... Xudaya şükür... Qəribə müsibətdir, müsibəti-müsəlmanan! Vəhşilik, elmsizlik, nadanlıq! Bəli, neyləmək, qəza işidir... *(Şahmar bəy əlində tüfəng, Mələk xanım, Gülbahar, Xəlil qolu boynundan asılı tələsik gəlirlər, Hacı Murad Şahmar bəydən tüfəngi alıb qaçır)*

Ş a h m a r b ə y *(Fəxrəddinii qucaqlayıb).* Xəlil! Həkim, tez... Qorxma, başına dönüm, qorxma, canım sənə qurban!

*Hacı Muradın çöldən səsi gəlir.*

H a c ı M u r a d. Ay namərd oğlu namərd, hara qaçırsan, qanını içəcəyəm. Qaçma, ay gədə, vallah, səndən əl çəkməyəcəyəm! *(Tüfəng atılır)*

M ə l ə k x a nı m. Allah, amandır, Allah, amandır. Allah, özün rəhm elə, qorxma, gözlərinə qurban! *(Oturur Fəxrəddinin yanında)* Uy, ay Fəxrəddin, bu nə işdi bir düşdük?!

G ü l b a h a r x a n ı m *(Fəxrəddinin ayaqlarını qucaqlayıb)* Uy, ay qardaş! Uy, yazıq qardaş!

F ə x r ə d d i n b ə y. Qorxmayın, qorxmayın... Çıxart (libasın), hərgah ağ ciyərə dəyməmiş olsa, ümid var...

Ş a h m a r b ə y. Burada ağ ciyər nə qayırır, ay başına dönüm? Sən bircə qorxma. *(Soyundurur)* Qorxma, canım sənə qurban, bu saat... Gülbahar, bir yaylıq, tez! Bir də yastıq, tez! *(Gülbahar gedir)*

F ə x r ə d d i n b ə y. Darıxmayın.

M ə l ə k x a n ı m. Atam-anam o tökülən qanına qurban, oğul! Çırağımı söndürmə, Fəxrəddin! Uy, yandım Allah!

Ş a h m a r b ə y. Tez ol, ay qız, yaylıq...

F ə x r ə d d i n b ə y. Darıxma, Ş a h m a r!.. Allaha pənah!..

Ş a h m a r b ə y. Şahmar adlı qardaşın olmayaydı, Fəxrəddin və belə müsibəti görməyəydi. *(Gülbahar xanım yaylıq və yastıq gətirir)* Qoy buraya, ha belə... Uzan, uzan, canım sənə qurban! *(Yaranı bağlayır)*

F ə x r ə d d i n b ə y. Həkim necə oldu, nəfəsim darıxır...

G ü l b a h a r x a n ı m. Darıxan nəfəsinə günüqara, bədbəxt bacın qurban, Fəxrəddin ! Uy, yazıq qardaşım...

H ü r ü (*tələsik daxil olur)* Güllə kimə dəyib, a başınıza dönüm?.. Bu nədir, Allah, bu nədir? Fəxrəddin, Fəxrəddin, Fəxrəddin!.. Mən səni bu əmcəklərimlə bəsləmişəm, Fəxrəddin, aman günüdür, Fəxrəddin! Evin yıxılsın, Mələk xanım! Başına əlləmə düşsün, Mələk xanım, dincəldinmi, dincəldinmi?!

M ə l ə k x a n ı m. Ay camaat, məgər ciyərimdən çıxan tüstünü görmürsünüz!? Yandım, Allah! Dilim lal olaydı, Fəxrəddin! Gözlərim kor olaydı Fəxrəddin!

G ü l b a h a r x a n ı m. Uy, Şahmar, bir belə də qan gedərmi? Qoyma başına dönüm, amandı Allah! Amandı!.. Allah, sən özün rəhm elə, bizə yazığın gəlsin!..

F ə x r ə d d i n b ə y. Həkimin köməyindən keçibdir... Mənə bir az su...

M ə l ə k x a n ı m. Su vermək olmaz, Şahmar, Şahmar! Dur qəbirdən, Heydər, dur qəbirdən özünü mənə yetir, Heydər! Heydər gəl! Heydər, gəl gör əziz balan nə gündədir? Nə halətdir, Heydər! Uy, ciyərim yandı! *(Qəşş eləyir.)*

H ü r ü *(yaraya baxıb)* Can!.. Can Fəxrəddin ... Əllərin quruyaydı, düşmən! Belə çevir, qan içəri dolmasın, Şahmar, dincəl Mələk xanım!

F ə x r ə d d i n b ə y. Macal vermədi... Bivaxt... Heyif!

G ü l b a h a r x a n ı m. Ay başına dönüm, həkim necə öldü? Ay ata, ay ata, evinə od düşeydi, ay ana! Yurdun tar-mar olaydı, ay ata! *(Fəxrəddinə baxır)* Həkim necə oldu? Başınıza dönüm... Həkim, həkim, həkim! *(Qaçır çölə).*

Ş a h m a r b ə y. Ürəyin incidirmi, qardaş? O güllə mənim sağ gözümə dəyəydi, Fəxrəddin!

F ə x r ə d d i n b ə y. Məktəbxana, azarxana məndən sonra tək nişanədir, dağıtma. Səadətə hörmət eləyin, düşməni bağışlayın...

Ş a h m a r b ə y. Şahmar adlı qardaşın ölsün, Fəxrəddin. Yaman yerdə evimizi tar-mar elədin!

F ə x r ə d d i n b ə y. Şahmar!

Ş a h m a r b ə y. Can Şahmar! Nədir, başına dönüm? Sözünü de!..

F ə x r ə d d i n b ə y. Səadət...

Ş a h m a r bəy. Hürü nənə, canım sənə qurban, Səadət xanım qonşuluqda dayısı evindədir, çağır gəlsin, ciyərim odlanır, Fəxrəddin!

*Hacı Murad, Xəlil daxil olurlar.*

H a c ı M u r a d. Ağa! Səni bu hala salanı cəhənnəmə vasil elədim; amma heyif sənə, kaş o güllə mənə dəyəydi... Ölüm Allah əmridir, ağa, ancaq... *(ağlamaq qoymur danışmağa)*

X ə l i l *(yaraya baxıb)* Üç atlı göndərdim həkim dalınca, həkim gəlib bu yaraya neyləsin! O güllə mənə dəyəydi... Kaş bu yaradan öləydim, səni bu halətdə görməyəydim, yazıq ağa, məzlum ağa!

F ə x r ə d d i n b ə y. Əşhədü-ən-lailahə-illəllah, əşhədü-ən Məhəmmədən-rəsuləllah...

M ə l ə k x a n ı m *(ayılıb).* Heydər necə oldu? Onu buraya çağır, indi bu saat buraya gəlmişdi... Heydər, Heydər!.. Aparın məni salın quyuya, atam-anam sizə qurban!.. Fəxrəddin vay, cavan oğlum vay! Heydər gəl, gəl gör nə günə düşmüşük, gəl oğluna toy elə, Heydər! *(Qəşş eləyir.)*

S ə a d ə t x a n ı m *(daxil olur Hürü ilə)* Belə dur. *(Hürüyə. Oturur Fəxrəddinin yanında. Xəlil, Hacı Murad çölə çıxırlar)*

Ş a h m a r b ə y. Fəxrəddin, bir gözünü aç gör bizə kim gəlibdir!

S ə a d ə t x a n ı m. Fəxrəddin, mən səni bir yekə pəhləvan hesab eləyirdim, bəs sən belə imişsən?!

F ə x r ə d d i n b ə y *(Səadətin əlindən tutub)* Ağlama, mərdanə ol, qəza işidir, təzə bağda dəfn eləyin, qan tökmək kifayətdir...

S ə a d ə t x a n ı m. Mənim bu yanan ciyərimi göz yaşı söndürməz. *(Əlindən öpür.)* Fəxrəddin, necə gözəl arzularımız qaldı, Fəxrəddin... Bu dünya necə puç dünya imiş, Fəxrəddin! Heyif sənə, heyif, heyif... Bu pis, murdar ömrü müsəlman qardaş dəxi bədtər eləyib. Bu müsibət məgər nadanlıqdan, elmsizlikdən deyil?!

H ü r ü. Fəxrəddin! Nə qayırırsan? Ay başuva dönüm! Ay başınıza dönüm, qoymayın, aman günüdür, Fəxrəddin keçir!.. Vay, evin yıxılsın, Mələk xanım, yurdun itsin, Mələk xanım!..

M ə l ə k x a n ı m *(dəli sifətində qalxıb)* Yanıram, vallah yanıram, billah, üstümə su tökün, başınıza dönüm!.. Heydər, Heydər... Gəl, gəl, gəl. Şahmar,

qoyma, evimizə od düşüb! Ay aman, yandıq! Yandım, yandım, yandım, Allah! *(Qəşş eləyir).*

Ş a h m a r b ə y (*diqqət ilə baxıb)* Belimi sındırdın, qardaş! Ümid yerimi kəsdin, qardaş. *(Gedir, ağlaya-ağlaya)*

S ə a d ə t x a n ı m. Hürü nənə, Mələk xanımı apar çölə, biçarə dəli olacaq...

H ü r ü *(Mələk xanımı durquzub aparır)* Dur gedək yurdu başına uçmuş, xanimanı dağılmış, dur gedək, dur... Öz əlinlən evini yıxdın!

M ə l ə k x a n ı m. Apar məni sal quyuya, atam-anam sənə qurban, Hürü!.. Fəxrəddin balam vay! Cavan oğlum vay!.. Heydər, gəl, balamın sevgilisi yanındadır, gəl toy elə! Heydər, gəl, gəl, gəl! *(Gedirlər)*

S ə a d ə t x a n ı m *(tək)* Belə namərdlik olmazdı ki, sən elədin, Fəxrəddin... Uff! Ürəyimə bir dağ çəkdin, ölənəcən yandıracaq, Fəxrəddin!.. Mən səni bu mərtəbədə istəməsəydim, Fəxrəddin, bir dəqiqə bu dünyada sağ qalmazdım. Ölsəm, əziyyətdən xilas ollam, Fəxrəddin, onu istəmirəm... Nə qədər canım sağdır, sənə təziyədar qalacağam, gündə beş vaxt qəbrinin başına dolanıb, azarxanada, məktəbxanada mücavirlik edəcəyəm. Səndən sonra ömrüm uzun ola bilməz! Fəxrəddin, vəsiyyət edəcəyəm, qəbrimizi bir etsinlər... Heyif sənə, Fəxrəddin, bu vəhşi nadanlar sənin qədrini-qiymətini bilmədilər... İndiyə kimi həya qoymayıb əlindən öpüm, amma indi üzündən öpəcəyəm, ayrılıqdır, Fəxrəddin! *(Qucaqlayıb öpür)* Nəfəsim gəlmir... Bismillahirrəhmanir-rəhim... Xudaya! Mən necə bədbəxt yaranmışam ki, gör kimlərin üstündə Quran oxuyuram... Məgər belə müsibət çəkmək olar? Dağlanmış sinəmi parə-parə elədin, Fəxrəddin... Bismillahirrəhmanir-rəhim... Ciyərim dağlandı, Fəxrəddin! *(Fəxrəddini qucaqlayıb qəşş eləyir).*

Sədayi-qayibanə oxuyur:
Va həsrəta qoydu fələk binəva səni;
Aləmdə dərd çəkməyə gördü rəva səni.
Dünya evində olmadı bir yaxşı gün nəsib,
Övrətlər içrə eylədi bəxtiqara səni.

**Evdə iş.** N.Vəzirovun “Müsibəti-Fəxrəddin” əsərinin təhlili üzrə sınaq dərsinə hazırlıq (dərsin geniş planının hazırlanması).

# SƏKKİZİNCİ MƏŞĞƏLƏ

## SINAQ DƏRSİNİN TƏŞKİLİ VƏ MÜZAKİRƏSİ

*Məşğələnin məqsədi bədii əsərlərin tədrisi üzrə mənimsənilmiş bilik və bacarıqların səviyyəsinin müəyyənləşdirilməsidir.*

**Məşğələnin gedişi**

N. Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərinin təhlili üzrə sınaq dərsinə hazırlğın səviyyəsi qısa vaxt – bir-iki dəqiqə ərzində aşkara çıxarılır. Ardınca tələbələrin sınaq dərsi dinlənilir. Dərs müxtəlif variantlarda təşkil edilə bilər.

**I variant:** Dərsi bütövlükdə bir tələbə keçə bilər.

**II variant:** Dərsin mərhələləri iki tələbə arasında bölüşdürülə bilər.

**III mərhələ:** Dərsin hər mərhələsi bir tələbə tərəfindən keçilə bilər.

**IV variant:** Dərs iki tələbə tərəfindən eynu vaxtda keçilə bilər.

Əlbəttə, müəllim qarşıya qoyduğu məqsəddən, auditoriyanın səviyyəsindən asılı olaraq başqa variantdan da istifadə edə bilər.

Tələbələrə əvvəlcədən məlumat verilməlidir ki, keçilmiş dərsin geniş müzakirəsi (müzakirənin təcrübi məşğələdə aparılması məqsədəuyğundur) olacaq və hər tələbənin dərs haqqındakı rəyi onun hazırlığının səviyyəsi kimi dəyərləndiriləcəkdir. Deməli, dərsin fəal dinlənilməsi, qeydlərin götürülməsi vacibdir. Müasir dərsə verilən tələblərin necə reallaşdırıldığı bu qeydlərdə öz əksini tapmalıdır.

Dərsi müşahidə etmək, ona əsaslandırılmış münasibət bildirmək qeydlər götürmək bacarığının tələbələrdə formalaşması onların gələcək fəaliyyəti, (eləcə də pedaqoji təcrübə dövrü) üçün faydalıdır. Dərsdə qeydlər götürülərkən aşağıda göstərilənlərin nəzərə alınması vacibdir:

– dərs üçün seçilmiş məzmun standartlarının müvafiqliyi, onların əsasında müəyyənləşdirilmiş təlim nəticələrinin, qiymətləndirmə meyarlarının dəqiqliyi;
– təchizatın məqsədəmüvafiqliyi;
– dərsin növünün müəyyən edilməsi;
– inteqrasiya imkanlarının müəyyən edilməsi;
– seçilmiş təlim metodları, priyom (texnika) və iş formalarının məqsədəmüvafiqliyi;

– ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi;
– motivasiyanın yaradılması (mövzunun, tədqiqat sualının müəyyənləşdirilməsi, fərziyyələrin dinlənilməsi, qeyd edilməsi);
– tədqiqatın aparılması (iş vərəqlərinin tərtibi, onlarda əksini tapmış tapşırıqların məzmun standartlarına – təlim nəticələrinə uyğunluğu, işin icrasına ayrılmış vaxtın təyin edilməsi, bələdçilik mövqeyinin reallaşdırılması);
– məlumat mübadiləsi (fəal dinləmənin təmin edilməsi, qruplara qədərincə vaxtın ayrılması, qrup nailiyyətlərinin fərqləndirilməsi, qiymətləndirmənin aparılması);
– məlumatın müzakirəsi və təşkili (sərbəst diskussiyaya şəraitin yaradılması, pərakəndə fikirlərin nizama salınması, qrup işlərinin uzlaşdırılması və ümumiləşdirilməsi üçün istiqamətləndirici suallardan istifadə);
– nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması (deyilmiş bütün fikirlərin "ümumi ideya halında birləşdirilməsi və ümumiləşdirilməsi", çıxarılmış nəticənin – formalaşdırılmış ideyanın ilkin fərziyyələrlə müqayisə edilməsi).
– yaradıcı tətbiqetmə (mənimsənilənlərin tətbiqinə imkan yaradan tapşırıqların və icrası üçün vaxtın müəyyənləşdirilməsi, tapşırıqların yerinə yetirilməsi prosesinə müəllimin nəzarəti və qiymətlndirmənin reallaşdırılması).
– qiymətləndirmə və refleksiya (qiymətləndirmənin üsul və vasitələrinin müəyyənləşdirilməsi, tətbiqi, refleksiyadan istifadə).

> ***Məlumat üçün***
> *Bu qeyd olunanların dərsdə bir tam halında, kəmkəsirsiz yerinə yetirilməsi asan deyildir. Lakin dərsin bu tələblərə maksimum yaxın səviyyədə təşkilinə həmişə cəhd etmək vacibdir.*
> *Dərs müəllimin yaradıcılığıdır. Təcrübəli müəllimin, hətta paralel siniflərdə eyni mövzuda dediyi dərslər də bir-birinə bənzəmir. Hər dərsdə yeni, fərqli bir yanaşma müşahidə edilir. Bu, nəzərdə tutulmayan, dərsin planında əksini tapmayan, gözlənilməz vəziyyətdən yaranan yeniliklərdir. Səriştəli müəllim bu vəziyyətdən çıxış yolunu dərhal*

*müəyynləşdirir, dərsin məqsədlərinə xələl gəlmədən gedişatı, prosesi səmərəli istiqamətə yönləndirə bilir. Fəal/interaktiv dərslərdə belə vəziyyətlər daha tez-tez müşahidə olunur. Ən bəlalı cəhət fəal/interaktiv dərslərdə daim vaxt qıtlığının yaranmasıdır. Bu, fəal/interaktiv dərs üçün müəyyənləşdirilmiş* ***mərhələlərlə*** *bağlı məsələdir. Fəal/interaktiv dərsin hər bir mərhələsi xeyli vaxt aparır. Bu gün bizdə təlim materiallarının həcmi ilə dərsin mərhələri arasında kəskin ziddiyyət var. Xarici ölkələrdəki vəziyyətin öyrənilməsindən məlum olur ki, onlarda "fəal dərs," "interaktiv dərs"anlayışları bol-bol işlənir və dərslər də az qala iki yüz ildir bu məzmunda təşkil edilir. Amma bizdən fərqli olaraq, dərsin mərhələlərindən möhkəmcə yapışıb qalmayıblar. Onlarda şagirdləri fikri fəallığa sövq etmək üçün motivasiya yaradılır, problem qoyulur, tədqiqat sualı müəyyənləşdirilir, müxtəlif iş formalarından istifadə etməklə araşdırma aparılır və müsahibənin, müzakirənin (daha çox diskussiyanın) tətbiqi, referat, məruzə, təqdimat və s. dinlənilməsi əsasında nəticələr çıxarılır.*

*Fəal, interaktiv dərsin bu şəkildə qavranılması hər cür yeniliyin, texnologiyanın tətbiqinə geniş imkan yaradır. Bizim aludəçisi olduğumuz dərs mərhələləri isə yeni və faydalı olanların tətbiqinə imkan vermir. Bu gün inkişaf etmiş ölkələrdə, xüsusən ABŞ-da* ***keys-metod*** *adlanan texnologiyanın tətbiqi diqqət mərkəzindədir. Onun tətbiqi bizim qəbul etdiyimiz dərs mərhələlərini rədd edir, istifadə olunan təlim metodlarının çoxu isə (beyin həmləsi, diskussiya, problemin həlli və s.) bildiklərimizdir. Həmin ölkələrdə "qeyri-standart dərs" anlayışının izahına və məktəblərdə tətbiqinə geniş yer verilir. Bu qəbildən dərslərin tətbiqi təhsilverənin də, təhsilalanın da yaradıcılıq imkanlarını genişləndirir, fəaliyyətlərinə əhəmiyyətli zənginlik, keyfiyyət üstünlükləri verir.*

*Təhsil Nazirliyinin fəal/interaktiv təlimin tətbiqini məqsədəuyğun sayması məhz yaradıcı yanaşmanı əsas tutulması ilə bağlıdır, müəllimin və şagirdlərin fəaliyyətini*

*məhdudlaşdıran dərs mərhələləri ilə əlaqəli deyildir. Bu problemi alimlər həll etməlidirlər.*

*Yeni, bir-birindən fərqlənən təlim texnologiyaları xaricdən idxal olunur və gələcəkdə də olunacaqdır. Bu texnologiyaların tətbiqinə geniş imkan yaradan dərs tiplərinin və növlərinin də öyrənilməsinə, məktəblərimizdə tətbiqi yollarının aydınlaşdırılmasına diqqət yetirilməlidir. Əslində, bu, vacibdir. Əks halda, yeni qəbul olunanları başqa məqsəd üçün yarayan dərs mərhələlərinə uyğunlaşdırmaq mümkün olmayacaqdır (və olmur). Dərs çevik forma qazanmalı, günün (və texnologiyaların) tələblərinə uyğunlaşdırılmalı, imkanları genişləndirilməlidir. Bunun elmi müstəvidə həlli bu gün (və sabah) metodikanın mühüm vəzifələrindən biri kimi dəyərləndirilməlidir.*

*Ölkəmizə ayaq açan yeniliklərlə bağlı çətinliklərin yaranmasının başlıca səbəbinin aydınlaşdırılması da vacibdir. Xarici ədəbiyyatın öyrənilməsi zamanı bizim üçün gözlənilməz (oxu: qəribə) metodik tövsiyələrlə rastlaşırsan. Məsələn, müəyyən bir təlim metodunun, və ya iş növünün tətbiqi zamanı 90 dəqiqə lazım olacağı barədə öncədən xəbərdarlıq edilir. Yaxud dinləyici sayının 50-60 nəfər ola bilməsinin mümkünlüyü vurğulanır. Bu, fərqli təhsil sistemindən irəli gəlir, təlimin fərqli təşkili formalarının mövcud olmasından xəbər verir. Bu gün tətbiq etdiyimiz dərs mərhələlərinin yaratdığı çətinlik də məhz bu fərqdən qaynaqlanır. Biz təlimin təşkil formalarını (ən mühümü isə dərsdir) təkmilləşdirməyə məcburuq.*

*Bu gün bizim hərisliklə öyrənib tətbiq etdiklərimiz "öz vətənlərində" artıq, ya heç tətbiq olunmur, ya da əsaslı şəkildə təkmilləşdirilib. Bu inkişafı, belə demək olarsa, addım-addım izləmək bizim üçün bu gün əlçatmazdır. Deməli, yaranan çətinliklərdən, ziddiyyətlərdən indiki halda öz gücümüz, fərasətimiz sayəsində çıxmağı bacarmalıyıq. Bunun üçünsə eksperimentə əsaslanan tədqiqatların ardıcıl və elmi əsaslarla aparılması zəruridir.*

## ƏLAVƏLƏR

## LİRİK ŞEİRİN TƏDRİSİ ÜZRƏ DƏRS NÜMUNƏLƏRİ

*Mövzu:* **İmadəddin Nəsimi. Ağrımaz –** 3 saat.
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə və süjetli əsərlərdə (dastan, hekayə, novella, dram, poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərim, sorğu kitablarının köməyi ilə aydınlaşdırır. |
| 1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafor, bədii təzad, kinayə) müəyyənləşdirir. | Şeirdə bədii ifadə vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir. | Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən istifadə edir. |

**Dərsin tipi:** induktiv; bədii əsərin öyrənilməsi.
**İş forması:** fərdi iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** əqli hücum, müsahibə, ikihissəli gündəlik, izahlı oxu, problemin həlli.
**İnteqrasiya:** Az.d. 2.1.1., 2.2.2., X.d. 2.1.3.
**Təchizat**: Dərslik, lüğətlər, iş vərəqləri, şeirin məzmununa uyğun şəkillər, şairin portreti, az.wikipedia.org/wiki/İmadəddin_Nəsimi, *Nəsimi (film,* 1973) *az.wikipedia.org/wiki*

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi şifahi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələ fərqli məzmunda və formada təşkil oluna bilər. Nəsimi haqqında bədii əsərdən kiçik epizodun oxunması, "Nəsimi" filmindən fraqmentin nümayişi, şairin öz əsərindən parçanın səsləndirilməsi, illüstrasiyadan istifadə

və s. bu qəbildəndir. Bunlardan birini seçərək iş aparmaq və son nəticədə tədqiqat sualını formalaşdırmaq mümkündür. Variantlardan biri dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında yığcam müsahibənin aparılması ola bilər.

"Haqq, ədalət, yüksək amal uğrunda həyatını qurban verən hansı ədəbi qəhrəmanları tanıyırsınız?" sualı şagirdlərin M.İbrahimovun "Azad", Ç.Aytmatovun "Manqurt" əsərlərindəki obrazları xatırlamalarına yol açır.

Müəllim müsahibə zamanı şagirdlərə "Ağrımaz" qəzəlinin yaranması ilə bağlı rəvayəti də xatırladıb şagirdlərdə əsərin öyrənilməsinə marağı artıra bilər. Şagirdlərə aydın olur ki, rəvayətdə Nəsimi öz əqidə düşmənləri ilə qarşılaşdırılır. Bu qarşılaşmada Nəsiminin qorxmazlığı, mərdliyi, düşmənlərinin miskinliyi, qorxaqlığı üzə çıxır. Belə bir hadisənin baş verib-verməməsindən asılı olmayaraq, xalqın yaratdığı bu rəvayətdə Nəsiminin həyatı, əqidə mübarizəsi ilə bağlı dərin mənalı həqiqət ifadə olunmuşdur.

"Onların həyatı, fədakarlığı sizdə hansı hiss və düşüncələrin yaranmasına səbəb olub?" sualı əqidə mücahidlərinin, şəhidlərinin həyatı, qəhrəmanlığı, ölümü ilə bağlı fikir mübadiləsinə, şagirdlərin öz hiss və duyğularını paylaşmasına yol açır.

Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə tamamlanır.

**Tədqiqat sualı:** Tutduğu yolun doğru olduğuna ürəkdən inanan insanı əqidəsindən döndərmək olarmı?

Fərqli fikirlər – fərziyyələr dinlənilir və təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** İlk növbədə, əsərin oxusu, məzmununun mənimsənilməsi həyata keçirilir. Təcrübədən məlumdur ki, "Ağrımaz" qəzəlinin, ümumiyyətlə, klassik şeirin müstəqil mütaliə ilə qavranılması, hətta yuxarı sinif şagirdləri üçün də çətindir. Belə şeirlərin oxusu üçün daha səmərəli yolların tapılması müəllimləri və metodistləri həmişə düşündürmüş və narahat etmişdir. Bu məsələdə həlledici amillərdən biri sinfin hazırlıq səviyyəsidir. Klassik ədəbiyyat nümunələrindəki tanış olmayan sözlərin mənasını ardıcıl öyrənən, müəllimin izahını müntəzəm izləyib mənimsəyən, belə şeirlər üçün ümumi olan cəhətləri artıq qavramış olan sinifdə oxunu şagirdlərin fəal iştirakı ilə aparmaq mümkün və faydalıdır. Bu, izahlı oxuya şagirdlərin cəlb edilməsi şəklində özünü göstərə bilər. Yaxud əsərin sinifdə müstəqil oxusundan sonra bütün sinfin

iştirakı ilə müzakirə aparıb məzmunun bütövlükdə mənimsənilməsinə nail olmaq mümkündür. Deməli, müəllim sinfin səviyyəsindən, qarşıya qoyduğu məqsəddən və s. asılı olaraq, oxunu fərqli yollardan istifadə ilə təşkil edə bilər. Hansı yoldan istifadə edilməsindən asılı olmayaraq, məzmunun qavranılması, mənası aydın olmayan sözlərin öyrənilməsi, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi həyata keçirilməlidir.

Müəllim dərslikdəki tövsiyəni əsas götürsə, vaxta qənaət etmiş olar.

Göründüyü kimi, tövsiyədə müəllimin izahlı oxusuna üstünlük verilmişdir. Bu prosesdə də şagirdlərin fəallığının təmin edilməsi mümkün və vacibdir. Hər bir beytin mənasının aydınlaşdırılmasında şagirdlərin deyə biləcəklərini müəllim deməməli, onların müstəqil fikir söyləmələrinə şərait yaratmalıdır. Eləcə də yeni sözlərin mənasının aydınlaşdırılmasında şagirdlərin maksimum fəallığına nail olunmalıdır.

İzahlı oxu nə qədər səmərəli aparılsa da, iş başa çatdıqdan sonra mətni şagirdlərin bir daha nəzərdən keçirmələri faydalıdır. Bu, məzmunla bağlı qazanılmış təsəvvürün tamlığına əhəmiyyətli təsir edir. Növbəti tapşırıq (fikirlərin ikihissəli gündəlikdə qeyd edilməsi) əsərin məzmununun qavranılma səviyyəsinin aşkara çıxarılması, bu istiqamətdə zəruri işlərin aparılması və təhlilə hazırlıq baxımından faydalıdır. Tapşırıq fərdi olaraq yerinə yetirilir. Mövqeləri yaxın olan şagirdlər müəllimin təklifi ilə kiçik qruplarda birləşib, qənaətlərini bölüşür, fikirlərini ümumiləşdirirlər.

Dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələlərində aparılan iş kiçik qrupların təqdimatına əsaslanır. İlk növbədə, qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmasına imkan yaradılmalıdır. Eləcə də müzakirənin diskussiya səciyyəli olmasına, hər bir şagirdin öz mövqeyini sərbəst ifadə etməsinə səy göstərilməlidir. Müəllim əvvəlcədən hazırladığı suallardan (“Zahidin əfsanəsindən soydular nahəq məni” misrasında “əfsanə” sözü hansı mənada işlənmişdir?”, “Şişəmi çün daşə çaldım, həqqi izhar eylədim” misrasında ifadə olunan fikri necə başa düşdünüz?”, Hansı misralar şairin qorxmazlığını, cəsarətli olduğunu daha qabarıq ifadə edir? Lirik qəhrəmanla – şairlə zahidi fərqləndirən başlıca cəhət hansı beytdə ifadə olunub? və s.) istifadə etməklə müzakirənin daha dolğun məzmun qazanmasına çalışmalıdır. Lirik qəhrəmana məxsus səciyyəvi cəhətlərin aydın təsəvvür edilməsi, onunla bağlı deyi-

lənlərin əsərdən gətirilən nümunələrlə təsdiq edilməsi, fikirlərin əlaqələndirilməsi, müqayisə edilməsi müzakirədə həyata keçirilməli olan mühüm məsələlərdir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə kimi deyilmiş bütün fikirlərin ümumiləşdirilməsi, vahid, ideya şəklinə salınması ön plana çəkilməlidir. Başlıca diqqət lirik qəhrəman obrazının bütövlüyünün, mükəmməl olmasının təsdiqinə yönəldilməlidir. Əsərdən seçilmiş tutarlı dəlillər şagirdlərə aşağıdakı qənaətin üzərində dayanmağa əsas verir: təqiblərə, əzablara dözən, daha ağır işgəncələrə məruz qala biləcəyini anlayan lirik qəhrəmanı heç bir qüvvə doğru, ədalətli hesab etdiyi yoldan, əqidəsindən döndərə bilməz.

Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, İ.Nəsiminin şəxsiyyəti ilə yaradıcılığı vəhdət təşkil etmiş, sənətkar hər cür zülmə, ədalətsizliyə qarşı çıxmış, həqiqəti, insanlığı, insanın mənəvi gözəlliyini tərənnüm etmiş, güclü düşmənlə öz əqidəsi uğrunda mübarizədə canını belə qurban vermişdir.

Çıxarılmış nəticənin tədqiqat sualı ilə əlaqəsinin aydınlaşdırılmasına, şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsinə xüsusi diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları: Aydınlaşdırma / Müəyyənləşdirmə / İstifadəetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından əsasən aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə dəqiq aydınlaşdırır. |
| Şeirdə bədii ifadə vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii ifadə vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii ifadə vasitələrini əsasən müəyyənləşdirir. | Şeirdə bədii ifadə vasitələrini tam əhatə etməklə müəyyənləşdirir. |

| | | | |
|---|---|---|---|
| Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən istifadə etməkdə çətinlik çəkir. | Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən qismən istifadə edir. | Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən əsasən istifadə edir. | Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən məqamında istifadə edir. |

**Evdə iş.** "Əsər məndə müəllif haqqında hansı təəssürat yaratdı?" mövzusunda şifahı təqdimata hazırlaşın.

*Mövzu:* **İmadəddin Nəsimi. Ağrımaz** – 3 saat.
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metafor, bədii təzad, kinayə) rolunu aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. | Şeirin ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir. | Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən istifadə edir |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir. | Şeirlə bağlı fikirlərini müqayisə əsasında şərh edir. |

**Dərsin tipi:** induktiv; bədii əsərin öyrənilməsi.
**İş forması:** fərdi iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** əqli hücum, müsahibə, problemin həlli.
**İnteqrasiya:** Az.d. 1.2.4., 2.2.3., X.d. 3.4.4.
**Təchizat**: Dərslik, lüğətlər, iş vərəqləri, şairin portreti, az.wikipedia.org/wiki/İmadəddin_Nəsimi

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin həmin prosesdə müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu**. Bu dərsdə motivasiyanın yaradılması üçün fərqli yollar vardır. Rəmzi (simvolik) materiallardan, suallardan və s. istifadə etməklə motivasiya yaratmaq və son nəticədə tədqiqat sualını formalaşdırmaq mümkündür. İlk dərsdən şagirdlərin diqqətinə çatdırılan "Düşünün" başlıqlı sual əsasında yığcam müsahibə aparmaqla da tədqiqat sualını müəyyənləşdirmək mümkündür. Şagirdlər mübariz ruhlu əsərlərin yaranmasının səbəbi, əhəmiyyəti ilə bağlı suala cavab verərkən, ilk növbədə, Vətən, haqq-ədalət, yüksək amal uğrunda mübarizədən söhbət getdiyini qeyd edirlər. Müəllim diqqəti müasir dövrdə vətən uğrunda canından keçmiş Mübariz İbrahimov və digər qəhrəmanlara yönəldir, onlar haqqında yazılmış bədii əsərləri, çəkilmiş filmləri xatırladır.

**Tədqiqat sualı:** "Əsərdə haqq, ədalət uğrunda mübarizə aparan insanların əqidəsi əks olunmuşdur" fikrini doğru saymaq olarmı?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Təhlil dərsi müxtəlif təlim metodları, iş formaları tətbiq edilməklə təşkil oluna bilər. Dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına və "Əsərin təhlilinə hazırlaşın" mətninə müraciət edilməsi isə vacibdir.

"Əsərin təhlilinə hazırlaşın" mətnində əruz vəzni və qəzəl haqqında verilmiş məlumatın əhatəli, başa düşülərək mənimsənilməsi həyata keçirilməlidir. Müəllimin əlavə nümunələr göstərməsi, dərslikdəki "Qısa ədəbiyyatşünaslıq terminləri lüğəti"ndəki məlumatlardan şagirdlərin bəhrələnməsini təmin etməsi məqsədəuyğundur.

Tədqiqatın cütlük şəklində iş formasının tətbiqi ilə aparılmasını planlaşdıran müəllim "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı sualların (hər cütlüyə bir sual verməklə) əks olunduğu iş vərəqlərini şagirdlərə təqdim edir. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra hər cütlükdən bir nəfərin təqdimatı əsasında fikir mübadiləsi və müzakirə aparılır. Yaxud cütlüklər araşdırmalarının sonunda kiçik qruplar yaratmaqla fikir mübadiləsi və müzakirə apara bilərlər. Bu, vaxta qənaət baxımından əlverişlidir.

Tədqiqat sualını diskussiya mövzusu kimi də təqdim etmək mümkündür. Əsərin məzmunu ilə ətraflı tanış olan şagirdlər diskussiyada yüksək fəallıq nümayiş etdirirlər. Diskussiyanın gedişində

tapşırıqdakı suallardan istifadə olunması məqsədəuyğundur. Bunun uğurla reallaşdırılması müəllimin bələdçilik bacarığından asılıdır.

Məktəbdə kiçik qruplar üzrə işin təşkilinə daha çox yer verilir. Bu dərsdə həmin iş formasına müraciət edən müəllim "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına yaradıcı yanaşmaqla ondan istifadə edə bilər. Hər qrup bir sual üzərində işləməklə ayrılmış vaxtda tədqiqat aparır. Müəllim ehtiyac duyulan məqamlarda istiqamətləndirici suallarla, yığcam izahlarla şagirdlərə yardım edir. Sualların doğru başa düşülməsi üçün lazım olan hallarda təlimat verilməsi də faydalıdır. Məsələn, dördüncü sualın (Müasirlərinə şairin fərqli münasibətini şeirdən nümunələr göstərməklə aydınlaşdırın) üzərində işləyən qrupa müqayisədən istifadə etməyin vacib olduğu əvvəlcədən xatırladılmalıdır. Yaxud qəzəllə bağlı yığcam məlumatın əks olunduğu yazını üçüncü sualın ("Əsərdə şairin yalnız şəxsi faciəsi əks olunmuşdur" fikrinə münasibət bildirin) üzərində işləyən qrupun iş vərəqinə əlavə etmək məqsədəuyğundur.

**Məlumatın mübadiləsi və müzakirəsi** mərhələsinin səmərəli keçməsi müəllimin bələdçilik bacarığından çox asılıdır. Tədqiqat kiçik qruplarda aparılıbsa, fikir mübadiləsi təqdimatların dinlənilməsi ilə həyata keçirilir. Fəal dinləmənin təmin edilməsi qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına, mübahisəli məsələlərin aşkara çıxarılmasına, düşündürücü sualların verilməsinə imkan yaradır. Deyilmiş fikirlərin əlaqələndirilməsi, qruplaşdırılması, sistemə salınması **müzakirənin** səmərəli keçməsindən asılıdır. Təsadüfi deyildir ki, müzakirə üçün müəllimin əvvəlcədən suallar hazırlaması məqsədəuyğun sayılır. Həmin suallar şagirdləri konkret məqsədə – tədqiqat sualını aydınlaşdırmağa istiqamətləndirməlidir. Məsələn, üçüncü tapşırıqla ("Əsərdə şairin yalnız şəxsi faciəsi əks olunmuşdur" fikrinə münasibət bildirin. Mövqeyinizi nümunələrlə əsaslandırın) əlaqədar müzakirədə şagirdlər müəllimin istiqamətləndirici sualları əsasında şeirdən misallar (Həq bilir səndən, şəha, sahibnəzərlər ağrımaz; Çeşmi-əhvəl ağrıdan arifbəsərlər ağrımaz və s.) göstərməklə şairin öz məsləkdaşlarının mövqeyini də ifadə etdiyini əsaslandırırlar. Yaxud beşinci sualla (Şeir təsəvvürünüzdə bir insan obrazı canlandırdı. Onu necə səciyyələndirərsiniz?) əlaqədar müzakirədə müəllimin istiqamətləndirici sualları "zahidin əfsanəsinə" görə təqibə, ağır cəzaya məruz qalan bu cəsur insanın "haqqı izhar" edən, haqq yolunda mübarizə aparan yenilməz obrazının aydın təsəvvür edilməsinə imkan

yaradır. Eləcə də müəllimin sualları şagirdləri təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən, müqayisələrdən daha dolğun istifadəyə yönəldir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə kimi deyilmiş fikirlərin ümumiləşdirilməsi, vahid ideya şəklinə salınması ön plana çəkilir. "Nə üçün qəhrəmanın ölümünü onun məğlubiyyəti saymaq olmaz?", "Hürufilərin hər cür təqibə, cəzaya məruz qalmasının, işgəncələr qarşısında öz əqidəsindən dönməməsinin səbəbi nə idi?", "Əsərin qəhrəmanının timsalında Nəsiminin insana yeni münasibəti özünü nədə büruzə verir?", "Xalq arasında Nəsiminin mərdlik, qorxmazlıq rəmzi sayılmasına siz necə münasibət bəsləyirsiniz?" sualları şagirdlərin bədii əsərin təhlili prosesində əldə etdikləri qənaətlərin daha da zənginləşməsinə və möhkəmlənməsinə səbəb olur.

Şagirdlər nəticə etibarilə belə bir qənaətin üzərində dayanırlar ki, əsər yalnız şairin şəxsi faciəsini əks etdirən nümunə kimi başa düşülüb təhlil edilə bilməz. Düşmənləri Nəsiminin həbsinə, işgəncə ilə öldürülməsinə nail olsalar da, sənətinin, əsərlərinin, fikirlərinin qüdrəti, ölməzliyi qarşısında aciz qalmışlar; xalq mərdlik, qorxmazlıq rəmzi olan bu böyük fikir bahadırını, onun arzu və ideallarını yaşadır. Nəsimi kimi yüzlərlə hürufi tərəfdarı da təqibə, ağır işgəncəyə məruz qalmış və öldürülmüşdür. Bu əsərin yazılmasının bir səbəbi də yüksək amal uğrunda mübarizə aparan həmin insanların əzmkarlığını, mənən məğlubedilməzliyini ifadə etmək idi.

Çıxarılmış nəticənin tədqiqat sualı və şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisə edilməsinə bu mərhələdə ciddi önəm verilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Şərhetmə
Münasibətbildirmə
İstifadəetmə
Müqayisəli şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə bədii ifadə vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə bədii ifadə vasitələrinin rolunu qismən aydınlaşdırır. | Şeirdə bədii ifadə vasitələrinin rolunu əsasən aydınlaşdırır. | Şeirdə bədii ifadə vasitələrinin rolunu dolğun aydınlaşdırır. |
| Şeirin ideya-məzmununu şərh etməkdə, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirməkdə bəzən çətinlik çəkir. | Şeirin ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən istifadə etməkdə çətinlik çəkir. | Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən qismən istifadə edir. | Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən əsasən istifadə edir. | Şeirlə bağlı təqdimat və çıxışlarında bədii ifadə vasitələrindən məqamında istifadə edir. |
| Şeirlə bağlı fikirlərini müqayisə əsasında şərh etməkdə çətinlik çəkir. | Şeirlə bağlı fikirlərini müqayisə əsasında qismən şərh edir. | Şeirlə bağlı fikirlərini əsasən müqayisə aparmaqla şərh edir. | Şeirlə bağlı fikirlərini müqayisə əsasında dolğun şərh edir. |

**Evdə iş.** "Şeirdəki hansı söz və ifadələr şairin ovqatı, əqidə düşmənlərinə münasibəti barədə məndə aydın təsəvvür yaratdı?" mövzusunda şifahı təqdimata hazırlaşın.

*Mövzu:* **İmadəddin Nəsimi. Ağrımaz** – 3 saat.

*Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.2. Müxtəlif vəznli (heca, əruz) şeirləri, süjetli bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur. | Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| 1.1.4. Bədiin nümunələrin (dastan, hekayə, novella, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir. | Qəzəlin janr xüsusiyyətlərini müəyyənləşdirir. |
| 1.2.1. Bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) növ və janr baxımından müqayisə edir. | Lirik və epik növə aid nümunələr olmaqla qəzəllə dastanı müqayisə edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir. | Qəzəllə bağlı fikirlərini müqayisə əsasında şərh edir. |

**Dərsin tipi:** induktiv; bədii əsərin öyrənilməsi.

**İş forması:** fərdi iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** əqli hücum, müsahibə, Venn diaqramı, izahlı və ifadəli oxu, problemin həlli.
İnteqrasiya: Az.d. 1.2.4., 2.2.3., X.d. 3.1.4.
**Təchizat**: Dərslik, lüğətlər, iş vərəqləri, şairin portreti.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi şifahi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu qəbildən olan dərs çoxcəhətliyi ilə seçilir. Başqa sözlə, tapşırıqların çox vaxt bir-birindən ciddi şəkildə fərqlənməsi, müxtəlif məzmunlu işlərin yerinə yetirilməsi "Tətbiq. Müzakirə. Yaradıcı iş" dərsi üçün səciyyəvidir. Buna görə də, əksər hallarda, belə dərs üçün motivasiyanın yaradılması, tədqiqat sualının müəyyənləşdirilməsi həmin dərsdə daha çox diqqət yetirilən və vaxt ayrılan təlim işi əsas götürülməklə həyata keçirilir. Bu mövqedən çıxış etməyi planlaşdıran müəllim tədqiqat sualını ifadəli oxu üzrə işlə əlaqələndirməyə üstünlük verə bilər. İfadəli oxunun, xüsusən **ifaçılıq vəzifəsinin** mahiyyəti, məqsədilə bağlı qazanılmış məlumatları yığcam müsahibə ilə xatırlatmağa yönəldən müəllim son nəticədə şagirdlərin fəal iştirakı ilə tədqiqat sualının formalaşdırılmasına nail olur.

**Tədqiqat sualı:** "Ağrımaz" qəzəlinin ifadəli oxusunda hansı ifaçılıq vəzifəsinin həyata keçirilməsi məqsədəuyğundur?

Bu dərsdə **tədqiqatın aparılması** mərhələsi də fərqli məzmunu ilə seçilir. İlk növbədə, dərslikdəki ilk iki tapşırıq yerinə yetirilir.

Hər iki tapşırığa hazırlanmış cavablar bütün sinfin iştirakı ilə müzakirə olunur. Birinci sualın verdiyi imkandan istifadə edərək qəzəl janrı haqqındakı məlumatın genişləndirilməsi və dərinləşdirilməsi qayğısına qalmaq lazımdır. Bu baxımdan şagirdlərə qəzəl janrının xüsusiyyətləri ilə bağlı istiqamətləndirici sualların verilməsi məqsədəuyğundur: "Qəzəl hansı ədəbi növün janrıdır?", "Qəzəl janrında yazılmış əsərlər ən çox hansı mövzularda olur?", "Qəzəlin ilk və son beytləri necə adlanır?" və s.)

İkinci sual isə "Ağrımaz" qəzəli ilə "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"un ədəbi növ baxımından müqayisəsi, lirik

və epik növlərə məxsus başlıca cəhətləri aydınlaşdırmağa, nümunələr əsasında müqayisələr aparmağa imkan yaradır. Bu sualla əlaqədar şagirdlərin, ilk növbədə, epik və lirik növün xüsusiyyətləri barədə bilikləri hafizədə canlandırılmalıdır. “Epik və lirik növ üçün hansı xüsusiyyətlər səciyyəvidir?” sualı ilə əlaqədar şagirdlər həcmcə geniş, əhatəli olan epik əsərlərdə, ilk növbədə, təhkiyə və təsvirin mühüm yer tutduğunu, həyat hadisələri, insan xarakterləri, təbiət lövhələrinin əks olunduğunu qeyd edirlər. Epik növdə yazılan əsərlər hadisəni, insanları daha ətraflı əks etdirməyə, onun vasitəsilə həyat həqiqətlərinin dərindən dərkinə imkan yaradır.

Müzakirə zamanı lirik əsərlərdə hiss-həyəcanların, duyğu və düşüncələrin ifadəsinə geniş yer verildiyi vurğulanır. Şagirdlər qeyd edir ki, lirik növdə hadisənin özü yox, doğurduğu ovqat, hislər, düşüncələrin bədii əksi mühüm yer tutur. Həcmcə kiçik olan lirik əsərin qəhrəmanının yaşadığı hislər, duyğular onunla eyni düşüncələri, mövqeyi paylaşan insanların mövqeyini əks etdirir.

Müzakirədə fəal dinləməyə, deyilənlərin ən xırda incəliklərinə qədər aydınlaşdırılmasına və mənimsənilməsinə səy göstərilməlidir. Buna nail olmaq üçünsə şagirdlərin sərbəst fikir mübadiləsi aparmalarına əlverişli şərait yaradılmalıdır.

Bütün bunlar ifadəli oxu ilə bağlı tapşırığın səmərəli yerinə yetirilməsinə əhəmiyyətli təsir edir; qəzəl janrının özünəməxsusluğunun aydın təsəvvür edilməsi, qafiyə sisteminin başa düşülməsi, lirik növün özəlliyi barədə zəruri məlumatın mənimsənilməsi ifadəli oxunun uğurla reallaşmasında az rol oynamır.

Şagirdlərin, ilk növbədə, dərslikdəki materialla tanış olmalarına vaxt ayrılır.

**Müəllim üçün məlumat.** *Şagirdləri əruz vəznli şeirlərin ifadəli oxusuna alışdırmaq asan deyil, bu, böyük zəhmət və vaxt tələb edir. Ədəbiyyat fənn kurikulumunun tələblərinə uyğun olaraq, VII sinifdən başlayaraq bu istiqamətdə sinifdə müntəzəm iş aparılmalıdır. Bu işin səmərəli təşkili müəllimin ifadəli oxunun mahiyyəti, tətbiqi qaydaları ilə tanışlığından çox asılıdır. Müəllim üçün metodik vəsaitin sonunda “Mənbələr” başlığı altında verilmiş siyahıda ifadəli oxu ilə bağlı göstərilmiş ədəbiyyatdan istifadə, bu baxımdan, faydalı ola bilər.*

İfadəli oxu ilə əlaqədar dərslikdəki mətnlə tanışlığı təşkil edən müəllim təfilə, misralarda təfiləyə uyğun gələn bölüm (misranın parçası) barədə şagirdlərdə aydın təsəvvür yaratmağa çalışmalıdır. Təfilənin tələbinə əsasən bölümlər arasında durğulara (fasilələrə) əməl etməyin vacib olduğunu izah edən müəllim belə məqamlarda yol verilən səciyyəvi nöqsanlar barədə xəbərdarlıq edir. Başlıca nöqsan misra bölümlərinin oxusunun süni şəkildə fərqləndirilməsi, hər birinin oxusundan sonra uzun fasilə edilməsidir. Əslində, bölümlər arasındakı durğular (fasilələr) misraların bütövlükdə oxusuna – səslənməsinə xələl gətirməməlidir.

Qəzəlin ideya-məzmunu barədə ətraflı məlumatı olan şagirdlər ifaçılıq vəzifəsini müəyyənləşdirməkdə çətinlik çəkmirlər və fərqli variantlar irəli sürürlər.

Tapşırığın 4-cü və 5-ci bəndlərinin fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Bu, şagirdlərin hər birinin bilik və bacarığı barədə təsəvvürün genişlənməsinə imkan verir.

Səciyyəvi cavablar əsasında **məlumat mübadiləsinin və müzakirənin aparılması** bütün şagirdlərin öz işlərinə tənqidi yanaşa bilmələrinə şərait yaradır. İfaların dinlənilməsi, onlara münasibət bildirilməsi **Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** üçün tutarlı əsas olur. Bu mərhələdə şagirdlərin diqqəti bir daha rəməl bəhrinin xüsusiyyətlərinə cəlb edilir. "Şairin bu şeiri rəməl bəhrində yazmasını təsadüfi saymaq olarmı?" sualı üzrə fikir mübadiləsi əsərin ideya-məzmunu, ifadəli oxusu baxımından əhəmiyyətli olan qənaətin formalaşmasına imkan yaradır. Qeyd edilir ki, digər klassik şairlərimiz kimi, İ.Nəsimi də öz dövründə baş verənlərə, əqidə düşmənlərinə münasibətini ifadə etmək, həyat həqiqətləri ilə bağlı düşüncələrini bölüşmək üçün bu bəhri seçmişdir. Bu bəhrdə yazılmış əsərlər üçün səciyyəvi olan əzəmət, vüqar öz əksini "Ağrımaz" qəzəlinin ideya-məzmununda, onun ifadəli oxusunda da tapır.

"Əsərin ifadəli oxusunda hansı cəhətlərə xüsusi diqqət yetirilməlidir?" sualı şagirdləri öz mövqelərini daha da konkretləşdirməyə sövq edir. Qeyd edilir ki, rəməl bəhrinin ahəngi (əzəmət, vüqar) əsərdə ifadə olunan fikirlərə uyğundur, onun ideyasının, müəllifin başlıca niyyətinin qabarıq səslənməsinə, oxucuya daha aydın çatdırılmasına kömək edir.

Şeirin ifadəli oxusu zamanı dinləyicilərin gözləri qarşısında ifaçılıq vəzifəsinin – şairin zamanın keşməkeşləri qarşısında əyilməyən, öz

qüdrətini, mənəvi ucalığını dərk edən, əqidə mücahidi olan insanın obrazının yaradılması diqqət mərkəzində saxlanılmalıdır. İfa zamanı ən dəhşətli işgəncələrə mətanətlə, mərdanəliklə dözən qəhrəmanın obrazı ilə yanaşı, onun düşmənlərinin miskinliyi, cılız hislərlə yaşaması barədə dinləyicidə dolğun təsəvvür yaradılmalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları: İfadəlioxuma / Müəyyənləşdirmə Müqayisəetmə / Müqayisəli şərhetmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Şeiri ideya-məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Şeiri müəllimin köməyi ilə ideya-məzmununa uyğun ifadəli oxuyur. | Şeiri əsasən ideya-məzmununa uyğun ifadəli oxuyur. | Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| Qəzəl janrına məxsus xüsusiyyətləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Qəzəl janrına məxsus xüsusiyyətləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Qəzəl janrına məxsus xüsusiyyətləri əsasən müəyyənləşdirir. | Qəzəl janrına məxsus xüsusiyyətləri dəqiqliklə müəyyənləşdirir. |
| Qəzəli növ baxımından dastanla müqayisə etməkdə çətinlik çəkir. | Qəzəli növ baxımından dastanla müəllimin köməyi ilə müqayisə edir. | Qəzəli növ baxımından dastanla əsasən müqayisə edir. | Qəzəli növ baxımından dastanla dolğun müqayisə edir. |
| Qəzəllə bağlı fikirlərini müqayisə əsasında şərh etməkdə çətinlik çəkir. | Qəzəllə bağlı fikirlərini müqayisə əsasında qismən şərh edir. | Qəzəllə bağlı fikirlərini əsasən müqayisə aparmaqla şərh edir. | Qəzəllə bağlı fikirlərini müqayisə əsasında dolğun şərh edir. |

**Evdə iş.** Şeirin ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən və qəlibə uyğun cədvəldən istifadə etməyi unutmayın.

# EPİK ƏSƏRİN TƏDRİSİ ÜZRƏ DƏRS NÜMUNƏLƏRİ
## C.Məmmədquluzadə.
## QURBANƏLİ BƏY

*Mövzu:* **Cəlil Məmmədquluzadə. Qurbanəli bəy –** 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə və süjetli əsərlərdə (dastan, hekayə, novella, dram, poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırır. |
| 1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlədə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafor, bədii təzad, kinayə) müəyyənləşdirir. | Hekayədə bədii ifadə vasitələrini müəyyənləşdirir. |
| 2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir. | Hekayə ilə bağlı müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir. |

**Dərsin tipi**: induktiv; bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, təqdimat, proqnozlaşdırılmış oxu.
**İnteqrasiya:** Az.d. 2.1.1., 2.2.2., X.d. 2.1.3.
**Təchizat:** dərslik, iş vərəqləri, əsərin məzmunu üzrə şəkillər.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür; müəyyən bədii əsərin müvafiq (ləyaqət, şərəf, mənəvi dəyərlərin əks olunduğu) parçasından, "Qurbanəli bəy" filminin səciyyəvi fraqmentindən, hekayəyə çəkilmiş maraqlı illüstrasiyadan və s. istifadə etmək olar. Eləcə də dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında yığcam müsahibənin aparılması mümkün və faydalıdır.

**Tədqiqat sualı:** Yalançılıq və simasızlıq insanın həyatdakı mövqeyində hansı rolu oynaya bilər?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Hekayənin məzmununun öyrənilməsinə oxu növlərindən birinin tətbiqi ilə başlanılır. Dərslikdə proqnozlaşdırılmış

oxudan istifadə məqsədəuyğun sayılmışdır. Onun tətbiqi zamanı hər parçanın oxusundan sonra fasilə edilir, şagirdlər cütlük şəklində cədvəldəki suallar üzrə qeydlər edirlər. Hekayədə bir-birini əvəz edən maraqlı təsvirlərə, gözlənilməz səhnələrə yer verilməsi hadisələrin inkişafı barədə şagirdlərdə maraqlı ehtimalların yaranmasına səbəb olur. Təcrübə göstərir ki, mütaliəyə ciddi marağı ilə seçilməyən şagirdlər belə irəli sürdükləri ehtimalların sonrakı hadisələrlə necə səsləşəcəyini izləmək üçün əsəri həvəslə oxuyur, bütün incəliklərə diqqət yetirirlər. Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına, bədii ifadə vasitələrinin müəyyənləşdirilməsinə diqqət yetirilir.

Sinifdə oxunması nəzərdə tutulmuş hissə (beşinci parça da daxil olmaqla) üzrə iş başa çatdıqdan sonra hər cütlükdən bir nəfər hadisələrin inkişafını necə təsəvvür etdiklərini, nəyə əsaslanaraq belə düşündüklərini, təxmin etdiklərinin əsərdəkilərlə nə dərəcədə səsləşdiyini təqdimat əsasında açıqlayır. Təqdimatlar böyük maraqla dinlənilir, oxşar və fərqli ehtimalların olduğu aşkara çıxır. Bu, dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi kimi qəbul edilir. Müəllim müzakirənin diskussiya səciyyəli olmasına, şagirdlərin dialoji nitq bacarıqlarını nümayiş etdirmələrinə, fikirlərini sərbəst ifadə etmələrinə, deyilənlərə münasibət bildirmələrinə imkan verən şərait yaratmalıdır. Unutmaq olmaz ki, bu oxu növündən istifadə etməkdə başlıca məqsəd şagird proqnozlarının həqiqətə – əsərdəki təsvirlərə tam uyğun olması deyildir; bu oxu mütaliəyə maraq və həvəs oyadır, şagirdləri fəallığa, daha diqqətli olmağa sövq edir. Şagirdlər mətnin oxusunda ən xırda incəlikləri belə dərindən duymağa can atırlar, əks halda hadisələrin sonrakı inkişafı barədə ağlabatan proqnoz verə bilmirlər. Bu oxu prosesində icra olunan işlər şagirdlərdə məntiqi və yaradıcı təfəkkürün inkişafına da əhəmiyyətli təsir göstərir.

Müəllim əvvəlcədən hazırladığı suallar vasitəsilə oxunmuş hissənin məzmunu ilə bağlı qazanılmış təsəvvürün tamlığına (hekayənin məzmunu bütövlükdə öyrənilmədiyindən nəticə, ümumiləşdirmə mərhələsinin tələbləri tam halda ikinci dərsdə reallaşdırılır) nail olur. O, qapalı suallardan fərqlənən aşağıdakı suallardan da istifadə edə bilər:

1. Hekayənin kənddəki çaxnaşmanın təsviri ilə başlamasının səbəbini necə izah edərsiniz?
2. Yazıçının naçalnikin gəlişini "ləngitməsinə" səbəb nədir?

3. Qurbanəli bəyin danışığını, davranışını yadınıza salın, onun özünü yüngül aparmasının, təlxəklik etməsinin səbəbini nədə görürsünüz?

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları: Aydınlaşdırma / Müəyyənləşdirmə / Nümayişetdirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından əsasən aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə dəqiq aydınlaşdırır. |
| Hekayədə bədii ifadə vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayədə bədii ifadə vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Hekayədə bədii ifadə vasitələrini əsasən müəyyənləşdirir. | Hekayədə bədii ifadə vasitələrini tam əhatə etməklə müəyyənləşdirir. |
| Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə dialoji nitq bacarığını qismən nümayiş etdirir. | Müzakirələrdə dialoji nitq bacarığını əsasən nümayiş etdirir. | Müzakirələrdə dialoji nitq bacarığını ardıcıl nümayiş etdirir. |

**Evdə iş.** 1. Hekayənin ardını evdə oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

*Mövzu:* **Cəlil Məmmədquluzadə. Qurbanəli bəy** – 3 saat
*İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə və süjetli əsərlərdə(dastan, hekayə, novella, dram, poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |

| | |
|---|---|
| 1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafor, bədii təzad, kinayə) müəyyənləşdirir. | Hekayədə bədii ifadə vasitələrini müəyyənləşdirir. |
| 1.1.4. Bədii nümunələrin (dastan, hekayə, novella, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir. | Hekayə janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir. |
| 1.1.3. Süjetli bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |

**Dərsin tipi**: induktiv; bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, təqdimat.
**İnteqrasiya:** Az.d. 2.1.1., 2.2.2., X.d. 2.1.3.
**Təchizat:** dərslik, iş vərəqləri, əsərin məzmunu üzrə şəkillər.

## Dərsin gedişi

Hekayənin evdə oxunmuş parçalarının məzmununun və tanış olmayan sözlərin mənasının hansı səviyyədə qavranıldığı yığcam müsahibə, seçmə yolla təqdimatların dinlənilməsi və müzakirəsi, səciyyəvi epizodların müxtəlif formalarda nağıl edilməsi və onlara münasibət bildirilməsi və s. yollarla müəyyənləşdirilə bilər. Bütün hallarda müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur. Şagirdlərə evdə oxunmuş 6, 7 və 8-ci parçaları bir daha nəzərdən keçirmək, sonra mətnlə bağlı suallara cütlük şəklində cavab hazırlamaq təklif edilir. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra cavabları məzmunca yaxın olan cütlüklər kiçik qruplarda birləşərək fikirlərini dəqiqləşdirir və ümumiləşdirirlər.

**Tədqiqatın aparılması** mərhələsi kimi qəbul edilən bu prosesdə müəllim hər bir şagirdin fəaliyyətinə, ümumi işə verdiyi töhfənin nədən ibarət olmasına diqqət yetirir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işlərinin nəticələri təqdimatlar əsasında açıqlanır. Bütün qrupların eyni suallar üzərində işləməsi məlumat mübadiləsinin müzakirə ilə qovuşmasına səbəb olur. Müzakirənin səmərəli keçməsi isə müəllimin işi necə təşkil

etməsindən asılıdır. O, çıxışların diqqətlə dinlənilib münasibət bildirilməsini, əlavələr edilməsini, sual vermək istəyənlərə şərait yaradılmasını təmin etməli, vaxtdan düzgün istifadəyə çalışmalıdır.

Şagirdlərin diqqətini ədəbi qəhrəmanın xarakterinin aydınlaşdırılmasında, əsərin ideyasının müəyyənləşdirilməsində əhəmiyyətli olan epizodlara, detallara cəlb edən müəllim əlavə suallar verməklə hekayənin məzmunu üzrə qazanılmış təsəvvürün tamlığına nail olmalıdır. Tanış olmayan sözlərin, bədii ifadə vasitələrinin necə qavranıldığının aşkara çıxarılması da bu prosesdə xüsusi diqqət yetirilən məsələlərdən olur.

İndiyə qədər deyilmiş fikirlər əsasında ümumi ideyanın müəyyənləşdirilməsi **Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində mühüm vəzifə kimi qarşıya qoyulur. Əsərin məzmununun öyrənilməsinə həsr edilən hər iki dərsdə həyata keçirilən işlər şagirdlərin mənəvi-əxlaqi və idraki baxımdan zənginləşməsində, inkişafında əhəmiyyətli rol oynayır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, ləyaqətsizlik, simasızlıq, yalançılıq kimi mənfi sifətlər insanın cəmiyyətdəki mövqeyini sarsıdır, onu rəzil, rüsvay edir.

Çıxarılmış nəticənin tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

Dərslikdə "**Bilik və bacarıqlarınızı tətbiq edin**" başlıqlı tapşırıq verilmişdir.

Hər iki tapşırığı şagirdlər fərdi olaraq yerinə yetirirlər. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra bir neçə təqdimatın və nağıletmənin dinlənilməsi və müzakirəsi həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları: Aydınlaşdırma / Müəyyənləşdirmə / Hissələrə ayırma / Plan tərtibetmə / Nağıletmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından suallar verməklə və kömək əsasında aydınlaşdır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından əsasən aydınlaşdır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə dəqiq aydınlaşdırır. |

| | | | |
|---|---|---|---|
| Hekayədə bədii ifadə vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayədə bədii ifadə vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Hekayədə bədii ifadə vasitələrini əsasən müəyyənləşdirir. | Hekayədə bədii ifadə vasitələrini tam əhatə etməklə müəyyənləşdirir. |
| Hekayə janrına məxsus xüsusiyyətləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayə janrına məxsus xüsusiyyətləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Hekayə janrına məxsus xüsusiyyətləri əsasən müəyyənləşdirir. | Hekayə janrına məxsus xüsusiyyətləri dəqiqliklə müəyyənləşdirir. |
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə tərtib edir, məzmununu kömək əsasında geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu əsasən geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu geniş nağıl edir. |

**Evdə iş.** "Hekayə bugünkü oxucu üçün əhəmiyyətlidirmi?" mövzusunda şifahı təqdimata hazırlaşın.

*Mövzu:* **Cəlil Məmmədquluzadə. Qurbanəli bəy** – 3 saat
*Üçüncü saat:* **Əsərin təhlili üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| 1.2.1. Bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) növ və janr baxımından müqayisə edir. | Hekayəni növ baxımından lirik nümunə ilə müqayisə edir. |
| 1.2.2. Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir. | Fərqli vəziyyətlərdə nitqindən, məişət təsvirlərindən çıxış etməklə obrazı səciyyələndirir. |
| 1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metafor, bədii təzad, kinayə) rolunu aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. | Hekayənin ideya-məzmununu, süjet və kompozisiyasındakı başlıca xüsusiyyətləri şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir. | Hekayə ilə bağlı təqdimat və çıxışlarında sitatlardan istifadə edir. |

**Dərsin tipi**: induktiv; bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, kiçik qruplarda iş.
**Metod və priyomlar:** müsahibə, problemin həlli, müzakirə, təqdimat.
**İnteqrasiya:** Az.d. 1.2.4., 2.2.3., X.d. 3.1.4.
**Təchizat:** dərslik, iş vərəqləri, əsərin məzmunu üzrə şəkillər.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi şifahi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollardan istifadə etmək mümkündür. Bunlardan biri dərslikdəki "Düşünün" başlıqlı sual (İnsanın rəzil olmasına, gülüş obyektinə çevrilməsinə səbəb nə ola bilər?) əsasında yığcam müsahibə aparılmasıdır. Müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə gətirib çıxarır.

**Tədqiqat sualı:** " Əsərin əsas ideyası bir qisim ixtiyar sahiblərinin – mülkədarların simalarını itirərək gülüş hədəfinə çevrilmələrinin ictimai səbəblərini açmaqdır" fikrini doğru saymaq olarmı?

Səsləndirilən fərziyyələr lövhədə qeyd olunur. Bu fərziyyələrin yoxlanılması üçün araşdırmalar aparılmasının vacib olduğu xatırladılır.

**Tədqiqatın aparılması.** Bunu fərqli təlim metodlarının, iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Diskussiya, debat, problemin həlli və s. bu qəbildəndir. Bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına müraciət edilməsi məqsədəuyğundur.

Kiçik qruplarda iş formasını seçən müəllim şagirdlərin diqqətini, ilk növbədə, "Əsərin təhlilinə hazırlaşın" mətninə cəlb edir. Bu mətndə **kompozisiya** və **kinayə** anlayışları barədə məlumat verilmişdir. Bu materialın müstəqil oxusunu təşkil edən müəllim sonda müsahibə apararaq mənimsəmənin səviyyəsini aşkara çıxarır, əlavə misallar göstərməklə məlumatın şüurlu və möhkəm qavranılmasına çalışır.

Kompozisiyanın ünsürlərini (epiqraf, proloq, epiloq, peyzaj, lirik haşiyə) sadalayan müəllim şagirdlərin artıq peyzajla tanış olduqlarını

öyrənilmiş əsərlərdən nümunələr gətirməklə açıqlayır. C.Məmmədquluzadənin "Qurbanəli bəy" üçün seçdiyi "Qoqol, Allah sənə rəhmət eləsin!" epiqrafı timsalında "epiqraf" anlayışının mahiyyətini izah edir. "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırığın sualları əsasında hazırlanmış iş vərəqləri (hər qrupa bir sual ayrılmaqla) şagirdlərə təqdim edilir. Hekayə ilə əlaqədar müxtəlif tədqiqatlardan seçilmiş səciyyəvi parçaların iş vərəqlərinə əlavə edilməsi faydalıdır. Bu, müəllimdən əlavə vaxt və zəhmət tələb etsə də, təhlilin səmərəli keçməsi üçün çox əhəmiyyətlidir. Tədqiqat prosesində həmin parçalardan mənbə kimi istifadə edən şagirdlər müzakirədə onlardan sitatlar gətirirlər. Aşağıdakı parça (müəllimin bu qəbildən nümunələr seçmək imkanı genişdir) surəti çoxaldılaraq iş vərəqlərinə əlavə edilə bilər: "*Yaxşı diqqət edilsə, böyük ədib bu hekayəsini də müqayisə əsasında yazmışdır. Burada başqa millətdən olan vəzifə sahibləri ilə Azərbaycan bəyi, mülkədarı qarşılaşdırılır. Qurbanəli bəyin bütün mənfi cəhətləri – lovğalıq və yalançılığı, təkəbbürü və miskinliyi, zorakılığı və yaltaqlığı bu müqayisədə aşkara çıxarılır.*

*...Qurbanəli bəy ikiüzlü adamdır. Onun bir yaltaq, gülər, şən və məsum üzü var ki, bu, qonaqların, böyük vəzifə sahiblərinin yanında görünür. Bir zalım, qansız, kobud, sərt və əzazil üzü var ki, Kərbəlayi Qasıma, nökər Əliyə, ümumiyyətlə, rəiyyətə münasibətdə özünü göstərir. O, pristavın arvadına, hətta itinə belə yaltaqlanır, Kərbəlayı Qasımın isə qarnına xəncər soxmaq istəyir. Rəiyyətlə son dərəcə amansız rəftar edən bu lovğa, xudbin mülkədarın həqir simasını yazıçı şərab məclisində, onun öz sözləri, danışığı ilə açır. O, pristava və onun arvadına da, naçalnikə də eyni yaltaqlıqla müraciət edir, indiyədək bu mahalda belə böyüklər olmadığını dönə-dönə israr edir*". (F.Hüseynov. Adi əhvalatlarda böyük həqiqətlər. B., 1977, səh.59-60).

İşin icrası prosesində müəllimin bu və ya digər qrupa istiqamətləndirici suallarla kömək etməsi, diqqəti daha mühüm mətləblərin açılmasına cəlb etməsi mümkündür. Məsələn, müəllim üçüncü sualın (Qurbanəli bəyin xarakterindəki başlıca cəhətlər hansılardır? Onun nitqinə, davranış və əməllərinə diqqət yetirməklə fikrinizi əsaslandırın) üzərində işləyən qrupa əsərdən bəyin adamlarla fərqli rəftarını göstərən nümunələr seçməyi, yazıçının bu obraza münasibətini aydınlaşdırmağı tövsiyə edir. Həmçinin bəyin qonaqlıqdakı nitqi – danışığı ilə nökər və qulluqçularla danışığını müqayisə edib, nəticələri Venn diaqramında əks etdirməyi

təklif edə bilər. Bu sual Qurbanəli bəyin evinin, bağlı olduğu məişətin təsvirindən çıxış etməklə onun haqqında fikir yürüdülməsinə də imkan verir. Şagirdlərə bununla bağlı istiqamət verilməsi məqsədəuyğundur. Altıncı sualla (Hekayə hansı bədii xüsusiyyətlərinə görə diqqəti cəlb edir? Fikrinizi əsaslandırarkən süjet və kompozisiya özəlliyinə diqqət yetirməyi unutmayın) bağlı araşdırma aparan qrupa qazanmış olduqları bilik və bacarıqlara əsaslanmaqla əsərdə hadisələrin bir-biri ilə necə əlaqələndiyini, süjetin mərhələlərini, təkrar olunan söz və ifadələri və bunun səbəbini, əsərin dilindəki şirinliyi, hekayənin oxucuda doğurduğu gülüşün məzmununu, kinayəli ifadələrin və təzadlı səhnələrin yazıçı niyyətinin açılmasındakı rolunu müəyyənləşdirməyin vacib olması barədə istiqamət verilir. Yaxud yeddinci sualın üzərində çalışan qrupa lirik növə məxsus nümunə seçməkdə, müqayisə üçün əsaslar müəyyənləşdirməkdə istiqamət vermək olar.

**Məlumat mübadiləsi.** Qruplar mənimsədiklərini, əldə etdikləri nəticələri bu mərhələdə təqdim edir, bir-birinin işinin məzmunu ilə tanış olurlar. Bu prosesdə fəal dinləmənin təmin olunması tədqiqat zamanı uğurlu nəticələrin əldə edilməsi qədər vacib və əhəmiyyətlidir. Müəllim elə şərait yaratmalıdır ki, təqdimatlar diqqətlə dinlənilsin, hər bir qrupda görülmüş işin məzmunu barədə bütün sinif dolğun təsəvvür qazansın. Qrup təqdimatlarında nöqsanların olmasına təbii baxılmalıdır; çıxışlar, əksər hallarda, suallar doğurur, əlavə izahat tələb edir, fikirlərdə pərakəndəlik müşahidə edilir. Bütün bunların aradan qaldırılması, mənimsənilənlərin bitkin şəkil alması, dərinləşməsi, ümumi ideya halına düşməsi dərsin növbəti mərhələlərində həyata keçirilir.

**Məlumatın müzakirəsi və təşkili.** Dərsin əvvəlki mərhələlərində aparılmış işlər, əsərin məzmununun mükəmməl mənimsənilməsi, təqdimatların diqqətlə dinlənilməsi imkan verir ki, qruplar yalnız öz cavabları üzrə deyil, bütün suallar üzrə müzakirədə fəal olsunlar, əsaslandırılmış mövqe nümayiş etdirsinlər. Məsələn, "Hekayədə diqqətinizi daha çox cəlb edən nə oldu? Səbəbini izah edin" sualına, eləcə də tapşırığın digər suallarına bütün qrupların cavab verməsinə, ədəbi qəhrəmanla bağlı fərqli, əsaslandırılmış fikir söyləməsinə, əsərdən yeni misallar göstərməsinə, əlavə mənbələrdə sitatlar gətirməsinə nail olunmalıdır.

Müzakirədə müəllim aşağıdakı suallardan da istifadə edə bilər:

– Qurbanəli bəyin mülkədar olduğu kəndin “Qapazlı” adlanmasının səbəbini necə izah edərsiniz?
– Qurbanəli bəy ciddi, təmkinli, ləyaqətini uca tutan insan olsa idi, yadelli ağaların məclisində otura bilərdimi, o, burada necə qəbul olunardı?
– Əsərdəki ürəkparçalayan səhnəni – qlavaların kəndliləri döyə-döyə yallı getməyə məcbur etmələrini ətraflı təsvir etməkdə yazıçının məqsədi nədir?

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Bu, həyata keçirilmiş bütün işlərin əsasında ümumiləşdirmənin aparılması, deyilmiş fikirlərin vahid ideya halına salınması mərhələsidir. Bu mərhələdə müəllimin istiqamətləndirici sualları da əhəmiyyətli rol oynayır. Sonda şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, C.Məmmədquluzadə müstəmləkə şəraitində yaşayan Azərbaycanın səbatsız ixtiyar sahiblərinin yadelli ağaların – rus məmurlarının köləsinə çevrildiklərini, əslində, buna məcbur olduqlarını məharətlə açıb göstərmişdir. Kəndlilərin “sahibi” olan Qurbanəli bəylərin çar hakimlərinə yaltaqlanaraq onlara “həmişə nökər olmağa hazır” olduqlarını elan etmələri və bunu əməlləri ilə sübut etmələri xalqın daha acınacaqlı vəziyyətə düşməsinə az təsir göstərməmişdir.

Yazıçı obrazların, əhvalat və hadisələrin yaddaqalan, canlı, təsirli olması üçün bədii vasitələrdən ustalıqla istifadə etmiş, maraqlı süjetə, bitkin kompozisiyaya malik sənət əsəri yaratmağa nail olmuşdur.

Çıxarılmış başlıca nəticənin şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsinə, tədqiqat sualı ilə necə səsləşməsinə ayrıca diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları: Müqayisəetmə / Səciyyələndirmə / Aydınlaşdırma / Şərhetmə, münasibətbildirmə /İstifadəetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayəni növ baxımından lirik nümunə ilə müqayisə etməkdə çətinlik çəkir. | Hekayəni növ baxımından lirik nümunə ilə müəllimin köməyi əsasında müqayisə edir. | Hekayəni növ baxımından lirik nümunə ilə əsasən müqayisə edir. | Hekayəni növ baxımından lirik nümunə ilə dolğun müqayisə edir. |

| | | | |
|---|---|---|---|
| Fərqli vəziyyətlərdə danışığından – nitqindən, məişət təsvirlərindən çıxış etməklə obrazı səciyyələndirməkdə çətinlik çəkir. | Fərqli vəziyyətlərdə danışığından – nitqindən, məişət təsvirlərindən qismən çıxış etməklə obrazı səciyyələndirir. | Fərqli vəziyyətlərdə nitqindən, məişət təsvirlərindən əsasən çıxış etməklə obrazı səciyyələndirir. | Fərqli vəziyyətlərdə danışığından – nitqindən, məişət təsvirlərindən çıxış etməklə obrazı dolğun səciyyələndirir. |
| Hekayədə bədii ifadə vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə bədii ifadə vasitələrinin rolunu qismən aydınlaşdırır. | Hekayədə bədii ifadə vasitələrinin rolunu əsasən aydınlaşdırır. | Hekayədə bədii ifadə vasitələrinin rolunu dolğun aydınlaşdırır. |
| Hekayənin ideya-məzmununu, süjet və kompozisiyasındakı başlıca xüsusiyyətləri şərh etməkdə, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Hekayənin ideya-məzmununu, süjet və kompozisiyasındakı başlıca xüsusiyyətləri şərh edir, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Hekayənin ideya-məzmununu, süjet və kompozisiyasındakı başlıca xüsusiyyətləri şərh edir, əsaslandırılmış münasibət bildirməkdə bəzən çətinlik çəkir. | Hekayənin ideya-məzmununu, süjet və kompozisiyasındakı başlıca xüsusiyyətləri şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| Hekayə ilə bağlı təqdimat və çıxışlarında sitatlardan istifadə etməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı təqdimat və çıxışlarında sitatlardan qismən istifadə edir. | Hekayə ilə bağlı təqdimat və çıxışlarında sitatlardan əsasən istifadə edir. | Hekayə ilə bağlı təqdimat və çıxışlarında sitatlardan dolğun istifadə edir. |

**Evdə iş.** Mövzulardan birini seçib işləyin.
1. Hekayənin yazıldığı dövrlə bağlı məndə hansı təəssürat yarandı?" mövzusunda inşa yazın.
2. "Qurbanəli bəyin gülüş obyektinə çevrilməsinin səbəbini nədə görürəm?" mövzusunda esse yazın.

## DRAMATİK ƏSƏRİN TƏDRİSİ ÜZRƏ DƏRS NÜMUNƏLƏRİ

*Mövzu*: **Hüseyn Cavid. Ana** – 4 saat

*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə və süjetli əsərlərdə (dastan, hekayə, novella, dram, poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. | Dramda tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafor, bədii təzad, kinayə) müəyyənləşdirir. | Dramda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən istifadə edir. |
| 2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir. | Dramla bağlı müzakirədə dialoji nitq bacarığını nümayiş etdirir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.

**İş forması:** fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.

**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.

**İnteqrasiya:** Az.d. 1.2.2. 2.1.1.; X. d. 1.1.1. 3.1.1.

**Təchizat:** dərslik, iş vərəqləri, “Ana” əsərinə çəkilmiş illüstrasiyalar, lüğətlər, şairin əsərləri.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilmə səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdəki işi fərqli variantlarda təşkil etmək olar. Vaxta qənaət baxımından dərslikdəki “Yada salın” başlıqlı suallar əsasında yığcam müsahibə aparmaqla tədqiqat sualını müəyyənləşdirmək mümkündür.

Digər bir variant aşağıdakı məzmunda ola bilər:

İnternetdə (YouTube https://www.youtube.com/watch? v=rXs2X1Z5u6I) “Cavid ömrü” filmindən bir parça nümayiş etdirilir. Filmdəki kadrlar

şagirdlərdə sənətkarın yaradıcılığını öyrənməyə maraq yaradır. Müəllim “Baxdığınız epizod sizdə hansı düşüncələr oyatdı?” qəbildən suallar əsasında yığcam müsahibə aparır və sonda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** Dramaturqun anaya həsr olunmuş əsər yazmasına səbəb, sizcə, nədir?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Şagirdlərin dramatik əsərin məzmununu dərindən mənimsəməsi baxımından rollar üzrə oxunun tətbiqi məqsədəuyğundur. Nəzərə almaq lazımdır ki, dramatik əsər öz təbiəti etibarilə şifahi nitqə və qəhrəmanların hərəkətlərinə əsaslanır. Dramatik əsərin qəhrəmanının bədii obrazı onun nitqi ilə yaradılır. Bu baxımdan dərsdə əsərin səsli, rollar üzrə oxusu şagirdlərin dramatik mətnin xüsusiyyətlərini duymaq və qavramaq, dialoq, monoloq, replikaları diqqətlə müşahidə etmək imkanı əldə edilir.

İnternetdə (https://www.youtube.com/watch?v=TnhkH7YzUb8) “Ana” mənzum dramının teatr tamaşası yerləşdirilib. Dərsdə rollar üzrə oxu ilə yanaşı, həmin tamaşadan parçaların nümayiş etdirilməsi də faydalıdır.

Müəllim I hissədəki ayrı-ayrı səhnələri (Səlma ananın İsmətlə Qanpoladın məktubu barədə söhbəti, İsməti gündən Orxanla İzzətin söhbəti, İsmətlə Orxanın qarşılaşması, İsmətin Orxanın niyyətini Səlimə xəbər verməsi, Səlmanın İsmətə Qanpoladın gəlməsi xəbərini çatdırması) rollar üzrə oxu üçün şagirdlər arasında bölüşdürür.

Əsər rollar üzrə ayrı-ayrı parçalar şəklində oxunduğu üçün, teatr tamaşasında olduğu kimi, parçalararası fasilələr edilməsi təbiidir. Bu fasilələrdə tanış olmayan sözlərin mənası aydınlaşdırılır, hadisələrin inkişaf xəttinə, ayrı-ayrı detallara diqqət yetirilir.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər I hissəni bir daha nəzərdən keçirib, mətnkənarı suallara cütlük şəklində cavab hazırlayırlar. Kiçik qruplarda birləşən şagirdlər hazırladıqları cavabları dəqiqləşdirirlər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Suallar əsərdə konfliktin necə yarandığını və inkişaf etdiyini izləməyə imkan verir. Bu isə, öz növbəsində, həm dram janrının xüsusiyyətlərini mənimsəməyə, həm də əsərin təhlilinə zəmin yaradır. Eyni zamanda şagirdlərdə ilkin qavrama zamanı emosional ovqat yaranır.

Müzakirə zamanı müəllim dialoji nitq bacarığının nümayişinə, fikirlərin sərbəst söylənilməsinə, müqayisəsinə, onlara əlavələr edilməsinə, təkliflər irəli sürülməsinə, daha dəqiq qənaətlərin yaranmasına diqqət yetirir və işə bütövlükdə istiqamət verir. Deyilənlərin ümumiləşdirilməsi, sistemə salınması, tədqiqat sualına doğru cavabın tapılması həmin mərhələdə diqqət yetirilən başlıca məsələlərdən olur.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə qədər deyilənlərin ümumi ideya halına salınması mühüm vəzifə kimi qarşıya qoyulur. Şagirdlər dramda sətiraltı mənaların olduğunu, ədibin məhəbbəti deyil, cəmiyyətdəki ədalətsizlikləri, dövrün ictimai eyiblərini  ön plana çəkdiyini qeyd edirlər.

Çıxarılmış nəticənin şagirdlərin fərziyyələri və tədqiqat sualı ilə müqayisə edilməsinə xüsusi diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları: Aydınlaşdırma / Müəyyənləşdirmə / İstifadəetmə / Nümayişetdirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından əsasən aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə dəqiq aydınlaşdırır. |
| Dramda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Dramda bədii təsvir və ifadə vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Dramda bədii təsvir və ifadə vasitələrini əsasən müəyyənləşdirir. | Dramda bədii təsvir və ifadə vasitələrini tam əhatə etməklə müəyyənləşdirir. |
| Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən istifadə etməkdə çətinlik çəkir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən qismən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən əsasən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən məqamında istifadə edir. |

| | | | |
|---|---|---|---|
| Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə dialoji nitq bacarığını qismən nümayiş etdirir. | Müzakirələrdə dialoji nitq bacarığını əsasən nümayiş etdirir. | Müzakirələrdə dialoji nitq bacarığını ardıcıl nümayiş etdirir. |

**Evdə iş.** 1. Əsərin ardını oxuyun.
2.Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

*Mövzu*: **Hüseyn Cavid. Ana** – 4 saat
*İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Müxtəlif vəznli (heca, əruz) dramlarda və süjetli əsərlərdə (dastan, hekayə, novella, dram, poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. | Dramda tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| 1.1.4. Bədii nümunələrin (dastan, hekayə, novella, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir. | Dram janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir. |
| 1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafor, bədii təzad, kinayə) müəyyənləşdirir. | Dramda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən istifadə edir. |
| 2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir. | Dramla bağlı müzakirədə dialoji nitq bacarığını nümayiş etdirir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.

**İş forması:** fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.

**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.

**İnteqrasiya:** Az.d. 1.2.2. 2.1.1.; X. d. 1.1.1. 3.1.1.

**Təchizat:** dərslik, iş vərəqləri, “Ana” əsərinə çəkilmiş illüstrasiyalar, lüğətlər, şairin əsərləri.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilmə səviyyəsi yığcam müsahibə və müzakirə ilə müəyyənləşdirilə bilər.

**Tədqiqatın aparılması.** Evdə oxunmuş hissəni bir daha nəzərdən keçirən şagirdlər mətnkənarı suallara cütlük şəklində cavab hazırlayırlar. Sonra kiçik qruplarda birləşən şagirdlər cavablarını dəqiqləşdirirlər. Bu mərhələdən sonra təqdimatlar əsasında **fikir mübadiləsi və müzakirə** həyata keçirilir. Təqdimat və çıxışlarda bədii təsvir vasitələrindən necə istifadə edilməsinə, dialoji nitq bacarığının hansı səviyyədə nümayiş olunduğuna diqqət yetirilir.

Dərslikdəki "**Bilik və bacarıqlarınızı tətbiq edin"** başlıqlı tapşırıqların fərqli olaraq yerinə yetirilməsi məqsədəuyğundur.

Görülmüş işlər nəticənin çıxarılmasına, ümumiləşdirməyə imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, H.Cavidin bu mövzuda əsər yazması təsadüfi deyildir. Ananı müqəddəs sayan, onu yüksək dəyərləndirən şair pak, ülvi hislərlə yaşayan, hər cür pislikdən, şərdən yüksəkdə dayanan ana obrazı yaratmaya bilməzdi.

Çıxarılmış nəticənin tədqiqat sualı və şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları: Aydınlaşdırma / Müəyyənləşdirmə / İstifadəetmə / Nümayişetdirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından əsasən aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə dəqiq aydınlaşdırır. |
| Dram janrına məxsus xüsusiyyətləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Dram janrına məxsus xüsusiyyətləri müəllimin köməyi ilə müyyənləşdirir. | Dram janrına məxsus xüsusiyyətləri əsasən müəyyənləşdirir. | Dram janrına məxsus xüsusiyyətləri dəqiqliklə müəyyənləşdirir. |

| | | | |
|---|---|---|---|
| Dramda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Dramda bədii təsvir və ifadə vasitələrini sual-lar verməklə və kömək əsasında müəyyənləş-dirir. | Dramda bədii təsvir və ifadə vasitələrini əsasən müəy-yənləşdirir. | Dramda bədii təsvir və ifadə vasitələrini tam əhatə etməklə müəy-yənləşdirir. |
| Dramla bağlı təqdimat və çıxışlarında sitatlar-dan, bədii təsvir və ifadə vasitələrindən istifadə etməkdə çətinlik çəkir. | Dramla bağlı təqdimat və çıxışlarında si-tatlardan, bədii təsvir və ifadə vasitələrindən qismən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitə-lərindən əsa-sən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitə-lərindən mə-qamında isti-fadə edir. |
| Müzakirələrdə dialoji nitq bacarığını nüma-yiş etdirməkdə çətin-lik çəkir. | Müzakirələrdə dialoji nitq ba-carığını qismən nümayiş etdirir. | Müzakirələrdə dialoji nitq ba-carığını əsasən nümayiş etdi-rir. | Müzakirələrdə dialoji nitq bacarığını ar-dıcıl nümayiş etdirir. |

**Evdə iş.** Əsərlə bağlı təəssüratınızı ikihissəli gündəlikdə yazın.

*Mövzu*: **Hüseyn Cavid. Ana** – 4 saat
*Üçüncü saat:* **Əsərin təhlili üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.2. Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir. | Fərqli vəziyyətlərdə nitqindən çıxış etməklə obrazı səciyyələndirir. |
| 1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. | Dramın ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən istifadə edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir. | Dramla bağlı fikirlərini müqayisə əsasında şərh edir. |
| 2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir. | Dramla bağlı müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.

**İş forması:** fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.

**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.

**İnteqrasiya:** Az.d. 1.2.2. 1.2.4.; X. d. 2.1.1. 2.1.2. 3.1.4.

**Təchizat:** dərslik, iş vərəqləri, "Ana" əsərinə çəkilmiş illüstrasiyalar, lüğətlər, şairin əsərləri.

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə həyata keçirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Müəllim motivasiyanı qarşıya qoyduğu məqsəddən, təchizat imkanından, sinfin səviyyəsindən və s. çıxış edərək müxtəlif yollarla yarada bilər. Dərslikdəki "Düşünün" başlıqlı sual əsasında yığcam müsahibə aparmaq və nəticədə tədqiqat sualının müəyyənləşdirilməsinə nail olmaq vaxta qənaət baxımından məqsədəuyğundur.

Motivasiya yaradılmasının digər variantı internetdən (YouTube) Azərbaycan Respublikasının xalq artisti Zeynəb Xanlarovanın ifasında "Ananın səsi" mahnısının dinlənilməsi ola bilər.

(http://www.portall. zp.ua/video/zeynəb-xanlarova-anann-səsi/id-wNK5buxyaIZ.html)

**Tədqiqat sualı.** "Dramda H.Cavidin insanları xeyirxahlığa, yer üzündə qan tökməməyə çağırışı öz əksini tapmışdır" fikrini doğru saymaq olarmı?

**Tədqiqatın aparılması.** Dramın təhlili ilə bağlı tədqiqat işini fərqli məzmunda və formada təşkil etmək mümkündür. Lakin bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırığa müraciət edilməsi faydalıdır.

Kiçik qruplarda iş formasını seçən müəllim "**Araşdırın. Fikirləşin. Cavab verin**" tapşırığındakı suallara yaradıcı yanaşmaqla iş vərəqlərində şagirdlərə (qruplara) təqdim edir. Qrupların işini müşahidə edən müəllim ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallarla şagirdlərə yardım edir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplar apardıqları tədqiqatın nəticələrini müxtəlif yollarla təqdim edirlər. Bu baxımdan obrazların səciyyələndirilməsi ilə bağlı cədvəllərin lövhədə çəkilməsi və orada qeydlər aparılması və ya ayrıca vərəqdə səciyyələndirmə cədvəlinin işlənilməsi, şərh edilməsi mümkündür. Təqdimat və çıxışlarda bədii təsvir və ifadə vasitələrindən, sitatlardan, mənası yeni öyrənilmiş sözlərdən necə istifadə olunduğuna diqqət yetirilir.

Ananın öz oğlunun qatilini ölümdən xilas etməsinə münasibət müzakirə zamanı birmənalı olmaya bilər. Şagirdlərin bir qismi ananın humanizmi, xeyirxahlığı təmsil etdiyini əsas götürərək onun hərəkətinə haqq qazandırdığı halda, digər qismi ananın qatilə münasibətdə səhvə yol verdiyini söyləyir, qatilin cəzalandırılmasının daha ədalətli olması fikrinə tərəfdar çıxırlar. Bu baxımdan dərsdə kiçik debatın (çarpaz müzakirənin) təşkili üçün də əlverişli imkan yaranır. Müəllim ananın hərəkətinə haqq qazandıranlarla onun hərəkətini səhv sayanlar arasında diskussiya təşkil etməklə üçüncü tərəfi – mövqeyini dəqiqləşdirməmiş şagirdləri inandırmaq vəzifəsini qarşıya qoya bilər. Üçüncü tərəf hər iki tərəfin mövqeyini, mülahizə və dəlillərini dinləyib seçimini etməlidir.

Müzakirə zamanı müəllim dialoji nitq bacarığının nümayişinə, fikirlərin sərbəst söylənilməsinə, müqayisəsinə, onlara əlavələr edilməsinə, təkliflər irəli sürülməsinə, daha dəqiq qənaətlərin yaranmasına diqqət yetirir və işə bütövlükdə istiqamət verir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müzakirə zamanı söylənilən fikirlər, mülahizələr ümumi ideya halına salınır. Görülmüş işlərin nəticəsində şagirdlərdə belə qənaət yaranır ki, əsərdə şərin, qəddarlığın humanizm, xeyirxahlıq yolu ilə aradan qaldırılacağına inam hissi öz əksini tapmışdır. Çıxarılmış nəticənin şagirdlərin fərziyyələri və tədqiqat sualı ilə müqayisə edilməsinə xüsusi diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları: Səciyyələndirmə / Şərhetmə, münasibətbildirmə / İstifadəetmə / Müqayisəli şərhetmə / Nümayişetdirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Nitqindən çıxış etməklə obrazı səciyyələndirməkdə çətinlik çəkir. | Nitqindən qismən çıxış etməklə obrazı səciyyələndirir. | Nitqindən əsasən çıxış etməklə obrazı səciyyələndirir. | Nitqindən çıxış etməklə obrazı dolğun səciyyələndirir. |
| Dramın ideya-məzmununu şərh etməkdə, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Dramın ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Dramın ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirməkdə bəzən çətinlik çəkir. | Dramın ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| Dramla bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə etməkdə çətinlik çəkir. | Dramla bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən qismən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən əsasən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən məqamında istifadə edir. |
| Dramla bağlı fikirlərini müqayisə əsasında şərh etməkdə çətinlik çəkir. | Dramla bağlı fikirlərini müqayisə əsasında qismən şərh edir. | Dramla bağlı fikirlərini əsasən müqayisə aparmaqla şərh edir. | Dramla bağlı fikirlərini müqayisə əsasında dolğun şərh edir. |
| Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə dialoji nitq bacarığını qismən nümayiş etdirir. | Müzakirələrdə dialoji nitq bacarığını əsasən nümayiş etdirir. | Müzakirələrdə dialoji nitq bacarığını ardıcıl nümayiş etdirir. |

**Evdə iş.** Dramın məzmunuilə səsləşən atalar sözlərini seçib dəftərinizə yazın.

*Mövzu*: **Hüseyn Cavid. Ana** – 4 saat
*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metafor, bədii təzad, kinayə) rolunu aydınlaşdırır. | Dramın təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. | Dramın kompozisiya, süjet xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. |

| | |
|---|---|
| 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir. | Dramla bağlı fikirlərini müqayisə əsasında şərh edir. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların seçmə yolla dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Qazanılmış biliklərin tətbiqinə, müzakirə və yaradıcı işə həsr olunan dərsi fərqli variantlarda təşkil etmək mümkündür. Variantlardan biri aşağıdakı məzmunda ola bilər.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollar seçmək mümkündür. Suallar əsasında yığcam müsahibə aparmaqla motivasiya yaratmaq və nəticədə tədqiqat sualını formalaşdırmaq olar.

**Tədqiqat sualı:** "Ana" mənzum dramı hansı ideya- bədii keyfiyyətlərinə görə bu gün də əhəmiyyətlidir?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən qeyd olunur.

**Tədqiqatın aparılması.** Dərslikdəki "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlıqlı tapşırıqlar fərqli iş formalarının tətbiqi ilə yerinə yetirilə bilər. Məsələn, ilk dörd tapşırığın kiçik qruplarda yerinə yetirilməsi məqsədəuyğundur. Həmin tapşırıqlar iş vərəqlərində (hər qrupa bir tapşırıq verilməklə) şagirdlərə (qruplara) təqdim olunur. Tədqiqatın sonunda qruplararası **məlumat mübadiləsi və müzakirə** aparılır. Şagirdlərin fəallığına, bədii təsvir vasitələrindən necə istifadə etdiklərinə diqqət yetirilir.

**Nəticə, ümumiləşdirmə** mərhələsində şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, "Ana" əsəri həm ideyasına, həm də bədii keyfiyyətlərinə görə öz dəyərini bu gün də saxlayır. Zorakılığın, terrorun ardıcıl baş verdiyi indiki dünyada humanist ideyaların təbliğinə, yayılmasına böyük ehtiyac duyulur.

“Ana” pyesi gözəl şeiriyyəti, kəskin konflikti, parlaq insan obrazları ilə zəmanəmizdə də təravətli və oxunaqlıdır.

Debatın təşkili ilə bağlı dərslikdəki 5-ci tapşırıq bütün siniflə birgə iş formasının tətbiqi ilə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları: Aydınlaşdırma / Şərhetmə, münasibətbildirmə / İstifadəetmə / Müqayisəli şərhetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dramda bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Dramda bədii təsvir və ifadə vasitələrinin rolunu qismən aydınlaşdırır. | Dramda bədii təsvir və ifadə vasitələrinin rolunu əsasən aydınlaşdırır. | Dramda bədii təsvir və ifadə vasitələrinin rolunu dolğun aydınlaşdırır. |
| Dramın kompozisiya və süjet xüsusiyyətlərini şərh etməkdə, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Dramın kompozisiya və süjet xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Dramın kompozisiya və süjet xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirməkdə bəzən çətinlik çəkir. | Dramın kompozisiya və süjet xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən istifadə etməkdə çətinlik çəkir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən qismən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən əsasən istifadə edir. | Dramla bağlı təqdimat və çıxışlarında bədii təsvir və ifadə vasitələrindən məqamında istifadə edir. |
| Dramla bağlı fikirlərini müqayisə əsasında şərh etməkdə çətinlik çəkir. | Dramla bağlı fikirlərini müqayisə əsasında qismən şərh edir. | Dramla bağlı fikirlərini əsasən müqayisə aparmaqla şərh edir. | Dramla bağlı fikirlərini müqayisə əsasında dolğun şərh edir. |

**Evdə iş.** Dramatik növün epik növlə oxşar və fərqli cəhətlərini müəyyənləşdirib Venn diaqramında qeyd edin.

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ AİD NÜMUNƏ

**M.Rzaquluzadə**

**BABƏKİN ANDI**

*(hekayədən parça)*

Ana-bala buxarı qabağında üz-üzə oturmuşdular. Ana həsrətli və mehriban baxışlarını oğlunun üzündən ayırmırdı. Elə bil ki, ondan ayrılacağından, bu qaraşın üzə, bu çatma qaşlara, bu ala gözlərə yenə həsrət qalacağından qorxurdu.

Necə də qorxmayaydı. İndi yeddi-səkkiz il idi ki, balasını doyunca görməmişdi. O, sarbana nökərçiliyə veriləndə doqquz-on yaşında bir uşaq idi. İndi on yeddi-on səkkiz yaşlı bir igid olmuşdu. Karvanla birgə şəhərləri, ölkələri qarışqarış gəzmiş, qışın şaxtasından, yayın qızmarından üzünün dərisi bərkiyib sərtləşmişdi.

Ana çoxdan bəri ürəyində bəslədiyi dadlı xəyal və arzularını oğluna bildirmək istəyirdi. Onu razı salıb yanında saxlamağı, əzab və əziyyətlərlə dolu olan ömrünün son günlərini oğlu ilə birgə keçirməyi arzu edirdi. Bu ümidlə oğluna dedi:

− Nə yaxşı oldu ki, gəldin, oğul... Gözüm yollarda qalmışdı. Deyirəm ki, daha heç yana getmə. Ac-yalavac da olsa, bu kasıb daxmamızda birtəhər dolanarıq...

Babək anasının ürəyindən keçənləri duydu. Onu boş xəyallarla yormamaq üçün sözünü yarımçıq qoyub dilləndi:

– Yox, anacan, mən burada qala bilmərəm. Elə bu “birtəhər, ac-yalavac dolanmağa” qatlaşmaq bizim evimizi yıxıb. Daha bəsdir!..

O, sanki anasına yox, minlərlə adama deyirmiş kimi, sözünə davam etdi:

– Daha bəsdir, ana... Mən İrandan, Ərəbistandan Hindistana qədər hər yeri qarış-qarış gəzmişəm. Azərbaycan torpağı hər yerdən bərəkətli, Azərbaycan oğulları hamıdan qeyrətlidir. Biz niyə “birtəhər, ac-yalavac dolanmağa” qatlaşaq? Yox, mən gedəcəyəm, ana!..

Gənc Babək özü də istəmədən bu amansız sözləri ilə ananın yaralı qəlbini qanatmışdı. Dərdli ana hıçqırıqlı bir səslə inlədi:

– Oğul, bəs mənə yazığın gəlmirmi? Məni qoyub hara gedirsən?

Babək anası ilə sərt danışdığını indi başa düşüb, yumşaq, lakin inamlı bir səslə dedi:

− Elə demə, anacan. Anasına kəm baxan oğulun gözlərinə qan damar! Mən səni sevdiyim üçün belə düşünürəm, anacan! Mən karvanda yeddi-səkkiz il çarvadarlıq etdim. Təbrizdə emalatxanalarda işlədim. Azdan-çoxdan qazancım var. Bir inək, beş-on qoyun-keçi alıb, sən deyən kimi “birtəhər” dolana bilərik. Ancaq sabah xəlifənin əmirləri, İranın naibləri onu da tutub əlimizdən alacaqlar. Bəs sonra?.. Sonra necə olsun?! Yox, anacan, yaxşı oğul gərək təkcə özünü, öz komasını düşünməsin... Bizim elimiz, yurdumuz var, anacan! Sənin də, mənim də böyük bir anamız var. – Vətən! Anacan, mən səni sevirəm, ancaq Vətənimi də sevirəm. Bil ki, ərəb işğalçıları ilə İran hakimləri Vətəndən qovulmadıqca...

Elə zaman daxmanın qapısı şiddətlə döyündü, bayırdan at kişnəmələri, it hürüşmələri eşidildi.

**Qiymətləndirmə üçün tövsiyə olunan sual və tapşırıqlar**

1. Mətnin planını tərtib edin.

______________________________________________

______________________________________________

2. Anası ilə söhbətində Babəkin xasiyyətindəki hansı cəhətlər üzə çıxır?

1) Mübarizlik 2) Xeyirxahlıq
3) Təvazökarlıq 4) Vətənpərvərlik

A) 1, 4 B) 2, 3 C) 1, 3 D) 2, 4

Aşağıdakı cümlədə hansı bədii təsvir vasitəsi işlənmişdir?

3. Gənc Babək özü də istəmədən bu amansız sözləri ilə ananın yaralı qəlbini qanatmışdı.
A) Bənzətmə B) Epitet C) Mübaliğə D) Bədii sual

4. Cümlənin ifadəli oxusunda səsdə hansı çalar duyulmalıdır?
– Oğul, bəs mənə yazığın gəlmirmi? Məni qoyub hara gedirsən?
A) Kədər, məzəmmət B) Qəzəb, sərtlik
C) Yalvarış, hiddət D) Xahiş, hədə

5. Hekayə hansı mövzuda yazılıb?
A) Ana B) Əmək C) Dostluq D) Vətən

6. Əsərdə qaldırılan başlıca problem hansıdır?
A) Vətənin azadlığı hamını düşündürməlidir?
B) Övlad-ana münasibətləri
C) Qürbətdə ömür sürməyin çətinliyi
D) Dolanışıqda çətinliyə dözmək

7. Babəkə yazıçı necə münasibət bəsləyir? Fikrinizi nümunələrlə əsaslandırın.

______________________________________________

______________________________________________

8. “Sənin də, mənim də böyük bir anamız var. – Vətən! Anacan, mən səni sevirəm, ancaq Vətənimi də sevirəm. Bil ki, ərəb işğalçıları ilə İran hakimləri Vətəndən qovulmadıqca...”

Nümunədə hansı bədii ifadə vasitəsi işlənilib?

A) Mübaliğə B) Təkrir C) Bədii sual D) Litota

9. Çərçivəyə alınmış hissənin məzmununu yığcam yazın.

____________________________________________________________

____________________________________________________________

10. Əsərdəki başlıca fikir hansıdır?

A) Ananın qədrini bilmək lazımdır.

B) Vətən azad və müstəqil olmalıdır.

C) Azərbaycan torpağı bərəkətlidir.

D) Yaxşı oğul ananın məsləhətinə qulaq asmalıdır.

## AZƏRBAYCAN RESPUBLIKASININ ÜMUMTƏHSIL MƏKTƏBLƏRI ÜÇÜN ƏDƏBIYYAT FƏNNI ÜZRƏ TƏHSIL PROQRAMI (KURIKULUMU)
## (V–XI siniflər)

*Mündəricat*

***Giriş***

***I. Ədəbiyyat təliminin məzmunu***

*1.1. Ümumi təlim nəticələri*

*1.2. Məzmun xətləri*

*1.3. Məzmun xətləri üzrə təlim nəticələri*

*1.4. Fəaliyyət xətləri*

*1.5. Məzmun standartları*

*1.6. Fəndaxili və fənlərarası inteqrasiya*

***II. Təlim strategiyaları***

*2.1. Ədəbiyyat təliminin təşkilinə verilən əsas tələblər*

*2.2. Ədəbiyyat təliminin təşkilində istidafə olunan forma və üsullar barədə*

*2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr*

*2.4. Ədəbiyyat fənninin məzmun standartlarının şərhi*

III. Şagird nailiyyətlərinin qiymətləndirilməsi.

## Giriş

**Ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri.** Ədəbiyyat fənni təhsil proqramı (kurikulumu) ümumtəhsil məktəblərində ədəbiyyat təliminin məqsəd və vəzifələrini, ayrı-ayrı təlim pillələri üzrə məzmun xətlərini və standartlarını, onların reallaşdırılması üçün fəaliyyət istiqamətlərini müəyyənləşdirən konseptual sənəddir.

Ədəbiyyat fənni təhsil proqramı (kurikulumu) hər bir şagirdin ümumi inkişafı, maraq və meyilləri nəzərə alınmaqla onun ədəbi təhsili, tərbiyəsi və inkişafı üçün optimal şərait yaradılmasını nəzərdə tutur. Bu məqsədlə sənəddə ümumi orta və tam orta təhsil pilləsində fənnin bir-biri ilə üzvi əlaqədə olan məzmun xətləri və standartları, şagird bacarıqlarının inkişaf istiqamətləri dəqiqləşdirilmişdir.

Bu sənəd təlim nəticələrini konkretləşdirməklə fəndaxili və fənlərarası inteqrasiyanı, fənnin tədrisinə verilən əsas tələbləri, təlimin təşkili formaları və üsulları barədə tövsiyələri özündə əks etdirir.

Tədris prosesinin keyfiyyətinin dəyərləndirilməsi, şagird nailiyyətinin qiymətləndirilməsi ədəbiyyat fənni kurikulumunda diqqət mərkəzində saxlanılmışdır.

Bu sənəd milli və ümumbəşəri dəyərlər, şagirdlərin fərdi xüsusiyyətləri nəzərə alınmaqla əlverişli təlim şəraitinin yaradılması, tələbyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük, inteqrativlik kimi ümumi prinsiplərə istinad edilməklə hazırlanmışdır.

Məzmun standartları müəyyənləşdirilərkən şagirdlərin idraki, informativ-kommunikativ fəaliyyət göstərməsi, onlarda düşünmə, emosional və hərəki bacarıqların formalaşdırılması əsas götürülmüşdür.

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.** Özünəməxsus inkişaf yolu keçmiş, yaşı min illərlə ölçülən Azərbaycan ədəbiyyatı dünya bədii mədəniyyət xəzinəsinə dəyərli sənət abidələri bəxş etmişdir. Humanist və demokratik ideyaları əks etdirən ədəbiyyatımızın ümumtəhsil məktəblərində tədrisi milli dövlətçilik maraqları baxımından böyük əhəmiyyət kəsb edir. Məktəb ədəbiyyat kursu həqiqi vətəndaşın və müasir dünyagörüşlü şəxsiyyətin yetişməsində mühüm rolu olan fənlərdəndir.

Qüdrətli tərbiyə vasitəsi olan bədii söz sənətimiz şagirdlərin mənəvi-

estetik tərbiyəsi, xalqın ədəbi-mədəni irsini, tarixi keçmişini, mübarizəsini, adət-ənənələrini öyrənmək üçün mötəbər mənbə, etibarlı qaynaqdır. Müasir məktəbdə müstəqil düşünməyi, qazandıqları bilikləri tətbiq etməyi, qarşılaşdıqları problemləri həll etməyi bacaran, saf mənəviyyatlı, təşəbbüskar, yaradıcı, demokratik ruhlu, humanist gənclər tərbiyə edilməsi sosial tələb kimi meydana çıxır.

Orta məktəbi bitirən hər bir gənc bədii ədəbiyyatı, digər mənbələri oxumağı, təhlil etməyi, qiymətləndirməyi, öz biliklərini müstəqil şəkildə artırmağı bacarmalı, fasiləsiz təhsilə hazır olmalıdır. Məktəb ədəbiyyat kursunda yüksək ideya-bədii dəyərə malik əsərlərin öyrədilməsi əsasında şagirdlərdə mütaliə formalaşır, onların ədəbi təhsili, tərbiyəsi və inkişafı təmin olunur.

Ədəbiyyat həyatı ümumiləşdirilmiş şəkildə, obrazlar vasitəsilə əks etdirən söz sənəti kimi şagirdlərin müstəqil həyata hazırlanmasında, həyati əhəmiyyət kəsb edən bacarıqlara yiyələnməsində mühüm rol oynayır. Bədii ədəbiyyatın "insanşünaslıq", "həyat dərsliyi" adlandırılması bu fənnin hər bir şagird – oxucu üçün özünü, həyatı, insanı dərk etmək vasitəsi kimi əhəmiyyətini ifadə edir.

Firidun bəy Köçərli yazırdı: "Hər bir millətin şöhrət və əzəmətinə, tərəqqi və səadətinə bais olan səbəblərdən birisi də onun ədəbiyyatıdır. Ədəbiyyat xalqın aineyi-həqiqətnümasıdır ki, onun maddi və mənəvi tərəqqisini və istiqbalı üçün nicat və səadət yollarını eynilə göstərir. Ədəbiyyat ...millətin cisminə şəfa, ruhuna səfa, fikrinə cila, ağlına və təmami mənəvi və ruhani qüvvələrinə qol-qanad verib uca məqama qaldırır".

Ədəbiyyatdan müxtəlif məşğələlərdə Azərbaycan ədəbiyyatının, eləcə də dünya xalqlarının ədəbiyyatından seçilmiş nümunələrin müzakirəsi şagirdlərin müasir dövrdə xüsusi aktuallıq kəsb edən mənəvi-estetik problemləri, həyatda, cəmiyyətdə baş verən dəyişiklikləri dərk edib qiymətləndirmələrinə, milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnmələrinə imkan yaradır.

Azərbaycan ədəbiyyatı əsrlərdir təlim-tərbiyə məktəbi funksiyasını yerinə yetirir. Gözünü dünyaya açan körpəni ananın oxşamaları, laylaları qarşılayır, dil açıb yeriməyə başlayanda sanamalar, düzgülər, tapmacalar, yanıltmaclar, uşaq nağılları onun nitqini, təfəkkürünü inkişaf etdirir, həyat üçün zəruri olan ilkin bacarıqlar formalaşdırır.

Ədəbi əsərlərin öyrədilməsi zamanı şagirdlərin şifahi və yazılı

nitqi tədricən cilalanır. Şagirdlər ana dilimizdə yazılmış əsərlərdə dilin gözəlliyini, dərin fikir və ifadə zənginliyini görüb-götürür. Təlim prosesində sənətkarın sözdən istifadə məharəti, nitqin bədiiliyi, ifadəliliyi, obrazlı sözün doğurduğu emosionallıq və fikir tutumu haqqında aydın təsəvvür yaradılır, bu əsasda şagirdlərin özünün nitqinin zənginləşməsi təmin edilir.

Ədəbiyyat dərslərində nitq inkişafı üzrə aparılan işlər məktəblilərdə bədii sözə həssas münasibətin yaradılmasına, sözün, fikrin məna incəliklərini duymaq, ifadə etmək bacarığının formalaşdırılmasına imkan yaradır.

Ədəbiyyatın məktəbdə öyrədilməsi zamanı bədii zövqün formalaşdırılması diqqət mərkəzində saxlanılır, şagirdlərin həyatda, insanda olan gözəlliyi duymaq, qiymətləndirmək bacarığı inkişaf etdirilir.

Ümumtəhsil məktəblərində ədəbiyyat təliminin məqsədi bədii ədəbiyyat nümunələrini, tarixi-ədəbi prosesi öyrənmək, təhlil etmək, qiymətləndirmək bacarığını formalaşdırmaqla şagirdlərin dünyagörüşünü zənginləşdirmək, mənəvi-estetik inkişafını təmin etmək, nitq mədəniyyətinə yiyələnmələrinə nail olmaqdır. Bu məqsədlə aşağıdakı vəzifələrin həyata keçirilməsi təmin edilir.

Ümumi orta təhsil səviyyəsində:

İncəsənətin bir növü kimi söz sənətinin – şifahi və yazılı ədəbiyyatın xalqın mənəvi sərvəti olması, həyatı, taleyüklü məsələləri özünəməxsus bədii vasitələrlə əks etdirməsi barədə şagirdlərdə dolğun təsəvvür yaradılır.

Milli və dünya ədəbiyyatından seçilmiş kamil sənət nümunələri vasitəsilə məktəblilərdə sözə, söz sənətinə həssas, bədii-emosional münasibət formalaşdırılır, təhlil, dəyərləndirmə, fikirlərini şifahi və yazılı çatdırmaq bacarığı inkişaf etdirilir.

Ədəbiyyat nəzəriyyəsi üzrə zəruri biliklərə və mütaliə mədəniyyətinə yiyələnən şagirdlərdə konfliktlərə, problemlərə, ədəbi nailiyyətlərə əsaslandırılmış münasibətin formalaşması təmin edilir.

Tam orta təhsil səviyyəsində:

Şagirdlərin ümumi orta təhsil səviyyəsində qazandıqları bacarıq və vərdişləri təkmilləşdirilməklə, tarixi-xronoloji ardıcıllıqla Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf yolu, ədəbi ənənə və əlaqələri,

Azərbaycan və dünya ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılığından nümunələr öyrədilir, ədəbiyyat nəzəriyyəsinə dair məlumatlar genişləndirilir, şagirdlərin ədəbi-bədii, tənqidi təfəkkürünün formalaşması təmin olunur.

Ümumtəhsil məktəblərində ədəbiyyatın təlim fənni kimi məzmununun əsasını Azərbaycan ədəbiyyatının kamil nümunələrinin, eləcə də dünya ədəbiyyatından seçmələrin oxusu və öyrənilməsi təşkil edir. Ədəbi əsərlərin qavranılması, təhlili tarixi və ədəbi-nəzəri biliklərə, bacarıqlara əsaslanmaqla həyata keçirilir.

## I ƏDƏBIYYAT TƏLIMININ MƏZMUNU

### 1.1. Ümumi təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsi (V–IX siniflər) üzrə şagird:***

– bədii nümunələri onların məzmunundan irəli gələn məna çalarlarına uyğun ifadəli oxuyur, mətni bədii-emosional cəhətdən qüvvətləndirən sözlərin mahiyyətini izah edir;

– yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir, orfoqrafiya və orfoepiya qaydalarına əməl edir, söz ehtiyatından səmərəli istifadə edir, fikirlərini ardıcıl və məntiqi ifadə edir, ümumiləşdirmələr aparır;

– bədii nümunələrlə bağlı fikirlərini aydın, ardıcıl, məqsədyönlü, yığcam, yeri gəldikcə bədii təsvir vasitələrindən istifadə etməklə şərh edir;

– müxtəlif janrlarda yazılmış mətnlər üzərində sərbəst işləyir, onlarda ifadə olunmuş əsas ideyanı şərh edir, mətni məzmununa uyğun hissələrə ayırır və müvafiq plan tərtib edir;

– şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətlərini, xarakterik xüsusiyyətlərini konkret nümunələrlə izah edir, öz fikirlərini müqayisələr aparmaqla əsaslandırır;

– bədii nümunələri məzmun və ideya istiqamətinə, sənətkarlıq cəhətlərinə, obrazların səciyyəsinə görə təhlil edir, öz şəxsi münasibətini, mülahizələrini bildirir;

– bədii nümunələrin müzakirəsi zamanı tolerantlıq, obyektivlik, ədalətlilik, əsaslandırma və ümumi rəyə gələ bilmək bacarıqları nümayiş etdirir.

***Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:***

– oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;

– ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim edir;

– mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi baxımından ədəbi nümunələr üzərində araşdırmalar aparır;
– bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə edir, əsaslandırılmış rəy bildirir;
– bədii nümunələrin məzmununa və ideyasına onun yarandığı dövrdə mövcud olan ictimai-siyasi və əxlaqi-etik dəyərlər kontekstində qiymət verir;
– ədəbi mövzulara aid tədbirlərin təşkilində iştirak edir, ədəbi nailiyyətlərə münasibət bildirir;
– mənbələr üzərində işləyir, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə materiallar toplayır, müxtəlif ədəbi mövzularda təqdimatlar hazırlayır.

**1.2. Məzmun xətləri**

Ədəbiyyat fənninin məqsədinə və gözlənilən nəticələrə uyğun olaraq hər iki pillədə məzmun xətləri aşağıdakı şəkildə müəyyənləşdirilir:

– ədəbiyyat və həyat həqiqətləri; – şifahi nitq; – yazılı nitq.

**Ümumi orta təhsil səviyyəsində məzmun xətlərinin əsaslandırılması**

**1. Ədəbiyyat və həyat həqiqətləri** məzmun xətti bədii ədəbiyyatda əksini tapan milli-bəşəri dəyərlərin, mənəvi-estetik problemlərin qavranılması, təhlili, onlara əsaslandırılmış münasibətin formalaşdırılması, mürəkkəb həyat hadisələrinin, ziddiyyətli situasiyaların dərk edilməsinə və qiymətləndirilməsinə zəmin yaradır.

Bədii həqiqətlə həyat həqiqətlərinin müqayisəsi, əlaqələrin açıqlanması söz sənətinin mahiyyətinin başa düşülməsinə, eləcə də insan həyatında, cəmiyyətdə müşahidə edilən mühüm hadisələrin dərk edilib dəyərləndirilməsinə səbəb olur.

Söz sənəti olmaqla ədəbiyyatın incəliklərinin, obrazların, bədii təsvir və ifadə vasitələrinin mənimsənilməsi müxtəlif ədəbi növdə və janrda olan əsərlərin mütaliəsinə maraq oyadır, mətnin ifadəli oxusu ilə bağlı bacarıqları inkişaf etdirir, şifahi və yazılı nitq üçün zəruri olan lüğət ehtiyatını zənginləşdirir.

**2. Şifahi nitq** məzmun xətti ədəbi nümunələrlə bağlı fikirlərin obrazlı sözlərdən, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə aydın, ardıcıl, məqsədyönlü və yığcam ifadə edilməsinə imkan yaradır.

**3. Yazılı nitq** məzmun xətti mövzu, problemlə bağlı müxtəlif mənbələrdən informasiyaların, fakt və dəlillərin seçilməsini, ümumiləşdirilməsini, fikrin

aydın, dəqiq çatdırılmasında onlardan istifadə olunmasını təmin edir. Müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) yazılara dair bacarıqların formalaşmasına imkan yaradır.

**Tam orta təhsil səviyyəsidə məzmun xətlərinin əsaslandırılması**

**1. Ədəbiyyat və həyat həqiqətləri** məzmun xətti ədəbiyyat nümunələrinin öyrənilməsi, müxtəlif informasiya mənbələrindən seçilmiş materialların mövzu, ideya, dil və üslub xüsusiyyətləri baxımından dəyərləndirilməsinə imkan yaradır, informasiyaların faktlara əsaslanmaqla tənqidi araşdırılmasını təmin edir, müxtəlif ədəbi növlərdə və janrlarda olan ədəbi əsərlərdəki problem və konfliktlərin, ictimai-siyasi həyatdakı mühüm hadisələrin ümumbəşəri və milli-mənəvi dəyərlər baxımından qiymətləndirilməsi üçün əsas olur.

**2. Şifahi nitq məzmun** xətti ədəbi əsərlərin məzmun və ideyası ilə bağlı fakt və hadisələrə əsaslandırılmış münasibət bildirilməsini, bədii-obrazlı ifadələrdən istifadə olunmasını təmin edir, müxtəlif mənbələrdən toplanmış materiallara əsaslanmaqla müzakirələrdə ədəbi nailiyyətlərə müstəqil münasibət bildirilməsinə imkan yaradır.

**3. Yazılı nitq** məzmun xətti müxtəlif üslublarda yazıların yazılmasını, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə təqdimatların hazırlanmasını təmin edir.

## 1.3. Məzmun xətləri üzrə təlim nəticələri

### Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri

### Ədəbiyyat və həyat həqiqətləri

*Şagird:*

- bədii nümunələri ideya-məzmununa uyğun ifadəli oxuyur;
- müxtəlif janrlarda yazılmış mətnləri uyğun hissələrə ayırır, müvafiq plan tərtib edir;
- şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətlərini, xarakterik xüsusiyyətlərini konkret nümunələr əsasında izah edir;
- bədii nümunələri məzmun və ideya istiqamətinə, obrazların səciyyəsinə, sənətkarlıq xüsusiyyətlərinə görə təhlil edir.

### Şifahi nitq

*Şagird:*

- nitqində düzgün tələffüz qaydalarına əməl edir, söz ehtiyatından səmərəli istifadə edir;
- bədii nümunələrlə bağlı fikirlərini aydın, ardıcıl, məqsədyönlü, yığcam, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə şərh edir;
- bədii nümunələrin kollektiv müzakirəsi zamanı fikirlərə tolerant,

obyektiv və ədalətli münasibət bildirir, ümumi rəyə gəlməyi bacarır.

**Yazılı nitq**

*Şagird:*

– yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir, orfoqrafiya qaydalarına əməl edir;
– topladığı materialları ümumiləşdirir, fikirlərini ardıcıl və məntiqi ifadə etməklə müxtəlif formalı yazılar (inşa, esse, hekayə) yazır.

**Tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri**

**Ədəbiyyat və həyat həqiqətləri**

*Şagird:*

– oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;
– bədii nümunələrin mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir və təqdim edir;
– bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə edir;
– bədii nümunələrin məzmununa və ideyasına yarandığı dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri kontekstində qiymət verir.

**Şifahi nitq**

*Şagird:*

– nitqində emosional-obrazlı ifadələrdən istifadə edir;
– bədii nümunələrin məzmun və ideyası ilə bağlı fikirlərini əsaslandırmaqla şərh edir;
– ədəbi mövzulara aid tədbirlərin təşkilində iştirak edir, ədəbi nailiyyətlərə münasibət bildirir.

**Yazılı nitq**

*Şagird:*

– müxtəlif mövzularda müvafiq üslublarda yaradıcı xarakterli yazılar yazır;
– mənbələr üzərində işləyir, topladığı materiallar əsasında görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə müxtəlif mövzularda təqdimatlar hazırlayır.

**1.4. Fəaliyyət xətləri**

Ədəbiyyat üzrə məzmun standartları müəyyənləşdirilərkən aşağıdakı fəaliyyət istiqamətləri əsas götürülmüşdür:

– problemin həlli;
– mühakimə yürütmə və əsaslandırma;
– ünsiyyət;
– tədqiqetmə;
– tətbiqetmə;
– təqdimetmə.

**1.5. Məzmun standartlari**
**V sinif**
**V sinfin sonunda şagird:**

– bədii nümunələri məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
– bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir;
– şifahi və yazılı ədəbiyyat nümunələrini janrlarına görə fərqləndirir, bədii təsvir vasitələrini müəyyənləşdirir;
– bədii nümunələrin mövzusunu, ideyasını aydınlaşdırır, baş qəhrəmanları səciyyələndirir;
– öyrəndiyi yeni sözlərdən, obrazlı ifadələrdən istifadə etməklə bədii əsərlərlə bağlı fikirlərini şərh edir, müzakirələrdə dinlədiklərinə münasibətini bildirir;
– müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini ardıcıl şərh edir.

**MƏZMUN XƏTLƏRI ÜZRƏ ƏSAS VƏ ALT STANDARTLAR**
**1. Ədəbiyyat və həyat həqiqətləri**
**Şagird:**
*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*
1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır.
1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur.
1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir.
1.1.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini (əfsanə, nağıl, təmsil, hekayə) janrlarına görə fərqləndirir.
1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir.
*1.2. Bədii nümunərin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*
1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir.
1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir.
1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır.
1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir.

**2. Şifahi nitq**
**Şagird:**
*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.
2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.
*2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.*
2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir.

**3.Yazili nitq**
**Şagird:**
*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*
3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir.
3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir.
3.1.3. 0,5-1 səhifə həcmində inşa, esse yazır.

**VI sinif**

**VI sinfin sonunda şagird:**
– bədii əsərləri obrazların xarakterinə, hadisələrin məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
– bədii əsərlərin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir;
– bədii əsərlərə janr xüsusiyyətləri baxımından münasibət bildirir, təsvir və ifadə vasitələrini müəyyənləşdirir;
– bədii əsərlərin mövzu və ideyasını aydınlaşdırır, obrazları davranış və əməllərinə görə səciyyələndirir;
– öyrəndiyi yeni söz, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə ədəbi nümunələrlə bağlı fikrini aydın ifadə edir,
– müzakirələrdə ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir;
– müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini faktlarla əsaslandırır.

## MƏZMUN XƏTLƏRI ÜZRƏ ƏSAS VƏ ALT-STANDARTLAR

### 1. Ədəbiyyat və həyat həqiqətləri

**Şagird:**
*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*
1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə izah edir.
1.1.2. Heca vəznli şeirləri, süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) ideya-məzmununa uyğun ifadəli oxuyur.
1.1.3. Süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.
1.1.4. Bədii əsərlərin (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətlərini müəyyənləşdirir.
1.1.5. Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual) müəyyənləşdirir.
*1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*
1.2.1. Bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə edir.
1.2.2. Bədii nümunələrdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir.
1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual) rolunu aydınlaşdırır.
1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir.

### 2. Şifahi nitq
**Şagird:**
*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
2.1.1. Öyrəndiyi yeni sözlərdən bədii nümunələrlə bağlı diskussiya və təqdimatlarda istifadə edir.
2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini obrazlı sözlərdən və ifadələrdən istifadə etməklə şərh edir.
*2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.*
2.2.1. Müzakirələrdə ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir.

**3. Yazili nitq**
**Şagird:**
*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*
3.1.1. Mətni faktlarla, sitatlarla zənginləşdirir.
3.1.2. Bədii nümunələrdəki başlıca fikri anladığını nümayiş etdirir.
3.1.3. 1-1,5 səhifə həcmində rəy və təsvir xarakterli mətnlər (inşa, esse) yazır.

**VII sinif**
**VII sinfin sonunda şagird:**
- bədii nümunələri ideya – məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda yığcam, geniş, yaradıcı nağıl edir, əsas hadisələrə ilkin münasibət bildirir;
- bədii nümunələrə növ və janr xüsusiyyətləri baxımından münasibət bildirir, təsvir və ifadə vasitələrini müəyyənləşdirir, obrazlılığa təsirini aydınlaşdırır;
- bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, digər obrazlarla qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə əsaslanmaqla surətləri səciyyələndirir;
- şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə fikrini əhatəli, ardıcıl ifadə edir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, əsərdəki mühüm problemə əsaslandırılmış münasibət bildirir.

**MƏZMUN XƏTLƏRI ÜZRƏ ƏSAS VƏ ALT-STANDARTLAR**
**1. Ədəbiyyat və həyat həqiqətləri**
**Şagird:**
*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*
1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (dastan, hekayə, mənzum hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.
1.1.2. Heca vəznli şeirləri, süjetli bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) ideya-məzmununa uyğun ifadəli oxuyur.
1.1.3. Süjetli bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.
1.1.4. Bədii nümunələrin (dastan, hekayə, mənzum hekayə) janr xüsusiyyətlərini müəyyənləşdirir.
1.1.5. Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və

ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota ) müəyyənləşdirir.
*1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*
1.2.1. Bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) növ və janr baxımından müqayisə edir.
1.2.2. Digər obrazlarla müqayisə etməklə və yazıçının münasibətinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.
1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota) rolunu aydınlaşdırır.
1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını və başlıca problemini şərh edir, əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq**
**Şagird:**
*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
2.1.1. Öyrəndiyi yeni sözlərdən bədii nümunələrlə bağlı müzakirələrdə və müxtəlif ünsiyyət məqamlarında istifadə edir.
2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini mətndən nümunələr gətirməklə şərh edir.
*2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.*
2.2.1. Müzakirələrdə ədalətlilik və obyektivlik nümayiş etdirir.

**3. Yazili nitq**
**Şagird:**
*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*
3.1.1. Mövzu ilə bağlı əlavə mənbələrdən topladığı materialları əlaqələndirir, yazısında istifadə edir.
3.1.2. Bədii nümunələrdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir.
3.1.3. 1,5-2 səhifə həcmində mühakimə və təsvir xarakterli mətnlər (inşa, esse) yazır.

**VIII sinif**

**VIII sinfin sonunda şagird:**

– bədii nümunələri emosional-obrazlı ifadəliliyin tələblərinə uyğun oxuyur, hissələrə ayırır, plan tərtib edir;
– bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir, baş qəhrəmanlara ilkin münasibət bildirir;
– ədəbi növ və janr xüsusiyyətlərinə, təsvir və ifadə vasitələrinə əsaslanmaqla bədii nümunələrin ideya-məzmununa münasibət bildirir;
– bədii nümunələrin mövzusunu və ideyasını aydınlaşdırır, məişət təsvirlərindən, nitqlərindən çıxış etməklə obrazlara münasibət bildirir;
– şifahi təqdimatlarda, nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə əsaslandırılmış tənqidi münasibət bildirir;
– müxtəlif səciyyəli yazılarda mövzuya, problemə şəxsi təcrübəsinə və təəssüratlarına əsaslanmaqla münasibət bildirir.

**MƏZMUN XƏTLƏRI ÜZRƏ ƏSAS VƏ ALT-STANDARTLAR**

**1.Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*

1.1.1. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə və süjetli əsərlərdə (dastan, hekayə, novella, dram poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.2. Müxtəlif vəznli (heca, əruz) şeirləri, süjetli əsərləri (dastan, hekayə, novella, dram poema) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii nümunələrin (dastan, hekayə, novella, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafora, bədii təzad, kinayə) müəyyənləşdirir.

*1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*

1.2.1. Bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) növ və janr baxımından müqayisə edir.

1.2.2. Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metafora, bədii təzad, kinayə) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir.

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir.

2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir.

**3. Yazili nitq**

**Şagird:**

*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*

3.1.1. Ədəbi nümunələrlə bağlı fikirlərini müxtəlif üslublarda yazır.

3.1.2. Əlavə məlumatlara və təəssüratlarına əsaslanmaqla mövzuya və problemə münasibət bildirir.

3.1.3. 2-2,5 səhifə həcmində mühakimə, təsvir, informasiya xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.

**IX sinif**

**IX sinfin sonunda**

**Şagird:**

– müxtəlif ədəbi vəzndə olan bədii nümunələri ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
– bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir, obrazlara ilkin münasibət bildirir;
– növünə və janrına, təsvir və ifadə vasitələrinə əsaslanmaqla ədəbi əsərləri bədii xüsusiyyətlərinə görə təhlil edir;
– bədii nümunələrin mövzusunu və ideyasını aydınlaşdırır, yazıçı mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları səciyyələndirir;
– şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir;
– müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktə fərqli mənbələrdən topladığı məlumatlara əsaslanmaqla münasibət bildirir.

**MƏZMUN XƏTLƏRI ÜZRƏ ƏSAS VƏ ALT-STANDARTLAR**

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*

1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (poema, hekayə, povest, roman, dram) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii nümunələrin (hekayə, povest, roman, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metonimiya, inversiya, simvol) müəyyənləşdirir.

*1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*

1.2.1. Bədii nümunələri (hekayə, povest, roman, dram, poema) növ və janr baxımından müqayisə edir.

1.2.2. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metonimiya, inversiya, simvol) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq**

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir.

2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

*2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.*

2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**3. Yazili nitq**
**Şagird:**
*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*
3.1.1. Yazacağı mətnin məzmununa uyğun üslub müəyyənləşdirir.
3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirir.
3.1.3. 2,5-3 səhifə həcmində mühakimə, təsvir, müqayisə xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.

**X sinif**
**X sinfin sonunda şagird:**
– ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması və təhlili məqsədi ilə istifadə edir;
– müxtəlif ədəbi növdə olan əsərlərin məzmununu qavrayır, fakt və hadisələr, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;
– əsərin mövzusunu, ideyasını, başlıca problemini, obrazlarını səciyyəsini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə ona qiymət verir;
– çoxsüjetli epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir;
– şifahi məlumatlarda, bədii əsərlə bağlı müzakirələrdə mövzu, problemin mahiyyəti barədə dinləyicilərdə aydın təsəvvür yaratmaq üçün müxtəlif mənbələrdən sitatlar seçir, bədii nümunələrdən bəhrələnir;
– müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini tutarlı dəlillərə əsaslanmaqla ifadə edir.

## MƏZMUN XƏTLƏRI ÜZRƏ ƏSAS VƏ ALT-STANDARTLAR

### 1. Ədəbiyyat və həyat həqiqətləri

**Şagird:**

*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*

1.1.1. Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşə və işlənmə məqamına görə izah edir.

1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir.

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.

1.1.4. Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafora, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir.

*1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*

1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir.

1.2.2. Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir.

1.2.3. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır, münasibət bildirir.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri baxımından təhlil edir və nəticə çıxarır.

### 2. Şifahi nitq

**Şagird:**

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir.

2.1.2. Obrazların nitqinə istinad edərək yazıçı mövqeyi ilə bağlı fikirlərini əsaslandırır.

*2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.*
2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**3. Yazılı nitq**
**Şagird:**
*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*
3.1.1. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir.
3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.
3.1.3. 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır.

**XI sinif**
**XI sinfin sonunda şagird:**
– ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədi ilə istifadə etməyi bacarır;
– müxtəlif ədəbi növdə olan mürəkkəb kompozisiyalı əsərlərin məzmununu qavrayır, mənəvi dəyərlər, fakt və hadisələrlə, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;
– əsərin mövzusunu, ideyasını, başlıca problemini və konfliktini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, estetik yanaşmalarından çıxış etməklə əsərə münasibət bildirir.
– çoxsüjetli, mürəkkəb kompozisiyalı epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir.
– şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə müxtəlif üsullardan (nağıletmə, təsvir, nümayiş) istifadə etməklə ümumiləşdirmələr aparır, nəticə çıxarır.
– müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini tutarlı dəlillərlə, məntiqi ardıcıllığı gözləməklə, ümumiləşdirmələr aparmaqla əsaslandırır.

## MƏZMUN XƏTLƏRI ÜZRƏ ƏSAS VƏ ALT-STANDARTLAR

### 1. Ədəbiyyat və həyat həqiqətləri

**Şagird:**

*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*

1.1.1. Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə ( hekayə, povest, roman, dram, komediya, faciə, poema) tanış olmayan sözlərin, ifadələrin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.

1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədi ilə istifadə edir.

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.

1.1.4. Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli və kompozisiyalı ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafora, metonimiya, sineqdoxa, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya) müəyyənləşdirir.

*1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*

1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir.

1.2.2. Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır.

1.2.3. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunə lərdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını, başlıca problemini, konfliktini dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir.

**2. Şifahi nitq**
**Şagird:**
*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir.
2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır.
*2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.*
2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir.

**3. Yazılı nitq**
**Şagird:**
*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*
3.1.1. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir.
3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.
3.1.3. 3,5- 4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.

Soltan Hüseynoğlu

**ƏDƏBİYYATIN METODİKASI:**
**laboratoriya məşğələləri**

---

D Ə R S V Ə S A İ T İ

Formatı 60x84 1/16. Səhifə sayı 176. Ofset çapı.
Fiziki çap vərəqi 11.